**İLHAM**
**ƏLİYEV**

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## İYİRMİ YEDDİNCİ KİTAB

## OKTYABR 2007 - DEKABR 2007

AZƏRNƏŞR
BAKI - 2016

# İLHAM ƏLİYEV

ÇIXIŞLAR ✸ NİTQLƏR

BƏYANATLAR ✸ MÜSAHİBƏLƏR

MƏKTUBLAR ✸ MƏRUZƏLƏR

MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI - 2016

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2016, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf-məqsədimizdir» çoxcildliyinin bu cildində Naxçıvan Muxtar Respublikasına səfəri zamanı Naxçıvan Olimpiya kompleksi ilə tanışlıq, şəhər və kənd məktəblərinin, Naxçıvan Dövlət Universiteti Konservatoriyasının açılış mərasimlərində geniş nitqi verilmişdir. Eyni zamanda, respublikamızın Qobustan, Yevlax, Dəvəçi rayonlarında böyük infrastuktur layihələrə, tikinti-abadlıq işlərinə, sosial-iqtisadi sahələrin inkişafına, aqrar sektora böyük diqqət göstərməsinə dair materiallar öz əksini tapmışdır.

Kitabda prezident İlham Əliyevin Türkiyə Respublikasına səfəri çərçivəsində Türkiyə–Yunanıstan qaz xəttinin səkilişi mərasimində iştirakı və nitqi verilmişdir. Azərbaycan prezidentinin Fransaya rəsmi səfəri, prezident Nikola Sarkozi ilə görüşü və bütün görüşlərdə əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan ilə Fransa arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurlu əməkdaşlıqdan bəhs edən materiallar verilmişdir.

Cilddə, həmçinin Prezidentin müxtəlif dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların nümayəndələri ilə görüşlərində, çıxış və nitqlərində Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun sülh yolu həll olunmasının prinsipial məsələ olduğuna aid sənədlər yer almışdır.

**ISBN 978-9952-8100-7-3**

**Ə** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07) – 2016}}$ **BBK - 32**

© Azərnəşr, 2016

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏRİ

*Naxçıvan şəhəri*

*17 oktyabr 2007-ci il*

*Oktyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri başlanmışdır.*

*Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək gül dəstəsi qoydu.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BEYNƏLXALQ FUTBOL ASSOSİASİYALARI FEDERASİYASININ PREZİDENTİ YOZEF BLATTER VƏ AVROPA FUTBOL ASSOSİASİYALARI İTTİFAQININ PREZİDENTİ MİŞEL PLATİNİ İLƏ GÖRÜŞÜ

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin binası*

*17 oktyabr 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin binasında Beynəlxalq Futbol Assosiasiyaları Federasiyasının (FİFA) prezidenti Yozef Blatteri və Avropa Futbol Assosiasiyaları İttifaqının (UEFA) prezidenti Mişel Platinini qəbul etmişdir.*

*Ölkəmizə səfərindən məmnunluğunu bildirən Yozef Blatter Azərbaycanda idmanın sürətlə inkişaf etdiyini söylədi. O, Azərbaycan dövlətinin idmanın inkişafına olan qayğısını, Milli Olimpiya Komitəsinin prezidenti və ölkənin rəhbəri kimi, İlham Əliyevin idmana böyük diqqət göstərdiyini xüsusi vurğuladı və dedi ki, Azərbaycan beynəlxalq idman aləmində mövqeyini möhkəmləndirir.*

*Prezident İlham Əliyev xoş sözlərə görə təşəkkür edərək, ölkəmizdə idmana xüsusi diqqət göstərildiyini, gələcək nəslin sağlam böyüməsi üçün idmanın böyük əhəmiyyəti olduğunu bildirdi. Dövlətimizin başçısı dedi ki, Azərbaycanda iqtisadi tərəqqinin əldə olunması idmanın inkişafına təkan verir, idmançılarımız uğurlar qazanır. Sizin Azərbaycana səfəriniz və görüşləriniz ölkəmizin idman sahəsində beynəlxalq əlaqələrinin daha da genişlənməsinə xidmət edir.*

*Prezident İlham Əliyev Yozef Blatterə dünyada futbolun inkişafındakı xidmətlərinə görə Fəxri diplom, Mişel Platiniyə «Şöhrət» ordeni təqdim etdi.*

*Yozef Blatter isə Azərbaycan prezidenti İlham Əliyevə FİFA-nın Xatirə nişanını təqdim etdi.*

*Qonaqlar bu yüksək diqqətə görə prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildirdilər.*

## ŞAHTAXTI–POLDƏŞT SƏRHƏD-KEÇİD MƏNTƏQƏSİNİN AÇILIŞ MƏRASİMİ

*Naxçıvan Muxtar Respublikası*

*17 oktyabr 2007-ci il*

*Oktyabrın 17-də Azərbaycan ilə İran arasında Şahtaxtı–Poldəşt sərhəd-keçid məntəqəsinin təntənəli açılış mərasimi olmuşdur.*

*Dövlət Sərhəd Xidmətinin rəisi, general-leytenant Elçin Quliyev mərasimdə iştirak etmək üçün gələn Ali Baş Komandan, prezident İlham Əliyevə raport verdi.*

*Məlumat verildi ki, burada İran ilə Azərbaycan arasında sərhəd-keçid məntəqəsi Araz çayı üzərində ancaq piyadalar üçün nəzərdə tutulan körpüdə yerləşirdi. Yeni körpünün istifadəyə verilməsi ilə həmin məntəqə ləğv olunacaqdır. 2003-cü ildə İranla Azərbaycan arasında Şahtaxtı–Poldəşt körpüsünün tikintisi barədə memorandum imzalanmış və 2005-ci ildə inşaat işlərinə başlanmışdır. Bu ilin avqustun 21-də İran prezidenti Mahmud Əhmədinejadın Azərbaycana səfəri zamanı uzunluğu 160 metr olan bu körpüyə beynəlxalq status verilməsi barədə sənəd imzalanmışdır. İran tərəfi bu körpü vasitəsilə Fars körfəzindən Avropaya yük daşımaq niyyətindədir.*

*İran İslam Respublikasının birinci vitse-prezidenti Pərviz Davudi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi ehtiramla qarşıladı. Azərbaycan prezidenti və İranın birinci vitse-prezidenti körpünün rəmzi açılışını bildirən lenti kəsdilər.*

**İlham Əliyev:** Mən sizin hamınızı bu əlamətdar hadisə münasibətilə təbrik edirəm. Mən dünən İranda idim, gördüm ki, Tehran şəhərində çox sürətli işlər gedir. Azərbaycanda, Bakıda da bu işlər gedir, çoxlu sayda körpülər tikilir, ancaq onlar şəhər nəqliyyatı üçündür. Bu körpü isə iki ölkəni, iki xalqı birləşdirən körpüdür, insanların gediş-gəlişini

asanlaşdıracaqdır. Təxminən iki il bundan əvvəl cənab Mahmud Əhmədinejad və mən İrandan Naxçıvana qazın verilməsini bir yerdə qeyd etdik. Qaz kəməri Arazın altından, bu körpü isə Arazın üstündən keçir. Yenə də deyirəm, bu, təkcə nəqliyyat üçün deyil, bizim ölkələrimizi, insanları birləşdirən körpüdür.

Mən dünən İrandan qayıtdım, indi isə, icazə versəniz, sərhədi bir də keçərəm.

**Pərviz Davudi** (*İranın birinci vitse-prezidenti*): Bu körpü vasitəsilə əziz və hörmətli Naxçıvan əhalisi, eyni zamanda, İranın Qərbi Azərbaycan vilayətinin əhalisi daha çox gediş-gəliş edəcək, ticarət-iqtisadi əlaqələr quracaqlar. Körpü hər iki tərəfin əhalisinin rifahının yaxşılaşmasına, onların yaşayışının daha da rövnəq olmasına kömək göstərəcəkdir.

Mən cənab İlham Əliyevi bu körpünün açılışı münasibətilə Poldəşt ərazisinə dəvət edirəm.

*Azərbaycan prezidenti İlham Əliyev Araz çayı üzərindən piyada İran sərhədini keçdi. Burada dövlətimizin başçısını Poldəşt sakinləri hərarətlə, böyük sevgi ilə qarşıladılar. Prezident İlham Əliyev onlarla səmimi görüşdü, körpünün açılışı münasibətilə təbrik etdi.*

*Dövlətimizin başçısı İran televiziyasına qısa müsahibə verdi.*

*Sonra prezident İlham Əliyev və İranın birinci vitse-prezidenti Pərviz Davudi Azərbaycan tərəfə qayıdaraq söhbət etdilər, bu tarixi hadisəni rəmzi qeyd etdilər.*

## OLİMPİYA İDMAN KOMPLEKSİ İLƏ TANIŞLIQ

*Naxçıvan şəhəri*

*17 oktyabr 2007-ci il*

*Həmin gün prezident İlham Əliyev Naxçıvan Olimpiya İdman Kompleksi ilə tanış olmuşdur.*

*Bu kompleks 2002-ci ildə tikilmiş, sonradan respublika, beynəlxalq səviyyəli yarışların keçirilməsi məqsədi ilə burada yenidənqurma və genişləndirmə işləri aparılmışdır. İndi burada olimpiya idman növləri üzrə yarışların keçirilməsi üçün hər cür şərait yaradılmışdır. İdmançıların və şəhər ictimaiyyətinin arzusu ilə bu qurğuya dövlətimizin başçısının adı verilmişdir və indi İlham Əliyev adına Olimpiya İdman Kompleksi adlanır.*

*Prezident İlham Əliyev kompleksdə yenidənqurma və genişləndirmə işlərindən məmnunluğunu bildirdi və burada mühüm yarışların keçirilməsinin zəruriliyini vurğuladı.*

## NAXÇIVAN ŞƏHƏRİNDƏKİ 14 NÖMRƏLİ ORTA MƏKTƏBİN ƏSASLI TƏMİRDƏN SONRA AÇILIŞ MƏRASİMİ

*Naxçıvan şəhəri*

*17 oktyabr 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 17-də Naxçıvan şəhərindəki 14 nömrəli orta məktəb binasının əsaslı təmirdən sonra açılışında iştirak etmişdir.*

*Buraya toplaşanlar – sakinlər, müəllimlər və məktəblilər prezident İlham Əliyevi böyük hörmət və ehtiramla qarşıladılar.*

*Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdikdən sonra bu təhsil ocağı ilə yaxından tanış oldu. Prezidentə məlumat verildi ki, 1404 şagird yerlik bu məktəb son 10 ildə muxtar respublikada əsaslı təmir olunan və yeni tikilən 130-cu təhsil ocağıdır.*

*Dördmərtəbəli binada 78 sinif otağı var və hazırda 830 şagird təhsil alır. Bu il məktəbin 76 məzunundan 34-ü müxtəlif ali məktəblərə qəbul olunmuşdur.*

*Prezident İlham Əliyev ayrı-ayrı sinif otaqlarına, laboratoriyalara, internetə qoşulmuş kompyuter siniflərinə, yeməkxanaya, kitabxanaya və idman zalına baxdı, yaradılan şəraitlə maraqlandı.*

## AKADEMİK ZƏRİFƏ ƏLİYEVA ADINA ŞAHTAXTI KƏND ORTA MƏKTƏBİ İLƏ TANIŞLIQ

*Kəngərli rayonu*

*17 oktyabr 2007-ci il*

*Oktyabrın 17-də Azərbaycan prezidenti İlham Əliyev Kəngərli rayonunun Şahtaxtı kəndində akademik Zərifə Əliyeva adına orta məktəbdə olmuşdur.*

*2005-ci ildə istifadəyə verilmiş məktəbdə şagirdlərin yüksək səviyyədə təhsil alması üçün hər cür şərait yaradılmışdır. Hazırda burada 530 şagird təhsil alır.*

*Dövlətimizin başçısı Zərifə xanım Əliyevanın büstü önünə gül dəstəsi qoydu, görkəmli oftalmoloq alimin xatirə muzeyinə baxdı, fənn kabinetləri, kompyuter sinifləri ilə tanış oldu.*

*Prezident İlham Əliyev ayrı-ayrı sinif otaqlarına baş çəkərək, şagirdlərə dərslərində uğurlar arzuladı.*

## NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ KONSERVATORİYA BİNASININ AÇILIŞ MƏRASİMİ

*Naxçıvan şəhəri*

*17 oktyabr 2007-ci il*

*Oktyabrın 17-də Naxçıvan Dövlət Universiteti Konservatoriya binasının açılış mərasimi olmuşdur. Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Mərasimə toplaşanlar dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi və bina ilə tanış oldu. Məlumat verildi ki, bina «Gəmiqaya» Məhdud Məsuliyyətli Cəmiyyət tərəfindən inşa olunmuşdur. Prezident İlham Əliyevin Naxçıvan Dövlət Universitetinin 40 illik yubileyinin qeyd olunması haqqında 2007-ci il 31 mart tarixli sərəncamına əsasən tikilmiş binada 400 tələbənin təhsil alması üçün imkan vardır. Hazırda isə burada 221 tələbə təhsil alır. Burada 240 yerlik tamaşa salonu, ayrı-ayrı ixtisaslar üzrə sinif otaqları vardır. Tələbələr 5 fakültədə 9 ixtisas üzrə təhsil alırlar. Naxçıvan Dövlət Universitetində incəsənət fakültəsi 1998-ci ildən fəaliyyət göstərir.*

*Prezident İlham Əliyev ayrı-ayrı sinif otaqları ilə, burada yaradılan şəraitlə tanış oldu.*

*Sonra tamaşa salonunda rəsmi açılış mərasimi keçirildi.*

# NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ KONSERVATORİYA BİNASININ AÇILIŞ MƏRASİMİNDƏ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

*Naxçıvan şəhəri*

*17 oktyabr 2007-ci il*

Əziz dostlar!

İlk növbədə, mən sizin hamınızı Naxçıvan Dövlət Universitetinin 40 illik yubileyi münasibətilə ürəkdən təbrik etmək istəyirəm, universitetə yeni-yeni uğurlar arzulayıram. Bu 40 il ərzində Naxçıvan Dövlət Universiteti böyük və şərəfli yol keçmişdir. Universitetin professor-müəllim heyəti öz biliklərini gənc nəslə yetirir. Gənc nəsil isə, öz növbəsində, yaxşı oxumaq, yaxşı bilik almaq hissləri ilə yaşayır. Bu, Azərbaycanda indi mövcud olan gözəl ab-havanın əlamətidir. Gənc nəsil – yeniyetmələr, tələbələr çox gözəl başa düşürlər ki, yaxşı biliyə malik olmayan insanlar, yəni tələbələr, gənclər həyatda öz yerini tuta bilməyəcəklər. Bugünkü şərait elədir və biz bütün dünyada da bunu görürük – yalnız və yalnız bilikli, savadlı kadrlar həyatda öz yerini tuturlar. Azərbaycanda da biz bunu görürük. Mən çox istəyirəm ki, Azərbaycanda çox vətənpərvər, peşəkar, bilikli, savadlı gənc nəsil yetişsin ki, ölkəmizin gələcək inkişafına öz töhfəsini versin. Bunu təmin etmək, buna nail olmaq üçün, əlbəttə ki, Azərbaycanda ali məktəblərdə tədrisin səviyyəsi yüksək olmalıdır. İndi biz bunu görürük, ali məktəblərin həm maddi-texniki bazası möhkəmlənir, həm də tədris proqramları dünya səviyyəsinə uyğunlaşır. Beləliklə, bu iki amili nəzərə alaraq, deyə bilərəm ki, Azərbaycanda təhsil sahəsində bundan sonra da böyük uğurlar əldə olunacaqdır. Bütövlükdə biz təhsil sahəsinə böyük diqqət göstəririk. Azərbay-

canın dövlət büdcəsinin xərclərində təhsilə çox böyük vəsait ayrılır. Ordu xərclərindən sonra, təhsil xərcləri ikinci yerdədir. Gələn il bu xərclər təxminən 1 milyard manat səviyyəsində olacaqdır. Bu bizə imkan verəcək ki, həm təhsilin maddi-texniki bazası möhkəmlənsin, həm də tədris proqramları ən qabaqcıl dünya səviyyəsinə uyğunlaşdırılsın. Naxçıvan Dövlət Universitetinin də bu işlərdə öz payı, öz əməyi var. Mən şadam ki, universitet çox sürətlə inkişaf edir, burada çox böyük işlər görülür. Bu gün açılışına toplaşdığımız yeni konservatoriya binası, deyə bilərəm ki, dünyanın ən yüksək standartlarına cavab verir.

Mən həmişə deyirəm ki, Azərbaycanda görülən bütün işlər, tikilən bütün binalar, istifadəyə verilən bütün müəssisələr Avropa səviyyəsində, dünya səviyyəsində olmalıdır. Bu gözəl binada gördüklərim bu səviyyədən də üstündür.

Mən Avropanın, dünyanın ali məktəblərində dəfələrlə olmuşam. Dünyanın bir neçə aparıcı ali məktəbinin Fəxri doktoruyam, müxtəlif ölkələrin ali məktəblərində mühazirələr oxumuşam və onların fəaliyyəti ilə tanışam. Deyə bilərəm ki, burada olan səviyyə, bütövlükdə Azərbaycanda son illər ərzində ali məktəblərdə görülən işlər, tikilən binalar dünyanın heç bir yerində yoxdur. Mən buna çox sevinirəm və sizi bu gözəl nailiyyətlər münasibətilə təbrik edirəm.

Universitetin xarici əlaqələri də çox genişdir. Mən bilirəm ki, universitet dünyanın aparıcı ali məktəbləri ilə çox yaxşı işgüzar əlaqələr yarada bilibdir. Burada müxtəlif ölkələrdən tələbələr oxuyur və bu da özlüyündə bir göstəricidir. Onu göstərir ki, Naxçıvan Dövlət Universitetinin nüfuzu dünyada kifayət qədər yüksək səviyyədədir. Burada görüləcək işlər, yeni fakültələrin açılması və gələcək planlar, əlbəttə, imkan verəcək ki, Naxçıvan Dövlət Universiteti nəinki regionda, hətta dünya miqyasında tanınmış ali məktəblərin birinə çevrilsin.

Bilirsiniz ki, son illər ərzində Azərbaycanda məktəb tikintisi də çox sürətlə gedir. Son 4 il ərzində 1200 yeni məktəb tikilib, yüzlərlə məktəb təmir olunubdur. Bu proses Naxçıvanda da sürətlə gedir və bu gün mən yeni məktəbin açılışında iştirak edəcəyəm. Demək istəyirəm ki, Azərbaycanda həm iqtisadi, həm siyasi, həm də humanitar sahədə görülən

bütün işlər çox təqdirəlayiqdir. Naxçıvanın sürətli inkişafı barədə bu gün Vasif Talıbovun burada dediyi rəqəmlər məni çox sevindirir. İqtisadi inkişaf, sosial məsələlərə verilən diqqət, abadlıq-quruculuq işləri, muxtar respublikada hökm sürən gözəl ab-hava, əlbəttə ki, həm Naxçıvan Muxtar Respublikasının inkişafına öz töhfəsini verir, həm də bütövlükdə Azərbaycanın inkişafına da böyük töhfədir. Azərbaycan dünyanın iqtisadi cəhətdən ən sürətlə inkişaf edən ölkəsidir. Bizim ölkəmizdə siyasi sabitlik var. Ulu öndər Heydər Əliyevin yorulmaz səyləri sayəsində 1993–2003-cü illərdə Azərbaycanda aparılan köklü islahatlar nəticəsində ölkəmiz çətin, ağır vəziyyətdən şərəflə çıxa bilmişdir və bu gün, sözün əsl mənasında, öz inkişaf dövrünü yaşayır. Biz ötən illəri yaxşı xatırlayırıq. 90-cı illərin əvvəllərində Azərbaycanın və Naxçıvanın üzləşdiyi problemlər bizim ölkəmizi, demək olar ki, uçuruma aparırdı. Məhz ümummilli liderimizin qətiyyəti, onun uzaqgörənliyi, müdrikliyi və siyasi iradəsi sayəsində ölkəmiz bu çətin anlardan şərəflə çıxa bilmişdir. İndi Azərbaycan bütün sahələrdə bir ölkə kimi, nümunə olubdur. Azərbaycanda ictimai-siyasi vəziyyət ən yüksək səviyyədədir, xalqla iqtidar arasında inam var, iqtidar tərəfindən aparılan siyasət xalq tərəfindən dəstəklənir. Azərbaycanda iqtisadi islahatlar sürətlə aparılır. Siyasi islahatlar, demokratikləşmə prosesləri sürətlə gedir. Ölkəmiz dünya birliyinə inteqrasiya edir və bu, əlbəttə ki, Azərbaycanın qarşısında yeni imkanlar, yeni üfüqlər açır. Biz istəyirik ki, dünyada mövcud olan ən müsbət təcrübəni Azərbaycanda tətbiq edək. Əlbəttə ki, Azərbaycanın xüsusiyyətlərini, bizim milli ənənələrimizi nəzərə almaq şərti ilə.

Dünyada ən qabaqcıl təcrübəni Azərbaycanda tətbiq edək, ən qabaqcıl texnologiyaları Azərbaycana gətirək. Bizim iqtisadiyyatımız şaxələndirilsin, Azərbaycanda yoxsulluq, işsizlik aradan qaldırılsın. Humanitar sahədə ən qabaqcıl nailiyyətlər Azərbaycanda da olsun. Məhz buna görə Azərbaycanda tikilən bütün müəssisələr, bütün təhsil, mədəniyyət, səhiyyə ocaqları ən yüksək səviyyəyə cavab versin. Bu gün Vasif Talıbov qeyd etdi ki, keçən il Naxçıvan şəhərində müalicə-diaqnostika mərkəzi istifadəyə verildi. Sizi əmin edə bilərəm ki, dünyada bunun analoqu yoxdur. Belə də olma-

lıdır, Azərbaycan xalqı buna layiqdir. Azərbaycan xalqı yaxşı yaşamalıdır. Sülh şəraitində yaşamalıdır, sabitlik şəraitində, rifah içində yaşamalıdır. Bunu etmək üçün bizim bütün imkanlarımız var. Ulu öndərin Azərbaycana göstərdiyi xidmətlərin sayəsində əldə edilmiş nəticələri biz bu gün davam etdiririk. Bu siyasəti davam etdiririk, əldə edilmiş nailiyyətləri artırırıq. Əlbəttə ki, həyat yerində durmur. Qarşımıza yeni çağırışlar çıxır və biz onlara hazır olmalıyıq ki, ilk növbədə ölkəmizin təhlükəsizlik məsələlərini həll edək, davamlı inkişafını təmin edək, iqtisadi inkişafını və sosial məsələlərin həllini təmin edək.

Faktlar bu istiqamətdə gördüyümüz işləri, əlbəttə ki, hər bir sözdən daha yaxşı göstərir. Son 4 il ərzində Azərbaycanın dövlət büdcəsi təxminən 10 dəfə artıbdır. O cümlədən, Naxçıvanın büdcəsi artıb və indi imkan verir ki, muxtar respublikada istənilən məsələ həllini tapsın. Yollar salınır, binalar təmir olunur, məktəblər, xəstəxanalar tikilir, digər məsələlər öz həllini tapır. Bütün bunları etmək üçün, əlbəttə ki, ilk növbədə, siyasi sabitlik və iqtisadi siyasət lazımdır. Bunların hər ikisi Azərbaycanda var və ona görə də ölkəmiz gələcəyə inamla baxır. Gələn il Azərbaycanda dövlət investisiya qoyuluşu 3 milyard manat təşkil edəcəkdir. O deməkdir ki, Azərbaycanda bütün infrastruktur layihələri həyata keçirilir. Ölkəmizin qarşısında duran bütün mühüm məsələlər öz həllini tapacaq, insanları narahat edən problemlər aradan qaldırılacaqdır. Elektrik enerjisi təminatı, qaz, su təchizatı, səhiyyənin səviyyəsi, təhsil ocaqlarının şəraiti – biz ilk növbədə bunlara böyük diqqət göstəririk. Azərbaycanda hər bir sahə üzrə düşünülmüş proqram var: iqtisadi inkişaf, sosial məsələlərin həlli, ekoloji proqram, neft-qaz sektorunun inkişafı, regional inkişaf proqramı, səhiyyə proqramı, təhsil proqramı. Elə bir sahə yoxdur ki, orada bizim proqramımız olmasın. Bunlar sadəcə olaraq, bir niyyət sənədi, şüar toplusu deyil, düşünülmüş, konkret tədbirlər planıdır. Onların icra qrafiki, mexanizmləri və maliyyə resursları var. Bütün bunlar bir yerdə olduğu halda, əlbəttə ki, istənilən məsələ öz həllini tapa bilər.

İlk növbədə, düşünülmüş siyasət, iqtisadi islahatlar, ölkəmizin dünya birliyinə inteqrasiya edilməsi prosesi və xalqla

iqtidar arasında birlik. Bu amillər olduğu halda, ölkə istənilən məsələni həll edə bilər. Başqa ölkələrin təcrübəsinə fikir versək görərik ki, bu amillər olmadığı təqdirdə ölkədə inkişaf o qədər də sürətlə getmir, bəzi hallarda isə geriləmə də müşahidə olunur.

Azərbaycan isə çox böyük sürətlə inkişaf edir, çox uğurla irəliyə addımlayır. Azərbaycanda bütün regionlarda inkişaf göz qabağındadır. Bu yaxınlarda mənə verilən məlumata görə, regional inkişaf proqramının icrası nəticəsində 2007-ci ilin oktyabr ayına qədər Azərbaycanda 610 min yeni iş yeri açılmışdır ki, bunun da 400 mindən çoxu daimi iş yerləridir. Azərbaycanda yoxsulluq aradan qaldırılır və indi yoxsul adam tapmaq o qədər də asan məsələ deyildir. Azərbaycanda işsizlik aradan qaldırılır. Vaxtilə Azərbaycanın rayonlarından başqa ölkələrə gedən insanlar artıq gəlib öz rayonlarında, ya da Bakıda işlə təmin olunub işləyirlər. Bu da çox müsbət göstəricidir. Artıq Azərbaycandan miqrasiya meyilləri, demək olar ki, yoxdur, əksinə, bizim soydaşlarımız xarici ölkələrdən qayıdırlar. Bir müddətdən sonra Azərbaycanda işçi qüvvəsi qıtlığı yarana bilər. Baxmayaraq ki, bizdə işçi qüvvəsi kifayət qədər çoxdur. Amma biz iqtisadi inkişaf perspektivlərimizi görürük, iqtisadi baxımdan dünyada analoqu olmayan sürətlə inkişaf edirik. Bu ilin 9 ayında iqtisadiyyat təxminən 30 faiz inkişaf edibdir. Keçən il iqtisadi artım 35 faiz, 2005-ci ildə 26 faiz olmuşdur.

Heydər Əliyevin neft strategiyasının icrası nəticəsində ölkəmizə növbəti illərdə böyük həcmdə valyuta axını gözlənilir. Biz artıq bunu hiss etməyə başlamışıq. Bu, əlavə imkanlar, əlavə inam yaradır.

Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparır. Bizim xarici ölkələrlə münasibətlərimiz yalnız qarşılıqlı maraqlar və qarşılıqlı hörmət əsasında qurulur. Siyasi gücündən, yaxud da ki, böyüklüyündən, ərazilərindən asılı olmayaraq, bütün ölkələrlə bərabərhüquqlu münasibətlər qura bilmişik. İlk növbədə, ona görə ki, biz, sözün əsl mənasında, müstəqil ölkə olmaq istəyirik. Digər tərəfdən, bizim iqtisadi və siyasi resurslarımız buna imkan yaradıbdır. Biz heç kimdən asılı olmayan, özümüzü tam şəkildə təmin edən ölkəyik. Ancaq dünya xəritəsinə baxsaq görərik ki, bir sıra ölkələr

belə nailiyyətlərlə öyünə bilməz. Ancaq biz, ilk növbədə, nəyin hesabına buna nail olmuşuq? Bir də qeyd etməliyik ki, Heydər Əliyevin Azərbaycan xalqına xidmətləri hesabına, onun müəyyən etdiyi yolun hesabına.

Azərbaycanda 1993-cü ildə, o ağır vəziyyətdə onun tərəfindən başlanmış neft strategiyasının icrası nəticəsində, dövlətçiliyin, azərbaycançılıq ideyasının möhkəmlənməsi nəticəsində bu gün bizim ölkəmiz dünya birliyində öz yerini tutubdur.

Azərbaycan o ölkədir ki, həm bizim bölgədə, həm Avropa qitəsində, həm də dünya miqyasında onunla hesablaşırlar. Regional əməkdaşlıq işlərində Azərbaycandan çox şey asılıdır. Yəqin ki, Azərbaycan ictimaiyyəti bizim son illər ərzində apardığımız xarici siyasətə də diqqət yetirir və görür ki, xarici siyasətimiz Azərbaycanın milli maraqlarına söykənir, bu maraqların təmin edilməsi üçün aparılır. Digər tərəfdən, bizim dünyadakı rolumuz, önəmimiz, nüfuzumuz artmaqdadır.

Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin sayı sürətlə artır. Bir neçə il bundan əvvəl Azərbaycana bəlkə də o qədər böyük əhəmiyyət verməyən ölkələr indi bizimlə işləməyə çalışır, bizi dəvət edir, bizimlə məsləhətləşirlər. Yəni bu o deməkdir ki, bizim ölkəmizin nüfuzu artır, imici artır və bu bizə əlavə imkanlar yaradır.

Biz öz siyasətimizi bundan sonra da bu prinsiplər əsasında quracağıq: birinci növbədə, Azərbaycanın milli maraqları, qonşu ölkələrlə mehriban dostluq münasibətləri, Avropa ilə, Avropa İttifaqı ilə, başqa beynəlxalq təşkilatlarla münasibətlərimizin davam etdirilməsi, Azərbaycanda vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi. Bir daha demək istəyirəm ki, bunu etmək üçün bütün imkanlar var: ilk növbədə, düşünülmüş siyasət, güclü siyasi iradə, xalqın bizim siyasətimizə dəstəyi, iqtisadi imkanlarımızın artması, siyasi çəkimizin artması və hüdudlarımızdan kənarda olan məsələlərə Azərbaycanın təsir imkanlarının artması. Bizim təşəbbüsümüz ulu öndər Heydər Əliyevin təşəbbüsüdür. Xalqımız üçün tarixi əhəmiyyət kəsb edən Bakı–Tbilisi–Ceyhan neft kəməri artıq istismardadır və bizə həm iqtisadi, həm siyasi uğurlar gətirir.

Bakı–Tbilisi–Ərzurum qaz kəməri istismardadır və Azərbaycan özünü Avropa İttifaqının enerji təchizatı üçün tərəfdaş kimi təqdim edibdir. Bizim təşəbbüsümüzlə Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisinə yaxın zamanlarda başlayacağıq. Bu da Azərbaycanı həm tranzit ölkəsinə çevirəcək, həm də ki, ölkəmizi Türkiyə ilə, Azərbaycan vasitəsilə Türkiyəni Orta Asiya ilə, Orta Asiyanı, Çini Avropa ilə birləşdirəcəkdir. Bəlkə də bunu izah etməyə ehtiyac yoxdur. Ancaq hər halda, demək istəyirəm ki, biz bütün bunlara həm düşünülmüş siyasətlə, həm də ki, artan imkanlarımızla nail ola bilirik. Siyasət düzgün ola bilər, ancaq onu icra etmək üçün imkanlar yoxdursa, o, siyasət olaraq qalacaq, boş bir şey kimi qalacaqdır. Bizim isə siyasətimiz də, əməli işlərimiz də, artan imkanlarımız da bütün bu gözəl şəraiti yaradıbdır.

Bizim iştirakımız olmadan regionda heç bir məsələ həllini tapa bilməz. Nə iqtisadi, nə nəqliyyat, nə enerji məsələsi, nə də siyasi məsələ. Bizim mövqeyimiz, məsələlərə baxışlarımız regionda, deyə bilərəm ki, aparıcı rol oynayır. Belə olan halda, əlbəttə, biz hamımız, bütün Azərbaycan xalqı gələcəyə çox böyük nikbinliklə baxırıq. Bilirik haraya gedirik, nə istəyirik, necə etməliyik, hansı əlavə tədbirlər görməliyik ki, Azərbaycan xalqının daha da yaxşı yaşaması təmin edilsin. Ölkədə hələ kifayət qədər sosial problemlər var. Biz hələ yoxsulluğu tam aradan qaldıra bilməmişik. Baxmayaraq ki, 49 faizdən 20 faizə sala bilmişik. Əminəm ki, bu ilin nəticələrinə görə daha da aşağı olacaqdır. Amma hələ ki, yoxsul təbəqə var.

Hələ ki, Azərbaycanda minimum əməkhaqqı onu alan insanın tələbatını ödəmir. Biz buna çalışmalıyıq. Minimum əməkhaqqı minimum tələbatı ödəməlidir. Son məlumata görə, Azərbaycanda orta əməkhaqqı dollarla hesablasaq, təxminən 220 dollardır. Bir neçə il bundan əvvəl hansı səviyyədə olduğunu müqayisə etsək, postsovet məkanı üçün böyük bir rəqəmdir. Amma dünya miqyasında böyük rəqəm deyildir. Biz indi çalışmalıyıq ki, dünyada ən qabaqcıl texnologiyaları tətbiq edək, eyni zamanda, həyat səviyyəsini də dünyanın aparıcı ölkələrinin səviyyəsinə qaldıraq. Bizim xalqımız yaxşı yaşamalı, zəngin olmalıdır. Hər bir insanın maddi imkanı olmalıdır. Dövlət təşkilatlarında çalışanların maaşı

yüksək olmalıdır, özəl sektorda çalışanlar üçün yaxşı şərait yaradılmalıdır ki, sahibkarlıq inkişaf etsin.

Mən saata baxıram, bir az çox danışıram. Amma mən bu əziz gündə istəyirəm öz fikirlərimi sizə bildirəm. Düzdür, mən vaxtaşırı Azərbaycan xalqına müraciətlər edirəm, çıxışlar edirəm, öz mövqeyimi bildirirəm. İstəyirəm ki, bu mövqeni Azərbaycan xalqı bilsin və bunu bilir. Mən həmişə öz fikirlərimi – həm ölkə daxilində, həm də xaricdə olanda, həm xarici siyasətlə bağlı – açıq şəkildə ifadə edirəm: nəyi planlaşdırıram, hansı məsələləri həll etmək istəyirəm.

Çünki bizim ölkəmizin gələcəyi bundan asılıdır. İnkişaf etmiş ölkələrdə hər şey qərarlaşıbdır. Bəzi hallarda heç ölkəyə kimin rəhbərlik etməsindən də çox şey asılı deyildir. Çünki güclü – həm demokratik, həm iqtisadi təsisatlar var. İnkişaf etmiş ölkələrdə sənaye istehsalı, iqtisadi inkişaf, yaxud da humanitar məsələlərin həlli, demək olar ki, heç də həmişə hökumətdən və ya dövlət başçısından asılı deyildir. Orada yaradılmış təsisatlar özləri bu vəzifəni yerinə yetirir. Amma gənc ölkələrdə, yəni, müstəqilliyini təzə əldə etmiş ölkələrdə, əlbəttə ki, çox şey dövlət siyasətindən asılıdır. Bu siyasət düzgün olmalıdır. Siyasətin düzgün olmasını təmin etmək üçün mütləq daimi məsləhətləşmələr aparılmalıdır. Mən də bu məsləhətləşmələri Azərbaycan xalqı ilə aparıram. Öz fikirlərimi bildirirəm, reaksiyanı görürəm. Bilirsiniz ki, tez-tez regionlarda oluram. Nə üçün? Həm vəziyyətlə tanış oluram, həm gedən işlərə nəzarət etmək, həm də ki, insanların bütün siyasətə münasibətini öyrənmək istəyirəm. Mən bu münasibəti hiss edirəm, görürəm. Görəndə ki, bizim işlərimiz bəyənilir, siyasətimiz dəstəklənir, bu mənə əlavə güc, əlavə ruh yüksəkliyi verir.

Zənnimcə, mən düz edirəm ki, bu məsləhətləşməni ancaq və ancaq Azərbaycan xalqı ilə edirəm. Azərbaycan xalqı müdrik xalqdır, yaxşını pisdən həmişə ayıra bilibdir. Azərbaycan xalqının mənə verdiyi bu kredit, bu mandat, bu səlahiyyət, əlbəttə ki, mənə əlavə güc verir. Bəlkə də mən sizin vaxtınızı bir az çox alıram. Amma istəyirəm ki, siz də həm ölkə haqqında, gələcək haqqında, beynəlxalq münasibətlər haqqında, həm də iqtisadi, siyasi islahatlar haqqında mənim fikirlərimi biləsiniz. Çünki bunlar çox vacibdir.

Bizim ölkəmizin gələcəyi çox parlaq ola bilər. Mən buna tam əminəm. Amma bunu təmin etmək üçün biz hamımız işləməliyik. Əldə edilmiş nəticələrlə kifayətlənməməliyik. İqtisadi uğurlar, siyasi müstəvidə aparılan çox düzgün siyasət gərək bizim başımızı gicəlləndirməsin. Biz gərək həmişə ayıq olaq, diqqətli olaq, həmişə işləyək, çalışaq. Bu, daimi prosesdir. Hansı ölkədə arxayınçılıq yaranırsa, ölkənin inkişafı da dayanır, yaxud da durğunluq dövrü başlanır. Azərbaycan dinamik şəkildə inkişaf edir. Bu inkişafda bütün cəmiyyət iştirak edir. Əlbəttə ki, siyasi məsələlərlə məşğul olanlar, iqtisadi məsələlərlə məşğul olanlar, yəni, bütün cəmiyyət bu işlərdə fəal iştirak edir. Yəni, bizim uğurlarımızın da əsas səbəbi məhz bundadır: birlik, vətəndaş həmrəyliyi, milli maraqlara, milli adət-ənənələrə bağlılığımız və eyni zamanda, müasirlik.

Yenə də qayıdıram günümüzün əsas mövzusuna, Naxçıvan Dövlət Universitetinin fəaliyyətinə. Bu müasirliyi, bu biliyi, savadı da müəllimlər verməlidir və verirlər.

Mən professor-müəllim heyətini, bütün tələbələri bu gözəl yubiley münasibətilə bir daha ürəkdən təbrik etmək istəyirəm. Çıxışımı yekunlaşdırmaq istəyirəm, Naxçıvanda hələ başqa işlərim var, proqram kifayət qədər genişdir. Sizi bir daha əmin etmək istəyirəm ki, mən ulu öndər Heydər Əliyevin siyasətinə bundan sonra da sadiq qalacağam. Bu yol haqq yoludur, biz hamımız bu yolla gedəcəyik. Sizə yeni-yeni uğurlar arzulayıram.

Mən Naxçıvan Dövlət Universitetinin əməkdaşlarını yüksək dövlət mükafatları ilə təltif etmişəm. İstəyirəm ki, mənim sərəncamım indi oxunsun və bu yüksək mükafatları təqdim edim.

## ŞƏRUR RAYON MƏRKƏZİ XƏSTƏXANASININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ

*Şərur rayonu*

*17 oktyabr 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 17-də Şərur rayonunda mərkəzi xəstəxananın təntənəli açılış mərasimində iştirak etmişdir.*

*Mərasimə toplaşan səhiyyə işçiləri, rayon sakinləri prezident İlham Əliyevi böyük ehtiramla, hərarətli alqışlarla qarşıladılar.*

*Dövlətimizin başçısı İlham Əliyev xəstəxananın açılışını bildirən lenti kəsdi və bu səhiyyə obyekti ilə tanış oldu.*

*Ümumi sahəsi 10 min kvadratmetr olan yeni səhiyyə ocağı 1972-ci ildə tikilmiş, lakin sonralar tamamilə yararsız vəziyyətə düşmüş xəstəxananın yerində inşa olunmuşdur. Tikinti işlərində 500 nəfər çalışmışdır. Xəstəxana 81 çarpayılıqdır. Burada ümumi cərrahiyyə, reanimasiya, terapiya, stomatologiya, qanköçürmə, pediatriya, rentgen şöbələri, poliklinika fəaliyyət göstərir. 80 nəfərlik müasir yeməkxana da vardır.*

*Dövlətimizin başçısı ayrı-ayrı şöbələrdə yüksək səviyyəli tibbi xidmət göstərilməsi üçün zəruri olan ən müasir xarici tibbi avadanlığa baxdı. Bildirildi ki, Şərur, Sədərək, Kəngərli rayonlarında böyrək çatışmazlığından əziyyət çəkən xəstələr də burada müalicə olunacaq, qonşu İran və Türkiyəyə, Naxçıvan şəhərinə və Bakıya getməyə ehtiyac qalmayacaqdır.*

*Sonra xəstəxananın açılışına həsr olunmuş mərasim keçirildi.*

*Mərasimi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov açdı.*

*Mərasimdə Azərbaycan prezidenti İlham Əliyev nitq söylədi.*

## ŞƏRUR RAYON MƏRKƏZİ XƏSTƏXANASININ AÇILIŞ MƏRASİMİNDƏ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

Əziz dotslar, əziz şərurlular!

Mən sizin hamınızı ürəkdən salamlayıram, bu gözəl xəstəxananın açılışı münasibətilə sizi təbrik edirəm.

Çox şadam ki, Şərurda belə gözəl səhiyyə ocağı tikilib istifadəyə verilibdir. Mən xəstəxana ilə indi tanış oldum, gördüm ki, sözün əsl mənasında, bütün dünyada mövcud olan yüksək standartlara cavab verən bir tibb ocağıdır. Burada insanlar yaxşı tibbi xidmət alacaq, müalicə olunacaq, müayinədən keçəcəklər. Burada ən gözəl, ən müasir tibbi avadanlıq quraşdırılıbdır. Bir sözlə, bu xəstəxana ən yüksək dünya standartlarına cavab verir. Bizim də məqsədimiz məhz bundan ibarətdir ki, Azərbaycanda yaradılan bütün müəssisələr, bütün infrastruktur obyektləri, sosial infrastruktur obyektləri ən yüksək səviyyədə olsun və biz buna nail oluruq.

Azərbaycanda son illər ərzində çox geniş quruculuq-abadlıq işləri aparılır. Yeni fabriklər, zavodlar, məktəblər, ali məktəblər, xəstəxanalar, poliklinikalar tikilir. Ölkəmizin bütün şəhər və rayonlarında bu inkişaf göz qabağındadır. Bunun əsas səbəbi ondan ibarətdir ki, 90-cı illərin ortalarında başlanmış və bu gün uğurla davam etdirilən iqtisadi islahatlar Azərbaycana bu şəraiti yaradıbdır. Ulu öndər Heydər Əliyevin siyasi baxışları, siyasi xətti, onun tərəfindən qəbul edilmiş qərarlar, verilmiş sərəncamlar, aparılan çox köklü iqtisadi islahatlar bu gün ölkəmizin hərtərəfli inkişafı üçün gözəl əsas yaradır. Bu möhkəm təməl üzərində biz ölkəmizi daha da inkişaf etdirir, qarşımızda duran bütün məsələləri həll edirik. İqtisadi islahatlar davam etdirilir, regional inkişaf proqramının birinci mərhələsi başa çatır və indidən, demək olar ki, nəzərdə tutulmuş əksər məsələlər artıq həll edilmişdir. Nəzərə alsaq ki, proqramın başa çat-

masına hələ bir il vaxt var, deyə bilərik ki, onun bütün əsas müddəaları həyatda öz əksini tapacaqdır. Beləliklə, Azərbaycanın regionları inkişaf edəcək, ölkəmizdə qeyri-neft sektoru inkişaf edəcək, iqtisadiyyatımız çoxşaxəli olacaq, neft-qaz amilindən asılı olmayacaq və sosial infrastruktur da yeniləşəcəkdir. Azərbaycanda son illərdə gedən bütün işləri Naxçıvanın timsalında görmək olar. Biz bunu görürük.

Naxçıvanda çox böyük quruculuq işləri aparılır. Mən hər il Naxçıvana gəlirəm, keçən ilin dekabr ayında olmuşam və bu qısa müddət ərzində burada çox böyük dəyişikliklər görürəm. Bəlkə də siz, burada yaşayanlar bunu görmürsünüz. Amma mən 10 ay bundan əvvəl burada idim və bu gün Naxçıvanda bir neçə tədbirdə iştirak etmişəm. Naxçıvan Dövlət Universitetinin yeni korpusunun açılışında, yeni məktəbin açılışında, bu yaxınlarda Şahtaxtı kəndində tikilmiş məktəbdə olmuşam. Şəhərdə gedən quruculuq-abadlıq işləri, yeniləşmə, infrastruktur layihələri – bütün bunlar məni çox sevindirir. Bütün bunlar göstərir ki, Azərbaycanın qədim torpağı olan Naxçıvan çox sürətlə inkişaf edir və naxçıvanlılar ölkəmizin hərtərəfli inkişafına öz töhfəsini verirlər.

Bu münasibətlə sizin hamınızı ürəkdən təbrik etmək istəyirəm. Mən Naxçıvanın rəhbəri Vasif Talıbovun fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. Onun fəaliyyəti nəticəsində burada da işlər görülür və o da sizə arxalanır. Öz fəaliyyəti ilə ulu öndər Heydər Əliyevin tutduğu yolu Naxçıvanda davam etdirir. Bu çox böyük nailiyyətdir.

Azərbaycanın hərtərəfli yüksəlişi elə olmalıdır ki, təkcə ölkəmizin paytaxtı yox, bütün şəhərlər, bütün rayonlar inkişaf etsin və biz bunu görürük. Xüsusilə Naxçıvanın inkişafına böyük diqqət göstərilir. Çünki uzun illər ərzində, 20 ilə yaxındır Naxçıvan blokada şəraitində yaşayır. Nəzərə alsaq ki, iqlim də çox sərtdir, bu ağır şəraitdə burada görülən işlər doğrudan da təqdirəlayiqdir. Mən hər dəfə burada yenilikləri, inkişafı görəndə çox sevinirəm. Çox şad oluram ki, Naxçıvanda işlər yaxşı gedir və muxtar respublika iqtisadi göstəricilərinə görə də qabaqcıl yerdədir. Naxçıvanda ümumi daxili məhsulun artımı bütövlükdə ölkədəki artımla eynidir, iqtisadiyyat təxminən 30 faiz artır. Əhalinin pul

gəlirləri artır, yeni iş yerləri açılır, zavodlar, fabriklər, məktəblər tikilir, xəstəxanalar tikilir.

Mənə bu gün Vasif Talıbov məlumat verdi ki, hər bir rayon mərkəzində belə  gözəl xəstəxana tikiləcəkdir. Bu onu göstərir ki, Naxçıvanın sosial infrastrukturu qısa müddət ərzində dünyanın ən yüksək standartlarına cavab verəcəkdir və biz bunu istəyirik. Biz istəyirik ki, dünyadakı ən yüksək səviyyə, ən yüksək standartlar Azərbaycanın hər bir yerində tətbiq olunsun. Hər bir kənddə, yaşayış məntəqəsində, qəsəbədə onun əhalisinin sayından asılı olmayaraq, gözəl məktəb, tibb ocağı, sosial infrastruktur, iş yerləri, yollar olsun. Bütün bunlar insanın həyatını təmin edir. Naxçıvanın bütövlükdə infrastruktur layihələri də çox böyük əhəmiyyət kəsb edir.

Bu gün biz Şahtaxtıda yeni körpünün açılışında iştirak etmişik. O körpünün də çox böyük əhəmiyyəti var, insanların gəliş-gedişini asanlaşdıracaqdır. Bir müddət bundan əvvəl Naxçıvanda tikilmiş yeni modul tipli elektrik stansiyası, demək olar, respublikanın elektrik enerjisinə olan tələbatını nəinki ödəyir, hətta əlavə imkanlar yaradır ki, gələcəkdə Naxçıvan elektrik enerjisini ixrac edə bilsin. Görün biz nəyə nail olmuşuq. Vaxtilə qaranlıqda yaşayan Naxçıvan elektrik enerjisini ixrac edə biləcək, biz buna nail olacağıq.

İrandan çəkilən qaz kəməri Naxçıvanın qazlaşdırılmasını da sürətləndirir. Vaxtilə, 1970–80-ci illərdə ulu öndər Heydər Əliyev tərəfindən Azərbaycanın, təxminən hər bir rayonu qazlaşdırılmışdı. Amma sonra Naxçıvana qazın verilməsi kəsilmişdi və 13 ildən sonra  biz bunu bərpa edə bildik. İndi biz İranla mübadilə yolu ilə Naxçıvanı qazla təmin edirik. Eyni zamanda, Azərbaycan tərəfindən Astarada böyük qaz-kompressor stansiyası tikilibdir ki, biz İrana eyni həcmdə qaz nəql edək. Beləliklə, artıq Naxçıvanın əhalisinin böyük hissəsi təbii qaz alır. Ancaq bu hələ birinci mərhələdir. Biz qazlaşdırmanın birinci mərhələsini başa vurduq, indi ikinci mərhələnin icrası davam etdirilir. Bu yaxınlarda əlavə vəsait də ayrılacaq və vaxtilə, 1970–80-ci illərdə qazlaşdırılmış bütün məntəqələrə təbii qaz veriləcəkdir. Amma hələ bu da son məqsəd deyildir. Bizim istəyimiz ondan ibarətdir ki, vaxtilə qazlaşdırılmamış məntəqələrin də qaz təminatını

təşkil edək. Bu, işin üçüncü mərhələsidir və mən əminəm ki, biz buna da nail olacağıq.

Beləliklə, insanların rahat yaşaması, yeni müasir infrastrukturun yaradılması, səhiyyə, təhsil ocaqlarının tikintisi, yeni zavod və fabriklərin işə düşməsi Naxçıvanın potensialını möhkəmləndirir. Naxçıvanın büdcəsi ildən-ilə, təxminən Azərbaycanın büdcəsinin artım dinamikası ilə bərabər səviyyədə artır. Sosial Müdafiə fondunun ayrılmaları ilə birlikdə gələn il Naxçıvanın büdcəsi təxminən 280 milyon manat olacaqdır. Bu çox böyük göstəricidir, çox böyük nailiyyətdir. Bir neçə il bundan əvvəl Naxçıvanın büdcəsi cəmi 70 milyon manat idi. Yəni bu, əlavə imkanlar yaradır. Gözəl xəstəxanalar, gözəl binalar tikilir. Bir sözlə, Naxçıvanın uğurlu inkişafı Azərbaycanın uğurlu inkişafı deməkdir. Bizim müstəqilliyimizin möhkəmləndirilməsi deməkdir.

Burada gedən işlər məni çox sevindirir. Mən əminəm ki, bu gözəl ənənələr gələcək illərdə də davam etdiriləcək və Naxçıvan Muxtar Respublikası həm iqtisadi inkişaf sürətinə görə, həm də infrastruktur layihələrinin səviyyəsinə görə nəinki bu regionda, hətta dünya miqyasında qabaqcıl yerlərdə olacaqdır.

Mən sizi əmin edə bilərəm ki, belə gözəl xəstəxanalar inkişaf etmiş ölkələrin böyük şəhərlərində də tikilmir. Belə gözəl məktəblər, hansı ki, biz bu gün Naxçıvanda onun açılışını etdik, heç bir ölkədə tikilmir. Mən bunları bilən adam kimi sizə deyirəm. Naxçıvan Dövlət Universitetinin yeni binası mənim dünyada olduğum, gördüyüm bütün ali məktəblərdən üstündür. Bu, real həqiqətdir. Bir daha onu göstərir ki, bizim siyasətimiz öz nəticələrini verir.

Mən deyəndə ki, hər bir sahədə yüksək səviyyə olmalıdır, biz indi bunu həyatda icra edirik, həyatda bunu görürük və bu, insanların yaxşı yaşamasına xidmət edir. Burada müalicə olunacaq insanlar yaxşı, yüksək tibbi xidmət alacaqlar. Burada süni böyrək cihazları quraşdırılıbdır. Böyrək çatışmazlığından əziyyət çəkən insanlar vaxtilə qanı təmizləmək üçün Naxçıvandan ya İrana, ya Türkiyəyə, yaxud da Bakıya gedirdilər. Naxçıvan Müalicə-Diaqnostika Mərkəzinin istifadəyə verilməsindən sonra orada müalicə olunurlar. İndi bu

aparatlar, cihazlar burada, Şərurda da quraşdırılıbdır. Şərurda olan xəstələr heç Naxçıvana da getməyəcəklər, burada müalicə alacaqlar. Biz bunu nə üçün edirik? Onun üçün edirik ki, xəstələr yaxşı tibbi xidmət alsınlar. Xəstə adam onsuz da xəstəliyindən əziyyət çəkir, biz ona əlavə əziyyət verməməliyik. Yol xərci, yolda çəkdiyi əziyyət onun xəstəliyini daha da dərinləşdirir, ona mənəvi sarsıntılar gətirir. Xəstə insan gərək qayğı ilə əhatə olunsun. Ona görə biz çalışırıq ki, bütün müasir avadanlıq, texnologiya, binalar yüksək səviyyədə olsun. Ancaq həkimlərdən də çox şey asılıdır. Mən ümid edirəm ki, bizim həkimlərimiz də öz peşəkarlıqlarını artıracaqlar, dünyada gedən yenilikləri öyrənəcəklər və yaxşı təcrübə toplayıb xəstələrə tibbi xidmət göstərəcəklər.

Mən həkimlərin işini çox yüksək qiymətləndirirəm. Bu çox ağır, eyni zamanda, çox xeyirxah peşədir. Biz çalışırıq ki, həkimlərin sosial problemlərinin həlli üçün də əlimizdən gələni edək. Səhiyyə mərkəzlərinə ayrılan büdcə vəsaiti ildən-ilə artırılır, gələn il də artırılacaqdır. Bu vəsaitlə yeni xəstəxanalar tikilir və bu vəsaitdən istifadə edib biz gələn il də həkimlərin əməkhaqlarını qaldıracağıq. Biz bunu etməklə həkimlərin həyat şəraitini yaxşılaşdırmalıyıq. Onların gördüyü işlərə, fədakarlığına öz münasibətimizi bildirməliyik.

Bir sözlə, Azərbaycanda və Naxçıvanda həm iqtisadi inkişaf, həm sosial məsələlərin həlli, həm də gözəl ictimai-siyasi vəziyyət mövcuddur. Bu bizim uğurlarımızın təməl prinsipləridir. Məhz bu möhkəm təməl əsasında biz irəliyə gedirik. Bu möhkəm təməl əsasında Azərbaycan bölgədə öz mövqelərini möhkəmləndirir. Azərbaycan müasir ölkəyə, dünya üçün çox əhəmiyyəti ölkəyə çevrilir.

Biz hamımız müstəqilliyimizin ilk illərini xatırlayırıq və siz də yaxşı xatırlayırsınız ki, Azərbaycan xalqı hansı böyük çətinliklərlə üzləşmişdi. O cümlədən Naxçıvan. O vaxt, 90-cı illərin əvvəllərində Bakıda rəhbərlikdə olan qüvvələrin antinaxçıvan siyasətini biz yaxşı xatırlayırıq. Onlar nəinki Naxçıvana kömək etmir, hətta Naxçıvanı da işğala məruz qoymağa hazır idilər. Nəyə görə?! Çünki Naxçıvana o vaxt Heydər Əliyev kimi dahi şəxsiyyət rəhbərlik edirdi. Əlbəttə,

onun xalq arasında olan nüfuzu, onun biliyi Bakıda oturanları çox narahat edirdi. Ona görə nəinki Naxçıvana kömək etmirdilər, hətta bütün səylərini Naxçıvanı boğmağa yönəltmişdilər. Bir tərəfdən, ermənilər, erməni qəsbkarları Naxçıvana hücum edirdilər. Digər tərəfdən, Azərbaycan rəhbərliyində oturan xainlər, milli satqınlar istəyirdilər ki, Naxçıvanı Azərbaycandan tamamilə ayırsınlar. Amma naxçıvanlılar öz liderləri ətrafında, Heydər Əliyevin ətrafında birləşmişdilər. Naxçıvanlılar ermənilərə tutarlı cavab verdilər, onları yerində oturtdular, öz torpaqlarını müdafiə etdilər. Azərbaycanın ərazi bütövlüyünü Azərbaycanın bu hissəsində müdafiə etdilər və öz lideri ətrafında birləşərək o vaxt Naxçıvanı faktiki olaraq blokadadan çıxara bildilər. Məhz o illərdə, Heydər Əliyev burada rəhbərlikdə olduğu dövrdə Naxçıvanı Türkiyə ilə birləşdirən «Ümid» körpüsü tikilmişdi. O vaxt Sədərəkdə böyük mərasim keçirilmişdi. O körpü elə bil ki, Naxçıvan üçün bir nəfəs borusu idi. Ancaq o birinci mərhələ idi. Yenə də çətinliklər var idi.

Ondan sonrakı illərdə Azərbaycanda Heydər Əliyev siyasəti başlayanda Heydər Əliyevin rəhbərliyi altında aparılan bütün işlər Azərbaycanı çətin vəziyyətdən çıxardı. Biz nəinki o böhranın acı nəticələrini aradan qaldırdıq, o tənəzzülün qarşısını aldıq, biz həm də dirçəldik, Azərbaycan özünə gəldi və Heydər Əliyevin rəhbərliyi ilə ölkə inkişaf etməyə başladı. 1996-cı ildən başlayaraq 2004-cü ilə qədər iqtisadiyyat hər il orta hesabla on faiz artırdı. Bu bizə imkan verdi ki, güclənək, maliyyə resurslarımızı işə salaq, Heydər Əliyevin neft strategiyasından əldə olunan vəsaitdən səmərəli istifadə edib, onu Azərbaycan xalqının inkişafına yönəldək.

2004-cü ildən sonra isə iqtisadiyyat daha da yüksək sürətlə inkişaf etməyə başladı: 2005-ci ildə 26 faiz, 2006-cı ildə 35 faiz, 2007-ci ilin doqquz ayında təxminən 30 faiz. Heç bir başqa ölkədə belə göstəricilər yoxdur. Bu, təkcə statistik rəqəmlər deyil, biz bunu hər gün həyatda görürük. Bax, bu gözəl xəstəxanalarda görürük, tikilən məktəblərdə, salınan yollarda, tikilən elektrik stansiyalarında, qaz xətlərində, su kəmərlərində, mədəniyyət ocaqlarında, Azərbaycanın inkişafında görürük.

Mən əminəm ki, Azərbaycan bundan sonra da uğurla inkişaf edəcəkdir. Bizim qarşımızda üfüqlər açıqdır. Necə ki Naxçıvanın səması həmişə açıq-aydın olur – burada heç vaxt nə tüstü, nə buludlar olur, Naxçıvanın səması həmişə çox təbii rəngdə, çox açıq olur – eləcə də Azərbaycanın gələcəyi açıqdır, aydındır və biz bu gələcəyə doğru gedirik. Mən bu yolda sizin hamınıza uğurlar arzulayıram.

Sağ olun.

* * *

*Azərbaycan prezidenti İlham Əliyevin oktyabrın 17-də Naxçıvan Muxtar Respublikasına səfəri başa çatdı.*

*Naxçıvan Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov, ictimaiyyətin nümayəndələri yola saldılar.*

* * *

*Dövlətimizin başçısı həmin gün axşam Bakıya qayıtdı.*

*Azərbaycan prezidentini Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

**ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VATSLAV KLAUSA**

Hörmətli cənab Prezident!

Milli bayramınız münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Çexiya arasında yaranmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Çexiya xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 oktyabr 2007-ci il*

**TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QURBANQULU BERDİMÜHƏMMƏDOVA**

Hörmətli Qurbanqulu Məlikquliyeviç!

Türkmənistanın milli bayramı – Müstəqillik günü münasibətilə Azərbaycan xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimizi qəbul edin.

Çoxəsrlik dostluq, mehriban qonşuluq və qarşılıqlı dəstək ənənələrinə əsaslanan dövlətlərarası münasibətlərimiz indi yeni məzmun kəsb edir. İnanıram ki, qarşılıqlı surətdə faydalı ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi naminə birgə səylərimiz bundan sonra da xalqlarımızın mənafelərinə, regionda sabitliyə, təhlükəsizliyə və tərəqqiyə xidmət edəcəkdir.

Hörmətli Qurbanqulu Məlikquliyeviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, dost Türkmənistan xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 oktyabr 2007-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TACİKİSTANIN MƏDƏNİYYƏT NAZİRİ MİRZOŞOXRUX ASROROVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*18 oktyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Prezident sarayında Tacikistanın Mədəniyyət naziri Mirzoşoxrux Asrorovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı bu yaxınlarda Tacikistana səfərini məmnunluqla xatırlatdı. Azərbaycan və Tacikistan prezidentlərinin qarşılıqlı səfərlər zamanı mədəniyyət günlərinin keçirilməsi barədə razılığa gəldiklərini deyən prezident İlham Əliyev ölkəmizdə Tacikistanın mədəniyyət günlərinin başlanmasının iki ölkə arasında əlaqələrin daha da inkişaf etdirilməsi baxımından böyük əhəmiyyət kəsb etdiyini bildirdi.*

*Mirzoşoxrux Asrorov ölkəmizə səfəri çərçivəsində iki ölkə rəhbərinin irəli sürdükləri təşəbbüslərin və əldə etdikləri razılıqların həyata keçirilməsi barədə Azərbaycanın Mədəniyyət və Turizm naziri ilə müzakirələr apardığını bildirdi. O, Azərbaycanda Tacikistanın mədəniyyət günlərinin təşkilinin ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsinə xidmət etdiyini vurğuladı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*18 oktyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Prezident sarayında Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın hazırkı səviyyəsinə və gələcək perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ATƏT-in BAŞ KATİBİ MARK PERRİN DE BRİŞAMBON İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*19 oktyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Prezident sarayında ATƏT-in Baş katibi Mark Perrin de Brişambonu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə ATƏT arasında əməkdaşlığın müxtəlif sahələrinə dair fikir mübadiləsi aparılmışdır.*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ**

Hörmətli cənab Prezident!

Kəraçi şəhərində törədilmiş amansız terror aktı nəticəsində çoxsaylı insan tələfatı barədə xəbər məni son dərəcə kədərləndirdi.

Biz terrorizmin və ekstremizmin hər cür təzahürünü qətiyyətlə pisləyir, belə dəhşətli cinayət əməllərinə qarşı mübarizədə bütün səylərin birləşdirilməsini zəruri hesab edirik.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 oktyabr 2007-ci il*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ NAZİRLƏR KABİNETİNİN 2007-ci İLİN DOQQUZ AYINDA SOSİAL-İQTİSADİ İNKİŞAFIN YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASI*

*Prezident sarayı*

*22 oktyabr 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyevin sədrliyi ilə oktyabrın 22-də Prezident sarayında Nazirlər Kabinetinin 2007-ci ilin doqquz ayında sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir. Dövlətimizin başçısı iclası giriş nitqi ilə açdı:*

– 2007-ci ildə ölkənin inkişafında müsbət dinamika yenə də özünü göstərir. Bu onu göstərir ki, Azərbaycanda aparılan iqtisadi islahatlar çox uğurludur. Bu gün biz 9 ayın yekunlarını müzakirə edəcəyik. Həm görülmüş işlər haqqında söhbət açacağıq, eyni zamanda, gələcəkdə görüləcək işlər barədə fikir mübadiləsi aparılacaqdır. Biz bu iclasları mütəmadi qaydada keçiririk. Nazirlər Kabinetinin toplantıları ildə dörd dəfə keçirilir və hər rübdə əldə edilmiş uğurlar, çatışmayan cəhətlər, ən önəmlisi isə gələcək perspektivlər müzakirə olunur.

Bütövlükdə Azərbaycanda iqtisadi artım yüksək sürətlə davam edir. Bu ilin 9 ayında iqtisadi artım 27 faiz, sənaye istehsalının artımı da 27 faiz olmuşdur. Bizi narahat edən

---

* İclasda Vergilər naziri Fazil Məmmədov, Nəqliyyat naziri Ziya Məmmədov, Sənaye və Energetika naziri Natiq Əliyev və Ekologiya və Təbii Sərvətlər naziri Hüseynqulu Bağırov çıxış etdilər.

inflyasiya təxminən 16 faiz səviyyəsindədir. Ərzaq məhsullarının bahalaşması isə 15 faiz həddindədir. Əlbəttə, bu bizi çox narahat edir və çalışacağıq ki, inflyasiyanın səviyyəsini maksimum dərəcədə aşağı salaq. Amma bildiyiniz kimi, inflyasiyaya təkan verən kifayət qədər çox obyektiv səbəblər var: dünyada neftin qiymətinin artması, eyni zamanda, Azərbaycana idxal edilən məhsulların, malların bahalaşması. Əgər MDB məkanına nəzər salsaq görərik ki, o ölkələrdə də inflyasiya çox yüksək sürətlə davam edir. Hətta bəzi ölkələrdə son bir neçə ay ərzində ərzaq məhsulları 40–50 faiz bahalaşıbdır. Əlbəttə, bu o demək deyil ki, biz də bu vəziyyətlə barışaq. Ancaq bu obyektiv səbəblər var və əlbəttə ki, ölkədə gedən bahalaşmaya öz mənfi təsirini göstərir. Bununla bərabər, subyektiv səbəblər var və biz də bunları aradan qaldırmağa çalışmalıyıq, bunu etməliyik. Xüsusilə inhisarçılıq, qeyri-sağlam rəqabət və onun nəticəsi olan qiymətlərin bahalaşması.

Ancaq inflyasiya ilə bərabər, onu da bilməliyik ki, əhalinin pul gəlirləri 9 ayda təxminən 40 faiz artıbdır, dəqiq desək, 38 faiz təşkil edir. Beləliklə, insanların, əhalinin real gəlirlərinin artımı bu müddət ərzində 22 faiz təşkil edir. Bu çox böyük göstəricidir. Əlbəttə ki, bu, Azərbaycan xalqının rifah halının yaxşılaşdırılmasının əlamətidir. Bu onu göstərir ki, aparılan iqtisadi islahatlar öz bəhrələrini verməkdədir. Azərbaycanda həyat səviyyəsi qalxır, yoxsulların, işsizlərin sayı azalır və beləliklə, bu, ölkəmizin hərtərəfli inkişafı üçün gözəl şərait yaradır. Bu müddət ərzində valyuta ehtiyatlarımız da artıbdır. Bu gün bütün mənbələrdə Azərbaycanın valyuta ehtiyatları 6,3 milyard dollar səviyyəsindədir. Bu çox böyük məbləğdir və bizə imkan yaradır ki, öz iqtisadi islahatlarımızı daha da cəsarətlə aparaq. İmkan yaradır ki, dünyada baş verə biləcək hər hansı xoşagəlməz hadisə, yaxud da iqtisadi böhran Azərbaycana öz təsirini göstərməsin. Biz də bunun şahidiyik. Görürük ki, bəzi ölkələrin maliyyə bazarlarında müxtəlif səbəblərə görə baş vermiş böhranlı hadisələr Azərbaycana təsir etmir. Bunun müxtəlif səbəbləri var, o cümlədən, bizim güclü maliyyə resurslarımız.

Onu da bilirik ki, gələcək illərdə bu resurslar daha da artacaqdır. Azərbaycanda Heydər Əliyevin neft strategiyasının uğurla icrası nəticəsində növbəti illərdə böyük valyuta axını gözlənilir və əlbəttə, bu bizim iqtisadiyyatımızı, bütövlükdə ölkəmizi əhəmiyyətli dərəcədə möhkəmləndirəcək amildir. Bu müddət ərzində görülmüş işlər, aparılmış təhlillər, iqtisadi islahatlar nəticəsində bizim maddi imkanlarımız da artmaqdadır.

Artıq 2008-ci ilin dövlət büdcəsi müzakirə olunur və ildənilə büdcənin həcmi artır. 2008-ci il də istisna olmayacaqdır. 2008-ci ildə dövlət büdcəmizin xərcləri 10 milyard dollar təşkil edəcək, icmal büdcə isə 12 milyard dollar olacaqdır. Bu çox böyük nailiyyətdir, çox böyük rəqəmdir. Nəzərə alsaq ki, 2003-cü ildə dövlət büdcəmiz təxminən 1,5 milyard dollar idi, bu onu göstərir ki, ötən illər ərzində büdcəmiz təxminən 10 dəfə artıbdır. Yəqin dünyada ikinci belə bir dövlət tapmaq mümkün deyil ki, onun dövlət büdcəsi 4 il ərzində təxminən 10 dəfə artsın. Bu, əlbəttə ki, uğurlu neft strategiyamızın nəticəsidir. Bununla bərabər, Azərbaycanda aparılan iqtisadi islahatların, güclənən maliyyə intizamının nəticəsidir. Bütövlükdə iqtisadi inkişafın əlamətidir.

Azərbaycanda makroiqtisadi göstəricilər ən yüksək səviyyədədir və dünyada bunun analoqu yoxdur. Eyni zamanda, büdcə xərcləri də çox böyük dərəcədə artır. Əlbəttə, bu bizə əlavə imkanlar yaradır, imkan verir ki, Azərbaycanda istənilən iqtisadi layihə, istənilən infrastruktur layihəsi öz həllini tapsın. Biz bunu edirik. İndi biz xarici maliyyə qurumlarından asılı deyilik. Düzdür, biz beynəlxalq maliyyə qurumlarının imkanlarından bundan sonra da istifadə edəcəyik. Çünki bu bizə əlavə imkanlar yaradır. Ancaq lap fərz etsək ki, xarici kreditlərdən imtina edirik, yenə də Azərbaycan bundan zərər çəkməyəcəkdir.

Gələn il təkcə dövlət büdcəsi çərçivəsində qoyulacaq investisiyaların həcmi 3 milyard dollardan çoxdur. Yəni ki, biz istənilən sənaye, iqtisadi, infrastruktur layihəsini uğurla icra edə bilərik və bunu edirik. Hələ ki, ölkəmizin ehtiyacları çoxdur, çox işlər görmək lazımdır. Bütün infrastruktur yeniləşməli, ən müasir səviyyəyə çatdırılmalıdır. Azərbaycanda

sosial məsələlər öz həllini daha da sürətlə tapmalıdır. Baxmayaraq ki, bu illər ərzində sosial sahədə çox böyük işlər görülüb, biz sosial məsələlərə həmişə diqqət göstərməliyik. 2008-ci ilin büdcəsi də həm sosial, həm də investisiyayönümlü büdcədir.

Sosial məsələlərin həlli üçün də böyük addımlar atılır. Deyə bilərəm ki, Azərbaycanda artıq orta əməkhaqqı 230 dollar səviyyəsindədir. Bu, MDB məkanında çox böyük göstəricidir. Orta pensiya təxminən 70 dollar səviyyəsindədir. Düzdür, bu bizi qane edə bilməz. Ancaq müsbət dinamika onu göstərir ki, biz pensiyaların həcmini ildən-ilə artıracağıq və orta əməkhaqqına nisbətdə pensiyanın səviyyəsi kifayət qədər yüksəkdir. Əgər MDB məkanında olan başqa ölkələrin statistikasını götürsək görərik ki, bu ölkələrdə orta pensiya orta əməkhaqqının təxminən 15, 16, 20 faizini təşkil edir. Azərbaycanda isə bu, 30 faizə yaxındır, bəlkə də çoxdur. Yəni, bu onu göstərir ki, Azərbaycanda sosial məsələlər həmişə diqqət mərkəzindədir. Biz gələcək fəaliyyətimizdə də bunu əsas götürərək, sosial məsələlərin həllində fəal işləyəcəyik.

Artıq 294 min insana ünvanlı sosial yardım verilir. Hər ailəyə ayda 80 manat, təxminən 100 dollar ünvanlı sosial yardım verilir. Bu, insanlara bizim həm dəstəyimiz, yardımımızdır, həm də cəmiyyətdə sosial ədalət prinsiplərinin bərqərar olunmasıdır. Hələ ki, Azərbaycanda yoxsulluq şəraitində yaşayanlar var. Düzdür, bu rəqəm ildən-ilə aşağı düşür. Əminəm ki, 2008-ci ilin yekunlarına görə daha da aşağı düşəcəkdir. Ancaq hələ ki, belə adamlar var və dövlət onlara öz köməyini etməlidir. Xüsusilə nəzərə alsaq ki, indi bizim iqtisadi imkanlarımız da buna şərait yaradır. Vaxt var idi ki, Azərbaycanın maliyyə resursları çox məhdud idi və ünvanlı sosial yardım proqramını icra etmək üçün vəsait yox idi. İndi bu vəsait var və biz bundan səmərəli istifadə edərək, çətin şəraitdə yaşayan soydaşlarımızın həyat səviyyəsini yaxşılaşdırmaq üçün əlimizdən gələni edəcəyik. Beləliklə, Azərbaycanda növbəti illərdə də sosial məsələlərin həlli prioritet məsələlər olacaq və eyni zamanda, infrastruktur layihələri, müxtəlif sənaye layihələri həyata keçirilməlidir.

Regionlarda da işlər yaxşı gedir. Regional inkişaf proqramı uğurla icra edilir. Biz dörd ildir ki, proqramın icrası ilə məşğuluq. Bu müddət ərzində Azərbaycanın regionlarında çox böyük işlər görülübdür. Sahibkarlar sinfi güclənir, yeni zavodlar, fabriklər açılır, infrastruktur layihələri həyata keçirilir, elektrik stansiyaları tikilir, su, qaz kəmərləri çəkilir, yəni, insanların həyatını təmin edən bütün məsələlər həll olunur.

İqtisadi islahatlar, regional inkişaf proqramının icrası nəticəsində son dörd il ərzində Azərbaycanda 610 min yeni iş yeri açılıb ki, bunun da 430 mini daimi iş yerləridir. Beləliklə, 2003-cü ildə verilən sözlər artıq bu gün öz təsdiqini tapıbdır. Əminəm ki, həm bu vaxta qədər görülmüş tədbirlər nəticəsində, həm də verilmiş kreditlər nəticəsində yaradılmış çox gözəl biznes mühiti hesabına gələn bir il ərzində Azərbaycanda iş yerlərinin açılması prosesi daha da sürətlə gedəcək və qarşıda qoyduğumuz məqsəd, yəni, işsizliyin aradan qaldırılması məsələsi öz həllini tapacaqdır.

Müxtəlif sahələr üzrə dövlət proqramları həyata keçirilir. Bu proqramlar, demək olar ki, həyatımızın bütün sahələrini əhatə edir. Təhsil sahəsində 1200 məktəbin tikintisi və ali məktəblərdə aparılan islahatlar, səhiyyə sahəsində onlarca xəstəxanaların tikintisi və onların ən yüksək səviyyəyə qaldırılması, tibbi xidmətin yaxşılaşdırılması, yeni böyük elmi-tədqiqat mərkəzlərinin yaradılması və bərpası.

İdman sahəsində 13 olimpiya idman kompleksinin tikintisi və 18 kompleksin tikintisinin davam etdirilməsi. Gələcəkdə bütün ölkəmizdə gözəl idman infrastrukturunun yaradılması məsələləri öz həllini tapır. Mədəniyyət sahəsində bizim tarixi abidələrimiz bərpa olunur, muzeylərdə, teatrlarda böyük yenidənqurma, bərpa işləri aparılır. Şəhərimizin tarixi abidələri bərpa olunur.

Ekologiya proqramı icra olunur və mən ümid edirəm ki, bunun nəticəsində Azərbaycanda və xüsusilə, Abşeron yarımadasında ekoloji problemlər öz həllini tapacaqdır. Uzun illər ərzində çirklənmiş, xüsusilə neft məhsulları ilə çirklənmiş əraziləri təmizləyəcək və insanlar üçün çox gözəl şərait yaradacağıq. Çünki ətraf mühitin qorunması hər bir ölkənin

prioritet məsələsi olmalıdır, xüsusilə, ekoloji durumu o qədər də yaxşı olmayan bölgələrdə. Biz bunu etməyə qadirik. Artıq həm dövlət büdcəsindən, həm də təcili və təxirəsalınmaz tədbirlərin görülməsi üçün prezidentin ehtiyat fondundan kifayət qədər vəsait ayrılıbdır. Həm təmizlənmə işləri, həm də içməli su kəmərinin çəkilməsi, xüsusilə, ekoloji cəhətdən ən ağır vəziyyətdə olan yüzlərlə kəndə keyfiyyətli içməli suyun çəkilməsi məsələləri də həll olunur.

Bütün bunlar barədə çox danışmaq olar. Çünki indi Azərbaycanda elə bir sahə yoxdur ki, orada inkişaf olmasın, işlər görülməsin, yaxud da sahənin inkişafı üçün tədbirlər planı olmasın. Bütün istiqamətlər üzrə bizim proqramlarımız, planlarımız var və biz bunları uğurla icra edirik. Azərbaycanın hərtərəfli inkişafı gələcəkdə də xalqın rifah halının yaxşılaşdırılmasına xidmət göstərəcək, ölkəmizin beynəlxalq mövqelərini möhkəmləndirəcək və bir sözlə, Azərbaycan inkişaf etmiş ölkələrin sırasına daxil olacaqdır. Mən buna inanıram. Əminəm ki, biz buna nail olacağıq.

Eyni zamanda, biz ordu quruculuğu ilə də ciddi məşğuluq və orduya, hərbi məsələlərə ayrılan xərclər ildən-ilə artır. Bu il hərbi xərclər bir milyard dollar səviyyəsində idi. Gələn il yenə də artırılacaq, təxminən 1,2–1,3 milyard dollar səviyyəsinə qaldırılacaqdır. Biz bunu edirik və etməliyik. Çünki Azərbaycan müharibə şəraitində yaşayır, bizim torpaqlarımız işğal altındadır və işğalçı tərəfin qeyri-səmimi davranışı, danışıqlar prosesinin ləngidilməsi və süni əngəllər yaradılması, əlbəttə, bizi vadar edir ki, ordu məsələlərinə daha da böyük diqqət göstərək. Biz bunu edəcəyik, heç kim bizi bu yoldan çəkindirə bilməz. Bu bizim suveren hüququmuzdur və Azərbaycan hazır olmalıdır ki, istənilən yolla öz torpaqlarını işğalçı qüvvələrdən azad etsin. Bunun üçün güclü iqtisadiyyat və güclü ordu lazımdır. Biz bu güclü ordunu yaradırıq və son illər ərzində Azərbaycanda ordu potensialı çox yüksək dərəcədə gücləndirilibdir. Növbəti illərdə də biz bu siyasəti davam etdirəcəyik. Həm hazırlıq, peşəkarlıq səviyyəsi, həm yeni texnika, silah-sursatların alınması, həm də yerli hərbi sənaye kompleksinin yaradılması. Bu istiqamətdə artıq işlər görülür. Biz yaxın zamanlarda Azərbaycanda isteh-

sal olunan ilk hərbi məhsulları da görəcəyik. Azərbaycanda çox güclü hərbi sənaye kompleksi yaradılmalıdır və yaradılacaqdır.

Bütün bu uğurların təməlində şübhəsiz ki, 90-cı illərin ortalarında ulu öndər Heydər Əliyev tərəfindən başlanmış neft strategiyamız dayanır. Biz bu istiqamətdə çox böyük işlər görmüşük. Azərbaycan, demək olar ki, bütün neft-qaz əməliyyatlarını uğurla başa vurubdur. Biz bütün layihələri başa çatdırmışıq. O layihələr ki, Azərbaycanın davamlı və dayanıqlı inkişafını təmin edir və edəcəkdir. Həm neft kəmərləri, həm qaz kəməri artıq fəaliyyətdədir. Yataqlarımızdan neft-qaz hasil edilir, nəql olunur. Yəni, bir sözlə, biz artıq normal, sakit rejimdə öz neft strategiyamızı bundan sonra da davam etdirəcəyik.

Əlbəttə ki, gələcəkdə Azərbaycanın qarşısında yeni imkanlar açıla bilər. Baxmayaraq ki, biz öz neft-qaz problemlərimizi, demək olar, yüz faiz səviyyəsində həll etmişik, yenə də müxtəlif layihələrdə iştirak edirik. Azərbaycan indi böyük həcmdə qaz hasil edən və ixrac edən ölkəyə çevrilir. Dünyada enerji təhlükəsizliyi üçün qaz amili indi bəlkə də neft amilindən daha böyük rol oynayır. Biz də buna hazır olmalıyıq. Son hesablamalara görə, Azərbaycanda təbii qazın ehtiyatları təxminən 2 trilyon kubmetr səviyyəsindədir. Bu bizə ən azı 150 il kifayət edəcəkdir. Əlbəttə ki, biz başqa ölkələrə də qaz ixracını təmin edəcəyik. Daha doğrusu, artıq biz bu gün bunu edirik. Azərbaycan qazı Gürcüstan və Türkiyə bazarlarına da çatdırılır və gələcəkdə başqa ölkələrin bazarlarına da çatdırılacaqdır. Bu bizə həm əlavə iqtisadi imkanlar verəcək, regional əməkdaşlığı daha da möhkəmləndirəcək, həm də şübhəsiz, Azərbaycanın siyasi çəkisini əhəmiyyətli dərəcədə qaldıracaqdır. Biz bunu artıq əyani şəkildə görürük.

Azərbaycanın uğurlu xarici siyasəti, bizim təşəbbüslərimiz – həm siyasi, həm iqtisadi, həm enerji, həm də nəqliyyat sahələrində təşəbbüslərimiz qəbul olunur və bizim iradəmizdən asılı olaraq, bu təşəbbüslər Azərbaycanı daha da gücləndirir və güclü mərkəzə çevirir. Mən bunu dəfələrlə demişəm və bir daha demək istəyirəm ki, Azərbaycanın iştirakı olmadan bu bölgədə heç bir layihə həyata keçirilə bilməz.

Azərbaycanın razılığı olmadan bu regionda heç bir siyasi, iqtisadi məsələlər, enerji, nəqliyyat məsələləri və başqa məsələlər həll edilə bilməz. Bu həqiqət onu göstərir ki, Azərbaycan bölgənin aparıcı ölkəsinə çevrilir. Əgər bu ölkədən regional əməkdaşlıq məsələləri asılıdırsa, əgər bu ölkədən başqa ölkələrin enerji təhlükəsizliyi asılıdırsa, əgər bu ölkədən siyasi proseslərin inkişafı asılıdırsa, əlbəttə ki, bu, ölkəni regionun aparıcı ölkəsinə çevirir. Bax, budur bizim real nailiyyətlərimiz, nəticələrimiz, siyasətimiz və fəaliyyətimiz: həm daxildə iqtisadi artım, siyasi sabitliyin möhkəmlənməsi, ictimai ab-havanın yaxşı olması, həm də hüdudlarımızdan kənarda olan məsələlərin uğurlu həlli. Bu, məsələlərə qlobal yanaşmadır.

Əsas məsələ ölkəmizi daha da möhkəmləndirmək, müstəqilliyimizi möhkəmləndirmək, mövqelərimizi gücləndirmək və Azərbaycanın qarşısında duran ən başlıca problemi həll etmək, ərazi bütövlüyümüzü bərpa etməkdir. Bütün bu sadaladığım amillər, o cümlədən hərbi potensialın möhkəmlənməsi bu məqsədə xidmət edir. Bizim bütün fəaliyyətimiz, bütün səylərimiz bu məqsədə xidmət etməlidir. Həm ölkədə aparılan siyasi və iqtisadi islahatlar, xarici siyasətimiz, ordu quruculuğumuz, həm də Azərbaycanda vətənpərvərlik ruhunun güclənməsi bu məqsədə xidmət edir və etməlidir.

Artıq ölkəmiz, demək olar ki, öz inkişaf potensialına görə regional müstəvidən çıxıbdır. Əgər adambaşına düşən büdcə xərclərini götürsək görərik ki, Azərbaycan dünya miqyasında çox qabaqcıl yerlərdədir. Bu ilin sonuna qədər Azərbaycanda adambaşına düşən ümumi daxili məhsul 3,5 min dollar təşkil edəcəkdir ki, bu da çox yaxşı göstəricidir. Xüsusilə, MDB məkanı üçün və hatta başqa regionlar üçün. Biz gözləyirik ki, iqtisadi islahatların davam etdirilməsi nəticəsində 2008-ci ildə bu rəqəm 4,5 min dollara çatsın. Bu da artıq inkişaf etmiş ölkələrə yaxın olan ölkələrin səviyyəsidir. Növbəti illərdə biz bunu artıracağıq. Neft strategiyamız, iqtisadi islahatlar, yeni sənaye sahələrinin yaradılması, iqtisadi potensialın möhkəmlənməsi – bütün bunlar bizə bu imkanları yaradacaqdır.

Beləliklə, bir daha demək istəyirəm ki, bütün bu məsələlər, əlbəttə ki, təkcə son doqquz aya aid deyil, son illər

ərzində apardığımız islahatların nəticələridir. Ancaq bu doqquz ayda da bütün bu müsbət meyillər özünü göstəribdir. Yəni, bu onu göstərir ki, Azərbaycanın inkişafı çox davamlı şəkildə, fasiləsiz gedir, heç bir geriləmə, heç bir yubanma yoxdur, heç bir yanlış qərar qəbul edilməyib, yaxud da addım atılmayıbdır. Atılan bütün addımlar Azərbaycanın güclənməsinə xidmət göstərir. Biz bu gün bu məsələlər ətrafında fikir mübadiləsi aparacağıq.

## YEKUN NİTQİ

Növbəti aylarda, əlbəttə, bütün iqtisadiyyatda bu müsbət ənənələr davam etməlidir. Həm müxtəlif proqramlar üzrə işlər davam etməlidir və həm də ki, həyat yerində durmur, yeni məsələlər üzə çıxır. Biz bu məsələlərin həlli üçün fəal işləməliyik. Regional inkişaf proqramı da artıq başa çatmaq üzrədir. Proqramda əks olunan əsas məsələlər öz həllini tapıbdır. Bəzi məsələlər həllini tapmayıb, amma proqramın başa çatmasına hələ təxminən bir il vaxt var. Əminəm ki, qalan bütün məsələlər də öz həllini tapacaqdır.

Əlbəttə, 2004-cü ilin əvvəlində bütün məsələləri o proqrama salmaq mümkün deyildi. Son 3-4 il ərzində o qədər böyük işlər görülübdür ki, o məsələlər proqramda yox idi, amma biz bunları reallıqda həll etmişik. Biz növbəti illər üçün də regional inkişaf proqramının davamını işləməliyik. Mən bu barədə artıq hökumətə göstəriş vermişəm. Növbəti illərdə görüləcək işlər tam şəkildə proqrama salınmalı, maliyyə resursları təmin olunmalıdır, icra mexanizmi və məsuliyyət daşıyan qurumlar da müəyyən edilməlidir. Beləliklə, biz Azərbaycanda qeyri-neft sektorunun inkişafına tam şəkildə nail ola biləcəyik. İndi bu bizim üçün iqtisadi sahədə əsas məsələlərdən biridir.

Artıq burada deyildiyi kimi, neft sektorunda böyük uğurlar var. Azərbaycan qarşıda duran bütün vəzifələri icra edibdir. Həm özünün enerji təhlükəsizliyini tam şəkildə təmin

edib, həm də qonşu ölkələrin və Avropa İttifaqının enerji təhlükəsizliyi məsələlərinin həllində də öz rolunu oynayacaqdır. Bu bizim böyük üstünlüyümüzdür. Azərbaycanda bütün dövrlərdə zəngin neft və qaz yataqları var idi. Ancaq bu hələ o demək deyil ki, ölkə bu yataqlardan səmərəli istifadə edə bilsin. Bizim düşünülmüş siyasətimiz, neft-qaz layihələrimizin uğurla həyata keçirilməsi, bu sahədə şəffaflığın təmin olunması və gəlirlərin ədalətli şəkildə bölünməsi – məhz bu amillər Azərbaycanda yoxsulluq səviyyəsinin aşağı düşməsinə şərait yaradır.

Neft və qazla zəngin olan bir neçə ölkə var ki, orada nə qədər çox neft, qaz hasil olunursa, cəmiyyətdə bir o qədər çox təbəqələşmə gedir. Bizdə belə deyildir. Biz həm müsbət, həm də mənfi təcrübəni öyrənmişik və Azərbaycanda görülən işlər, əlbəttə, milli gəlirin bərabər şəkildə bölünməsinə xidmət edir.

O ki qaldı qeyri-neft sektoruna, bu sahədə iqtisadi islahatlar davam etdirilməlidir, kreditlər verilməlidir və verilir. Hər il özəl sektora təxminən 100 milyon dollar səviyyəsində, yaxşı şərtlərlə kreditlər verilir. Sahibkarlığa Kömək Milli Fondu fəaliyyət göstərir. Həm kreditlər hesabına, həm də yerli iş adamlarının təşəbbüsü nəticəsində bölgələrdə böyük sənaye kompleksləri tikilir.

Azərbaycanda ildən-ilə tələbat artır və istehlak mallarının istehsalı daha da geniş vüsət almalıdır. Biz bunu istəyirik. İstəyirik ki, Azərbaycan idxaldan asılılığını maksimum dərəcədə azaltsın və gündəlik tələbat malları Azərbaycanda istehsal olunsun. Bu proses gedir. Dövlət həm kreditlərin verilməsi ilə, həm də özəl sektoru dəstəkləməklə öz köməyini göstərir. Bu sahədə biz gələcəkdə çox işləməliyik.

Azərbaycanda yaradılmış Dövlət İnvestisiya Şirkəti daha da fəal işləməlidir. Mən bilirəm ki, artıq müxtəlif layihələr üzrə ilkin danışıqlar aparılır. Amma lazımdır ki, bu ilkin danışıqlar artıq real layihələrə çevrilsin və tezliklə ölkəmizin inkişafına xidmət göstərə biləcək iqtisadi layihələr Azərbaycan Dövlət İnvestisiya Şirkəti tərəfindən xarici tərəfdaşlarla birlikdə icra olunsun.

Qeyri-neft sektorunun inkişafı ölkəmizin hərtərəfli inkişafına xidmət göstərir. Bizdə 600 mindən çox iş yerlərinin açıl-

ması da, əsasən qeyri-neft sektorunda baş veribdir. Tutaq ki, biz neft sektoruna daha da böyük investisiya cəlb etməklə makroiqtisadi vəziyyəti yaxşılaşdıra, ölkəmizin valyuta ehtiyatlarını artıra bilərik və bunu edirik. Amma qeyri-neft sektoru, kənd təsərrüfatı inkişaf etməsə, onda o sahədə çalışan insanlara bunun o qədər də böyük təsiri olmayacaqdır. Düzdür, büdcədən maliyyələşən təşkilatlarda işləyənlərin əmək haqları, pensiyaları dövlət büdcəsindən asılıdır. Biz bu kateqoriyadan olan insanlara daim diqqət göstəririk. Növbəti ildə minimum əmək haqqı, pensiyalar yenə qaldırılacaqdır. Amma Azərbaycanda vətəndaşlarımızın böyük bir hissəsi kənd təsərrüfatında və özəl sektorda fəaliyyət göstərir. Onların gəlirləri məhz bölgələrdə yaradılan gözəl biznes şəraitindən, kreditlərdən, uğurlu iqtisadi islahatlardan və qeyri-neft sektorunun inkişafından asılıdır. Əlbəttə, bank sektorunun inkişafı da bu sahədə böyük əhəmiyyətə malikdir.

İqtisadi inkişafın və sosial vəziyyətin yaxşılaşmasına dəlalət edən bir amil də ondan ibarətdir ki, ötən 9 ay ərzində əhalinin banklardakı əmanəti 80 faiz artıbdır. Bu, bir tərəfdən, onu göstərir ki, insanların əlavə maliyyə resursları yaranır, digər tərəfdən isə, banklara olan inamın artmasının təzahürüdür. Bu da çox vacibdir. Bank sektorunun inkişafı, əlbəttə, qeyri-neft sektorunun inkişafına birbaşa təsir göstərən amildir.

Həmişə olduğu kimi, növbəti aylarda və 2008-ci ildə də makroiqtisadi vəziyyətə böyük diqqət göstərməliyik. Giriş sözümdə bunu qeyd etdim ki, inflyasiyanın 15-16 faizə qalxması məni çox narahat edir. Yenə də deyirəm, bunun həm təbii, həm də süni səbəbləri var. Biz təbii səbəblərə qarşı iqtisadi islahatlarla, makroiqtisadi addımlarla mübarizə apara bilərik. Süni səbəblərə qarşı isə biz gərək çox ciddi siyasət aparaq. İnzibati addımlar atılmalıdır, bu problemləri yaradan şirkətlərə qarşı sanksiyalar tətbiq olunmalıdır.

Onlar çox ciddi cəzalandırılmalıdırlar, Azərbaycanda sağlam rəqabət mühiti möhkəmlənsin, inhisarçılığa son qoyulsun. Əfsuslar olsun ki, həm idxalda, həm də yerli istehsalda inhisarçılıq meyilləri hələ də qalmaqdadır. Buna qarşı böyük mübarizə aparılmalıdır. Bu, öz növbəsində, inflyasiyanın birrəqəmli səviyyədə qalmasına kömək göstərəcəkdir.

Mən ümid edirəm ki, 2008-ci ildə inflyasiya birrəqəmli səviyyədə olacaqdır. Çünki 2008-ci ildə heç bir kommunal ödənişlərin qaldırılması nəzərdə tutulmur. Bildiyiniz kimi, bu ilin əvvəlində elektrik enerjisi tariflərinin qaldırılması inflyasiyaya ən böyük təkan verən bir amil olmuşdur. Əlbəttə ki, dünyada neftin qiymətlərinin qalxması ilə bərabər. Neftin qiyməti qalxdıqca, bütün idxal olunan malların qiyməti qalxır. Bir tərəfdən, bəziləri fikirləşir ki, indi neftin bir barrelinin qiymətinin 80, yaxud 85 dollara çatması Azərbaycan üçün əlverişlidir. O baxımdan ki, bizim maliyyə imkanlarımız, valyuta ehtiyatlarımız artır. Ancaq tutaq ki, indi bu 6,3 milyarddır, gələn il 7, yaxud 10 milyard olacaqdır. Əlbəttə, bu, böyük bir üstünlükdür. Amma o da reallıqdır ki, biz bu pulun hamısından istifadə edə bilmərik. Biz əgər bu pulun hamısını daxili bazara yönəltsək, inflyasiya daha da böyük sürətlə artacaqdır. Bu reallıqdır. Ona görə biz sosial proqramları çox böyük ehtiyatla aparırıq. Bir tərəfdən, insanların artan tələbatını ödəməliyik, maaşlar, pensiyalar qaldırılmalıdır və qaldırılacaqdır. Ancaq birdən-birə bunu böyük həcmdə etsək, əlbəttə, inflyasiya bütün müsbət addımın nəticələrini neytrallaşdıracaqdır. Ona görə bu sahəyə böyük diqqət göstərilməlidir. Dünyada neftin qiymətinin artması, deyə bilərəm ki, makroiqtisadi sabitlik üçün böyük təhlükədir. Amma Azərbaycanın buna təsir etmək imkanları yoxdur. Ona görə biz gərək öz siyasətimizi elə aparaq ki, o mənfi təsirin səviyyəsini maksimum dərəcədə azaldaq.

Beləliklə, makroiqtisadi vəziyyət diqqət mərkəzində olmalıdır. Birrəqəmli inflyasiya 2008-ci ildə Azərbaycanın uğurlu inkişafını təmin edəcəkdir. Nəzərə alsaq ki, əhalinin pul gəlirləri artacaq, aparılan iqtisadi islahatlar, özəl sektora verilən kreditlər daha da böyük həcmdə işləyəcək, 2008-ci ildə həm minimum əməkhaqqı və pensiya, həm də büdcədən maliyyələşən təşkilatlarda çalışan insanların əmək haqları qaldırılacaqdır.

2007-ci ilin ikinci yarısında ölkə iqtisadiyyatına yenilik gətirən mənzərə də müşahidə olunur. Bu da ondan ibarətdir ki, Azərbaycan şirkətləri xaricə sərmayə qoymağa başlamışdır. Bu, ölkənin ümumi inkişafına təsir edən bir amildir. Əvvəllər biz bütün dövrlərdə xarici investisiyaların Azərbay-

cana gətirilməsi ilə məşğul idik, bu gün də məşğuluq, sabah da məşğul olmalıyıq. Bizim özümüzün nə qədər valyuta ehtiyatlarımız olursa-olsun, yenə də xarici investisiyaları Azərbaycana, xüsusilə qeyri-neft sektoruna cəlb etməliyik. Bu prosesə təkan verə biləcək bütün addımları atmalıyıq. İqtisadiyyat daha da liberallaşmalıdır. Biznesə əngəl törədən bütün amillər aradan qaldırılmalıdır. Xarici investisiyaları cəlb etmək üçün nə lazımdırsa, onu edəcəyik. Amma bununla bərabər, başqa inkişaf etmiş ölkələrdə olduğu kimi, indi Azərbaycan şirkətləri xaricə sərmayələr qoyurlar. Xüsusilə Dövlət Neft Şirkəti həm Gürcüstana, həm Türkiyəyə, həm də Şərqi Avropa ölkələrinə belə investisiyaların qoyulması prosesinə başlamışdır və davam edəcəkdir. Əgər biz bütün investisiya paketini götürsək, bu, bir neçə milyard dollar həcmindədir.

Dövlət Neft Şirkətinin indi çox gözəl kredit reytinqi var. O, istənilən məbləğdə kreditləri cəlb edə bilər. Həm Azərbaycanda işlərin aparılması üçün, həm xarici investisiya layihələrinin həyata keçirilməsi üçün. Bu, əlbəttə, bizim iqtisadi imkanlarımızı artıracaq və Azərbaycan başqa ölkələr üçün investor kimi fəaliyyət göstərəcəkdir.

Onu da deyə bilərəm ki, müxtəlif ölkələrin dövlət və hökumət başçıları ilə apardığım danışıqlar zamanı bu məsələ xüsusilə vurğulanmışdır. Həm ən inkişaf etmiş ölkələr tərəfindən belə arzular ifadə olunur, həm də iqtisadi cəhətdən o qədər də inkişaf etməyən ölkələrin rəhbərləri bu məsələlərlə bağlı Azərbaycana müraciət edirlər. Biz hər bir məsələyə fərdi qaydada baxmalıyıq. Əlbəttə ki, bu investisiyaları bizim üçün dost olan, yaxın olan ölkələrə daha çox qoymalıyıq. Eyni zamanda, bu məsələdə iqtisadi səmərə də başlıca rol oynamalıdır. Yəni demək istəyirəm ki, bu bizim üçün bir yenilikdir. Ümid edirəm ki, Azərbaycanda yerli şirkətlərin fəaliyyətinin güclənməsi nəticəsində başqa sektorlara da investisiya qoyulacaqdır. Belə hallar var. Amma bu investisiyalar, əlbəttə, daha çox neft-qaz sektoruna və nəqliyyat infrastrukturunun möhkəmlənməsinə qoyulur. Bir sözlə, bu, ölkəmizin inkişafının mühüm əlamətidir.

Biz tranzit infrastrukturumuzu, bütövlükdə nəqliyyat infrastrukturumuzu da möhkəmləndirməliyik. Bu məsələləri

Nəqliyyat naziri öz çıxışında qeyd etdi. Bu işlər artıq başlanıb, bütün nəqliyyat infrastrukturunun yeniləşməsi prosesi uğurla gedir. Bizim tərəfimizdən atılmış addımlar öz nəticəsini verir. Magistral yollar, şəhərlərarası yollar, şəhər və rayondaxili yollar, kənd yolları çəkilir. Çünki bu olmasa, hərtərəfli inkişafdan söhbət gedə bilməz. Yol iqtisadiyyatın, elə bil ki, təkanvericisidir. Yol olmasa, heç bir sənaye sahəsi, turizm sahəsi inkişaf edə bilməz. Hətta yollar çəkildiyi halda dövlət büdcəsinə qənaət gətirəcəkdir.

Mən mütəmadi qaydada bölgələrdə oluram. Bəzi hallarda biz çalışırıq ki, hər bir məntəqədə, yaxud kənddə bir tibb məntəqəsi açılsın, yaxud da kiçik bir məktəb tikilsin. Bunu edirik. Amma kənd əhalisi müraciət edir, deyir ki, siz bizim kəndimizə yol çəkin, ondan sonra heç tibb məntəqəsi də lazım deyil. Biz o yolla 5–10 kilometr gedib daha böyük məntəqədə müalicə olunacağıq, uşaqlarımızı oraya məktəbə göndərəcəyik. Yəni bu da var. Ona görə infrasktruktur layihələrində birinci yerdə yol olmalıdır. O layihələr hamısı var, buna vəsait də ayrılır. Son illər ərzində böyük həcmdə vəsait ayrılır. Həm xarici kreditlər, həm də dövlət büdcəsinin vəsaitləri. Azərbaycanda bütün yol infrastrukturu yeniləşməlidir və dünyanın ən yüksək səviyyəsinə çatmalıdır.

Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisinin başlanmasına az qalıb. İndi son dəqiqləşdirmə işləri aparılır. Bu, böyük tarixi bir layihədir. Onun əhəmiyyəti haqqında danışmağa dəyməz, bunu hamı başa düşür. Bu bizim böyük nailiyyətimizdir. Deyə bilərəm ki, tarixi nailiyyətimizdir. Bütövlükdə, Şərq–Qərb nəqliyyat və enerji dəhlizinin möhkəmləndirilməsi işində Azərbaycan təşəbbüskar rolunu oynamışdır. Bizim təşəbbüslərimiz həm enerji, həm də nəqliyyat dəhlizlərinin açılmasında həlledici rol oynamışdır və bu istiqamətdə səylərimizi davam etdirəcəyik. Həm Şərq–Qərb, həm də Şimal–Cənub nəqliyyat dəhlizlərinin açılması istiqamətində işlər davam etdirilməlidir.

Eyni zamanda, biz şəhərlərimizin abadlaşdırılması ilə də daha ciddi məşğul olmalıyıq. Mənim imzaladığım sərəncamlara əsasən, indi Bakıda bu işlər gedir. Bütün tarixi binalar bərpa olunur, yeni görkəm alır. Başqa şəhər və rayonlarda da bu işlər aparılmalıdır və aparılır. Bütövlükdə, gərək şəhər və rayonların təsərrüfatları çox yüksək səviyyədə olsun. Biz

indi böyük sayda kommunal texnikanın alınması ilə məşğuluq. Bu məqsədlər üçün xüsusi vəsait, 25 milyon manat ayrılmışdır ki, bütün rayonlara lazım olan kommunal texnika göndərilsin.

Mən mütəmadi qaydada rayon icra hakimiyyəti başçılarını Avropanın aparıcı ölkələrinə ezam edirəm ki, orada mövcud olan ən müsbət elementləri Azərbaycana gətirsinlər. Vurğulamaq istəyirəm ki, müsbət elementləri. Kortəbii şəkildə orada nə var, gəlin bunu Azərbaycanda da edək – bunu etmək olmaz. Orada bəzi şeylər var ki, onların bizə heç bir xeyri olmayacaqdır. Amma müsbət nə varsa, biz onu gətirməliyik, tətbiq etməliyik. Həm şəhər təsərrüfatı işlərində, həm bütövlükdə texnologiyalarda, sənaye potensialının möhkəmlənməsində və s. işlərdə.

Tikinti sektoruna dövlət nəzarətinin gücləndirilməsi prosesi daha da sürətlə getməlidir. Bu sahədə çoxlu çatışmazlıq var. Bizi qane etməyən məqamlar kifayət qədər çoxdur. O faciəli hadisədən sonra bu məsələ araşdırılır və görürük ki, bu sahədə çoxlu pozuntular var.

Qanunsuz binalar tikilir. Necə ola bilər ki, qanunsuz bina tikilsin? Axı bu mümkün deyil! Qanunsuz binanı tikən qanunu pozur. Qanunu pozursa, cinayət məsuliyyətinə cəlb olunmalıdır. Qanunsuz binaların tikilməsinə göz yuman da cinayət məsuliyyətinə cəlb olunmalıdır. Yəni, bu sahəyə biz çox böyük diqqət göstərməliyik, özbaşınalıqların hamısını aradan qaldırmalıyıq. Burada qayda-qanun yaratmaq lazımdır.

Azərbaycanda indi tikinti sektoru inkişaf edir. Çox yaxşı əlamətdir. Yüzlərlə binalar tikilir, yaşayış binaları. İnsanların imkanları artır. Hamı istəyir ki, yaxşı evdə yaşasın. Mən də bunu alqışlayıram. Amma gərək burada təhlükəsizlik qaydaları qorunsun. Tikilən evlərin ərazilərinə baxaq, o evlər arasında məsafə gərək kifayət qədər olsun. Yoxsa, bu proses belə xaotik şəkildə baş alıb gedir. Ona görə mən bunu dayandırmışam. Demişəm, indi xalq qarşısında da deyirəm, dayandırmışam. Ona görə ki, burada qayda-qanun yaradılmalıdır. Bütün evlər təhlükəsizlik normalarına uyğun olmalıdır, onların gözəl memarlıq cəhətləri olmalıdır, bina tikilən yerin ərazisi buna uyğun olmalıdır. Şəhərin baş planına uyğun aparılmalıdır və qanunsuz bir dənə köşk də

tikilməməlidir. Ona görə mən bunu bir daha ciddi deyirəm və kim bu qanunu pozacaqsa, o, cinayət məsuliyyətinə cəlb ediləcəkdir.

Ev tikilir, fəhlələri işə cəlb edirlər, əmək müqavilələri yoxdur. Yaxud da əməkhaqqı. İndi hamı bilir ki, tikinti sektorunda ən aşağı işdə işləyən ayda minimum 200, 300, bəlkə də 400 manat maaş alır. Amma cədvəldə rəsmi nə qədər göstərilir? Minimum əməkhaqqı – 50 manat göstərilir. Nə üçün? Vergidən yayınmaq üçün. Bunu hamı bilir. Yaxşı, onda niyə tədbir görülmür?! Tam şəkildə şəffaflıq olmalıdır, əmək müqavilələri bağlanmalıdır, orada işləyən fəhlələrin təhlükəsizliyi üçün tədbirlər təmin edilməlidir. Hamı qeydiyyata alınmalıdır və ona verilən real maaş real cədvəldə də göstərilməlidir.

Mənə verilən məlumata görə, büdcə ildə 100 milyon manatdan çox pul itirir. Çünki vergidən yayınırlar. Evi tikənlər onsuz da gəlir əldə edirlər. Əgər bu o qədər gəlirli sahə olmasaydı, indi bu qədər maraq da olmazdı. Yaxşı, insaf olmalıdır. Bu, bir tərəfdən. İkinci tərəfdən, dövlət nəzarəti. Buna cavabdehlik daşıyan bütün orqanlara bildirirəm, çox ciddi şəkildə, 100 faiz nəzarət təmin edilməlidir. Heç kimə heç bir güzəşt olmamalıdır, heç bir istisna hal olmamalıdır, hamı – bu sahədə çalışan firmalar, şirkətlər bütün qaydalara əməl etməlidir.

Energetika sektorunun inkişafı da çox sevindirici məsələdir. Mən qışa hazırlıqla bağlı ayrıca müşavirə keçirəcəyəm və orada energetika ilə bağlı bütün məsələləri müzakirə edəcəyik. Amma indi deyə bilərəm ki, bu sahədə böyük uğurlar əldə edə bilmişik. Həm çoxlu yeni elektrik stansiyaları, həm də yardımçı stansiyalar tikilir, transformatorlar quraşdırılır, yəni, Azərbaycanda dayanıqlı elektrik enerjisi təchizatı təmin olunur.

Çox sevindirici haldır ki, biz, nəhayət, elektrik enerjisinin haqqını da maksimum dərəcədə yığmağa başlamışıq. Mənə verilən məlumata görə, enerji pulu təxminən 80–90 faiz səviyyəsində yığılır. Sayğaclaşdırma prosesi uğurla başa çatıb və indi əhali bilir ki, nəyin pulunu verir. Bu sahədə də islahatlar aparılıb, oğurluq hallarının qarşısı xeyli dərəcədə alınıbdır. Bu sahəyə, xüsusilə Bakı elektrik şəbəkəsinə uzun

illər ərzində rəhbərlik edən «Barmek» şirkəti bu işlərdən kənarlaşdırılıb və dərhal biz bunun gözəl nəticələrini gördük. İndi həm dövlət yardımı, dövlət nəzarəti var, həm də məsuliyyətli yanaşma var.

«Barmek» şirkətinin əsas məqsədi Azərbaycan xalqını soymaq idi. Enerji infrastrukturuna bir manat pul qoymadan burada çirkin əməllərlə – dələduzluqla, fırıldaqçılıqla və oğurluqla məşğul idilər. Biz gərək hər şeyi öz adı ilə deyək. Ona görə buna son qoyuldu, şəbəkə dövlət nəzarətinə keçdi və biz bunun gözəl nəticələrini görürük və görəcəyik də. Azərbaycanda – Bakıda və bütün rayonlarda əhali sutkada 24 saat enerji almalıdır. İndi kifayət qədər elektrik stansiyaları tikilib və yenə də tikilir. Baxmayaraq ki, Azərbaycanda son bir il ərzində beş elektrik stansiyası tikilib, yenə Sumqayıtda, Səngəçalda stansiyalar tikilir. Mingəçevirdə bloklar təmir olunur, gələcəkdə Əli Bayramlıda yeni stansiya tikiləcək və lazım olarsa, başqa sahələrdə də inşa olunacaqdır.

Burada nazir Natiq Əliyev bərpa olunan enerji mənbələri haqqında məlumat verdi. Mən bu təklifləri yüz faiz dəstəkləyirəm. Biz bərpa olunan enerji növlərinə maksimum dərəcədə diqqət yönəltməliyik. Biz, demək olar ki, əsas enerji potensialımızı yaratmışıq, indi bu sahəyə diqqət verməliyik. Külək, günəş və su enerji növlərinə böyük diqqət göstərilməlidir. Pilot layihəsi qoy davam etsin, biz onun nəticələrinə baxarıq. Bununla bərabər, dövlət xətti ilə dövlət büdcəsi hesabına maliyyələşən layihələr haqqında da fikirləşin və biz bu sahəyə nə qədər lazımdırsa vəsait qoyacağıq. Bu həm ekoloji məsələlərin həlli deməkdir, həm də neftə, mazuta, qaza olan qənaətdir. Biz qənaət etdiyimiz təbii sərvətləri ixrac etsək, daha da böyük həcmdə vəsait qazanacağıq. Bu sahəyə böyük diqqət göstərilməlidir.

Eyni zamanda, qaz xətlərinin çəkilişi davam edir. Xüsusilə Bakının kənd və qəsəbələrinin qazlaşdırılması prosesi gedir. Başqa şəhər və rayonlarda qaz xətləri çəkilir. İstilik təsərrüfatına böyük diqqət göstəririk. Bu yaxınlarda yenə Nazirlər Kabinetinin ehtiyat fondundan «Azəristiliktəchizat» Səhmdar Cəmiyyətinə 10 milyon manat verilibdir. Çalışmaq lazımdır ki, bundan səmərəli istifadə edib qışa qədər

maksimum dərəcədə bütün məktəbləri, şəhərdə yerləşən xəstəxanaları, yaşayış binalarını istiliklə təmin edək.

Bilirəm ki, burada çox böyük çətinliklər var. Çünki vaxtilə bəzi insanlar evdəki batareyaları kəsib atıblar ki, istilik yox idi. İndi onları bərpa etmək, yenidən xətlər çəkmək çox böyük çətinlik yaradır. Bəziləri evlərini təmir ediblər, heç istəmirlər ki, istilik sisteminə qoşulsun. Amma biz elə etməliyik ki, qoşulsun. Çünki bu, elektrik enerjisinə olan qənaətdir, istilik verilməsi ucuzdur. Bunu etməliyik.

Siz bilirsiniz ki, vaxtilə «Azəristiliktəchizat» Səhmdar Cəmiyyətini yaratdıq. İndi o, bütün bu təsərrüfata cavabdehlik daşıyır və bütün işlər vaxtlı-vaxtında və müasir səviyyədə həll olunmalıdır. O qədər də uzaq olmayan gələcəkdə bizdə güclü enerji ixracı potensialı yaranacaqdır. Biz bu məsələ üzərində işləyirik. İndi Azərbaycanda kifayət qədər elektrik stansiyaları var, yenə də tikilir. Bizim 3 min meqavat yeni enerji resursumuz olacaqdır. Düzdür, iqtisadiyyatın inkişafı, əhalinin artımı və ümumi inkişaf sayəsində onun bir hissəsi daxili tələbata gedəcək, çünki daxili tələbat artır. Ancaq ixrac etmək üçün də imkanlar yaradılmalıdır. Xüsusi yüksək gərginlikli xətlər çəkilməlidir. Bu sahədə biz artıq qonşu ölkələrlə – Gürcüstanla danışıqlar aparırıq. İranla bizim enerji mübadiləmiz var. İndi yeni xətlər çəkilir və təxminən ildə 700 meqavat gücündə enerji mübadiləsi aparılacaqdır. Eyni zamanda, Gürcüstan ərazisi ilə Türkiyəyə elektrik enerjisinin ixracı da mümkün olan məsələdir. Biz bu sahədə də çalışmalıyıq. Bu, əgər belə demək mümkündürsə, Bakı–Tbilisi–Ceyhanın məntiqi davamı olacaq, iqtisadi və regional əməkdaşlıq baxımından ondan az səmərə verməyən bir layihə olacaqdır.

Mən bu yaxınlarda Naxçıvandaydım, orada vəziyyətlə tanış oldum. Vaxtilə qaranlıqda yaşayan naxçıvanlılar indi davamlı elektrik enerjisi ilə təmin olunurlar və artıq orada hətta ixrac potensialı yaranıbdır. Çünki orada tikilən və bərpa olunan elektrik stansiyaları, su elektrik stansiyaları və tikiləcək su elektrik stansiyaları əlavə resurs yaradır və bu gün Naxçıvan hazırdır ki, öz enerji resurslarını qonşu ölkələrə ixrac etsin. Bu barədə də danışıqlar gedir.

Qeyri-neft sektorunun inkişafı, eyni zamanda, sənaye potensialının inkişafı deməkdir. Bu sahəyə də çox böyük

diqqət göstərilməlidir. Biz bu artan maddi imkanlardan istifadə edib Azərbaycanda çox güclü sənaye kompleksləri yaratmalıyıq. Həm şərait yaratmalıyıq ki, xarici və yerli investorlar bu sahəyə vəsait qoysunlar, həm də bəzi hallarda dövlət xətti ilə kreditlərin verilməsi hesabına buna kömək göstərməliyik ki, Azərbaycanda qeyri-neft sektoru da inkişaf etsin.

Qeyri-neft sektoru dedikdə, bu, təkcə kənd təsərrüfatı, emal müəssisələri demək deyildir. Eyni zamanda, Azərbaycana ixrac qabiliyyətli böyük sənaye kompleksləri lazımdır. O sənaye kompleksləri ki, onların fəaliyyəti üçün yerli resurslar var, xammal var. İxrac qabiliyyətli məhsulu istehsal edə biləcək sənaye obyektləri bizə lazımdır və buna böyük diqqət göstərməliyik. İndi bu sahədə müəyyən konkret işlər görülür. Bilirəm ki, Azərbaycanda sənaye inkişaf edir, yeni müəssisələr tikilir. Ancaq biz buna daha da geniş formatda baxmalıyıq.

Burada ekoloji məsələlərdən danışıldı, bu sahə də həmişə diqqət mərkəzində olmalıdır. Bu bizim sağlamlığımız, gənc nəslin sağlamlığı məsələsidir. Ətraf mühitin qorunması hər bir ölkənin inkişafını göstərən bir amildir. Biz isə müasir ölkə qururuq, ölkəmizi hərtərəfli inkişaf etdirmək istəyirik. Ona görə bu sahə də həmişə diqqət mərkəzində olmalıdır. Həm ətraf mühitin qorunması, çirklənmənin qarşısının alınması, həm də əhalinin təmiz su ilə təmin olunması məsələləri. İndi Oğuz–Qəbələ–Bakı su kəməri tikilir. Bu da tarixi bir layihədir. Uzun illər, bəlkə də onilliklər ərzində bu barədə müxtəlif söhbətlər gedirdi, danışıqlar aparılırdı, layihə öyrənilirdi. Ancaq biz bunun real tikintisinə başlamışıq və işlər uğurla gedir. Əminəm ki, gələn il Bakıya təmiz içməli su gətiriləcəkdir.

Bununla bərabər, digər istiqamətdə Samur–Abşeron kanalının tikintisi də davam edir və biz bu yaxın zamanlarda yəqin ki, Taxtakörpü su anbarının tikintisinə də başlayacağıq. Beləliklə, Azərbaycanı – Bakını və bütün bölgələri içməli su ilə təmin edəcəyik.

Bəzi hallarda yeni yollar çəkilən zaman, yaxud da infrastruktur layihələri həyata keçirilən zaman ağaclar məhv olunur. Burada Hüseyn Bağırov qeyd etdi, məhz bu məqsədlə böyük vəsait ayrılıbdır. İstənilən diametrdə olan ağacları köçürmək üçün xarici avadanlıq, maşınlar alınıbdır. Mən

deyirəm ki, o maşınlar işə düşəndən sonra bir dənə də ağac kəsilməməlidir. Əgər hansısa avtomobil yolu çəkilirsə, yaxud da bir infrastruktur layihəsi həyata keçirilirsə, ağaclar sadəcə olaraq köçürülməlidir və yeni yerlərdə əkilməlidir. Ağacları kəsmək olmaz və əfsuslar olsun ki, bəzi hallarda biz görürük ki, həm Bakıda, həm də rayonlarda ağaclar kəsilir. Bu bizim təbii sərvətimizdir. Həm ekoloji baxımdan, həm də şəhərlərə gözəllik vermək baxımından. Əgər hansısa ağac götürülməlidirsə, o yalnız və yalnız köçürülməlidir. Əgər bu mümkün deyilsə, bir ağac əvəzinə, başqa yerdə minimun bir-iki ağac əkilməlidir. Mən xahiş edirəm ki, buna fikir verəsiniz.

Bütövlükdə, biz iqtisadi və sosial məsələləri müzakirə etdik. Mən bir məsələni də vurğulamaq istəyirəm. Bəlkə də bunun doqquz ayın yekunlarına birbaşa aidiyyəti yoxdur. Ancaq ölkəmizin inkişafına və ictimai vəziyyətə aidiyyəti var. Biz indi dünyaya, Avropaya inteqrasiya edirik. Bu bizim siyasətimizdir. Azərbaycan açıq qapılar siyasəti aparır və yenə də deyirəm, biz dünyada mövcud olan ən qabaqcıl təcrübəni Azərbaycana gətirməliyik və tətbiq etməliyik. Amma bu meyil, əlbəttə ki, milli xüsusiyyətlər hesabına olmamalıdır. Xalqımızı xalq kimi, millət kimi qoruyub saxlayan bizim ənənələrimiz olub, tariximiz olub, ədəbiyyatımız, ana dilimiz və mədəniyyətimiz olubdur.

Ona görə bu sahələrə çox böyük diqqət göstərilməlidir. Bunlar Azərbaycanı əsrlər boyu assimilyasiyadan qoruyan amillərdir və bu sahəyə böyük diqqət yetirilməlidir. Mədəniyyət, ədəbiyyat, milli musiqi, ana dilimiz, tarixi keçmişimiz – biz bu sahələrə böyük diqqət göstərməliyik. Nəinki hansısa elmi tədqiqatlarda, yaxud da hansısa rəsmi tədbirlərdə, həm də gündəlik həyatda bu sahəyə diqqət göstərməliyik. Mən nə üçün bunu deyirəm? Çünki bəzi hallarda bu unudulur, bəzi hallarda xalqımıza xas olmayan əlamətlər üzə çıxır.

Biz indi açıq cəmiyyətdə, azadlıq şəraitində yaşayırıq. Azərbaycanda bütün hüquqlar var. Azərbaycan xalqı bütün hüquqlardan istifadə edir. Heç bir məhdudiyyət yoxdur. Nə iqtisadi sahədə, nə siyasi sahədə, nə siyasi partiyaların fəaliyyətində, nə ictimai sahədə. Yəni, Azərbaycan xalqı, sözün əsl mənasında, azad xalqdır və bu azadlıqdan, əlbəttə ki, istifadə edir. Bu bizim böyük nailiyyətimizdir. Ancaq bu o demək

deyil ki, bizim xalqımıza yaraşmayan, yaxud da xas olmayan hansısa xüsusi şənliklər təşkil olunsun, hansısa yersiz tədbirlər keçirilsin. Mən bunu bəyənmirəm. Əksinə, mən daxilən bunun əleyhinəyəm. Ancaq heç kimə də öz iradəmi zorla qəbul etdirə bilmərəm. İnsanlar azaddır, sərbəstdir. Ancaq dövlət məmurları, vəzifəli şəxslər o etik qaydalara riayət etməlidirlər, bizə xas olmayan, mənfi, yabançı təsiri Azərbaycanda tətbiq etməməlidirlər. Bu mənim dövlət məmurlarına tövsiyəm və onlardan tələbimdir. Dövlət məmuru, vəzifəli şəxs hər sahədə – işdə, ictimai işində və həyatda təvazökar olmalıdır. Əgər hansısa bir iş adamı, yaxud da başqa bir adam nəsə edirsə, bu onun öz işidir. O işləri görməklə özünü biabır edir və cəmiyyətdə gözdən düşür. Bunu dövlət məmuru, vəzifəli şəxs edirsə, bu artıq təkcə onun işi deyil. Bu bütün dövlətə, idarəçiliyə, iqtidara şərəf gətirməyən hərəkətdir.

Mən çox da dərinə getmək istəmirəm. Bilirəm ki, siz də başa düşürsünüz, televiziyada qulaq asanlar da başa düşürlər. Dövlət məmurları, vəzifəli şəxslər, üzdə olan insanlar, Azərbaycanın inkişafında, yaxud da qərarların qəbul olunmasında iştirak edən insanlar təvazökar olmalıdırlar və milli ruhda yaşamalıdırlar. Bütün şənlikləri, başqa tədbirləri bax, bu çərçivədə aparmalıdırlar. Bu, birincisi.

İkincisi, məni narahat edən məsələ odur ki, elə bil cəmiyyətdə bir təbəqə var ki, onlara toxunmaq olmaz. Bilirsiniz ki, indi Azərbaycanda ictimai-siyasi vəziyyət çox müsbətdir. Asayiş qorunur, cinayətkarlığa qarşı ciddi mübarizə aparılır. Demək olar ki, əvvəllər mövcud olan bütün cinayətkar dəstələr zərərsizləşdirildi, cəzalarını çəkirlər və çəkməlidirlər. Quldurlar, cinayətkarlar cəzalandırılmalıdır. Bu, hüquqi dövlət prinsipinə əsaslanan bir amildir. İndi Azərbaycanda quldurluq, yaxud da soyğunçuluq, adamöldürmə kimi cinayətləri biz çox az sayda görürük. Əgər başqa ölkələrin statistikası ilə bizim statistikamızı müqayisə etsək görərik ki, bu sahədə ölkəmiz qabaqcıl yerlərdədir.

Əmniyyət, təhlükəsizlik şəraiti var, insanlar gecə-gündüz sərbəst yaşayırlar, gəzirlər. Hətta xaricdən gələnlər də buna həmişə təəccüb edirlər ki, sizdə belə əmin-amanlıq, sabitlik mövcuddur. Bu bizim böyük nailiyyətimizdir. Azərbaycan

xalqı rahat yaşayır. Ancaq bəzi hallarda xuliqanlıqla məşğul olanlar, xüsusilə avtoxuliqanlıqla məşğul olanlar elə bil ki, toxunulmazdırlar. Nə üçün? Hansısa cinayət əməlini törədən insan, yaxud bir oğurluq və ya xuliqanlıq edən insan dərhal cinayət məsuliyyətinə cəlb edilir, həbs olunur və cəzasını alır. Ancaq insanların təhlükəsizliyinə zərbə vuran, həyatına təhlükə yaradan bu avtoxuliqanlar, elə bil ki, Azərbaycan vətəndaşları deyillər. Elə bil ki, qanun onlara aid deyildir. Nə üçün? Ona görə ki, onların arxasında varlı və imkanlı adamlar dayanır. Ona görə ki, onlar kiminsə qohumlarıdır. Ona görə ki, kiməsə arxalanırlar. Bu dözülməz bir haldır. Mən buna dözə bilmərəm və sizə, Daxili İşlər nazirinə deyirəm, yığışdırın bu halları. Biz kimə şərait yaradırıq?! Xuliqanlara, xarici maşınlarla heç bir yol qaydalarına əməl etmir, yol hərəkəti qaydalarını pozurlar, insanlara təhlükə yaradırlar, dövlət yol polisinin sözünə baxmırlar. Yekəxanalıq, özbaşınalıq, xuliqanlıq edirlər – dərhal onları həbs etməlisiniz.

Mən sizə bir neçə dəfə demişəm, əfsuslar olsun ki, gərək hər dəfə deyəm. Bir neçə gün bundan əvvəl sizə demişəm, plyonkalar olan maşınlar barədə neçə dəfə deməliyəm?! Onlar kimdirlər? Məndə siyahı var, kimlərdir. Orada bir nəfər də sadə adam tapmaq çətindir. Ya dövlət məmurlarının, ya böyük vəzifə sahiblərinin, ya Milli Məclis üzvlərinin, yaxud da böyük biznes sahiblərinin qohumlarıdır. Onlar kimdən artıqdırlar? Nə üçün onlar plyonkalı maşınlarda gəzməlidirlər? Kimdən qorxurlar onlar? Xalqdan qorxurlar? Əgər onu maşında görsələr, ona nə olar? Əriyər? Mən özümdən danışmaq istəmirəm. Mən on il prezidentin ailəsinin üzvü idim. Plyonkalı maşınım var idi? Hər bir qırmızı işıqda maşını saxlayırdım. Mən və indi də mənim uşaqlarım. Nə üçün? Çünki qanun hamı üçün qanundur və yuxarı vəzifədə olanlar üçün ilk növbədə. Əgər onlar qanunu pozurlarsa, əgər normal, etik davranışa əməl etmirlərsə, normal qaydalara riayət etmirlərsə, öz cəzalarını alacaqlar. Cərimələrlə yox, cərimə onun üçün nədir ki? Yüz min dollar dəyərində maşını olan yüz dəfə o cəriməni verə bilər. Heç vermir də. Mən onları başqa cür cəzalandıracağam. Onların arxalandıqlarını mən cəzalandıracağam. Ona görə deyirəm, mən

bir həftə sizə vaxt vermişəm, bir həftə. İki-üç gündən sonra o vaxt bitir. Bir dənə də plyonkalı maşın olsa, onda məndən inciməyin. Həm siz, həm də o plyonkalı maşınların sahibləri və onların böyükləri.

Qayda-qanun hamı üçün olmalıdır. Mən heç vaxt belə vəziyyətlə barışa bilmərəm ki, kimsə xüsusi statusa malik olsun. Heç kim xüsusi statusa malik deyil, o cümlədən mən və mənim ailəm. Belə olan halda, bunu nəzərdə saxlayın.

Növbəti aylar ərzində, ilin sonuna qədər biz bütün qarşıda duran məsələləri həll etməliyik və 2008-ci ilə yeni proqramlarla başlamalıyıq. Əminəm ki, 2008-ci il də Azərbaycan iqtisadiyyatı üçün uğurlu il olacaqdır.

Sağ olun.

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ABDULLAH GÜLƏ**

Hörmətli cənab Prezident!

Əziz dostum, qardaşım!

Türkiyənin milli bayramı – Respublika günü münasibətilə Sizə və bütün Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Xalqlarımızın əsrlərdən bəri davam edən, tarixin ən çətin sınaqlarından çıxmış dostluq və qardaşlığı bu gün dövlətlərarası münasibətlərimizin ruhunda və məzmununda öz bariz ifadəsini tapır. Əminəm ki, belə möhkəm təməl üzərində qurulmuş müttəfiqliyimiz, həmrəyliyimiz və birliyimiz milli mənafelərimizin qorunması yolunda səylərimizin daim inam və güvənc yeri olacaqdır.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 oktyabr 2007-ci il*

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Baş nazir!

Əziz dostum, qardaşım!

Milli bayramınız – Respublika günü münasibətilə Sizi və qardaş Türkiyə xalqını səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–Türkiyə dostluğu və qardaşlığı xalqlarımızın iradə və məramını əks etdirən ən böyük sərvətimizdir. Əminəm ki, qarşılıqlı inam, etibar və dəstəyin parlaq mücəssəməsi olan münasibətlərimiz daim yaşayacaq və nəsillərdən-nəsillərə ötürülərək xalqlarımızın rifahına, ölkələrimizin yüksəlişinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, qardaş Türkiyə xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 oktyabr 2007-ci il*

## ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Əlcəzair İnqilabı günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Əlcəzair arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeləri naminə daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Əlcəzair xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 oktyabr 2007-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN LİTVA SEYMİNİN XARİCİ MƏSƏLƏLƏR DAİMİ KOMİTƏSİNİN SƏDRİ YUSTİNAS KAROSASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*23 oktyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Prezident sarayında Litva Seyminin Xarici məsələlər daimi komitəsinin sədri Yustinas Karosasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Azərbaycan–Litva münasibətlərinin çox uğurla inkişaf etdiyini bildirdi. Litvaya sonuncu səfərlərinin müvəffəqiyyətlə keçdiyini məmnunluqla xatırladan dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsi baxımından qarşılıqlı səfərlərin əhəmiyyətini vurğuladı. Azərbaycan prezidenti ümidvar olduğunu bildirdi ki, Litva Seyminin nümayəndələrinin bu səfəri ölkələrimizin parlamentlərarası əməkdaşlığının daha da inkişafına xidmət edəcəkdir.*

*Qarşılıqlı səfərləri əlaqələrimizin intensivləşməsinin göstəricisi kimi qiymətləndirən Yustinas Karosas Bakıya səfəri zamanı ölkələrimizin qanunverici orqanları arasında münasibətlərin daha da genişləndirilməsi istiqamətində müzakirələr aparılacağını bildirdi. Qonaq ölkəsinin Azərbaycanın Avropaya inteqrasiyasına və «Yeni qonşuluq siyasəti» çərçivəsində Azərbaycanla əlaqələrə böyük əhəmiyyət verdiyini vurğuladı.*

*Sonra Litva Seyminin Xarici məsələlər daimi komitəsinin sədri Yustinas Karosas Litva prezidenti Valdas Adamkusun məktubunu prezident İlham Əliyevə təqdim etdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN «SAFARİ» BEYNƏLXALQ OVÇULUQ KLUBUNUN PREZİDENTİ DENİS ANDERSON İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*23 oktyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Prezident sarayında «Safari» beynəlxalq ovçuluq klubunun prezidenti Denis Andersonu qəbul etmişdir.*

*Dövlətimizin başçısı Bakı, habelə Azərbaycanın gözəl təbiətə malik olan rayonları ilə tanışlığın Denis Andersonda ölkəmiz haqqında xoş təəssürat yaradacağına əminliyini söylədi.*

*Denis Anderson Azərbaycana ilk dəfə səfər etdiyini və səfəri çərçivəsində artıq Bakı şəhərinin mədəni-tarixi yerləri ilə tanış olduğunu, eyni zamanda, ölkəmizin digər rayonlarına səfər etməyi planlaşdırdığını dedi. O, «Safari» beynəlxalq ovçuluq klubunun ömürlük üzvlüyünə dair nişanı prezident İlham Əliyevə təqdim etdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QOBUSTAN RAYONUNA SƏFƏRİ

*Qobustan rayonu*

*23 oktyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Qobustan rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı burada gül-çiçəklə qarşıladılar.*

*Prezident İlham Əliyev əvvəlcə Qobustan rayonunun Mərəzə qəsəbəsində Olimpiya İdman Mərkəzinin təməlqoyma mərasimində iştirak etdi. Buraya toplaşan idmançılar və inşaatçılar dövlətimizin başçısını hərarətli alqışlarla qarşıladılar.*

*Prezident İlham Əliyev Olimpiya İdman Mərkəzinin layihəsi ilə tanış oldu. Məlumat verildi ki, burada 5 hektar ərazidə yerləşəcək mərkəzdə 934 yerlik idman salonu, eni 12, uzunluğu 25 metr olan hovuz, 60 yerlik üçmərtəbəli mehmanxana, yeməkxana, 2 min yerlik stadion, mini-futbol, voleybol, basketbol və idmanın digər növləri üzrə meydança və salonlar, yardımçı otaqlar tikiləcəkdir. Sifarişçi Gənclər və İdman Nazirliyi, podratçı isə «Avanqard» firmasıdır. Olimpiya İdman Mərkəzinin tikintisi 2008-ci ildə başa çatdırılacaqdır.*

*Dövlətimizin başçısı gilizi təmələ qoydu və beton qarışığını tökdü.*

*Prezident İlham Əliyev idmançıları və inşaatçıları təbrik etdi, onlara uğurlar arzuladı. Söhbət zamanı dövlətimizin başçısı bildirdi ki, burada işlərin birinci mərhələsi başa çatdıqdan sonra tikinti işləri davam etdiriləcəkdir. Əhalisi çox olan rayonlarda olimpiya idman kompleksləri tikildikdən sonra əhalisi az olan rayonlarda, o cümlədən də Qobustan rayonunda gələcəkdə belə kompleks tikiləcəkdir. Yaxın vaxtlarda Bakıdan Şamaxı, İsmayıllı və Qəbələyə, sonra isə Gürcüstan sərhədinə qədər*

*müasir yol çəkiləcəkdir. Buraya turistlər gələcək, idmançılar bu idman mərkəzindən istifadə edəcəklər. Qobustan rayonu idmançılarının da uğurları vardır. Ölkəmizdə bundan sonra da idmana diqqət və qayğı göstəriləcək və Qobustan idmançıları da gözəl idman mərkəzindən istifadə edərək, Azərbaycanın bu sahədə uğurlar qazanmasına öz töhfələrsini verəcəklər.*

## Ticarət mərkəzi ilə tanışlıq

*Prezident İlham Əliyev oktyabrın 23-də Mərəzə qəsəbəsində yeni tikilmiş Ticarət mərkəzi ilə də tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, 3 hektar sahəni əhatə edən Ticarət mərkəzinin inşasına 2007-ci ilin aprelində başlanılmış və 6 ay ərzində işlər tamamlanmışdır. «Qobustan Holding» şirkəti tərəfindən inşa edilmiş Ticarət mərkəzi 3 bölmədən ibarətdir. Birinci bölmədə meyvə-tərəvəz, bostan məhsulları, balıq məhsulları və sair mallar satılır. İkinci və üçüncü bölmələrdə əsasən ticarət mağazaları yerləşir. Burada yundarama sexi və qəssabxana da fəaliyyət göstərir. Mərkəzdə 80 nəfərlik mehmanxana, yardımçı binalar vardır. Həyətdə gül saatı quraşdırılmış, ətraf ərazi abadlaşdırılmışdır. Burada təxminən 110 yeni iş yeri yaradılmışdır.*

*Prezident İlham Əliyev ayrı-ayrı mağazalara baxdı, məhsulların çeşidi və qiymətləri ilə maraqlandı, satıcı və alıcılarla söhbət etdi. Onlar bildirdilər ki, əvvəllər sakinlər lazım olan malları, məhsulları almaq üçün başqa yerlərə gedirdilər, indi isə burada hər şey var. Bu Sizin ölkəmizdə apardığınız iqtisadi siyasətin nəticəsidir. Allah Sizin köməyiniz olsun!*

*Dövlətimizin başçısı avtomobil satışı mərkəzi ilə də tanış oldu, görülən işləri yüksək qiymətləndirdi, gələcəkdə rayonun daha da inkişaf edəcəyini bildirdi.*

## Heydər Əliyev parkının açılış mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 23-də Qobustan rayonunun Mərəzə qəsəbəsində xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyan parkın təntənəli açılış mərasimində iştirak etmişdir.*

*Buraya toplaşan minlərlə sakin dövlətimizin başçısını və xanımını böyük hörmət və ehtiramla qarşıladı.*

*Prezidentə məlumat verildi ki, ərazisi 5 hektar olan parkda istirahət zonası yaradılmış, müasir üslubda musiqili rəngli fəvvarələr, süni bulaqlar qurulmuş, çoxlu oturacaq qoyulmuşdur. Ərazidə çəmənlik salınmış, gül kolları və ağaclar əkilmişdir. Uşaqlar üçün yelləncəklər, idman qurğuları var. Park ərazisində Yeni Azərbaycan Partiyası rayon təşkilatının qərargahı, uşaq və incəsənət mərkəzi, nikah binası tikilmişdir. Ulu öndər Heydər Əliyevin heykəli bu istirahət güşəsinə xüsusi görkəm verir. Postamentlə birlikdə hündürlüyü 6,1 metr olan, qranitdən və tuncdan hazırlanmış abidənin müəllifi Xalq rəssamı, akademik Ömər Eldarovdur.*

*Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva parkla tanış oldular, ulu öndərin abidəsini ziyarət edərək gül dəstələri qoydular.*

*Sonra dövlətimizin başçısı parkın ərazisində yerləşən Heydər Əliyev muzeyinə gəldi. Muzeyin açılışını bildirən lenti kəsdi, umummilli liderimizin həyat və fəaliyyətinin bütün dövrlərini əks etdirən fotostendlərə maraqla baxdı. Burada ulu öndərə həsr olunmuş kitablar, müxtəlif sənədlər də toplanmışdır. Bildirildi ki, rayon orta məktəblərində təhsil alan şagirdlər, eləcə də sakinlər muzeyə gələrək ulu öndərin zəngin irsini öyrənəcək, onun fəaliyyətinə dair videofilmlərə baxacaqlar. Prezident İlham Əliyev muzeylə tanışlıqdan sonra Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

*Sonra parkda rayon ictimaiyyətinin nümayəndələri ilə görüş keçirildi.*

## QOBUSTAN RAYONU İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

*Qobustan rayonu*

*23 oktyabr 2007-ci il*

Əziz dostlar!

Əziz qobustanlılar, mən sizin hamınızı ürəkdən salamlayıram və Heydər Əliyev muzeyinin açılışı münasibətilə sizi təbrik edirəm.

Muzeydəki eksponatlar, fotoşəkillər ulu öndərin həyat və fəaliyyətini göstərir. Müxtəlif dövrlərə – həm 1970–80-ci illərə, həm də müstəqillik illərinə aid olan şəkillər var. Azərbaycan xalqının ümummilli lideri bütün bu dövrlərdə öz xalqına sədaqətlə, ləyaqətlə xidmət etmiş, Azərbaycanın inkişafına öz töhfəsini vermişdir. İctimai-siyasi quruluşundan asılı olmayaraq, xalqın lideri Azərbaycanı çətin vəziyyətdən qurtarmış, 1970–80-ci və 1990–2003-cü illərdə inkişaf yoluna çıxarmışdır. Bu gün bu siyasət Azərbaycanda bütün sahələrdə davam edir. Azərbaycanın hərtərəfli inkişafı, uğurlu xarici və daxili siyasəti, aparılan köklü islahatlar ölkəmizi daha da gücləndirir.

Dünən Nazirlər Kabinetinin iclasında 2007-ci ilin 9 ayının yekunları müzakirə olunmuşdur. Bu müzakirə bir daha onu göstərdi ki, bizim bütün planlarımız həyatda öz əksini tapır. İqtisadi artım dünyada ən yüksək sürətlə davam edir, daxildə siyasi sabitlik möhkəmlənir, ictimai asayiş qorunur. Azərbaycanın uğurlu xarici siyasəti ölkəmizin beynəlxalq mövqelərini möhkəmləndirir. Biz xarici siyasətdə çox fəalıq, çox böyük uğurlar əldə etmişik. Əlbəttə ki, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi proqramlar da bizi sevindirir. Bu

proqramların icrası sayəsində ölkədə, o cümlədən Qobustan rayonunda böyük abadlıq-quruculuq işləri aparılır. Bax, bu yerdə, bu ərazidə hələ 2 il bundan əvvəl heç nə yox idi, boş bir ərazi idi. Ancaq bu gün burada gözəl park salınıb, gözəl muzey yaradılıb, abidə qoyulub, gənclər evi, yaradıcılıq mərkəzi, digər obyektlər var. Yəni bu, görülən işlərin real nəticələridir və bütün rayonlarda indi inkişaf çox sürətlə gedir.

Bu gün mən Qobustan rayonunda yeni tikiləcək Olimpiya İdman Mərkəzinin təməlini qoydum. Əminəm ki, bu kompleks qısa müddət ərzində tikilib idmançıların və rayon sakinlərinin istifadəsinə veriləcəkdir. Orada həm idmanla məşğul olmaq üçün gözəl şərait yaradılacaq, həm də bütövlükdə, insanların sağlamlığının möhkəmləndirilməsi üçün çox gözəl şərait – üzgüçülük hovuzu, müxtəlif idman zalları, trenajor zalları olacaqdır. Yəni, idmanla məşğul olmaq təkcə idmançıların işi deyil, hər bir vətəndaş öz sağlamlığını möhkəmləndirmək üçün idmana fikir verməlidir.

Eyni zamanda, böyük ticarət mərkəzi ilə tanış oldum. Mənə verilən məlumata görə, bu vaxta qədər Qobustan rayonunda belə bir mərkəz yox idi, bazar da yox idi. Kənd təsərrüfatı məhsullarını almaq üçün insanlar ya Şamaxıya, ya da Bakıya gedirdilər, bu da onlara böyük əziyyət verirdi. İndi isə bu ticarət mərkəzi burada yaradılıbdır. Gələcəkdə o öz fəaliyyətini genişləndirə və bu bölgənin böyük ticarət mərkəzinə çevrilə bilər.

Rayonda sosial proqramlar icra olunur. Bilirəm ki, həm dövlət büdcəsinin həm də ki, Heydər Əliyev Fondunun hesabına bir neçə məktəb tikilibdir və tikilir. Bu sahəyə də böyük diqqət göstərilir.

Yəni, indi Azərbaycanın bütün bölgələrində yaşanan inkişaf Qobustan rayonunda da hiss olunur. Biz bütün rayonlara böyük diqqət göstəririk və regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının da əsas məqsədi ondan ibarət olmuşdur ki, Azərbaycanın bölgələri inkişaf etsin. Bakı, bizim paytaxtımız öz inkişaf dövrünü yaşayır və bu təbiidir. Çünki bütün əsas infrastruktur, sənaye potensialı, iqtisadi imkanlar Bakıdadır. Amma biz istəyirik ki, bölgələr

də inkişaf etsin və bölgələrdə mövcud olan şərait, infrastruktur, bütün imkanlar ən yüksək səviyyəyə çatsın. Bu məqsədlə bölgələrdə məktəblər, xəstəxanalar, ticarət mərkəzləri tikilir, yollar salınır. Bu yaxınlarda Bakıdan Qobustana və sonra ta sərhədə qədər yeni yolun salınması gözlənilir. Bu, bölgəyə yeni nəfəs gətirəcəkdir. Çünki yol inkişaf deməkdir. Yol olmayan yerdə inkişaf da olmur. Ona görə də əminəm ki, müasir, ən yüksək dünya standartlarına cavab verən yol tikintisi rayonun iqtisadiyyatına əlavə töhfə və təkan verəcəkdir.

Regionlarda kənd təsərrüfatı məhsullarının emal müəssisələri yaradılır və Qobustan rayonunda da bu sahəyə diqqət göstərilməlidir. Böyük quruculuq-abadlıq işləri aparılır və tikilən binalar yüksək standartlara cavab verir. Məsələn, bu gözəl muzey, yaxud da ki, bu parkdakı digər binalar çox böyük zövqlə tikilibdir.

Yəni, bir sözlə, Azərbaycanın regionları inkişafdadır. Regional inkişaf proqramına böyük diqqət göstərilir. Yerlərdə işsizliyin aradan qaldırılması, yoxsulluğun azaldılması üçün praktik tədbirlər görülür. Əlbəttə ki, bu tədbirlərin görülməsi üçün başlıca şərt dövlət proqramlarının olmasıdır. Bu proqramlar da var. Həm yoxsulluqla mübarizə proqramı var – biz bunu Dünya Bankı ilə birlikdə icra edirik – həm də işsizliyin aradan qaldırılması üçün lazımi tədbirlər görülür. Azərbaycanın iqtisadiyyatı çoxşaxəli şəkildə inkişaf edir. Emal müəssisələri, «Aqrolizinq» Səhmdar Cəmiyyətinin fəaliyyəti – bütün bunlar özəl sektora, kənd təsərrüfatına təkan verə biləcək amillərdir. Bu proqramlar var və dövlət xətti ilə bütün lazımi tədbirlər görülür. Ancaq o da həqiqətdir ki, əgər mərkəzdə qəbul edilmiş qərarlar yerlərdə düzgün icra olunmursa, yerli təşəbbüs göstərilmirsə, yəqin ki, bizim uğurlarımız yarımçıq olacaqdır. Məhz bütün bu kompleks tədbirlərin nəticəsində biz uğura nail ola bilərik. Düzgün qəbul edilmiş qərarlar, iqtisadi və sosial sahəyə aid proqramlar, o proqramların maddi resursları, icra mexanizmləri və yerlərdə onların düzgün icra olunması – bax, bütün bu amillər birlikdə bizim bütün məqsədlərimizi yaxınlaşdıra bilər və onda Azərbaycan qarşıda duran bütün problemləri həll edəcəkdir.

Biz indi istənilən məsələnin həlli üçün bütün imkanlara malikik. Azərbaycanda çox gözəl ictimai-siyasi mühit var. Azərbaycanda çox böyük işlər görülür, infrastruktur layihələri həyata keçirilir. Büdcə xərcləri artır. Dünən bu barədə çox geniş fikir mübadiləsi olmuş və göstərişlər verilmişdir, biz gələcəkdə nə etməliyik, hansı işləri görməliyik, hansı sahələri inkişaf etdirməliyik? O sahələri ki, onlar Azərbaycanın hərtərəfli inkişafına xidmət göstərəcəkdir.

İndi regionda bizim mövqelərimiz də çox möhkəmdir. Həm enerji layihələrimiz, neft-qaz əməliyyatlarımız, həm də ki, nəqliyyat və infrastruktur layihələrimiz Azərbaycanı hərtərəfli şəkildə möhkəmləndirir.

Gələcəkdə də bizim imkanlarımız ancaq və ancaq artacaqdır. Heydər Əliyevin neft strategiyasının icrası nəticəsində növbəti illərdə Azərbaycana böyük valyuta axını gözlənilir. Biz bütün sahələri inkişaf etdirəcəyik. Dövlət investisiya xərcləri ildən-ilə artır, sahibkarlıqla məşğul olanlar üçün kreditlərin verilməsi davam edir, artıq üçüncü il olacaq ki, bu məqsədlərə dövlət büdcəsindən təxminən 100 milyon dollar vəsait ayrılır. Özəl sektorun inkişafı, kənd təsərrüfatının, emal müəssisələrinin inkişafı imkan verəcək ki, bölgələrdə də işsizlik tamamilə aradan qaldırılsın, yoxsulluq aradan qaldırılsın və insanlar yaxşı şəraitdə yaşasınlar.

Büdcə təşkilatlarında çalışan insanların sosial müdafiəsi həmişə diqqət mərkəzindədir. Çünki büdcə təşkilatlarında çalışanların özəl bizneslə, sahibkarlıqla məşğul olmaq üçün nə imkanları, nə də vaxtı var. Ona görə dövlət o insanlara öz qayğısını göstərməlidir. Əməkhaqlarının, minimum əməkhaqqının və orta əməkhaqqının qaldırılması bu insanlara, əlbəttə ki, böyük dəstək olacaqdır. Biz öz büdcə xərclərimizi çox böyük dərəcədə artırırıq. Dünən mən bu barədə məlumat verdim ki, son dörd il ərzində Azərbaycanın dövlət büdcəsi təxminən 10 dəfə artıbdır. Bunun nə demək olduğunu hamı yaxşı başa düşür. 10 dəfə çox investisiya qoyulacaq, daha yüksək məvacib veriləcək, infrastruktur layihələri həyata keçiriləcəkdir. Yəni, Azərbaycanın sosial və iqtisadi məsələlərinin həlli üçün bütün imkanlar var. İqtisadi, sosial və siyasi

baxımdan ölkəmiz çox güclənir və bölgədə mövqeyimiz möhkəmlənir, qonşu ölkələrlə münasibətlərimiz inkişaf edir və bu bizim üçün çox vacibdir. Çünki biz bu bölgədə yaşayırıq və qonşu dövlətlərlə münasibətləri yaxşı saxlamalıyıq, inkişaf etdirməliyik. Bu inkişaf mövcuddur və bütün başqa ölkələrlə münasibətlərimiz yalnız bərabərhüquqlu əsasda, qarşılıqlı maraq və qarşılıqlı hörmət əsasında qurulur.

Azərbaycan artıq dünyada öz yerini möhkəm tutub, ölkəmiz çox böyük hörmətə malikdir və təsadüfi deyil ki, müxtəlif çərçivələrdə, müxtəlif qurumlarda, təşkilatlarda Azərbaycanın iştirakı gözlənilir və biz bu əməkdaşlığa dəvət olunuruq. Bir çox hallarda özümüz beynəlxalq və regional müstəvidə müxtəlif layihələrin – həm siyasi, həm iqtisadi layihələrin təşəbbüskarı oluruq. Bu təşəbbüsləri irəli sürməklə həm beynəlxalq əlaqələrimiz möhkəmlənir, həm də mövqeyimiz güclənir və nəticədə Azərbaycanın inkişafı üçün daha da gözəl şərait yaranır.

Ölkəmizin çox gözəl və parlaq gələcəyi var. Əminəm ki, bir neçə ildən sonra biz inkişaf etmiş ölkələrin sırasına daxil olacağıq. Yəni, bütün görülən işlər və əldə edilmiş nailiyyətlər buna dəlalət edir. Ancaq hazırda ölkədə kifayət qədər problemlər də var və biz bu problemləri bilirik. Həm sosial, həm iqtisadi problemlər var, bəzi hallarda sosial ədalət prinsipləri pozulur, milli-mənəvi dəyərlərimizə münasibət lazımi səviyyədə olmur.

Yəni, bu məsələlərlə biz daim məşğul olmalıyıq. Həm sosial problemlərin aradan qaldırılması, sosial ədalətin bərqərar olunması, həm də milli-mənəvi dəyərlərimizin qorunub saxlanması – bütün bu məsələlər ölkə üçün həyati əhəmiyyət kəsb edir və burada heç bir fərq qoymaq olmaz, heç bir ardıcıllıq qoymaq olmaz. Bütün bu məsələlər çox vacibdir. Ölkəmizin qüdrəti, insanların rifah halının yaxşılaşması və Azərbaycan xalqının gələcək həyatı – bütün bunlar bizdən asılıdır. Bizim işimizdən, fəaliyyətimizdən, doğma xalqımıza, torpağımıza bağlılığımızdan asılıdır və Azərbaycanda vətənpərvərlik ruhunda böyüyən gənc nəsil bütün bu gözəl imkanlardan istifadə etməlidir. Gənclər yaxşı oxumalı, təhsil

almalıdırlar, yaxşı işləməli, həyatda öz yerlərini tutmalıdırlar. Öz bilikləri, təcrübəsi ilə gələcəkdə ölkəmizin inkişafında iştirak etməlidirlər.

Bizim böyük imkanlarımız, təbii sərvətlərimiz var. Artıq o sərvətləri biz dənizin dibindən çıxarıb dünya bazarlarına nəql edirik və ölkə xəzinəsi bundan böyük fayda götürür. Bu bizə çox böyük iqtisadi imkanlar yaradır. Biz bu gözəl imkanlardan istifadə etməliyik və bu kapitalı insan kapitalına çevirməliyik – təhsilə, savada, biliyə, sosial infrastrukturun möhkəmlənməsinə, səhiyyə sisteminin yaxşılaşmasına, güclənməsinə yönəltməliyik. Yəni, insanların gündəlik həyatda təmasda olduğu bütün məsələlər öz həllini tapmalıdır. Şəhər və rayon təsərrüfatı, abadlıq-quruculuq işləri – bütün bunlarla biz məşğuluq. Deyə bilərəm ki, son dövr ərzində həm statistik göstəricilərə görə, həm real nəticələrə görə Azərbaycan çox böyük addım atıbdır və biz bu sürətlə irəliyə gedirik. Milli dəyərlər əsasında müasir dövlət yaradırıq, o dövlət ki, bütün azadlıqlar var, insanlar rahat, təhlükəsizlik şəraitində yaşayırlar. Mən çox istəyirəm ki, tezliklə bütün Azərbaycan xalqı rifah içində yaşasın. Hələ ki, biz buna nail ola bilməmişik və bunun həm obyektiv, həm də subyektiv səbəbləri var. Ancaq dinamika müsbətdir. Azərbaycan xalqı ildən-ilə daha da yaxşı yaşayır və yaşamalıdır. Bu dinamika gələcəkdə yüksələn xətlə davam edəcək və hər bir yerdə, hər bir rayonda, hər bir kənddə müsbət dəyişikliklər hiss olunmalıdır. İnsanlar öz həyatlarında bunu hiss etməlidirlər. Makroiqtisadi göstəricilər, ümumi daxili məhsulun yüksək sürətlə artması, sənaye məhsulunun artması və sair iqtisadi göstəricilər, əlbəttə ki, hər bir ölkə üçün vacibdir. Ancaq insanları ilk növbədə narahat edən və maraqlandıran onların real həyat səviyyəsidir və bu həyat səviyyəsini yaxşılaşdırmaq üçün biz səylərimizi qoyuruq və bundan sonra da qoyacağıq. Bu işlərdə, bu siyasətdə Azərbaycan xalqının böyük dəstəyini hiss edərək lazım olan bütün tədbirləri və islahatları daha da cəsarətlə, inamla həyata keçiririk və keçirəcəyik.

Mən bu gün Qobustan rayonunda vəziyyətlə tanış olarkən bir daha görürəm ki, hər bir rayonda bu gözəl inkişaf

əlamətləri özünü göstərir. Daha da yaxşı işlər görülməlidir, daha da fəal işləməliyik. Hamımız – prezidentdən tutmuş, ən kiçik məmura qədər və bütün ictimaiyyət, bütün fəallar, Azərbaycan xalqı bir nöqtəyə vurmalıdır ki, ölkəmizi daha da möhkəmləndirək. İndi həm bölgədə, həm də ki, artıq dünya müstəvisində kifayət qədər bizim güclü mövqelərimiz var. Biz elə etməliyik ki, bu mövqelər daha da möhkəmlənsin. Çünki nəticədə Azərbaycanın güclənməsi hər bir insanın həyat səviyyəsini yaxşılaşdıracaq, hər bir insanın normal yaşaması isə, ümumən, ölkəmizi gücləndirəcəkdir.

Mən bu işdə sizin hamınıza uğurlar arzulayıram. Arzu edirəm ki, hər şey yaxşı olsun, rayonda bütün işlər uğurla getsin. Burada başladığımız bütün binalar, olimpiya kompleksi, məktəblər, həm yollar, digər sosial infrastrukturlar tezliklə tikilsin. Bir sözlə, rayon inkişaf etsin, insanlar həyatdan razı olsunlar və ölkəmiz irəliyə getsin. Bu arzularla mən sizdən ayrılıram, sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

## OĞUZ–QƏBƏLƏ–BAKI SU KƏMƏRİ TİKİNTİSİ İLƏ TANIŞLIQ

*23 oktyabr 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 23-də Qobustan rayonuna səfərini başa çatdırdıqdan sonra İsmayıllı rayonunun Gəraybəyli kəndi yaxınlığında Oğuz–Qəbələ–Bakı su kəmərinin tikintisinin gedişi ilə tanış olmuşdur.*

*İnşaatçılar Azərbaycan prezidentini və xanımını səmimiyyətlə qarşıladılar. «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti Nizaməddin Rzayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi. Bildirildi ki, bu ilin mart ayında tikintisinə başlanılmış su kəmərinin keçəcəyi ərazilərdə – Qəbələ, Ağsu və Bakıda inşaat işlərinin görülməsi üçün 3 düşərgə yaradılmışdır. Hacıqabul ərazisində isə dördüncü düşərgənin yaradılması nəzərdə tutulur. Tikinti işlərinə 300-dən çox texnika cəlb olunmuşdur. Burada istifadə olunan borular Sumqayıtda istehsal edilir. Kəmərin Gəraybəyli kəndi yaxınlığına qədər çəkilmiş hissəsində 250 ədəd havaburaxıcı və suburaxıcı qurğu quraşdırılmışdır. Su kəmərinin 217 kilometrlik hissəsinə 10 atmosfer təzyiqinə davamlı, qalan hissələrinə isə 16, 20 və 22 atmosfer təzyiqinə tab gətirən borular düzüləcəkdir. Oğuzdan su öz təzyiqi ilə gələcək, nasoslara ehtiyac qalmayacaqdır. Relyefə görə təhlükəsizlik baxımından bütün tədbirlər görülür. 12 ədəd çay keçidi, 10 ədəd yol keçidi, 33 ədəd dəmiryol keçidi inşa olunmuşdur. İndiyədək 760 min kubmetrdən çox torpaq işləri görülmüşdür. Borular 4,2 metr dərinlikdə basdırılır.*

*Prezident İlham Əliyev podratçı şirkətlərin nümayəndələrindən işlərin gedişini soruşdu. Məlumat verildi ki, işlər plana uyğun gedir və boruların keyfiyyəti yüksəkdir. Dövlətimizin başçısı kəmərdə yüksək təzyiqin aşağı salınması üçün Göyçay və Bakı yaxınlığında qurğuların quraşdırılmasına ehtiyac olduğunu bildirdi. Prezidentə məlumat verildi ki, bütün*

*bunlar nəzərə alınmışdır, təzyiqin azaldılması məqsədilə xüsusi qurğular quraşdırılacaqdır. Tikintidə işlər kompleks şəkildə görülür. 600 yerli inşaatçı çalışır və əməkhaqqı 300–1500 manat həddindədir.*

*Prezident İlham Əliyev bildirdi ki, gələcəkdə bir çox kəmərlər də çəkiləcək, bunlarda ölkəmizdə istehsal olunan borulardan istifadə ediləcək və beləliklə, yeni böyük istehsal sahəsi yaranır.*

*Sonra dövlətimizin başçısı boruların düzülməsi prosesini izlədi. Smeta dəyəri təxminən 480 milyon manat olan Oğuz–Qəbələ–Bakı su kəmərinin tikintisi nəzərdə tutulduğu kimi, 2008-ci ildə başa çatdırılacaq və istifadəyə veriləcəkdir.*

*Prezident İlham Əliyev inşaatçılara uğurlar arzuladı, onlarla xatirə şəkli çəkdirdi.*

## PREZİDENT İLHAM ƏLİYEV YEVLAX ŞƏHƏRİNDƏ

*23 oktyabr 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 23-də günün ikinci yarısında Yevlax şəhərinə gəlmişdir.*

**İlham Əliyev**: Əziz bacılar və qardaşlar, əziz yevlaxlılar!

Axşamınız xeyir olsun, mən elə indi gəlmişəm və eşitmişəm ki, burada gözəl konsert olacaq və məni də gözləyirsiniz. Ona görə sizinlə görüşə gəldim. Hamınızı ürəkdən salamlayıram.

Burada gördüklərim bir daha təsdiqləyir ki, Yevlax çox sürətlə inkişaf edir, dirçəlir. Mən burada axırıncı dəfə inişil, iki il bundan əvvəl olmuşam. Sabah şəhərdəki yeniliklərlə daha da yaxından tanış olacağam. Amma məlumatım var, bilirəm ki, burada çoxlu işlər görülür, fabriklər, zavodlar tikilir, abadlıq işləri aparılır, parklar salınır, insanların istirahəti üçün gözəl şərait yaradılır.

Şəhərin bu axşam görüntüsü – yəqin siz də bunu təsdiqləyərsiniz – elə bil ki, dünyanın ən qabaqcıl şəhəri səviyyəsindədir. Azərbaycan inkişaf edir, Azərbaycan çiçəklənir. Azərbaycanın bütün bölgələrində işlər elə gedir və getməlidir ki, ən yüksək dünya səviyyəsi Azərbaycana gəlsin və biz buna nail oluruq. Mən Yevlaxın timsalında bunu görürəm. Bilirəm ki, burada yerli icra orqanları çox səmərəli, çox böyük fədakarlıqla, böyük işgüzarlıqla işləyir. Burada yaradılan bu gözəl şərait insanlara xidmət edir.

Mən bu gün çox danışmaq istəmirəm, sabah biz görüşəcəyik. Sadəcə, gəldim ki, sizə öz ürək sözlərimi deyəm, öz məhəbbətimi, öz hörmətimi bütün yevlaxlılara çatdıram. Hamınıza cansağlığı, xoşbəxtlik arzulayıram.

## HEYDƏR ƏLİYEV ADINA SARAYIN AÇILIŞ MƏRASİMİ

*24 oktyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 24-də Yevlax şəhərində xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət etmiş və ulu öndərin abidəsi önünə gül dəstələri qoymuşlar.*

*Sonra dövlətimizin başçısı Heydər Əliyev adına sarayın açılış mərasimində iştirak etdi.*

*Prezident İlham Əliyev sarayın rəmzi açılışını bildirən lenti kəsdi, bu mədəniyyət ocağı ilə tanış oldu. Bildirildi ki, 2006-cı ildə Nazirlər Kabinetinin sərəncamına əsasən saraya Heydər Əliyevin adı verilmişdir. Sarayın binası 1963-cü ildə tikilmiş və son bir ildə əsaslı şəkildə yenidən qurularaq müasir görkəm almışdır. İkimərtəbəli binanın birinci mərtəbəsində 400 nəfərlik salon yerləşir. Foyedə Heydər Əliyevin büstü qoyulmuşdur. Ulu öndərin və prezident İlham Əliyevin fəaliyyətini əks etdirən fotostendlər vardır.*

*Sarayda müasir işıqlandırma sistemi, Yaponiya istehsalı olan aparatura quraşdırılmışdır.*

*Prezident İlham Əliyev sarayda görülmüş yenidənqurma işlərini yüksək qiymətləndirdi.*

## YEVLAX ŞƏHƏRİ İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

*24 oktyabr 2007-ci il*

Əziz yevlaxlılar!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və bu gün Heydər Əliyev adına sarayın açılışı münasibətilə sizi təbrik edirəm.

Bu gözəl və müasir saray ulu öndər Heydər Əliyevin adını daşıyır. Azərbaycan xalqının rifah halının yaxşılaşmasında, Azərbaycanda müstəqil dövlətin qurulmasında Heydər Əliyevin rolu danılmazdır və bu gün Azərbaycanın inkişaf etdirilməsinə xidmət göstərir. 1970–80-ci illərdə biz başqa ictimai-siyasi quruluşda yaşayırdıq. O vaxt da Azərbaycan müttəfiq respublikalar arasında ən axırıncı yerdən ən birinci yerə çıxmışdı. Əgər o illərin statistikasına nəzər salsaq görərik ki, 1969-cu ildə Heydər Əliyev Azərbaycana rəhbərliyə gələndə, bütün başqa respublikalardan fərqli olaraq, Azərbaycan ən aşağı səviyyədə idi. Həm iqtisadi inkişaf baxımından, sənaye istehsalı baxımından və həm də sosial infrastrukturun mövcudluğu baxımından. Amma 1982-ci ildə artıq Heydər Əliyev Moskvaya dəvət olunanda Azərbaycan müttəfiq respublikalar arasında birinci yerdə idi.

Eyni mənzərəni biz müasir dövrdə də yaşadıq. 90-cı illərin əvvəllərində Azərbaycan müstəqilliyinə qovuşduqda çox böyük çətinliklərlə üzləşmişdi. Ölkədə çox xoşagəlməz proseslər gedirdi. Özbaşınalıq, xaos və iqtisadi böhran hökm sürürdü. Azərbaycanın iqtisadi vəziyyəti çox acınacaqlı idi. Faktiki olaraq, Azərbaycanda sənaye istehsalı dayanmışdı və iqtisadiyyat məhv edilirdi. Heydər Əliyevin qətiyyəti, onun siya-

səti və fəaliyyəti nəticəsində 1993-cü ildən 2003-cü ilə qədər Azərbaycan böyük və şərəfli yol keçmişdir və bu gün bu siyasət davam etdirilir. Əgər indi biz nəinki keçmiş Sovet İttifaqı respublikalarının, hətta bütün başqa dünya ölkələrinin iqtisadi artımına baxsaq, görərik ki, son 3 ildə Azərbaycan kimi iqtisadi cəhətdən inkişaf edən ölkə yoxdur. Biz iqtisadi artımın sürətinə görə dünyanın birinci ölkəsiyik. Bu liderliyi 3 ildir saxlayırıq və əminəm ki, gələcək illərdə də saxlayacağıq. Bu, real həyatdır. Bu, şəxsiyyətin tarixdə roludur və biz bu gün Heydər Əliyev siyasətinə sadiq qalaraq, ölkəmizi daha da inkişaf etdiririk. İndi ölkəmizin qarşısına yeni vəzifələr çıxır, yeni çağırışlar çıxır – həm xarici siyasətdə, həm daxili siyasətdə. Biz buna hazırıq və öz əməyimizlə, fəaliyyətimizlə ölkəmizin hərtərəfli inkişafı üçün çalışırıq.

Bu gün Azərbaycan istənilən məsələni həll edə bilər. Biz ölkə daxilində böyük işlər görürük – infrastruktur layihələri, böyük layihələr həyata keçirilir, həm ölkəmiz üçün, həm də dünya üçün əhəmiyyətli layihələr həyata keçirilir. Dövlət investisiya xərcləri artır. Dövlət büdcəmiz son 4–5 il ərzində təxminən 10 dəfə artıbdır və ölkədə bütün işlər bu iqtisadi artımın hesabına görülür. Əgər bu olmasaydı, iqtisadi məsələlərə belə böyük diqqət göstərməsəydik, bizim imkanlarımız məhdud olacaqdı. Bu gün isə Azərbaycanın qarşısında çox gözəl perspektivlər açılır.

Biz ulu öndərin təşəbbüsü ilə başlanmış və uğurla davam etdirilən neft strategiyamızı irəliyə aparırıq. Bu siyasət Azərbaycana çox böyük iqtisadi mənfəət gətiribdir, eyni zamanda, siyasi kapital yaradır. Azərbaycan indi dünyada sayılan ölkələrdən biridir, dünyada söz sahibidir. Bizim təşəbbüsümüzlə həyata keçirilən layihələr həm ölkəmizi gücləndirir, həm də regional inkişafa müsbət təsir göstərir. Əlbəttə ki, biz bu gözəl imkanlardan faydalanırıq. Bu imkanları biz özümüz yaratmışıq, heç kim bunu bizim əvəzimizə etməyibdir. Azərbaycan xalqı ancaq öz gücünə arxalanır və biz, sözün əsl mənasında, müstəqil siyasət aparırıq. Müstəqil siyasət o deməkdir ki, xalqın maraqlarına uyğun aparılır. Bizim siyasətimizdə də Azərbaycan xalqının milli maraqları ən bi-

rinci yerdədir. Məhz bu gün Azərbaycanın həm siyasi, həm iqtisadi imkanları bu siyasətin aparılması üçün gözəl şərait yaradır. Biz bundan istifadə edərək ölkəmizi daha da inkişaf etdirməli, daha da böyük işlər görməliyik. Həm iqtisadi, həm siyasi, həm də sosial sahədə nəzərdə tutulmuş bütün proqramlar vaxtlı-vaxtında icra olunmalıdır. Regionların sosial-iqtisadi inkişaf proqramı uğurla icra edilir. Bütün rayonlarda böyük inkişaf, canlanma var, binalar tikilir, zavodlar, fabriklər, sosial obyektlər tikilir. Beləliklə, Azərbaycanın iqtisadiyyatı çoxşaxəli şəkildə inkişaf edir. Həm qeyri-neft sektoru inkişaf edir, sahibkarlıq inkişaf edir və həm də insanların həyat səviyyəsi yaxşılaşır.

Azərbaycanda son illər ərzində əldə edilmiş bu nəticələr Yevlaxda da görünür və açıq demək istəyirəm ki, bəlkə də başqa bölgələrlə müqayisədə Yevlaxda daha da böyük işlər görülür və siz də bunu gözəl bilirsiniz. Müqayisə aparmaq üçün statistik rəqəmlərə baxmaq və Yevlaxın müasir simasına nəzər salmaq kifayətdir. Mən üç il bundan əvvəl burada olmuşam. Ondan əvvəlki illərdə də olmuşam. Yaxşı bilirəm burada vəziyyət necə idi, siz də bunu yaxşı bilirsiniz. Bu gün isə deyə bilərəm ki, Yevlax Azərbaycanın ən inkişaf etmiş şəhərləri sırasındadır və bu münasibətlə mən sizi təbrik edirəm. Şəhərin axşam görüntüsü də çox gözəldir. Dünən mən axşam gəzintiyə çıxdım, insanlarla görüşdüm, parklara baxdım və gördüm ki, doğrudan da çox müasir, gözəl səviyyədədir. Binalar tikilir, işıqlandırılır, parklar salınır. Yəni həm sosial infrastrukturun yaradılması, həm də insanların rahatlığı üçün çox böyük işlər görülür. Eyni zamanda, şəhərin iqtisadi potensialının möhkəmlənməsi üçün. Bu gün mən bir neçə sənaye obyektində olacağam, orada gedən işləri öz gözümlə görəcəyəm. Amma bilirəm, məlumatım var ki, Yevlaxda son müddət ərzində çox böyük sənaye kompleksləri tikilibdir. O komplekslər ki, iş yerləri yaradır, eyni zamanda, yerli istehsalı yaradır. Elmar Vəliyevin dediyi kimi, artıq Yevlaxda istehsal edilən məhsullar xaricə ixrac olunur. Bu, böyük nəticədir, böyük göstəricidir. Əvvəllər Azərbaycanda ixrac qabiliyyətli məhsullar o qədər də çox

deyildi. Bizim əsas ixrac potensialımız təbii ehtiyatlarla bağlı idi – neft, neft məhsulları, neft kimyası məhsulları. Ancaq bu gün Azərbaycanda müxtəlif məhsullar istehsal edilir və onlar ixrac olunur, özü də dünyanın aparıcı ölkələrinə. Həmin sənaye kompleksləri təkcə Bakıda deyil, Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Yevlaxda da yaradılır. Bunlar həm işsizliyin aradan qaldırılmasına, yoxsulluğun azaldılmasına xidmət edir, həm də şəhərin iqtisadi potensialını gücləndirir. Zavodlar, fabriklər – bunlar çox lazımdır, biz bunu həm dövlət investisiya xətti ilə etməliyik, həm Sahibkarlığa Kömək Milli Fondu vasitəsilə kreditlərin verilməsi ilə etməliyik. Sahibkarlığa daha da böyük dəstək verməliyik və elə şərait yaratmalıyıq ki, Azərbaycana investisiya qoymaq çox əlverişli iş olsun. Bu gün bu gözəl işlər görülür və Azərbaycanda bütövlükdə investisiya mühiti çox müsbətdir. Həm xaricdən, həm yerli sahibkarlar investisiya qoyurlar. Bizim müasir tariximizdə artıq birinci dəfədir ki, daxili investisiyalar xarici investisiyaları üstələyir. Yəni bu o deməkdir ki, artıq yerli sahibkarlar sinfi yaranıbdır. Onlar bu investisiyaları qoyur və dövlətin imkanları artır. Təkcə gələn il Azərbaycanın iqtisadiyyatına 3 milyard manat həcmində dövlət investisiyaları qoyulacaqdır. Yeni zavodlar, fabriklər, elektrik stansiyaları, su xətləri, qaz kəmərləri, yollar, körpülər tikiləcəkdir. Beləliklə, sahibkarlığın inkişafı üçün bu gözəl şərait yaradılır. Əlbəttə ki, yerli icra orqanları bu sahəyə böyük diqqət göstərməlidirlər, sahibkarlığa həmişə kömək etməli, onlara məhdudiyyətlər yaratmamalıdırlar ki, sahibkarlıq inkişaf etsin. Bax, Yevlaxda biz bunu görürük. Zavodlar, fabriklər yaranır. Özü də o zavodlar, fabriklər ki, yenə də deyirəm, onların istehsal etdiyi məhsullar yüksək səviyyədədir.

Sizin şəhərinizdə sosial infrastruktura böyük diqqət göstərilir. Məktəblər tikilir, parklar salınır. Bu, böyük vəsait tələb edir. Bir parkın yaradılması üçün nə qədər böyük zəhmət və vəsait lazımdır. Sosial sahə elə sahədir ki, burada iqtisadi səmərədən söhbət gedə bilməz. Zavod, fabrik tikilirsə, sonra oraya qoyulan vəsait qayıdır, mənfəət əldə edilir.

Amma parklar, xiyabanlar, yollar – bütün abadlıq işləri, sadəcə, onun üçündür ki, insanlar daha da yaxşı yaşasınlar. Bizim şəhərlərimizin siması dəyişsin, müasirləşsin, müasir infrastruktur olsun, rahatlıq olsun və Yevlaxda biz bunu görürük. Burada bir neçə park salınıb, məktəblər tikilir, böyük saraylar, muzeylər, stadionlar tikilibdir. Bu yaxınlarda böyük xəstəxana kompleksi tikiləcək, avtomobil yolları salinir. Bu onu göstərir ki, şəhər hərtərəfli inkişaf edir və Azərbaycanın müasir reallıqları məhz bundadır.

Həm də güclü iqtisadi potensialın yaradılmasıdır və biz buna nail olmuşuq. Bu gün Azərbaycan iqtisadi cəhətdən çox sürətlə inkişaf edən ölkədir. Sənaye potensialının yaradılması və möhkəmlənməsinə, böyük sənaye komplekslərinin tikintisinə, bəlkə də əvvəlki illərdə olan praktikaya artıq biz yenidən baxmalıyıq. Yerli xammala əsaslanan yeni müəssisələr yaradılmalıdır, müasir texnologiyalar, xarici texnologiyalar gətirilməlidir.

Sosial sahəyə diqqət göstərilməlidir, əlbəttə ki, ilk növbədə, dövlət tərəfindən. Maaşlar və pensiyalar, sosial müavinətlər artırılır və bu, gələcəkdə də olacaqdır. Eyni zamanda, insanların gündəlik təmasda olduqları sosial infrastrukturun yeniləşməsi – məktəblər, xəstəxanalar, poliklinikalar, parklar və sair. Bax, Azərbaycan bu istiqamətdə inkişaf edir. Ona görə bizim ölkəmizin inkişafı çox dinamikdir, çox müsbətdir və hərtərəflidir. Yəni biz, sadəcə, hansısa bir sahəni inkişaf etdirməklə məşğul deyilik, bütün sahələri inkişaf etdiririk. Əlbəttə ki, Azərbaycana ən böyük uğur və imkanlar gətirən Heydər Əliyev neft strategiyasını davam etdiririk. Onun yeni mərhələsinə qədəm qoyuruq. Demək olar ki, Azərbaycanda bütün neft-qaz əməliyyatları uğurla başa çatıbdır. Qarşıya qoyduğumuz bütün məqsədlərə çatmışıq. Heydər Əliyevin adını daşıyan Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisini uğurla başa çatdırmışıq və bu kəmər Azərbaycanın, xalqımızın uzunmüddətli inkişafını və rifahını təmin edəcəkdir.

Bundan başqa, digər enerji layihələrimizi həyata keçiririk. Onların həm ölkəmiz üçün, ölkənin iqtisadiyyatı üçün, həm də beynəlxalq əməkdaşlıq üçün böyük əhəmiyyəti var.

Beləliklə, Azərbaycanın dünyadakı mövqeyi artır. İndi hamı bilir ki, dünyada ən mötəbər dairələrdə ən çox müzakirə olunan məsələ enerji təhlükəsizliyidir. Bütün dünya bundan danışır. Xüsusilə inkişaf etmiş ölkələr ki, onlar xarici enerji resurslarından asılıdır. Azərbaycan öz enerji müstəqilliyini tam şəkildə təmin edibdir. Nəinki bu gün, 100 il, 150 il bundan sonra biz bu sahədə heç bir problem görməyəcəyik. Bu, əlbəttə ki, bizim gücümüzü artırır. Amma bizim gücümüzü artıran digər bir amil odur ki, biz başqa ölkələrin enerji təhlükəsizliyinə öz töhfəmizi veririk. Həm qonşu ölkələrə, həm də ki, Azərbaycana coğrafi baxımdan o qədər də yaxın olmayan ölkələrə. Beləliklə, bizim siyasi çəkimiz artır. Beləliklə, Azərbaycan özünün vacib bildiyi məsələləri dünya müstəvisində daha asanlıqla həll edə bilər və ölkəmiz çox böyük hörmətə malik olur. Beləliklə, neft siyasəti təkcə iqtisadi amil və enerji amili deyil, bu, geniş, geosiyasi gündəliyin böyük bir tərkib hissəsidir. Azərbaycan bu istiqamətdə dünya miqyasında öz rolunu oynayır və bu rol getdikcə artır. Bir daha demək istəyirəm ki, bu, ölkəmizə, xalqımıza əlavə imkanlar yaradır və əlbəttə ki, gələcəkdə görəcəyimiz işlər Azərbaycan xalqının rifah halının yaxşılaşmasına yönəldilməlidir. Biz də bunu edirik.

İldən-ilə artan büdcə, ildən-ilə artan maaşlar və iqtisadi imkanlar, əlbəttə ki, Azərbaycanın bütün bölgələrinin inkişaf etdirilməsinə şərait yaradacaqdır. Mən çox şadam ki, bizim bölgələrimiz canlanır. Bölgələrdə iş yerləri açılır, təbii yollarla miqrasiya hallarının qarşısı alınır. İş yerləri açıldıqda, əlbəttə ki, insanlar da başqa ölkələrə getməyəcəklər. İcra başçısı qeyd etdi ki, Yevlaxa nə qədər sakin qayıdıbdır. Əlbəttə ki, əgər onlar burada yaxşı şəraitdə, yaxşı sahədə, gəlirli sahələrdə işləyəcəklərsə, onlar üçün doğma vətəndə yaşamaq daha yaxşıdı, nəinki qürbətdə.

Bax, Azərbaycanın reallıqları bunlardır və sizə deyə bilərəm ki, ölkəmizdə görülən işlər, son illər ərzində artan dinamika Yevlaxda da görünür və mən buna çox sevinirəm. Yevlax Azərbaycanın qədim torpağıdır, bu bölgənin çox böyük tarixi var. Yevlaxlıların Azərbaycana çox böyük töhfə-

ləri olubdur və bura strateji nöqteyi-nəzərdən çox önəmli şəhərdir. Ölkəmizin coğrafi mərkəzidir, nəqliyyat, kommunikasiya, enerji dəhlizlərinin keçdiyi bir yerdir. Yevlaxlılar həmişə, bütün dövrlərdə Azərbaycan dövlətçiliyinə sədaqətlə xidmət etmişlər və bu gün də siz sədaqətlə xidmət edirsiniz. Bu xidmətə görə mən sizə öz minnətdarlığımı bildirirəm.

Əziz dostlar, bu gün hələ çoxlu açılışlar, yeni müəssisələrin açılışları olacaqdır. Ancaq bu səhər biz sizinlə görüşümüzü bu gözəl, möhtəşəm sarayın – ulu öndərin adını daşıyan bu sarayın qarşısında keçiririk. Azərbaycanda Heydər Əliyevin adını daşıyan müxtəlif yerlər var – saraylar, müəssisələr var. Bu, Azərbaycan xalqının ulu öndərə, onun xatirəsinə olan böyük hörmətinin əlamətidir. Ən önəmlisi isə, ulu öndərin əməlləri yaşayır. Onun siyasəti yaşayır və bu, Azərbaycan xalqının xoşbəxt gələcəyinə aparan siyasətdir. Biz bu siyasətə sadiqik, bu siyasəti davam etdirəcəyik və xalqın dəstəyi ilə Azərbaycanı yeni-yeni zirvələrə çatdıracağıq. Sağ olun.

## HEYDƏR ƏLİYEV MUZEYİNİN AÇILIŞI

*24 oktyabr 2007-ci il*

*Oktyabrın 24-də Yevlax şəhərində xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyan muzeyin təntənəli açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva muzeyin açılışında iştirak etmişlər.*

*Dövlətimizin başçısı muzeyin yerləşdiyi Heydər Əliyev xiyabanına gəldi. Prezident İlham Əliyevə xiyabanda aparılmış genişləndirmə-abadlıq işləri barədə məlumat verildi. Xiyaban tamamilə yeni görkəm almışdır. Yeni quraşdırılmış musiqili rəngli fəvvarələr xiyabana xüsusi gözəllik verir.*

*Prezident İlham Əliyev muzeyin qarşısında qoyulmuş Xatirə daşına baxdı. Daşın üzərində: «Heydər Əliyev xiyabanı Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Əliyev tərəfindən Yevlax sakinlərinin istifadəsinə verilmişdir» sözləri yazılmışdır.*

*Sonra prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi və muzeylə tanış oldu. İkimərtəbəli binanın birinci mərtəbəsində qonaq otağı, kompyuter, iş otaqları, konfrans salonu, inzibati otaqlar, kitabxana yerləşir. İkinci mərtəbədə isə ulu öndərin həyat və fəaliyyəti ilə bağlı fotoşəkillər toplanmışdır. Burada Heydər Əliyevin 1982-ci və 1998-ci illərdə Yevlax rayonuna səfərlərini, sakinlərlə görüşlərini əks etdirən fotolar diqqəti cəlb edir.*

*Heydər Əliyev Fondu tərəfindən muzeyə ulu öndərə həsr edilmiş kitablar hədiyyə olunmuşdur.*

*Muzeylə tanışlıqdan sonra dövlətimizin başçısı Xatirə kitabına ürək sözlərini yazdı.*

* * *

*Sonra prezident İlham Əliyev Nizami parkına gəldi. Sakinlərin mədəni istirahəti üçün burada gözəl şərait yaradılmışdır. Dahi şairin «Xəmsə»sindəki obrazların rəmzi heykəlcikləri qoyulmuş parkda mütəmadi olaraq maraqlı tamaşalar göstərilir.*

# PREZİDENT İLHAM ƏLİYEV «YEVLAX TV»-nin TƏMƏLQOYMA MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*Yevlax rayonu*

*24 oktyabr 2007-ci il*

*Oktyabrın 24-də Azərbaycan prezidenti İlham Əliyevin iştirakı ilə «Yevlax TV»-nin binasının təməlqoyma mərasimi keçirilmişdir.*

*Regional televiziya kanallarının yaradılması proqramına əsasən fəaliyyətə başlayacaq «Yevlax TV»-nin üçmərtəbəli binasında üç böyük studiya yerləşəcəkdir. Televiziya proqramları ətrafdakı 20 rayona da yayımlanacaqdır. Tikinti işləri gələn ilin ikinci rübünədək başa çatdırılacaqdır. Çəkiliş aparmaq üçün müasir kameralar alınmışdır. Xarici film və proqramların ana dilimizə tərcümə edilməsi üçün «Yevlax TV»-nin Bakıda «Dublyaj» studiyası yaradılmışdır.*

*Prezident İlham Əliyev maraqlı verilişlər hazırlamağı, regional xəbərlərə üstünlük verilməsini tövsiyə etdi, binanın xarici görünüşünə də xüsusi diqqət yetirməyin zəruriliyini bildirdi.*

*Sonra dövlətimizin başçısı gilizi təmələ qoydu və beton qarışığı tökdü.*

## «GİLAN DƏRİ» MMC-nin DƏRİ EMALI FABRİKİNİN AÇILIŞ MƏRASİMİ

*24 oktyabr 2007-ci il*

*Oktyabrin 24-də Yevlax şəhərində «Gilan dəri» MMC-nin dəri emalı fabrikinin açılışı olmuşdur. Müəssisənin kollektivi prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı ehtiramla qarşıladılar. Dövlətimizin başçısı açılışı bildirən lenti kəsdi və müəssisə ilə tanış oldu.*

*Məlumat verildi ki, fabrikin tikintisi 2006-cı ilin sonunda başa çatdırılmışdır. Gündəlik istehsal gücü 36 tona çatan fabrikə 15 milyon dollar sərmayə qoyulmuşdur. Yerli xammalla işləyən müəssisədə İtaliya və Türkiyədən gətirilmiş müasir avadanlıq quraşdırılmışdır, əsas barabanlar isə İsveçrə istehsalıdır. Hazırda fabrikdə 320 işçi çalışır və gələcəkdə onların sayı 450-yə çatdırılacaqdır. Orta aylıq əməkhaqqı 140 manatdan 1000 manata qədərdir.*

*Prezident İlham Əliyev düyməni basaraq, müəssisəni işə saldı, dərinin qəbulu, yuyulması, çeşidlənməsi, aşılanması, rənglənməsi proseslərini izlədi. Dövlətimizin başçısına bildirildi ki, burada istehsal olunan dərilərin keyfiyyəti yüksəkdir və xarici bazarlarda ona tələbat artır. Müəssisə İtaliya, İspaniya, Ukrayna, Türkiyə və Çinə məhsul göndərir.*

*Prezident İlham Əliyev fabrikin inzibati binasında xaricə göndərilən məhsula baxdı, ölkəmizdə bu cür müasir müəssisələrin yaradılmasının əhəmiyyətini vurğuladı.*

## ARFA MEBEL FABRİKİ İLƏ TANIŞLIQ

*24 oktyabr 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 24-də «Rövşən-Oğuz» şirkətlər qrupunun Yevlaxda yerləşən Arfa mebel fabriki ilə tanış olmuşdur.*

*Fabrikin işçiləri dövlətimizin başçısını və xanımını səmimiyyətlə salamladılar. Prezidentə məlumat verildi ki, 2006-cı ildə fəaliyyətə başlamış və 160-dan çox işçisi olan bu müəssisənin ölkəmizin 20 regionunda 32 mağazası, satış mərkəzi vardır.*

*Prezident İlham Əliyev istehsal olunan ofis, mətbəx mebellərinə, uşaq və qonaq otağı, yataq dəstlərinə baxdı. Bildirildi ki, Almaniya və İtaliyadan gətirilmiş avadanlığın quraşdırıldığı fabrikdə buraxılan bütün mebel dəstlərinin qiymətləri keyfiyyət və həcminə görə fərqlənir və ən ucuzu 350 manata başa gəlir. Mebellərin aksessuarları xaricdən gətirilir.*

*Dövlətimizin başçısı mebel dəstlərinin yığıldığı istehsal sahələrini gəzdi, avadanlıqla tanış oldu və görülən işləri yüksək qiymətləndirdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUXARI QARXUN KƏND ORTA MƏKTƏBİNİN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*24 oktyabr 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 24-də Yevlax rayonunun Yuxarı Qarxun kəndində orta məktəbin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı ikimərtəbəli binanın açılışını bildirən lenti kəsdikdən sonra məktəblə tanış oldu, kitabxanaya, sinif otaqlarına, kimya, biologiya, fizika və digər fənn kabinetlərinə, idman zalına baxdı. Bildirdi ki, 360 şagirdin təhsil aldığı məktəbdə səriştəli pedaqoji kollektiv çalışır. Bu təhsil ocağına dərsliklər, məktəbli forması Heydər Əliyev Fondu tərəfindən pulsuz verilmişdir.*

*Prezident İlham Əliyev və Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva ibtidai sinifdə dərs prosesini izlədilər, uşaqların məktəbə davamiyyəti ilə maraqlandılar, şagirdləri təbrik etdilər.*

## «LALƏ TEKSTİL» MÜASİR TİPLİ MÜƏSSİSƏ İLƏ TANIŞLIQ

*24 oktyabr 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 24-də «Lalə Tekstil» MMC-nin Yevlax şəhərindəki eyniadlı fabrikində olmuşdur.*

*Fabrikin kollektivi dövlətimizin başçısını və xanımını hərarətlə, gül-çiçəklə qarşıladı.*

*Prezident İlham Əliyev fabriklə tanış oldu. Məlumat verildi ki, iki ay əvvəl işə düşmüş fabrikdə 600-dən çox adam çalışır. Fabrikin istehsal gücü ildə 7 milyon manatlıq məhsul buraxmağa imkan verir. Ayrı-ayrı sexlərdə uşaqlar və böyüklər üçün müxtəlif ölçülü paltarlar tikilir. Ölkəmizin güc nazirliklərinin sifarişləri də yerinə yetirilir. Orta aylıq əməkhaqqı iş həcmindən asılı olaraq 100–300 manat təşkil edir.*

*Prezident İlham Əliyev fabrikdə quraşdırılmış Türkiyə, Almaniya, Yaponiya və digər ölkələrdən gətirilmiş avadanlıqla tanış oldu. Bildirildi ki, Azərbaycanda hələlik parça istehsal olunmadığına görə, xammal Türkiyədən gətirilir, lakin yaxın vaxtlarda yerli xammala üstünlük veriləcəkdir.*

*Dövlətimizin başçısı məhsulların çeşidi və keyfiyyəti ilə maraqlandı, əsasən yerli xammaldan istifadəyə üstünlük verilməsinin əhəmiyyətini vurğuladı. Bildirdi ki, bu cür istehsal sahələrinin yaradılması yeni iş yerlərinin açılmasına və bölgələrin inkişafına böyük təsir göstərir.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TARİX-DİYARŞÜNASLIQ MUZEYİNİN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*24 oktyabr 2007-ci il*

*Oktyabrın 24-də Yevlax şəhərində Tarix-diyarşünaslıq muzeyinin açılışı olmuşdur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*Dövlətimizin başçısı muzeyin açılışını bildirən lenti kəsdi, əvvəlcə «Yevlax şəhəri 2004–2007-ci illərdə» fotoguşəsi ilə tanış oldu. Muzeydə 5 min eksponat toplanmışdır. Bizim eradan əvvəl birinci minilliyə aid arxeoloji tapıntılar, xalq sənəti nümunələri, məişət əşyaları, Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin marşrutu üzrə aparılan arxeoloji qazıntı işləri zamanı tapılmış materiallar, müxtəlif dövrlərə aid saxsı qablar, silahlar diqqəti cəlb edirdi.*

*Ekspozisiyada Yevlax rayonunun tarixinə, görkəmli şəxsiyyətlərinə, ümummilli lider Heydər Əliyevin, prezident İlham Əliyevin Yevlaxa səfərlərinə aid materiallar da nümayiş etdirildi.*

*Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva ekspozisiya ilə tanış oldular.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YENİ AZƏRBAYCAN PARTİYASI YEVLAX RAYON TƏŞKİLATININ İNZİBATİ BİNASININ AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*24 oktyabr 2007-ci il*

*Oktyabrın 24-də Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev YAP-ın Yevlax rayon təşkilatının inzibati binasının açılış mərasimində iştirak etmişdir.*

*YAP-ın rayon təşkilatının üzvləri dövlətimizin başçısını səmimiyyətlə qarşıladılar.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyev YAP-ın qurucusu, ulu öndər Heydər Əliyevin ikimərtəbəli binanın foyesində qoyulmuş büstünə baxdı, iş otaqları və iclas salonu ilə tanış oldu.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV «KARVAN» İDMAN KOMPLEKSİNİN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*24 oktyabr 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 24-də Yevlaxda «Karvan» idman kompleksinin açılışında iştirak etmişdir.*

*Rəmzi açılışı bildirən lenti kəsən dövlətimizin başçısı komplekslə yaxından tanış oldu. 2004-cü ildə yaradılmış «Karvan» futbol klubunun çempionatlardakı çıxışlarını əks etdirən fotoşəkillərə, akt salonuna, həkim, internet otaqlarına, habelə futbolçuların istirahət otaqlarına baxdı.*

*Prezident İlham Əliyev kompleksin yüksək səviyyədə tikilməsindən və müasir tələblərə cavab verməsindən məmnunluğunu söylədi və ölkəmizdə idmanın inkişafına bundan sonra da qayğı göstəriləcəyini bildirdi.*

## «KARVAN» FUTBOL KLUBU STADİONUNUN AÇILIŞI

*24 oktyabr 2007-ci il*

*Oktyabrın 24-də Azərbaycan prezidenti İlham Əliyevin iştirakı ilə Yevlax şəhərində «Karvan» futbol klubu stadionunun açılışı olmuşdur.*

*Dövlətimizin başçısı stadionun rəmzi açılışını bildirən lenti kəsdi.*

*2004-cü ildə tikintisinə başlanmış bu stadionda 7 min tamaşaçı yeri var. Klub ölkə çempionatının oyunlarını burada keçirir. Stadion müasir standartlara uyğundur və burada beynəlxalq səviyyəli yarışların keçirilməsi mümkündür. Rayonda bu idman obyektindən əlavə, daha 3 stadion da var.*

*Prezident İlham Əliyev futbolçularla görüşüb söhbət etdi. O dedi:*

Mən sizi bu gözəl stadionun açılışı münasibətilə təbrik edirəm. Gərək belə gözəl şəraitdə yaxşı oyun nümayiş etdirəsiniz. Mənə deyirlər ki, «Karvan» komandası çempionatda yuxarı pillələrdədir. Çox yaxşı. Görürəm ki, burada xarici oyunçular da var. Yəqin ki, onlar da yaxşı nümunə və bacarıqlarını göstərirlər. Əlbəttə, biz çalışmalıyıq ki, yerli, gənc futbolçular daha da çox yetişsin. Təəssüflər olsun ki, milli yığma komandamız bizi sevindirmir. Klublar daha yaxşı oynayırlar. Klubların güclənməsi yəqin ki, milli yığma komandanın da güclənməsinə gətirib çıxaracaqdır. Sizi bir daha təbrik edirəm və arzu edirəm ki, şəhərinizin idman şöhrətini yüksəklərdə saxlayasınız.

* * *

*Sonra düvlətimizin başçısı onbirmetrlik cərimə zərbəsi nöqtəsindən topu qapıya vurdu.*

## PREZİDENT İLHAM ƏLİYEV QARABAĞ MÜHARİBƏSİ ƏLİLLƏRİNİN VƏ ŞƏHİD AİLƏLƏRİ ÜZVLƏRİNİN BİR QRUPUNA MİNİK AVTOMOBİLLƏRİNİN AÇARLARINI TƏQDİM ETMİŞDİR

*24 oktyabr 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 24-də Yevlaxın «Karvan» futbol klubunun stadionunda Qarabağ müharibəsi əlillərinin və şəhid ailələri üzvlərinin bir qrupu ilə görüşmüş, onlara Gəncədə istehsal olunmuş «Oka» markalı avtomobillərin açarlarını təqdim etmişdir.*

*Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Füzuli Ələkbərov dövlətimizin başçısına məlumat verdi ki, buraya 16 rayondan Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin üzvləri gəlmişdir. Onlara 404 ədəd «Oka» markalı avtomobil təqdim olunacaqdır.*

*Prezident İlham Əliyev Tərtər, Zərdab, Bərdə, Mingəçevir, Göyçay, Ağcabədi, Ağdam, Goranboy və Şəmkirdən gəlmiş əlillərə və şəhid ailələrinin üzvlərinə avtomobillərin açarlarını təqdim etdi.*

*Bərdə rayonundan olan Qarabağ müharibəsi əlili dövlətimizin başçısına dərin minnətdarlığını bildirərək dedi:*

– Cənab Prezident, Sizin dörd illik fəaliyyətiniz dövründə həyata keçirdiyiniz tədbirlər ölkəmizin hər yerində olduğu kimi, bizim rayonumuzda da çox böyük rəğbətlə qarşılanır. Uğrunda canımızdan keçməyə hazır olduğumuz Vətənimizin tərəqqisi naminə Sizin imzaladığınız dövlət proqramlarında nəzərdə tutulan tədbirlər bizim rayonda da çox böyük vüsətlə həyata keçirilir. Rayonda 150 Qarabağ müharibəsi əlili var. 36 ailəlik mənzil inşa olunmuş, 24 əlil üçün isə yaşayış binası tikilməkdədir. 3 əlilə ayrıca mənzil verilmiş və bir nəfər üçün isə fərdi yaşayış evi tikilir.

Bu gün biz, Qarabağ müharibəsi əlilləri üçün çox xoş bir gündür. Hər bir insan nə vaxtsa ölkənin birinci şəxsi ilə görüşməyi, onunla söhbət etməyi, təmasda olmağı arzulayır. Allah-taala bizə bu günü nəsib etdi, xoş duyğuları yaşatdı, Sizinlə görüşdük, əllərinizi sıxdıq. Bizə gələcək xatirələrimizi zənginləşdirən ən xoş duyğular yaşatdınız. Çox sağ olun.

*Tərtər rayonundan olan şəhid ailəsinin üzvü də ürək sözlərini söylədi:*

Cənab Prezident, çox sağ olun. Bu gün Siz bu qədər insanı sevindirdiniz. İndi onların uşaqları evlərində atalarının yolunu gözləyir. Allah Sizi sevindirsin, qorusun. Bizim rayonumuzda da böyük abadlıq işləri gedir. Tərtər nağıllar aləminə oxşayır. Bunların hamısı Sizin sayənizdədir. Gözəl binalar tikilir, əlillərə yaxşı şərait yaradılır. Qazımız, işığımız, suyumuz daim var, gözəl yaşayırıq. Allah balalarınızla birlikdə Sizi qorusun. Bizə göstərdiyiniz diqqət və qayğıya görə dərin minnətdarlığımızı bildiririk.

**İlham Əliyev:** Sizin hamınızı təbrik edirəm. Siz müxtəlif rayonlardan gəlmisiniz. Çünki burada çoxsaylı maşın paylanılır, 400-dən çox maşın paylanılacaqdır. Xahiş edirəm, mənim təbriklərimi bütün ailə üzvlərinizə çatdırasınız. Eyni zamanda, mənim salamlarımı yaşadığınız rayonun bütün sakinlərinə çatdırasınız. Mən sizin yaşadığınız rayonlarda olmuşam. Bilirsiniz ki, regionlara tez-tez gedirəm, vəziyyətlə tanış oluram. Görəndə ki, Azərbaycan xalqı daha da yaxşı yaşayır, sevinirəm. Siz bu yaxşı həyata layiqsiniz. Siz Vətən uğrunda döyüşmüsünüz, vuruşmusunuz, öz sağlamlığınızı itirmisiniz. Ona görə əgər dövlət sizə bir balaca kömək göstərirsə, əgər həyatınızı, heç olmasa, müəyyən dərəcədə yüngülləşdirirsə, mən bunu borc kimi hesab edirəm. Azərbaycan dövləti, Azərbaycan hökuməti bu məsələlərə çox böyük diqqətlə yanaşır. Əlbəttə, mən indi Azərbaycanı başqa ölkələrlə müqayisə etmək istəmirəm. Amma yəqin siz də bilirsiniz ki, bu cür tədbirlər, böyük sayda – yüzlərlə, minlərlə maşının əlillərə hədiyyə edilməsi başqa ölkələrdə yoxdur. Bu, Azərbaycanda var.

Ona görə ki, biz istəyirik Vətən uğrunda xidmətlər göstərmiş insanlar dövlət tərəfindən mükafatlandırılsınlar. Siz

buna layiqsiniz və əminəm ki, bu gün sizin ailələrinizdə bir bayram günü olacaqdır. Əminəm ki, bu maşınlar sizə yaxşı xidmət edəcəkdir. Amma onu da xahiş edirəm ki, bu maşınları ehtiyatla sürün. Mən bu yaxınlarda Nazirlər Kabinetinin toplantısında bu barədə öz sözlərimi dedim. Bəzi hallarda, xüsusilə Bakı şəhərində avtomobilləri ehtiyatsız sürür, qaydaları pozurlar. Siz öz davranışınızla bütün sürücülərə yaxşı nümunə göstərməlisiniz.

Sizi bir daha ürəkdən salamlayıram, təbrik edirəm. Arzum budur ki, Azərbaycan xalqı yaxşı yaşasın, bütün bölgələr inkişaf etsin. Sizin yaşadığınız bölgələrdə də inkişaf var, bunu görürsünüz. Mən istəyirəm ki, bu daha da sürətlə getsin. Yaxşı binalar, məktəblər, xəstəxanalar, zavodlar, fabriklər tikilsin, evlə təminat yaxşılaşsın, qaz təchizatı yaxşılaşsın. Bilirəm, yaxşılaşır və belə də olmalıdır. Mən istəyirəm ki, xalqımız yaxşı dolansın, iş yerləri olsun, kasıb adam olmasın. Biz bunu etmək üçün çalışırıq və çalışacağıq. Sizi bir daha salamlayıram və bir də xahiş edirəm ki, yaşadığınız rayonlarda bütün bacı-qardaşlarımıza mənim salamlarımı çatdırasınız.

Əlbəttə, əlillərin pensiyasını artırırıq və artıracağıq. Bilirsiniz ki, şəhid ailələrinə böyük məbləğdə pensiya verilir. 4-5 nəfərdən ibarət ailə dövlətdən 400–500 manat müavinət alır. İndi ünvanlı sosial yardım proqramına başlamışıq. Təxminən 300 min insan dövlətdən yardım alır. Orta hesabla hər ailə 80 manat alır. Sizin pensiyalarınız da qaldırılacaqdır. Bunu etmək üçün gərək iqtisadiyyatımız inkişaf etsin. İndi bu inkişaf var, əməkhaqqı, pensiyalar artırılır və bu məsələyə yenə də baxılacaqdır. Sağ olun.

* * *

*Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin üzvləri dövlətimizin başçısına bir daha dərin təşəkkürlərini bildirdilər.*

*Sonra prezident İlham Əliyev sükan arxasına keçərək avtomobili sürdü və sınaqdan keçirdi.*

*Dövlətimizin başçısı mükafatlandırılan əlillər və şəhid ailəsi üzvləri ilə xatirə şəkli çəkdirdi.*

## YEVLAX RAYON MƏRKƏZİ XƏSTƏXANASININ TƏMƏLQOYMA MƏRASİMİ

*24 oktyabr 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 24-də Yevlax Rayon Mərkəzi Xəstəxanasının təməlqoyma mərasimində iştirak etmişdir.*

*Səhiyyə işçiləri, ictimaiyyətin nümayəndələri dövlətimizin başçısını böyük hörmət və ehtiramla, hərarətli alqışlarla qarşıladılar.*

*Prezident İlham Əliyev xəstəxananın baş planı ilə tanış oldu. Bildirildi ki, 235 çarpayılıq xəstəxana 3 korpusdan ibarət olacaqdır. Tikinti üçün 4,3 hektar sahə ayrılmışdır. Xəstəxananın birinci mərtəbəsində laboratoriya və diaqnostika bölməsi, həkim otaqları, ikinci mərtəbədə qadın məsləhətxanası, poliklinika, üçüncü mərtəbədə uroloji və doğum şöbələri, dördüncü mərtəbədə ümumi terapiya, beşinci mərtəbədə nevroloji, kardioloji şöbələr yerləşəcəkdir. Bölgənin ən böyük səhiyyə ocağının tikintisini ən geci iki il yarıma başa çatdırmaq nəzərdə tutulur. İnşaat işlərini yerli şirkət həyata keçirəcəkdir.*

*Dövlətimizin başçısı gilizi binanın təməlinə qoydu və beton qarışığı tökdü, inşaatçılara uğurlar arzuladı.*

*Prezident İlham Əliyev tibb işçiləri ilə görüşüb söhbət etdi, onları təbrik edərək dedi:*

Burada gözəl xəstəxana tikiləcəkdir. Bunun analoqu yoxdur, son illər ərzində tikilən xəstəxanalardan ən böyüyü, 235 çarpayılıq olacaqdır. Müasir avadanlıq və texnologiya ilə təchiz ediləcəkdir. Burada bütün şöbələr – kardiologiya, reanimasiya – hamısı olacaqdır. Belə gözəl xəstəxana maksimum iki il yarıma tikilib başa çatdırılacaqdır. Köhnə xəstəxanaya ehtiyac qalmayacaq, görürəm, onu rəngləyiblər, amma yenə də yaxşı deyil.

O, keçmişdə tikilib və bu günün tələblərinə cavab vermir.

O vaxt regional mərkəzin harada olması barədə yerə baxanda, mən Yevlaxı seçdim. Çünki Yevlax ölkəmizin coğrafi mərkəzidir. Həm də burada işlər yaxşı gedir. Harada yaxşı işləyirlərsə, mən gərək onları həvəsləndirim. Hamı yaxşı işləsə, hər yerdə belə xəstəxana olacaqdır. Yəni, hər şey ədalətli olmalıdır. Siz də yaxşı hazırlaşın, belə gözəl xəstəxanada işləyəcəksiniz. Burada müasir avadanlıq olacaq, hər şey dünya səviyyəsində olacaqdır. Həkimlərin böyük xidmətləri var. Onlar fədakar insanlardır. Bizim ailədə də həkim var. Mənim rəhmətlik anam da həkim idi. Ona görə mən yaxşı bilirəm həkim nədir. Maaşlarınız bu il 25 faiz qaldırılıb, amma hələ ki, azdır. Mən bilirəm, həkimlərin maaşı azdır, bununla barışmaq olmaz. Biz maaşları qaldıracağıq. Bunu gələn ildə görəcəksiniz.

*Tibb işçiləri dövlətimizin başçısına təşəkkür edərək diqqət və qayğıdan razılıqlarını bildirdilər, onun apardığı daxili və xarici siyasəti daim ürəkdən dəstəkləyəcəklərini vurğuladılar.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev həmin gün Yevlax rayonuna səfərini başa çatdıraraq Bakıya qayıtdı.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RESPUBLİKA MOK-un 15 İLLİK YUBİLEYİNDƏ İŞTİRAK EDƏN BİR SIRA ÖLKƏLƏRİN MİLLİ OLİMPİYA KOMİTƏLƏRİNİN VƏ İDMAN FEDERASİYALARININ RƏHBƏRLƏRİ VƏ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*26 oktyabr 2007-ci il*

*Oktyabrın 26-da Azərbaycan prezidenti İlham Əliyev Prezident sarayında Respublika Milli Olimpiya Komitəsinin 15 illik yubileyində iştirak edən bir sıra ölkələrin milli olimpiya komitələrinin və idman federasiyalarının rəhbərlərini və nümayəndələrini qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v**: Mən qonaqlarımızın hamısını Azərbaycanda salamlayıram. Çox şadam ki, bizim dəvətimizi qəbul etmisiniz və yubiley tədbirində iştirak edirsiniz.

Milli Olimpiya Komitəsinin 15 illiyi ölkəmizin həyatında çox mühüm hadisədir. Milli Olimpiya Komitəsinin yaşı təxminən bizim müstəqil dövlətimizin yaşı qədərdir. Çox şadıq ki, bu illər ərzində həm bizim beynəlxalq əlaqələrimiz möhkəmlənmişdir, həm də Azərbaycanda idmanın və olimpiya hərəkatının inkişafı çox sürətlə gedir.

Azərbaycanla sizin təmsil etdiyiniz ölkələr arasında çox yaxşı münasibətlər yaranmışdır, o cümlədən idmanın, olimpiya hərəkatının inkişafı sahəsində yaxşı əlaqələr qurulmuşdur. Biz müxtəlif tədbirlərdə vaxtaşırı görüşürük. Bakı artıq iri beynəlxalq idman yarışlarının keçirildiyi şəhərə çevrilməkdədir. Bu da, əlbəttə, idmanın, olimpiya hərəkatının və ümumiyyətlə, ölkələrimiz arasında, idmançılar arasında, idmanın inkişafında iştirak edən bütün insanlar arasında münasibətlərin inkişafına kömək edir. Ümidvaram ki, Bakıya səfəriniz sizin üçün xoş olacaqdır. Əminəm ki, yaxşı proqram tərtib edilmişdir ki, siz

bizim idman obyektləri və şəhərimizlə tanış ola biləsiniz. Təəssüf ki, sizin başqa şəhərlərə getməyə imkanınız olmayacaqdır, indi biz həmin şəhərlərdə çoxlu idman obyektləri tikmişik. Son vaxtlarda 13 iri olimpiya idman kompleksi tikilmişdir və belə komplekslər hələ çox tikiləcəkdir. Lakin Bakıda da sizin üçün kifayət qədər maraqlı olacaqdır. Bir daha xoş gəlmisiniz. Sizə ən xoş arzularımı bildirir, uğurlar diləyirəm. Arzum budur ki, bizim şəhərdə olmağınız yadınızda qalsın. Mənə belə gəlir ki, sizlərdən bəziləri Bakıya ilk dəfə gəlib, bəziləri isə burada dəfələrlə olmuşdur. Lakin şəhər dəyişir, ona görə də hətta əvvəllər burada olanlar da indi nə isə yeniliklər görəcəklər. Bir daha xoş gəlmisiniz.

**Pyotp Nurovski** (*Polşa Milli Olimpiya Komitəsinin prezidenti*): Hörmətli cənab Prezident!

Əvvələn, dəvət üçün çox sağ olun. Azərbaycan Olimpiya Komitəsinin 15 illiyi ilə əlaqədar tədbirlərdə iştirak etmək böyük şərəfdir. Polşa Olimpiya Komitəsi adından Sizi bu əlamətdar yubiley münasibətilə təbrik etmək istəyirəm. Biz çox şadıq ki, Azərbaycanda idman, ilk növbədə, olimpiya idmanı dinamik inkişaf edir. Sizə gələcəkdə, birinci növbədə, Pekində keçiriləcək Olimpiya oyunlarında böyük uğurlar arzulayırıq.

Mən Bakıya ilk dəfədir ki, gəlmişəm və ölkənizin paytaxtında tikinti işlərinin miqyası, ən əvvəl, gözəl idman kompleksi mənə çox güclü təsir bağışlamışdır. Bizim səfərimizdən və yubileyinizdən xatirə kimi, Sizə Polşa Olimpiya Komitəsindən rəmzi hədiyyələr vermək istəyirəm.

**Vladimir Vasin** (*Rusiya Federasiyası Olimpiya Komitəsinin vitse-prezidenti*): Əvvələn, icazə verin, bu təntənələrdə iştirak etməyə dəvət olunduğum üçün Sizə təşəkkürümü bildirim. Doğrudan da ilk baxışdan 15 il hələ yetkinlik yaşı demək deyildir, lakin idman üçün bu, istedadların üzə çıxdığı yaşdır. Bu yaşda gənclər idman ustası, beynəlxalq dərəcəli idman ustası olur, gələcək üçün böyük imkanlar açılır. İndi sizin respublikada idman sahəsində baş verən hadisələrə fikir verdikcə düşünürəm ki, Azərbaycan idmanının böyük gələcəyi var. Biz böyük idmanın nədən başlandığını xatırlayırıq. Sizin idmançılar ilk olimpiadada bir medal qazanmışdı, indi isə bu medalların sayı artıq 5-ə çatmışdır. Tamamilə əminəm ki,

Pekində medalların sayı on olacaqdır. İcazə verin Rusiya Olimpiya Komitəsinin prezidenti Leonid Vasilyeviç Tyaqaçovun Azərbaycan Respublikasının və Azərbaycan MOK-un prezidentinə göndərdiyi məktubu oxuyum.

«Əziz İlham Heydər oğlu, Sizi və respublikanızın idman ictimaiyyətinin bütün nümayəndələrini Milli Olimpiya Komitəsinin yaradılmasının 15 illiyi münasibətilə ürəkdən təbrik edirəm. Bu illər ərzində Azərbaycanda olimpiya hərəkatı xeyli möhkəmlənmişdir. Azərbaycan idmançıları Sovet İttifaqının seçmə komandalarının heyətlərində ən yüksək beynəlxalq səviyyəli yarışlarda sanballı uğurlar qazanmış sələflərinin şanlı ənənələrini davam etdirirlər. Bizim xalqlarımızın müştərək idman qəhrəmanları var, biz onlarla fəxr edirik. Biz bilirik ki, Azərbaycan Respublikasının rəhbərliyi səmərəli sosial siyasət yeridir və bunun sayəsində getdikcə daha çox insan böyük idman yolunu seçir, böyük idman isə perspektivli dəstələr hesabına möhkəmlənir.

Azərbaycan dövlətinin liderinin həm də ölkənin Milli Olimpiya Komitəsinə başçılıq etməsinin rəmzi mənası var. Biz qardaş ölkənin idmançılarının uğurlarına ürəkdən sevinirik. Qarşılıqlı münasibətlərimiz etibarlı münasibətlər kimi qalır və biz bir-birimizə kömək etməklə bu münasibətləri daim möhkəmləndirəcəyik. Sizə ən xoş arzularımı bildirirəm. Dərin hörmətlə, Sizin Leonid Tyaqaçov».

**Qoqi Topadze** (*Gürcüstan Milli Olimpiya Komitəsinin prezidenti*): Cənab Prezident, mənə Gürcüstan Olimpiya Komitəsi və bizim olimpiyaçılar adından sizi bu yubiley münasibətilə təbrik etmək şərəfi nəsib olmuşdur. Demək istəyirəm ki, Azərbaycanda idman infrastrukturunun coşğun inkişafı bizi çox sevindirir. Rusiya nümayəndəsinin dediyi kimi, biz əminik ki, gələcək Olimpiya oyunlarında sizin idmançılar 5 yox, 10, 15 medal qazanacaqlar. Biz sizin idmançılara azarkeşlik edəcəyik, xüsusən ona görə ki, 2016-cı ilin Yay Olimpiya oyunları Bakıda keçirilə bilər. Azərbaycan prezidentinin eyni zamanda, Olimpiya Komitəsinin prezidenti olmasını, müdrik və dahi Heydər Əliyevin oğlu olmasını nəzərə alsaq, bu məqsədə nail olacaqsınız. Biz belə hesab edirik və ümidvarıq ki, Olimpiya oyunları ilk dəfə Qafqazda, Cənubi Qafqazda

keçiriləcəkdir. Dəvət üçün çox sağ olun. Sizi təbrik etməyimə çox şad oldum. Sizə böyük uğurlar arzulayıram.

**Ərdoğan Aripinar** (*Türkiyə Milli Olimpiya Komitəsinin vitse-prezidenti*): Azərbaycan Milli Olimpiya Komitəsinin 15 ildə qazandığı uğurlar qardaş Türkiyədə qürur doğurur.

Özümüzü kiçik qardaşımızın doğum gününə gəldiyimiz kimi hiss edirik. MOK 15 yaşına çatdı. Çox uzun danışmaq istəmirəm, atanızı rəhmətlə anarkən, onun söylədiyi sözləri hər zaman xatırlayırıq: «Biz bir millət, iki dövlətik». Türkiyə bunu belə bilir. İnşaallah, gördüyünüz böyük işlərlə, idmana verdiyiniz böyük önəmlə qarşıdakı Olimpiya oyunlarında Azərbaycanın bayrağı şərəflə yüksələcəkdir. İndi isə bu gözəl hədiyyəni Türkiyə Milli Olimpiya Komitəsi adından Sizə təqdim etmək istəyirəm.

**Aldonis Vrublevskis** (*Latviya Milli Olimpiya Komitəsinin prezidenti*): Azərbaycan idmançılarının bundan sonra da yeni zirvələr fəth edəcəyinə əminik.

Siz çox iş görürsünüz, lakin hələ görüləsi işlər daha çoxdur. Biz bu yubileyi payızda qeyd edirik, payızda isə, adətən, məhsul yığırlar. Ona görə də mən Sizə məhsul yığmaq üçün kiçik bir anbar modeli bağışlamağı özümə şərəf sayıram. Burada üzərində milli latış naxışları olan əl işi – kəmər var. O, Kosmos ilə Yerin birləşməsinin, ailənin, dostluğun rəmzidir. Bu hədiyyəni Latviya Olimpiya Komitəsi adından Sizə bağışlayır və ümidvar olduğumu bildirmək istəyirəm ki, olimpiya hərəkatının, idman hərəkatının vəhdəti, xalqlarımızın dostluğu bundan sonra da tərəqqi edəcəkdir.

*Litva Olimpiya Komitəsi adından çıxış edən səfir* ***Kestutis Kudzmanas*** *Bakıda diplomatik fəaliyyətlə məşğul olduğu yarım il ərzində aldığı təəssüratını bölüşərək dedi:*

Cənab Prezident, mənim bəxtimə burada səfir olmaq və bizim Litva Olimpiya Komitəsi ilə bilavasitə bağlı olmaq şərəfi düşmüşdür. Mən Litva Olimpiya Komitəsinin təsisçisi, Baş Assambleyanın üzvü olmuşam. Bizim Olimpiya Komitəsinin prezidenti cənab Arturas Povilyunas xahiş etmişdir ki, Azərbaycan Milli Olimpiya Komitəsinin 15 illik yubileyi münasibətilə onun təbriklərini şəxsən Sizə çatdırım. Şəxsən mən son yarım ildə sizin ölkənizin idman uğurlarını müşa-

hidə edirəm, ölkənizdə tikilmiş olimpiya kompleksləri mənə güclü təsir bağışlamışdır. Onlar Pekin Olimpiya oyunlarında qələbələr qazanmaq və 2016-cı ilin Yay Olimpiya oyunlarının Bakıda keçirilməsi üçün həqiqətən gözəl zəmindir. İcazə verin, Sizə Litva Olimpiya Komitəsi adından təbrikləri yetirim, Litva ilə Azərbaycanın dostluğunun rəmzi olan suveniri təqdim edim.

*Dördqat olimpiya çempionu, Belarus Dövlət Bədən Tərbiyəsi və İdman İnstitutunun rektoru* ***Yelena Belova*** *Azərbaycan MOK-un 15 illik yubileyi münasibətilə Belarus prezidenti Aleksandr Lukaşenkonun Azərbaycan prezidenti İlham Əliyevə təbriklərini çatdırdı və öz ölkəsinin Milli Olimpiya Komitəsinin ali mükafatını təqdim etdi.*

**Vadim Qutsayt** (*Ukrayna Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü*): Mən Sizi Ukrayna Milli Olimpiya Komitəsi adından salamlayıram. Mən qılıncoynatma üzrə olimpiya çempionuyam. Çox sevinirəm, bilirəm ki, Siz idmanın bu növünü sevirsiniz. Bu növdə ölkənizin mövqeləri çox möhkəmdir. Mən Sizi Afina Olimpiya oyunlarında görmüşəm. Sizin öz ölkənizin yığma komandasına necə azarkeşlik etdiyinizi görmüşəm. Ölkə prezidentinin həm də Milli Olimpiya Komitəsinin prezidenti olması, idmanı sevməsi çox gözəl haldır. Ukrayna Olimpiya Komitəsinin prezidenti Sergey Bubkanın təbrikini Sizə çatdırmaq istərdim: «Hörmətli Prezident, əziz həmkarlar. Ukrayna Olimpiya Komitəsi adından sizi Milli Olimpiya Komitəsinin yaradılmasının 15 illiyi münasibətilə ürəkdən təbrik edirəm. Azərbaycan həmişə özünün gözəl idman ənənələri və bacarıqlı atletləri ilə ad çıxarmışdır. Çox yaxşı haldır ki, siz bu ənənələrə hörmət bəsləməklə yanaşı, onları daha da artırırsınız. Son illərdə Sizin rəhbərlik etdiyiniz Milli Olimpiya Komitəsi ölkənizdə olimpiya hərəkatının inkişafında və olimpiya ideyalarının populyarlaşdırılmasında irəliyə doğru böyük addım atmışdır. İnanıram ki, biz idmanın inkişafı naminə, xeyirxahlıq, əmin-amanlıq və idman qələbələri naminə bundan sonra da sizinlə səmərəli əməkdaşlıq edəcəyik.

Hörmətlə, Ukrayna Milli Olimpiya Komitəsinin prezidenti, olimpiya çempionu Sergey Bubka».

Arzu edirəm ki, bizim dövlətlərimiz arasında – Azərbaycan və Ukrayna arasında sülh və dostluq həmişə tərəqqi etsin.

**V y a ç e s l a v  M a l u n a y** (*Moldova Milli Olimpiya Komitəsinin vitse-prezidenti*): Hələ 5 gün bundan əvvəl mən Azərbaycana gələcəyimi bilmirdim. Buraya gələndən sonra mən xəcalət çəkdim ki, 50 il ərzində bir dəfə də Azərbaycanda olmamışam. Əlbəttə, burada gördüklərim məni heyrətləndirdi. Burada güclü, yaxşı dinamika var. Moldova Respublikasının Olimpiya Komitəsi, Təhsil və Gənclər Nazirliyi adından sizi əlamətdar tarix, Milli Olimpiya Komitəsinin 15 illiyi münasibətilə təbrik etmək istəyirəm. Bu 15 ildə siz çox iş gormusünüz. Azərbaycanın olimpiadalardakı qələbələrinin dinamikası bunu bir daha təsdiq edir: 1996-cı ildə bir medal, 2000-ci ildə üç medal, 2004-cü ildə beş medal qazanmısınız. Sizi əmin etmək istəyirəm ki, Moldova xalqı sizin idmançıların uğur qazanmasını Azərbaycan xalqı ilə birlikdə gözləyəcəkdir.

**İ l h a m  Ə l i y e v**: Həqiqətən, idman elə bir sahədir ki, orada bütün xalqlar birləşir. İdmançılar da yarışlarda bir-biri ilə ünsiyyət saxlayır, dostlaşırlar, idman mübarizəsində qarşılaşdıqda onların hər biri qalib gəlməyə çalışır, sonra isə qucaqlaşaraq bir-birini təbrik edirlər. Bunlar insani dəyərlərdir. İdman hər bir ölkənin ictimai həyatında ən mühüm amillərdən biridir. Ölkələr də özlərini dünyaya idman vasitəsilə təqdim edirlər. Bu xüsusən, gənc ölkələrə, yaxın vaxtlarda müstəqillik əldə etmiş, dünyada çoxlarının, bəlkə də heç tanımadığı ölkələrə daha çox aiddir. Ölkənin bayrağı qaldırılanda və onun himni səslənəndə həmin ölkə idman vasitəsilə özünü dünyaya tanıdır. Hamımızın bildiyi kimi, bu baxımdan Olimpiya oyunları heç bir başqa şeylə müqayisə edilə bilməyəcək hadisədir. Olimpiya hərəkatı həm idman hərəkatı, həm ictimai hərəkat, həm də bütövlükdə xeyirxahlıq və dostluq kimi dəyərlər təlqin edən bir hərəkatdır. Buna görə də mən çox şadam ki, artıq 10 ildir olimpiya hərəkatı ilə bağlıyam. Məhz bu il mənim Olimpiya Komitəsinə rəhbərlik etməyə başlamağımın 10 ili tamam olmuşdur. Bu müddətdə çox şeyə nail ola bilmişik – həm qazanılan medallara görə, həm infrastrukturun yaradılmasına görə. Ən başlıcası isə, idmançılar və idman bölmələrində məşğul olan uşaqlar əsl vətənpərvər və fiziki cəhətdən sağlam insanlar kimi böyüyür. Onlar idmanla məşğul olanda, təbii ki, narkomaniyadan, alkoqolizmdən və digər zərərli vərdişlərdən uzaq

olurlar. Hər bir dövlət güclü olduqda özünə arxayın olduğu kimi, fiziki cəhətdən güclü insan da həmişə özünə arxayın olur. Yəni, idman insanlara bu inamı verir. Digər tərəfdən, əgər insan fiziki cəhətdən güclüdürsə, o, bir qayda olaraq, heç kəsi incitməz, əksinə, başqalarının incitdiyi adamı müdafiə edər. Deməli, idman xeyirxahlıq amilidir. Biz də idmana məhz bu kontekstdən yanaşırıq. Bu, sadəcə, ölkənin nüfuzu, medal və ya hər hansı çempionatın keçirilməsi demək deyildir. İdman ölkədə cərəyan edən bütün ictimai proseslərə son dərəcə geniş təsir göstərir. Biz də Azərbaycanda həm idmançılara kömək etməyə, həm sosial problemləri həll etməyə, həm də idman infrastrukturu yaratmağa çalışırıq. İndi biz hər bir rayonda beynəlxalq yarışların keçirilməsi mümkün olan iri olimpiya mərkəzləri yaradırıq. Yeri gəlmişkən, bu, təkcə Bakıya aid deyil. Məsələn, iki il bundan əvvəl Qubada voleybol üzrə Qran-Pri yarışları keçirilmişdi. Həmin turnirdə qadınlardan ibarət 8 aparıcı voleybol komandası iştirak edirdi. Özü də bu şəhər Bakıdan 200 kilometr aralıda yerləşir. Ölkəmizdə idman kompleksləri, mehmanxanalar tikilir, hər cür şərait yaradılır. Biz çalışırıq ki, beynəlxalq yarışları hər yerdə keçirmək mümkün olsun. İndi bütün şəhərlərdə üzgüçülük hovuzları tikirik. Sizə deyə bilərəm ki, oraya təkcə idmançılar deyil, sağlam olmaq istəyən hər kəs gedir.

Əlbəttə, biz beynəlxalq əlaqələri də inkişaf etdiririk. Çünki idman insanları birləşdirir. Elə ölkələr var ki, bir-biri ilə yaxşı münasibətdədir. Elələri də var ki, münasibətləri o qədər də yaxşı deyil. Lakin bunun idmana aidiyyəti yoxdur, əksinə, idman ölkələri bir-birinə yaxınlaşdıran amildir. Ona görə də ölkəmizdə idmanın necə inkişaf etməsi məni çox sevindirir, beynəlxalq əlaqələrimiz məni sevindirir.

Bizim dəvətimizi qəbul edib gəldiyinizə görə sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Bu əlaqələri daim davam etdirmək lazımdır ki, xalqlarımız bir-birinə yaxınlaşsınlar.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MİLLİ OLİMPİYA KOMİTƏSİNİN (MOK) YARADILMASININ 15-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ GECƏDƏ NİTQİ

*Gülüstan sarayı*

*26 oktyabr 2007-ci il*

Hörmətli xanımlar və cənablar!
Əziz qonaqlar!
Əziz idmançılar!

Mən sizin hamınızı salamlayır və Azərbaycan Milli Olimpiya Komitəsinin 15 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm.

Bu illər ərzində Azərbaycan Milli Olimpiya Komitəsi çox şərəfli bir yol keçmişdir. Biz qarşımıza qoyduğumuz bütün vəzifələri həll etmişik. Azərbaycanda idmanın inkişafı çox sürətlə gedir və idmançılarımızın çıxışlarında və Azərbaycanda idman infrastrukturunun gücləndirilməsində biz bunu görürük. İdmançılarımız bizi sevindirir, müxtəlif beynəlxalq yarışlarda doğma vətənimizi çox ləyaqətlə təmsil edir, hər il vətənə yüzlərlə medal gətirirlər. Təkcə bu il idmançılarımız beynəlxalq yarışlarda 300-dən çox medal qazanmışlar və bunların 127-si qızıl medaldır. 127-si olimpiya idman növlərində qazanılmış medallardır.

Azərbaycanda idmanın həm olimpiya, həm də qeyri-olimpiya idman növləri inkişaf edir. Biz bu idman növləri arasında heç vaxt fərq qoymamışıq. Çünki Azərbaycanda idmanın hər bir növü bizim üçün lazımdır, bizim üçün vacibdir və bütün idman növlərində iştirak edən idmançılar bizim fəxrimizdir. Azərbaycanda idmana bundan sonra da böyük

diqqət göstəriləcəkdir. Bu diqqət və qayğı nəticəsində idman infrastrukturu yeniləşir, müasirləşir. Bu məsələyə çox böyük diqqət göstərilir.

Bilirsiniz ki, Milli Olimpiya Komitəsinin təşəbbüsü ilə 2000-ci ildən başlayaraq bu günə qədər Azərbaycanda, xüsusilə, bölgələrdə idman kompleksləri tikilir və ən yüksək səviyyəyə cavab verən komplekslər idmançıların sərəncamına verilmişdir.

Bu günə qədər 13 olimpiya idman kompleksi tikilmişdir və 18 kompleksin tikintisi gedir. Gələcəkdə Azərbaycanın bütün rayonlarında idmanla məşğul olmaq üçün müasir infrastruktur yaradılacaqdır. Bu komplekslərdə həm yerli idmançılar öz peşəkarlığını artıracaqlar, həm də o rayonlarda yaşayan insanlar komplekslərdən səmərəli istifadə edəcəklər və edirlər. Eyni zamanda, onlarda müxtəlif beynəlxalq yarışlar da keçirilə bilər. Azərbaycanda artıq belə bir təcrübə var. Bölgələrdə yerləşən olimpiya komplekslərində dünya səviyyəli beynəlxalq yarışlar da keçirilir. Bütövlükdə, biz bu sahəyə də böyük diqqət göstəririk.

Azərbaycanda son illər ərzində bir neçə mötəbər beynəlxalq yarış – bədii gimnastika və güləş üzrə Avropa və dünya çempionatları keçirilmişdir. Güləş üzrə dünya çempionatında iştirak etmiş ölkələrin sayı 103-ə çatmışdır və bu, Beynəlxalq Güləş Federasiyası tərəfindən keçirilmiş tədbirlər arasında rekord göstəricidir. Bütün dünyada güləşlə məşğul olan ən güclü idmançılar Azərbaycana toplaşmışdılar və bu çempionat ən yüksək səviyyədə keçmişdir. Yəni, mötəbər beynəlxalq yarışların keçirilməsində bizim çox gözəl təcrübəmiz var.

Biz beynəlxalq əlaqələri genişləndirir və möhkəmləndiririk. Azərbaycan dünya olimpiya hərəkatında özünəlayiq yerini tuta bilmişdir. Avropa Olimpiya Komitəsi çərçivəsində çox fəal işləyirik. Müxtəlif ölkələrlə bizim çox səmərəli əməkdaşlığımız var. Müxtəlif beynəlxalq federasiyaların rəhbərləri, prezidentləri Azərbaycana dəfələrlə gəlmiş, vəziyyətlə tanış olmuşlar və bu da bizim beynəlxalq mövqelərimizi daha da möhkəmləndirir.

Mən xatırlayıram ki, bir neçə il bundan əvvəl Beynəlxalq Olimpiya Komitəsinin prezidenti, Avropa Olimpiya Komitəsinin o vaxtkı prezidenti cənab Roqq çıxışlarının birində – Avropa Olimpiya Komitəsinin yığıncağında demişdir ki, Azərbaycan Milli Olimpiya Komitəsinin fəaliyyəti bütün başqa olimpiya komitələri üçün nümunə ola bilər. Bu bizim işimizə verilən böyük qiymətdir və bildiyiniz kimi, Azərbaycan dünyada artıq özünü idman ölkəsi kimi tanıda bilibdir. Bizim fəaliyyətimiz, idmana göstərilən diqqət və əlbəttə, idmançılarımızın uğurlu çıxışları belə bir nəticəyə gətirib çıxarıbdır.

Əlbəttə ki, idman infrastrukturunun yaradılması çox böyük əhəmiyyət kəsb edir. Ancaq idmançıların çıxışları, onların uğurlu fəaliyyəti bizim xalqımızı sevindirən ən böyük amillərdəndir. Ölkəmizin bayrağı beynəlxalq yarışlarda hər dəfə qaldırılanda, Dövlət himnimiz səslənəndə hər bir Azərbaycan vətəndaşının ürəyi qürur hissi ilə dolur. Bu, Azərbaycanın şöhrətidir, Azərbaycanın qələbəsidir və mən istəyirəm ki, belə qələbələrin sayı çox olsun və ildən-ilə artsın. Biz müstəqil ölkə kimi, Olimpiya oyunlarında da çox uğurla iştirak etmişik, çıxış etmişik. Sidney və Afina Olimpiya oyunlarında idmançılarımız 8 medal qazanmışlar. Onlardan 3-ü qızıl medal olmuşdur. Bu, dünya ölkələrinin reytinqi çərçivəsində çox yüksək göstəricidir.

İndi Pekin Yay Olimpiya oyunlarına hazırlıq prosesi gedir. Artıq 15 lisenziya qazanılmışdır. Əminəm ki, növbəti mərhələdə bu lisenziyaların sayı kəskin şəkildə artacaqdır. Ümid edirəm ki, bizim idmançılarımız Pekində də öz imkanlarını, peşəkarlığını göstərərək doğma Vətənə medallar gətirəcəklər.

Azərbaycanda indi idmana göstərilən diqqət çox yüksək səviyyədədir. İdmançıların məişət problemləri öz həllini tapır. Hər ilin yekunlarına görə, 20-dən çox idmançıya mənzillər verilir, idmançılara, idman mütəxəssislərinə, məşqçilərə digər yardımlar göstərilir. Yəni, bu bizim idmana olan münasibətimizin göstəricisidir. Çox sevindirici hal ondan ibarətdir ki, Azərbaycanda idmana rəhbərlik edən qurumlar bir

kollektiv şəklində fəaliyyət göstərirlər. Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, idman cəmiyyətləri, klublar – bütün qurumların işində yüksək dərəcədə əlaqələndirmə var və bu da çox müsbət bir haldır. Olimpiya hərəkatında müəyyən təcrübə toplamış insan kimi, deyə bilərəm ki, bəzi ölkələrdə əsas gərginlik məhz nazirliklə olimpiya komitəsi arasında müşahidə olunur. Belə olan halda, əlbəttə ki, idmana o qədər də böyük diqqət göstərilmir. Azərbaycanda son 10 il ərzində idmana cavabdehlik daşıyan bütün qurumlar vahid komanda kimi işləyirlər və bizim uğurlarımızın böyük hissəsi bu amillə bağlıdır.

Biz gələcəyə baxırıq. İdmana bundan sonra da diqqət göstərəcəyik. İdman məqsədlərinə nəzərdə tutulan büdcə xərcləri ildən-ilə artır. Bu bizə imkan verəcək ki, Azərbaycanda ən müasir idman infrastrukturu yaradılsın. Mən artıq qeyd etdim ki, 13 olimpiya kompleksi tikilib, 18-i tikilməkdədir, ondan sonra da tikiləcəkdir. Amma bununla bərabər, bəzi federasiyalar özləri yeni olimpiya komplekslərinin tikilməsi ilə məşğuldur. Artıq belə komplekslər var və indi Azərbaycanda idmanla məşğul olmaq üçün bütün şərait var.

Amma yenə də deyirəm, biz gələcəyə baxmalıyıq. Həm idman infrastrukturunun möhkəmlənməsinə, həm idmançıların təlim-məşq toplanışlarının yüksək səviyyədə keçirilməsinə, peşəkarlıq, hazırlıq səviyyəsinin qaldırılmasına, həm də idman mütəxəssislərinin yetişdirilməsinə, uşaq idmanına, yeniyetmə idmanına daha da çox diqqət göstərməliyik. Mən çox şadam ki, Azərbaycanda idmançıların çox güclü gənc nəsli yetişir. Azərbaycanda idmançı olmaq indi çox şərəfli bir işdir. Bu məhz ona görədir ki, cəmiyyətdə idmançılara böyük rəğbət, böyük hörmət var. İndi müxtəlif bölgələrdə, rayonlarda tikilən olimpiya idman komplekslərinə güclü axın var. Uşaqlar, yeniyetmələr idmanla məşğul olurlar. İdmanla məşğul olan insanlar həm fiziki, həm də mənəvi cəhətdən sağlam olurlar, pis vərdişlərdən uzaq olurlar. Fiziki cəhətdən güclü insan özünü daha arxayın hiss edir. Əsl idmançı ondan zəif olan adama heç vaxt əl qaldırmaz, əksinə, əgər kiməsə yar-

dım etmək lazım olacaqsa, idmançılar, əlbəttə, ən zəif adamın köməyinə yetişəcəklər.

Biz indi böyük planlar qururuq. Ən önəmlisi isə, Azərbaycan artıq özünü o qədər arxayın, o qədər inamlı hiss edir ki, bildiyiniz kimi, 2016-cı ildə Olimpiya oyunlarının ölkəmizdə keçirilməsi haqqında rəsmi müraciət etmişdir. Azərbaycanın paytaxtı yeddi ən inkişaf etmiş şəhərlərin arasındadır və biz bununla, bir tərəfdən, onu göstəririk ki, ölkəmizdə idmana çox böyük diqqət göstərilir və idmanın inkişafına çalışacağıq. Digər tərəfdən, bu onu göstərir ki, gənc müstəqil dövlət, cəmi 16 il müstəqil dövlət kimi yaşayan Azərbaycan artıq özünü o qədər güclü hesab edir ki, Olimpiya oyunları kimi dünya miqyaslı beynəlxalq yarışların keçirilməsinə də cəhd edir. Bu, ölkəmizin gücünü, artan imkanlarımızı göstərir. Azərbaycan müstəqillik əldə edəndə həm iqtisadi, həm siyasi cəhətdən, həm də sosial məsələlərin kəskinləşməsi baxımından ən ağır vəziyyətdə olan ölkə idi. Tənəzzül, böhran və xaosun hökm sürdüyü o günləri hamımız yaxşı xatırlayırıq. Ancaq ötən illər ərzində Azərbaycan nəinki o ağır, çətin günlərin acı nəticələrini arxada qoyub, həm də inkişaf edir. Bu gün bizim inkişafımız o dərəcəyə çatıb ki, Olimpiya oyunları da keçirməyə hazırıq. Biz bunu nəinki 2016-cı ildə, hətta 2012-ci ildə də keçirməyə hazırıq. Amma 2012-ci ildə artıq başqa yerdə keçiriləcəkdir. Ola bilsin ki, 2016-cı ildə Azərbaycan bu məqsədə çatmayacaq, çünki Olimpiya oyunlarının tarixi onu göstərir ki, ilk dəfə müraciət edən şəhər heç vaxt mükafatlandırılmır. Ancaq şübhə etmirəm ki, 2016-cı ildə olmasa da, 2020-ci ildə biz ən layiqli namizədlərdən biri olacağıq. Biz bu siyasəti bundan sonra da davam etdirəcəyik.

Mən bu gün bütün idmançıları, məşqçiləri, idman mütəxəssislərini təbrik etmək istəyirəm. Çox böyük qürur hissi ilə deyə bilərəm ki, mənim də həyatımın 10 ili idmanla bağlıdır. 1997-ci ildə Milli Olimpiya Komitəsinin prezidenti vəzifəsinə seçilərkən idmançılara və bütün idman ictimaiyyətinə söz vermişdim ki, mən əlimdən gələni edəcəyəm ki, Azərbaycanda idman sürətlə inkişaf etsin, idmançıların problemləri

həll olunsun, Azərbaycan güclü idman dövlətinə çevrilsin. Mən çox şadam ki, qarşıya qoyduğumuz bütün vəzifələr öz həllini tapıbdır. Elə bir məqam yoxdur ki, biz indi deyək ki, buna nail ola bilməmişik. İdmançılar yaxşı bilirlər ki, dünya, Avropa çempionatlarında, müxtəlif yarışlarda, əlbəttə, qələbə də olur, məğlubiyyət də olur. Bundan heç kim sığortalanmayıbdır. Amma əsas odur ki, Azərbaycanda idman sürətlə inkişaf edir. İdmançılar öz peşəkarlığını artırırlar, Azərbaycan, sözün əsl mənasında, idman dövlətinə çevrilibdir.

Mən bütün idmançıları, bütün dostlarımı, bütün əməkdaşları, yəni həmkarlarımı bu gözəl bayram münasibətilə bir daha təbrik etmək istəyirəm. Bütün qonaqları bir daha salamlamaq istəyirəm. Mən bu gün bayramda iştirak etmək üçün Azərbaycana gəlmiş bütün qonaqları qəbul etdim, onlar çox gözəl ürək sözlərini dedilər.

Bütün Azərbaycan xalqını bu gözəl bayram münasibətilə təbrik edirəm və idmançılara gələcək qələbələr arzulayıram. Sağ olun.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*26 oktyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Prezident sarayında ATƏT-in Minsk qrupunun fransalı həmsədri Bernar Fasyeni, rusiyalı həmsədri Yuri Merzlyakovu, amerikalı həmsədri Mətyu Brayzəni və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair aparılan danışıqlarla bağlı məsələlər müzakirə edilmişdir.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN LİTVANIN SOSİAL MÜDAFİƏ VƏ ƏMƏK NAZİRİ VİLİYA BLİNKYAVİÇYUTENİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*26 oktyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Prezident sarayında Litvanın Sosial Müdafiə və Əmək naziri Viliya Blinkyaviçyutenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı son zamanlar iki ölkə arasında müxtəlif səviyyələrdə əlaqələrin intensivləşməsindən məmnunluğunu söylədi, bunun bütün sahələr üzrə əməkdaşlığımızın daha sıx əlaqələndirilməsinə xidmət etdiyini bildirdi. Prezident İlham Əliyev Azərbaycan və Litva gəncləri arasında da əlaqələrin genişləndirilməsinin əhəmiyyətini vurğuladı.*

*Viliya Blinkyaviçyute ölkələrimiz arasında çox fəal əməkdaşlığın həyata keçirildiyini dedi. Azərbaycan prezidentinin bir ay ərzində iki dəfə Litvaya səfər etməsinin əhəmiyyətini vurğulayan nazir bunun ikitərəfli münasibətlərimizin inkişafına xüsusi təkan verdiyini bildirdi. O, iki ölkə gəncləri arasında da əlaqələrin qurulması və inkişaf etdirilməsinin Litva ilə Azərbaycan arasında əməkdaşlığın daha da möhkəmlənməsinə töhfə verəcəyinə əminliyini söylədi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ŞƏHİDLƏR XİYABANINDA APARILAN YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLMUŞDUR

*26 oktyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Şəhidlər xiyabanında aparılan yenidənqurma işlərinin gedişi ilə tanış olmuşdur.*

*«Azərbaycan Respublikasındakı monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq kompleksləri haqqında» Prezident sərəncamına müvafiq olaraq Şəhidlər xiyabanı vahid kompleks kimi tamamilə yenidən qurulur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov prezident İlham Əliyevə burada aparılan yenidənqurma işlərinin gedişi barədə ətraflı məlumat verdi. Bildirildi ki, kompleksin yeniləşdirilməsi zamanı dövlət başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq azərbaycançılıq fəlsəfəsi əsas götürülüb, xalqımızın milli-mənəvi dəyərlərinə və milli memarlıq ənənələrimizə xüsusi diqqət yetirilir. Kompleksin girəcəyindəki «Şəhidlər xiyabanı» sözləri qızılla işlənmişdir. Burada Hollandiyadan gətirilən güllər əkilmişdir.*

*Yeni layihə hazırlanarkən kompleksin möhtəşəmliyi ilə yanaşı, onun vətəndaşlarımızın tarixi-mənəvi dəyərlərə hörmət və məhəbbət ruhunda tərbiyəsinə, vətənpərvərlik hisslərinin gücləndirilməsinə əsaslı təsir göstərməsinə də xüsusi diqqət yetirilmişdir. Məzarlar yenidən götürülür. İstifadə edilən daşlar Braziliya, Çin və İsveçdən, işıqlandırma sisteminin avadanlığı İtaliyadan gətirilmişdir. Burada görülən işlər xalqımızın, Azərbaycan dövlətinin şəhidlərin ruhuna dərin ehtiramının bariz nümunəsidir.*

*«Əbədi məşəl» abidəsi də nəfis şəkildə yenidən qurulur və hündürlüyü artırılacaqdır. Abidənin günbəzi qızılla işlənəcəkdir. Kompleksdə yeni salınan yaşıllıqlar, çəmənliklər buranın görünüşünü daha da gözəlləşdirir.*

*Prezident İlham Əliyev müvafiq tövsiyə və tapşırıqlarını verdi, eyni zamanda, xiyabanın ətrafındakı ərazidə də lazımi yenidənqurma işləri görülməsinin zəruriliyini vurğuladı.*

*Şəhidlər xiyabanında yenidənqurma işləri bu ilin noyabrında başa çatacaqdır.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ESTONİYANIN XARİCİ İŞLƏR NAZİRİ URMAS PAETİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*29 oktyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Prezident sarayında Estoniyanın Xarici İşlər naziri Urmas Paetin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı bu səfərin ikitərəfli münasibətlərimizin inkişafına dair müzakirələrin aparılması üçün yaxşı imkan yaratdığını bildirdi. O, siyasi və iqtisadi sahələrdə əlaqələrimizin daha da fəallaşdırılmasının zəruri olduğunu dedi. Prezident İlham Əliyev Estoniya nümayəndə heyətinin Azərbaycana səfərinin ölkələrimiz arasında əlaqələrin gələcək inkişafı istiqamətində mühüm addım olacağına ümid etdiyini bildirdi.*

*Urmas Paet Azərbaycana ilk dəfə səfər etməsindən məmnunluğunu söylədi və səfərinin səmərəli olacağına əminliyini bildirdi. Nazir Estoniya ilə Azərbaycan arasında siyasi münasibətlərin yaxşı səviyyədə olduğunu, bununla yanaşı, bu sahədə əlaqələrimizin daha da intensivləşdirilməsinin vacibliyini qeyd etdi. Urmas Paet səfər zamanı onu estoniyalı iş adamlarının böyük bir qrupunun müşayiət etdiyini bildirdi, səfərinin məqsədinin müxtəlif sahələrdə əməkdaşlığımızın inkişafına töhfə vermək olduğunu vurğuladı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN *bp* ŞİRKƏTİNİN KƏŞFİYYAT VƏ HASİLAT İŞLƏRİ ÜZRƏ BAŞ İCRAÇI DİREKTORU ENDRYU İNQLİS İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*29 oktyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Prezident sarayında bp şirkətinin kəşfiyyat və hasilat işləri üzrə Baş icraçı direktoru Endryu İnqlisi qəbul etmişdir.*

*Endryu İnqlis təmsil etdiyi şirkət ilə Azərbaycan arasında əməkdaşlığın uğurla həyata keçirildiyini bildirdi. O, «Şahdəniz» yatağında görülən işlər barədə dövlətimizin başçısına məlumat verərək, bu layihə üzrə hasilatın Azərbaycanın gələcək iqtisadi inkişafında mühüm rol oynayacağını dedi.*

*Prezident İlham Əliyev uzun illər ərzində Azərbaycan ilə bp şirkəti arasında uğurlu əməkdaşlığın bundan sonra da müvəffəqiyyətlə davam etdiriləcəyinə əminliyini vurğuladı. «Şahdəniz» yatağında görülən işlərdən məmnunluğunu bildirdi.*

## AZƏRBAYCAN PREZİDENTİ, SİLAHLI QÜVVƏLƏRİN BAŞ KOMANDANI İLHAM ƏLİYEV XÜSUSİ DÖVLƏT MÜHAFİZƏ XİDMƏTİNİN TƏLİM-TƏDRİS MƏRKƏZİNİN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*30 oktyabr 2007-ci il*

*Oktyabrın 30-da Qaradağ rayonunun Müşfiqabad qəsəbəsi yaxınlığında Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin (XDMX) təlim-tədris mərkəzinin açılışı olmuşdur.*

*Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısının tapşırığına əsasən, təlim-tədris mərkəzinin yaradılması üçün Xüsusi Dövlət Mühafizə Xidmətinə 200 hektar torpaq sahəsi və müvafiq maliyyə vəsaiti ayrılmışdır. Bir il ərzində müasir standartlara uyğun tikilən bu hərbi şəhərciyin ərazisində nəzarət-buraxılış məntəqəsi, qərargah, tədris binası, əsgər və zabit yataqxanaları, interaktiv tir, yeməkxana, müxtəlif ölçülü atıcılıq tirləri və sair inşa olunmuşdur. Əraziyə elektrik, su, kanalizasiya, istilik, qaz xətləri çəkilmişdir.*

*Azərbaycan prezidentini XDMX-nin rəisi, general-polkovnik Vaqif Axundov qarşılayaraq raport verdi:* «Möhtərəm Prezident, cənab Ali Baş Komandan! Xüsusi Dövlət Mühafizə Xidmətinin şəxsi heyəti təlim-tədris mərkəzinin açılışına hazırdır».

*Prezident İlham Əliyev əvvəlcə ümummilli lider Heydər Əliyevin ucaldılmış heykəli üzərindən ağ örtüyü götürdu, abidənin önünə gül dəstəsi qoydu. Bildirildi ki, mərkəzdə ümumhərbi hazırlıq keçmiş gənc əsgərlər hərbi andı ulu öndərin heykəli önündə qəbul edəcəklər.*

*Hərbi orkestrin ifasında Azərbaycanın Dövlət himni səsləndi.*

*Dövlətimizin başçısı XDMX-nin şəxsi heyəti ilə görüşdü, mərkəzin qərargah binası ilə və burada yaradılmış Heydər Əliyev muzeyi ilə tanış oldu. Məlumat verildi ki, hərbi qulluqçuların Vətənə, dövlətə sədaqət ruhunda tərbiyə edilməsində böyük rol oynayacaq bu muzeydə əbədiyaşar prezidentin həyat və fəaliyyətinin bütün dövrlərini əks etdirən çoxsaylı fotoşəkillər toplanmışdır. Burada ulu öndərin büstü də qoyulmuşdur. Heydər Əliyevin prezident kimi xarici dövlətlərə səfərləri, hərbçilərlə, o cümlədən Xüsusi Dövlət Mühafizə Xidmətinin şəxsi heyəti ilə rəsmi və qeyri-rəsmi görüşlərini, cəbhə bölgələrində əsgərlərə baş çəkməsini əks etdirən şəkillər diqqəti cəlb edir. Muzeydə ümummilli lider haqqında dəyərli kitablar, müxtəlif sənədlər də vardır.*

*Prezident İlham Əliyev muzeyin Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:*

«Heydər Əliyev muzeyində nümayiş etdirilən fotoşəkillər ulu öndərin fəaliyyətinin müxtəlif dövrünü əks etdirir. 1960-cı illərdən 2000-ci illərə qədər Azərbaycan tarixi Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqil Azərbaycanın prezidenti kimi, Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində və ölkəmizin hərtərəfli inkişafında misilsiz xidmətlər göstərmişdir.

Xüsusi Dövlət Mühafizə Xidmətinin və Milli Qvardiyanın formalaşmasında Heydər Əliyevin böyük rolu vardır. Bu gün XDMX-nin təlim-tədris mərkəzinin açılışı bir daha onu göstərir ki, Xidmətin inkişafına böyük diqqət göstərilir. XDMX isə öz növbəsində, vəzifələrini şərəflə icra edir.

XDMX-nin və Milli Qvardiyanın bütün şəxsi heyətinə yeni uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

30.10.2007-ci il».

*Ali Baş Komandan qərargah binasında yerləşən növbətçi hissə, silah və xidmət otaqlarına, akt salonlarına, təlim dərslərinin keçirilməsi üçün nəzərdə tutulan tədris binasındakı sinif otaqlarına baxdı. Bildirildi ki, burada Bakı–Tbilisi–Ceyhan, Bakı–Supsa, Bakı–Novorossiysk neft boru kəmərlərinin və digər strateji xətlərin, xüsusi dövlət idarələrinin mühafizəsi ilə bağlı ixtisaslaşdırılmış bölmələr üzrə kadrların peşəkarlığı artırılır, müasir texnologiyalar vasitəsilə təlimatlar verilir.*

*Prezident İlham Əliyev zabit yataqxanasına baş çəkdi, otaqlarda yaradılan şəraitlə maraqlandı, interaktiv atıcılıq tirinin komanda-idarəetmə məntəqəsinə gəldi. Vurğulandı ki, burada hədəflər elektron formada olduğu üçün əlavə əməliyyatlara ehtiyac qalmır, təhlükəsizlik qaydalarına tam əməl edilir.*

*Dövlətimizin başçısı eyni qayda ilə 500 metrlik atıcılıq tiri ilə də maraqlandı, atıcıların məşqini izlədi. Qeyd olundu ki, burada yerləşən xüsusi kamera və kompyuterlərdə ayrı-ayrı terror, təxribat aktlarına və digər hallara dair videosüjetlər hazırlanır, hədəflər süni şəkildə canlandırılır və atıcı onları nişan alır. Bu sistem ən son hazırlıq üsuludur.*

*Ali Baş Komandan zabit və əsgər yeməkxanalarına, mətbəxə baxdı. Bildirildi ki, XDMX-nin və Milli Qvardiyanın müddətli həqiqi hərbi xidmət qulluqçularına verilən yeməklərin keyfiyyəti yüksək səviyyədədir.*

*Prezident İlham Əliyev təlim-tədris mərkəzinin hərbi, nəqliyyat və rabitə texnikası ilə də tanış oldu.*

*Sonra təntənəli mərasim keçirildi. XDMX-nin rəis müavini, general-leytenant Niyazi Hacıyev raport verdi:* «Cənab Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Xüsusi Dövlət Mühafizə Xidmətinin şəxsi heyəti yeni təlim-tədris mərkəzinin açılışı mərasimi münasibətilə düzülmüşdür».

*Ali Baş Komandan İlham Əliyev milli qvardiyaçıları salamladı.*

## XÜSUSİ DÖVLƏT MÜHAFİZƏ XİDMƏTİNİN TƏLİM-TƏDRİS MƏRKƏZİNİN AÇILIŞ MƏRASİMİNDƏ AZƏRBAYCAN PREZİDENTİ, SİLAHLI QÜVVƏLƏRİN ALİ BAŞ KOMANDANI İLHAM ƏLİYEVİN ÇIXIŞI

Əziz əsgərlər, zabitlər, generallar!

Əziz milli qvardiyaçılar!

Mən sizi salamlayıram və Xüsusi Dövlət Mühafizə Xidmətinin təlim-tədris mərkəzinin açılışı münasibətilə təbrik edirəm. Bu mərkəz dünyanın ən yüksək standartlarına cavab verir, burada ən müasir avadanlıq quraşdırılıbdır. Mən bu gün mərkəzdə yerləşən bütün obyektlərlə yaxından tanış oldum və gördüm ki, burada əməkdaşların peşəkarlıq səviyyəsinin yüksəldilməsi, gözəl məşq etmək, dincəlmək, istirahət etmək, yaşamaq üçün bütün şərait var. Bir sözlə, Azərbaycanda və hesab edirəm ki, bölgədə analoqu olmayan çox müasir təlim-tədris mərkəzinin açılması Azərbaycanın artan qüdrətini göstərir. Əslində bu mərkəz böyük bir hərbi bazadır. Hərbi bazaya xas olan bütün əlamətlər burada mövcuddur və əminəm ki, həm əməkdaşların peşə hazırlığının yüksəldilməsi, həm də digər qurumların əməkdaşlarının hazırlanması üçün burada yaradılan şəraitdən səmərəli şəkildə istifadə olunacaqdır. Eyni zamanda, bu gün biz ulu öndər Heydər Əliyevin abidəsinin açılışını qeyd etdik. Heydər Əliyev muzeyinin açılışını etdik. Ulu öndərin Xüsusi Dövlət Mühafizə Xidmətinin formalaşmasında çox böyük rolu olmuşdur. Heydər Əliyev Xidmətin inkişafına, maddi-texniki bazasının möhkəmləndirilməsinə çox böyük diqqət və qayğı göstərmişdir. Bütün dövrlərdə Xüsusi Dövlət Mühafizə Xidməti ulu öndərə sədaqətlə qulluq etmişdir və bu gün dövlətçiliyə, Azərbaycanda sabitliyin bərqərar olunmasına, qorunmasına öz töhfəsini verməkdədir.

Burada general Vaqif Axundov mənim sözlərimi yada saldı, onu bir daha demək istəyirəm. Azərbaycan üçün, dövlətçiliyimiz üçün, müstəqilliyimiz üçün ən ağır dövrlərdə, 90-cı illərin ortalarında Milli Qvardiya və Xüsusi Dövlət Mühafizə Xidmətinin əməkdaşları ulu öndəri qorudular. Beləliklə, Azərbaycanda sabitliyi qorudular, dövlətçilik əsaslarını qorudular. Bizim müstəqil yaşamağımızı qorudular, Azərbaycanın uğurunu, inkişafını təmin etdilər. Ulu öndər xalqın dəstəyi ilə bütün çətin anlardan şərəflə çıxdı, Azərbaycanın müstəqilliyini qorudu, Azərbaycanı faktiki olaraq parçalanmaqdan xilas etdi və bu gün Azərbaycanın uğurlu inkişafı o siyasətə əsaslanır. Bizim siyasətimiz, ulu öndər Heydər Əliyevin siyasəti bütün sahələrdə davam etdirilir.

Milli Qvardiyanın Azərbaycan xalqı qarşısında çox böyük xidmətləri olmuşdur. Qvardiya yaradılan günlərdə Azərbaycana təcavüz edən erməni qəsbkarlarına qarşı döyüşlərə başlamış, çox böyük cəsarətlə, şücaətlə vuruşmuşdur, şəhidlər vermişdir və Azərbaycanın ərazi bütövlüyünü, Azərbaycanın müstəqilliyini qorumuşdur. Ona görə biz hamımız qvardiyanın xidmətlərini yüksək qiymətləndirməliyik və bu gün həm Xidmətin, həm də qvardiyanın maddi-texniki bazasının möhkəmləndirilməsi, əməkdaşların sosial problemlərinin həlli üçün dövlət öz qayğısını göstərir. Burada quraşdırılan ən müasir avadanlıq uzun illər ərzində Azərbaycanda təhlükəsizliyi, sabitliyi qoruyacaqdır.

Əməkdaşların dövlət əhəmiyyətli obyektlərin qorunmasında böyük rolu vardır. Xarici ölkələrin dövlət, hökumət başçılarının Azərbaycana səfərləri zamanı onların qorunması ilə məşğuldurlar. Azərbaycan prezidentinin təhlükəsizliyinin təmin edilməsi ilə məşğuldurlar və deyə bilərəm ki, mən əməkdaşların bütün bu işlərdə fəaliyyətini çox yüksək qiymətləndirirəm. Onlar qarşıda duran bütün vəzifələri şərəflə yerinə yetirirlər. Bu gün deyə bilərəm ki, Milli Qvardiya və Xüsusi Dövlət Mühafizə Xidməti ən yüksək qiymətə layiqdir.

Son illər ərzində həyata keçirilən geniş islahat proqramları Azərbaycanı bölgədə lider dövlətə çevirir. Şübhə yoxdur ki, bunun təməlində ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 90-

cı illərin ortalarında başlanmış neft strategiyası dayanır. Bu gün Azərbaycan böyük həcmdə neft hasil edən ölkəyə çevrilmişdir. Bu bizim iqtisadi gücümüzü artırır, əlbəttə, siyasi çəkimizi artırır və bölgədə Azərbaycanın razılığı olmadan heç bir layihənin həyata keçirilməsi mümkün deyildir.

Heydər Əliyevin təşəbbüsü ilə əsas sənaye infrastrukturunun qorunması məhz Xüsusi Dövlət Mühafizə Xidmətinə tapşırılmışdır və bu şərəfli missiyanı Xidmət çox peşəkarlıqla icra edir. Həm Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinin, həm də digər kəmərlərin və nəqliyyat infrastrukturunun qorunması Azərbaycanın iqtisadi və siyasi təhlükəsizliyinin qorunması deməkdir. Deyə bilərəm ki, bütün bu illər ərzində həm kəmərlərin tikintisi, həm də istismarı zamanı Azərbaycan ərazisində heç bir insident və kəmərlərin istifadəsi üçün heç bir təhlükə olmamışdır. Ancaq bilirik ki, bəzi hallarda başqa ölkələrdə kəmərlərə müdaxilələr, oğurluq halları, bəzən terror aktları olur. Azərbaycanda kəmərlərin tam şəkildə təhlükəsiz istismarı təmin olunur və əlbəttə ki, bu işdə Xüsusi Dövlət Mühafizə Xidməti əməkdaşlarının böyük rolu vardır. Əminəm ki, Azərbaycan üçün ən böyük əhəmiyyət kəsb edən bizim ixrac infrastrukturumuz bundan sonra da lazımi səviyyədə qorunacaq və Azərbaycan xalqının xoşbəxt gələcəyini təmin edəcəkdir.

Biz bütün mövcud olan çağırışlara hazır olmalıyıq, öz təhlükəsizliyimizi təmin etməliyik. Həm iqtisadi, həm siyasi islahatlar, həm də təhlükəsizlik məsələləri kompleks şəkildə həll olunur. Azərbaycanın, müstəqil dövlətimizin uğurlu inkişafı, xoşbəxt yaşaması üçün başlıca məsələ bizim təhlükəsizliyimizdir. Biz bu təhlükəsizliyi təmin edirik. Azərbaycanda təhlükəsizlik məsələlərinə cavabdehlik daşıyan bütün qurumlar səmərəli işləyir. Azərbaycanda təhlükəsizlik ən yüksək səviyyədədir, sabitlik qorunub saxlanılır. Əminəm ki, bu, gələcəkdə də davam etdiriləcəkdir. Sabitlik, təhlükəsizlik Azərbaycanda bütün məsələlərin həlli üçün başlıca şərtdir. O ölkələrdə ki, bu məsələlər öz həllini tapmır, yaxud da təhlükəsizliyə, sabitliyə təhlükə var, bunlar təmin olunmur, orada iqtisadi inkişaf da mümkün deyildir.

Azərbaycanın uğurlu iqtisadi inkişafı həm də ölkəmizdə mövcud olan gözəl şəraitdən asılıdır. Bizim iqtisadi uğurlarımız indi dünyada bütün qurumlar tərəfindən tanınır. Azərbaycan üç ildir ki, dünyanın ən dinamik şəkildə inkişaf edən ölkəsidir. Dünyada hər hansı sahədə birinciliyi əldə etmək çox böyük nailiyyətdir. Xüsusilə, iqtisadi artım sahəsində gənc müstəqil dövlət üçün. Biz bunu təmin etmişik. Biz bu liderliyi gələcəkdə də saxlamaq fikrindəyik. Bu bizə imkan verir ki, ölkəmizdə bütün məsələlər – həm infrastruktur layihələrinin, həm neft-qaz layihələrinin həyata keçirilməsi, həm də insanların yaşayış səviyyəsinin yaxşılaşdırılması, sosial problemlər öz həllini tapsın. Bir sözlə, ölkəmizin qarşısında duran həm siyasi, həm iqtisadi, həm də sosial problemlərin həlli üçün bizim gözəl imkanlarımız var. Bir daha demək istəyirəm ki, bunun təməlini ulu öndər Heydər Əliyev 1994-cü ildə «Əsrin müqaviləsi»nin bağlanması ilə qoymuşdur. Bu müqavilə çox uğurla icra edilir və onunla bağlı bütün təhlükəsizlik məsələləri ən yüksək səviyyədə təmin olunur. Birinci növbədə, Xüsusi Dövlət Mühafizə Xidmətinin əməkdaşları tərəfindən. Biz bunu bilməliyik və gələcəkdə, əlbəttə, Xidmətin inkişafı üçün lazımi tədbirləri görəcəyik.

Qeyd olundu ki, cəmi bir il ərzində burada gözəl şərait yaradıldı. Hələ bir il bundan əvvəl bu yerlərdə heç nə yox idi, boş yerlər idi. Sentyabr ayında mənim göstərişimlə sərəncam verilmiş, 200 hektar torpaq ayrılmışdır və bir il ərzində çox gözəl hərbi şəhərcik yaradılmışdır. Bu, bir tərəfdən, onu göstərir ki, Azərbaycan dövləti bütün məsələləri qısa müddətdə və ən yüksək səviyyədə həll etməyə qadirdir. Digər tərəfdən, onu göstərir ki, Xidmətin fəaliyyətinə çox böyük diqqət yetirilir.

Əməkdaşların sosial məsələlərinin həlli də çox vacibdir. Biz bu sahəyə də baxırıq və əməkdaşların sosial məsələlərinin həlli üçün işlər görülür – həm mənzillər verilir, həm maaş artırılır. Biz bunu gələcəkdə də edəcəyik. Xidmətdə, qvardiyada çalışan bütün əməkdaşlar yüksək maaş almalıdırlar, onların sosial problemləri ən yüksək səviyyədə öz həllini tapmalıdır.

Bütövlükdə, Azərbaycanda ordu quruculuğunda da proseslər çox müsbət istiqamətdə inkişaf edir. Bildiyiniz kimi, Azərbaycan dövləti bu sahəyə çox böyük diqqət göstərir. Biz müharibə şəraitində yaşayırıq və hər an müharibəyə hazır olmalıyıq. Müharibə hələ ki, bitməyib, sadəcə olaraq, atəşkəs sazişi bağlanıbdır. Biz öz doğma torpaqlarımızı işğalçılardan hərb yolu ilə azad etmək üçün hazır olmalıyıq. Bunu təmin etmək üçün həm peşəkarlıq səviyyəsi yüksəlməlidir, həm vətənpərvərlik ruhunda gənc nəsil yetişməli, həm də ordu quruculuğu prosesinə çox böyük vəsait qoyulmalıdır. Deyə bilərəm ki, son bir neçə il ərzində bu sahədə böyük nailiyyətlərə çatmışıq. 2004-cü ildə Azərbaycanın dövlət büdcəsindən hərbi xərclərə 175 milyon manat nəzərdə tutulmuşdu. 2008-ci ildə isə bu rəqəm 1,3 milyard dollar səviyyəsinə çatacaqdır. Bu çox böyük rəqəmdir və bizə imkan verir ki, ordu quruculuğu sahəsində qarşımıza qoyduğumuz bütün məsələləri həll edək, ordumuzun maddi-texniki bazasını möhkəmləndirək.

Eyni zamanda, bütün digər qurumlara da eyni diqqət göstərilir. Biz çox güclü hərbi sənaye kompleksi yaratmaq fikrindəyik və əlbəttə, hərbçilərin sosial problemləri həll olunmalıdır. Ordu quruculuğu prosesi bundan sonra daha da sürətlə getməlidir. Bir sözlə, bu məsələlərə kompleks şəkildə yanaşdıqda, onlar öz həllini tapır. Bu gün bu gözəl mərkəzin açılışı bir daha onu göstərir ki, Azərbaycanda bu sahəyə böyük diqqət yetirilir. Azərbaycan dövləti qısa müddət ərzində istənilən məsələni ən yüksək səviyyədə həll edə bilər və hərbçilərə, Xüsusi Dövlət Mühafizə Xidmətinin əməkdaşlarına diqqət də ən yüksək səviyyədədir.

Mən sizi bu gözəl şəhərciyin açılışı münasibətilə təbrik edirəm. Sizə Vətən uğrunda şərəfli peşənizdə uğurlar diləyirəm. Sağ olun.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN İRANIN VİTSE-PREZİDENTİ, MİLLİ GƏNCLƏR TƏŞKİLATININ SƏDRİ HÖCCƏTÜLİSLAM ƏLİ ƏKBƏRİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*30 oktyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Prezident sarayında İran İslam Respublikasının vitse-prezidenti, Milli Gənclər Təşkilatının sədri höccətülislam Əli Əkbərinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Azərbaycanla İran arasında bütün sahələrdə münasibətlərin uğurla inkişaf etdiyini vurğuladı və hər iki ölkənin gənclər siyasəti istiqamətində də əməkdaşlığının inkişafının zəruriliyini qeyd etdi. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, İran nümayəndə heyətinin ölkəmizdə keçiriləcək «Gənclər sivilizasiyalarin alyansı naminə» beynəlxalq təşəbbüs, nəsillərarası yüksək səviyyəli konfransda iştirakı tədbirə öz töhfəsini verəcəkdir. Prezident İlham Əliyev qarşılıqlı səfərlərin əlaqələrimizin daha da genişləndirilməsi baxımından əhəmiyyətini vurğuladı.*

*Höccətülislam Əli Əkbəri ölkələrimiz arasında dostluq münasibətlərinin uğurla inkişaf etdiyini bildirdi. Azərbaycanda səfərdə olmasından və Bakıda keçiriləcək konfransda iştirak etməsindən məmnunluğunu ifadə edən qonaq belə yüksək səviyyəli beynəlxalq tədbirlərin reallaşmasına göstərdiyi diqqətə görə prezident İlham Əliyevə minnətdarlıq etdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İSLAM KONFRANSI GƏNCLƏR FORUMUNUN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*1 noyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Prezident sarayında İslam Konfransı Gənclər Forumunun nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Bakıda «Gənclər sivilizasiyaların alyansı naminə» beynəlxalq konfransın uğurla keçməsindən məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev konfransın əhatə etdiyi mövzunun və edilən çıxışların əhəmiyyətinə toxundu.*

*Forumun İdarə Heyətinin sədri Əli Sarıqaya «Gənclər sivilizasiyaların alyansı naminə» beynəlxalq konfransın Azərbaycanda keçirilməsinin böyük önəm kəsb etdiyini bildirdi. O, prezident İlham Əliyevin İslam Konfransı Gənclər Forumunun fəaliyyətinə dəstəyinin forumun əldə etdiyi uğurlarda xüsusi əhəmiyyət daşıdığını vurğuladı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN PORTUQALİYANIN SABİQ PREZİDENTİ, BMT BAŞ KATİBİNİN SİVİLİZASİYALARIN İTTİFAQINDA YÜKSƏK NÜMAYƏNDƏSİ JORJ DE SAMPAYO İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*1 noyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Prezident sarayında Portuqaliyanın sabiq prezidenti, BMT Baş katibinin Sivilizasiyaların İttifaqında yüksək nümayəndəsi Jorj de Sampayonu qəbul etmişdir.*

*Dövlətimizin başçısı «Gənclər sivilizasiyaların alyansı naminə» beynəlxalq konfransın Bakı şəhərində keçirilməsinin əhəmiyyətini vurğuladı və BMT Baş katibinin nümayəndəsinin bu tədbirdə iştirakını yüksək qiymətləndirdi.*

*Jorj de Sampayo prezident İlham Əliyev ilə keçən il İstanbulda olmuş görüşünü məmnuniyyətlə xatırladı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN İSESKO-nun BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TÜVEYCRİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*1 noyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Prezident sarayında İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycrini qəbul etmişdir.*

*Əbdüləziz bin Osman əl-Tüveycri Azərbaycan Respublikasının İSESKO-nun fəaliyyətinə göstərdiyi dəstəyə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi. O, ölkəmizlə rəhbərlik etdiyi təşkilat arasında münasibətlərin nümunəvi xarakter daşıdığını vurğuladı. Dövlətimizin başçısı İSESKO ilə əlaqələrin səviyyəsindən məmnunluğunu ifadə etdi. «Gənclər sivilizasiyaların alyansı naminə» beynəlxalq konfransın əhəmiyyətinə toxunan prezident İlham Əliyev İSESKO-nun Baş direktorunun bu tədbirdə iştirakını yüksək qiymətləndirdi.*

## «GƏNCLƏR SİVİLİZASİYALARIN ALYANSI NAMİNƏ» BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli gənclər!

Əziz qonaqlar!

Sizi – «Gənclər sivilizasiyaların alyansı naminə» beynəlxalq konfransın iştirakçılarını ürəkdən salamlayır, hər birinizə ən xoş arzularımı çatdırıram.

Müasir dövrün reallıqları gənclərlə iş sahəsində daha çevik siyasət aparılmasını tələb edir. Gənclərin problemlərinin öyrənilməsi və həlli üçün yeni iş üsullarının tətbiq edilməsi tarazlaşdırılmış və dünyəvi prinsiplərə əsaslanan gənclər siyasətinin formalaşdırılması zərurətini meydana çıxarır. Müstəqil Azərbaycanda gənclərə diqqət və qayğı dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Görülən işlər gənclərin maraqlarının və hərtərəfli inkişafının təmin olunması üçün siyasi, sosial-iqtisadi, təşkilati-hüquqi şərait yaradılmasını sürətləndirmiş, gənclərin təşkilatlanmasına və ictimai-siyasi fəallıqlarının artmasına təkan vermişdir.

Bu gün Azərbaycanda milli-mənəvi dəyərlərimizi, ana dilimizi, adət-ənənələrimizi qoruyub yaşadan, eyni zamanda, ümumbəşəri ideyaları mənimsəyərək, dünyanın qabaqcıl gəncliyi ilə inteqrasiya etməyə qadir olan nəsil yetişmişdir. Onlar Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində erməni qəsbkarları tərəfindən işğal edilmiş torpaqlarımızın azad olunması naminə qüvvə və bacarıqlarını səfərbər edərək fəaliyyət göstərirlər. Son illərdə ölkəmizin iqtisadiyyatının misli görünməmiş yüksəlişi gənclərimiz qarşısında geniş üfüqlər açmış və onlara bəslənilən ümidləri daha da artırmışdır.

2007-ci ilin Azərbaycanda «Gənclər İli» elan edilməsi ilə əlaqədar ölkəmizdə müxtəlif səviyyəli tədbirlər təşkil olun-

maqdadır. Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun təşəbbüsü ilə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, Avropa Şurası, İSESKO kimi beynəlxalq təşkilatların və Heydər Əliyev Fondunun birgə təşkil etdiyi «Gənclər sivilizasiyaların alyansı naminə» beynəlxalq konfransın bu baxımdan ölkəmizin ictimai-siyasi həyatında özünəməxsus yeri vardır.

Belə bir tədbirin sivilizasiyaların qovuşuğunda yerləşən, özündə Şərq və Qərb mədəni dəyərlərini cəmləşdirən Azərbaycanda keçirilməsi böyük əhəmiyyət kəsb edir. Ümidvaram ki, elm, mədəniyyət və sosial sahələrdə tanınmış alimlər tərəfindən sivilizasiyaların qarşılıqlı münasibətləri, siyasi, ictimai-mədəni problemləri haqqında aparılacaq müzakirələr və fikir mübadilələri gənc liderlərin formalaşmalarına və bu sahədə onların dünya təcrübəsini öyrənmələrinə öz töhfəsini verəcəkdir. Mən «Gənclər sivilizasiyaların alyansı naminə» beynəlxalq təşəbbüsün nəticəsi olaraq eyniadlı hərəkatın yaradılması ideyasını da alqışlayıram.

Bir daha konfransınızın işinə müvəffəqiyyətlər arzulayır, hamınıza cansağlığı, uzun ömür və ölkələrimizdə bu beynəlxalq gənclər hərəkatının geniş vüsət alması naminə uğurlar diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 noyabr 2007-ci il*

**ANQOLA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB JOZE EDUARDU DUŞ SANTUŞA**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Anqola arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 noyabr 2007-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN LİXTENŞTEYNİN ƏTRAF MÜHİT, KƏND VƏ MEŞƏ TƏSƏRRÜFATI NAZİRİ HÜQO KVADERER İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*2 noyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Prezident sarayında Lixtenşteynin Ətraf Mühit, Kənd və Meşə Təsərrüfatı naziri Hüqo Kvadereri qəbul etmişdir.*

*Hüqo Kvaderer ölkəmizə səfərindən məmnunluğunu ifadə etdi və səfər çərçivəsində Azərbaycanın rayonlarına baş çəkdiyini bildirdi. O, ölkəsinin Azərbaycan ilə əlaqələrin inkişafında maraqlı olduğunu qeyd etdi.*

*Lixtenşteynin nümayəndə heyətinin Azərbaycana ilk dəfə səfər etdiyini bildirən prezident İlham Əliyev bu səfərin iki ölkə arasında səmərəli əməkdaşlığa təkan verəcəyinə ümidvar olduğunu vurğuladı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN İSVEÇRƏ KONFEDERASİYASI MİLLİ ŞURASININ SƏDRİ KRİSTİN EGERSZEGİ-OBRİST İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*2 noyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Prezident sarayında İsveçrə Konfederasiyası Milli Şurasının sədri Kristin Egerszegi-Obristi qəbul etmişdir.*

*Kristin Egerszegi-Obrist prezident İlham Əliyev ilə görüşməkdən məmnun olduğunu bildirdi. O bu səfərin İsveçrədə Azərbaycan haqqında daha geniş məlumatın əldə olunması baxımından əhəmiyyətini vurğuladı.*

*Dövlətimizin başçısı bu il Davosa səfəri zamanı İsveçrənin prezidenti ilə görüşdüyünü və görüş zamanı səmərəli müzakirələr apardıqlarını qeyd etdi. Prezident İlham Əliyev Azərbaycan ilə İsveçrə arasında müxtəlif sahələrdə ikitərəfli münasibətlərin inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu bildirdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ŞƏHİDLƏR XİYABANININ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞ OLMUŞDUR

*2 noyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına uyğun olaraq Şəhidlər xiyabanının vahid kompleks kimi yenidən qurulması başa çatmışdır. Noyabrın 2-də dövlətimizin başçısı Şəhidlər xiyabanının yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*President İlham Əliyev avtomat idarəetmə qurğusu vasitəsilə xiyabanın girəcəyindəki məşəli alovlandırdı.*

*Dövlətimizin başçısı Azərbaycanın müstəqilliyi və bütövlüyü uğrunda canlarını qurban vermiş Vətən oğullarının uyuduğu xiyabanda aparılmış yenidənqurma və abadlıq işlərinin keyfiyyəti ilə yaxından tanış oldu. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov prezidentə məlumat verərək bildirdi ki, burada yenidənqurma işləri dövlət başçısının bilavasitə tapşırığı ilə qısa vaxt ərzində və yüksək səviyyədə həyata keçirilibdir.*

*Xiyabanın ərazisi xeyli genişlənib, şəhid məzarlarının hamısının üstü yenidən mərmərlə götürülüb, milli və Şərq memarlığının zəngin elementlərindən istifadə olunubdur. Xiyabanın, demək olar ki, hər yerində müasir işıqlandırma sistemi quraşdırılıbdır. Bakının ən yüksək nöqtəsində yerləşən Şəhidlər xiyabanında Avstriyadan gətirilmiş çəmən döşənmiş, Hollandiyadan gətirilmiş güllər, on mindən artıq ağac əkilmiş, yeni yaşıllıq zolaqları salınmışdır.*

*Azərbaycan prezidenti İlham Əliyev şəhidlərin ölməz ruhunun və xalqımızın qəhrəmanlıq mübarizəsinin rəmzi olan «Əbədi məşəl» abidəsinə də baxdı. Dövlətimizin başçısı məşəli alovlandırdı.*

*Xatırladaq ki, Azərbaycan prezidenti İlham Əliyevin tapşırığı ilə Şəhidlər xiyabanının yenidən qurulması işlərində zərvərəq qızıldan istifadə olunmuşdur. Girişdəki yazı, xiyabanın əsaslı təmirini və yenidən qurulmasını əks etdirən lövhə, «Əbədi məşəl» abidəsindəki səkkizguşəli ulduz, səkkizguşəli güzgünün məsamələri qızılla işlənilmişdir.*

*Prezident İlham Əliyev buradan Bakının mənzərəsini seyr etdi, xiyabanın ətrafındakı ərazidə də abadlıq və quruculuq işlərinin aparılması ilə bağlı müvafiq tapşırıqlarını verdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ DANİEL FRİD İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*3 noyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Prezident sarayında ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini Daniel Fridi qəbul etmişdir.*

*Dövlətimizin başçısı bu səfərin ölkələrimiz arasında əlaqələrin, regionda vəziyyətin və digər qarşılıqlı maraq doğuran mühüm məsələlərin müzakirə olunması üçün yaxşı imkan yaratdığını qeyd etdi. Prezident İlham Əliyev Azərbaycan–ABŞ ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Daniel Frid yenidən ölkəmizə səfər etməsindən məmnun olduğunu bildirərək dedi ki, Azərbaycan ABŞ və region üçün mühüm ölkədir.*

*O, ölkəsinin Azərbaycanı güclü, azad, dünyanın mürəkkəb bölgəsində öz seçdiyi yol ilə irəliləyən bir ölkə kimi görməkdə maraqlı olduğunu bildirdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-ın «SÜLH KORPUSU» TƏŞKİLATININ DİREKTORU RONALD TŞETTERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*5 noyabr 2007-i il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Prezident sarayında ABŞ-ın «Sülh korpusu» təşkilatının direktoru Ronald Tşetterin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Ronald Tşetter Azərbaycana səfəri çərçivəsində Xaçmaz, Siyəzən və Şamaxı rayonlarında olduqlarını bildirdi. Ölkəmizdə fəaliyyətə 2003-cü ildən ingilis dilinin tədrisi ilə başladıqlarını deyən qonaq hazırda iqtisadi inkişaf, kiçik sahibkarlıq və gənclər proqramlarının həyata keçirilməsində iştirak etdiklərini vurğuladı. R.Tşetter rəhbərlik etdiyi təşkilatın gələcək fəaliyyət planları barədə prezident İlham Əliyevə məlumat verdi.*

*Dövlətimizin başçısı təşkilatın fəaliyyətinin Azərbaycanda geniş əhatə dairəsinə malik olmasını yaxşı hal kimi qiymətləndirdi. Prezident İlham Əliyev «Sülh korpusu» təşkilatının bundan sonra da ölkəmizdə uğurla fəaliyyət göstərəcəyinə ümidvar olduğunu bildirdi.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜLÜN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*Prezident sarayı*

*6 noyabr 2007-ci il*

*Rəsmi qarşılanma mərasimlərinin keçirildiyi və hər iki dost ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan dövlətinin başçısı İlham Əliyev Türkiyə prezidenti Abdullah Gülü səmimiyyətlə qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Türkiyə prezidentinə raport verdi.*

*Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Türkiyənin və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Türkiyə prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycan dövləti və hökumətinin rəsmi şəxsləri Türkiyə prezidenti Abdullah Gülə, Türkiyə nümayəndə heyətinin üzvləri Azərbaycan prezidenti İlham Əliyevə təqdim edildi.*

*Dövlət başçıları Prezident sarayında xatirə şəkli çəkdirdilər.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜL İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*6 noyabr 2007-ci il*

*Noyabrın 6-da Prezident sarayında rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında dost və qardaş münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının daim genişləndiyi vurğulandı. Azərbaycan və Türkiyə tərəfindən həyata keçirilən qlobal enerji layihələrinin ölkələrimiz və xalqlarımızın rifah halının daha da yaxşılaşdırılmasına, habelə bölgədə sülh və sabitliyin təmin olunmasına xidmət edəcəyi bildirildi.*

*Dövlət başçıları ikitərəfli münasibətlərə, regional və beynəlxalq məsələlərə dair fikir mübadiləsi apardılar.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜLÜN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*6 noyabr 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyevin və Türkiyə prezidenti Abdullah Gülün nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən sizi Azərbaycanda ürəkdən salamlayıram, xoş gəlmisiniz! Sizin Azərbaycana rəsmi səfərinizə çox böyük əhəmiyyət veririk. Mən əminəm ki, bu səfər və onun nəticələri iki ölkə arasında mövcud olan dostluq, qardaşlıq münasibətlərinin inkişafında çox böyük rol oynayacaqdır. Biz çox şadıq ki, cümhur başqanı kimi, Siz ilk rəsmi səfərinizi Azərbaycana etmisiniz. Bu bizi çox məmnun edir və bir daha onu göstərir ki, bizim münasibətlərimiz qardaşlıq, dostluq münasibətləridir və Türkiyə ilə Azərbaycan həmişə olduğu kimi, bundan sonra da ən yaxın müttəfiqlər kimi, öz aralarında olan münasibətlərin bütün sahələrinin inkişafında fəal çalışacaqlar.

Bu gün biz Sizinlə həmişə olduğu kimi, çox geniş söhbət apardıq və ikitərəfli münasibətlərin bütün aspektləri müzakirə olundu. Əminəm ki, səfəriniz və səfər çərçivəsində aparılan danışıqlar, imzalanacaq sənədlər həm siyasi, həm iqtisadi, həm də bütün başqa sahələrdə əlaqələrimizi daha da yüksək pilləyə qaldıracaqdır. Doğma vətəninizə bir daha xoş gəlmisiniz. Əminəm ki, səfəriniz çox uğurlu keçəcəkdir.

**A b d u l l a h   G ü l** : Hörmətli Cümhur başqanı!

Hörmətli nazirlər!

Hörmətli dostlar!

Bu gün Azərbaycanda, Bakıda olmaqdan böyük bir sevinc və məmnuniyyət duyuram. Buraya nazir dostlarım və çox sayda türk iş adamı ilə bərabər gəlmişik. Azərbaycanın böyük öndəri rəhmətlik Heydər Əliyevin dediyi kimi, «Biz bir millət, iki dövlətik», yəni, biz ayrı bir qardaş dövlətə gəlmişik. Bakını, Azərbaycanı biz belə görürük.

Müstəqilliyə qovuşduğunuzdan bu günədək əlaqələrimiz, işbirliyimiz çox yüksək səviyyəyə çatmışdır. Bu səfərimin müstəqilliyinizin ildönümünə təsadüf etməsi də çox önəmlidir. Bu müddət ərzində Azərbaycanın çox böyük yol qət etdiyinin şahidi olanlardan biriyəm. Buraya hər gəlişimdə Bakının necə dəyişdiyini, Azərbaycanın necə dəyişdiyini gözlərimizlə görməkdən qürur və məmnunluq duyuruq. Əminəm ki, bu səfərimiz də əlaqələrimizə yeni rəng qatacaqdır. Həm iki ölkənin əlaqələrinin, həm də bölgəmizin məsələlərinin müzakirəsi baxımından önəmli bir fürsət olacaqdır.

Cümhur başqanı seçildikdən sonra məni təbrik etdiniz və səfərə dəvət etdiniz. Mən də bu dəvəti qəbul edərək, ilk səfərimi Azərbaycana etməkdən məmnun oluram. Bunun əlaqələrimizin sadəcə sözdə deyil, dostluğumuzun sadəcə dildə deyil, qəlbimizdə və içimizdə olduğunu göstərmək baxımından da bir nümunə olduğunu düşünürəm. Bizə göstərdiyiniz səmimiyyətə görə çox təşəkkür edirəm.

## Sənədlərin imzalanma mərasimi

*Noyabrın 6-da Prezident sarayında Azərbaycan prezidenti İlham Əliyevin və Türkiyə prezidenti Abdullah Gülün geniş tərkibdə görüşündən sonra Azərbaycan–Türkiyə sənədlərinin imzalanma mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və Türkiyə prezidenti Abdullah Gül strateji tərəfdaşlıq haqqında birgə bəyannaməni imzaladılar.*

*«Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Türkiyə Respublikası Qadın və Ailə Məsələləri üzrə Dövlət Nazirliyi arasında əməkdaşlıq haqqında memorandum»u Azərbaycan tərəfindən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova, Türkiyə tərəfindən Dövlət naziri xanım Nimet Çubukçu, «Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında gənclərlə iş və idman sahəsində əməkdaşlıq haqqında saziş»i Azərbaycan tərəfindən Xarici İşlər naziri Elmar Məmmədyarov, Türkiyə tərəfindən Dövlət naziri Nimet Çubukçu imzaladılar. «Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında saziş»i və «Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında uzunmüddətli ticarət və iqtisadi əməkdaşlıq proqramı və icra planı»nı Azərbaycan tərəfindən Baş nazirin müavini Abid Şərifov, Türkiyə tərəfindən Dövlət naziri Kürşat Tüzmən imzaladılar.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜLÜN BİRGƏ MƏTBUAT KONFRANSI VƏ BƏYANATLARLA ÇIXIŞLARI

*Prezident sarayı*

*6 noyabr 2007-ci il*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident, əziz qardaşım!
Hörmətli qonaqlar!
Hörmətli xanımlar və cənablar!

Mən Türkiyə Cümhuriyyətinin Cümhur başqanı, əziz qardaşım Abdullah Gülü Azərbaycanda bir daha ürəkdən salamlayıram, «Azərbaycana xoş gəlmisiniz!» deyirəm.

Biz bu gün çox geniş fikir mübadiləsi, çox geniş danışıqlar apardıq və bir daha gördük ki, Türkiyə və Azərbaycan arasında mövcud olan dostluq, qardaşlıq əlaqələri ən yüksək zirvədədir. Cənab Prezident, biz çox məmnunuq və çox şadıq ki, Siz ilk rəsmi səfərinizi Azərbaycana edirsiniz. Bunun çox böyük mənası var. Bu bir daha onu göstərir ki, bizim ölkələrimiz bir-birinə nə qədər bağlıdır. Bizim aramızda həm siyasi, həm iqtisadi, həm də mədəni sahələrdə – bütün sahələrdə çox yüksək əməkdaşlıq səviyyəsi vardır. Biz ikitərəfli münasibətlərin inkişafı, siyasi əlaqələrin möhkəmləndirilməsi üçün lazımi tədbirləri görürük. Bölgədə gedən proseslərə vahid mövqedən yanaşırıq, bu da çox vacibdir. Çünki bizim bölgəmizdə baş verən hadisələr ölkələrimiz üçün böyük əhəmiyyət kəsb edir. Bizim vahid mövqeyimiz ölkələrimizi gücləndirir və xarici siyasətdə mövcud olan koordinasiya, əlbəttə ki, Türkiyə və Azərbaycan arasındakı əlaqələri də möhkəmləndirir.

İqtisadi sahədə böyük nəticələr vardır. Ancaq əminəm ki, gələcəkdə daha da böyük nəticələr əldə olunacaqdır. Sabah keçiriləcək Türkiyə–Azərbaycan biznes-forumunun bu işdə çox böyük rolu vardır. Mən bilirəm ki, Sizinlə bərabər Azərbaycana çox böyük iş adamı heyəti gəlmişdir. Bu da bizi çox sevindirir. Çünki bu, imkan verəcək ki, gələcək illərdə iş adamları arasında əməkdaşlığı daha da irəliyə aparaq və iqtisadi layihələrin həyata keçirilməsi ölkələrimizə böyük fayda gətirəcəkdir.

Bizim aramızda energetika sahəsində çox gözəl əməkdaşlıq var və bunun çox gözəl nəticələri vardır. Biz birlikdə tarixi layihələri həyata keçirmişik. Neft-qaz layihələrinin həyata keçirilməsi çox böyük nailiyyətdir və Azərbaycanın müstəqilliyini möhkəmləndirən amildir, ölkəmizin bundan sonra da uzun illər uğurlu inkişafının təminatçısıdır. Bu işlərdə Türkiyə və Azərbaycan rəhbərliklərinin, hökumətlərinin birgə fəaliyyəti bizə imkan verir ki, çox çətin anlarda qarşıda duran bütün vəzifələri şərəflə icra edək.

Mən əminəm ki, gələcək illərdə bizim əməkdaşlığımız ancaq və ancaq artacaqdır. Xalqlarımız arasında olan qardaşlıq münasibətləri, dövlətlərimiz arasında əlaqələr və türk dünyasının iki böyük şəxsiyyətinin bizə vəsiyyət etdiyi siyasət bunu deməyə əsas verir. Böyük öndər Mustafa Kamal Atatürk demişdir ki, «Azərbaycanın kədəri bizim kədərimizdir, Azərbaycanın sevinci bizim sevincimizdir». Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir ki, «Türkiyə–Azərbaycan bir millət, iki dövlətdir». Bu kəlamlar bizim gələcək əməkdaşlığımızın çərçivələrini müəyyən edir. Mən şübhə etmirəm ki, ölkələrimiz bu bölgədə gedən proseslərə gələcəkdə daha da böyük təsir göstərəcəkdir.

Azərbaycan son 16 il ərzində müstəqil ölkə kimi inkişaf etmişdir. Dünyada və bölgədə özünəməxsus yerini tuta bilmişdir. Artıq Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən layihələr və atılan addımlar bölgədə sülhə, təhlükəsizliyə, əməkdaşlığın inkişafına öz mühüm töhfəsini verir. Türkiyə bizim ən böyük müttəfiqimizdir, ən böyük dostumuzdur və Azərbaycan həmişə Türkiyə Cümhuriyyətinin dəstəyinə arxalanaraq öz dövlət müstəqilliyini möhkəmləndiribdir. Bu

gün Azərbaycanın dövlət müstəqilliyi sarsılmazdır, əbədidir və dönməzdir.

Biz xalqlarımızın və ölkələrimizin üzləşdiyi bütün məsələlərdə bir-birimizə dəstəyimizi davam etdiririk. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Türkiyənin rolu çox müsbətdir. Həmişə Azərbaycanın haqlı mövqeyini, ədalətli mövqeyini dəstəkləmişdir və işğalçı qüvvələrin Azərbaycan torpaqlarından çıxarılması üçün öz səylərini göstərmişdir. Biz bu gün də bu dəstəyi hiss edirik və bu bizə əlavə güc verir. Eyni zamanda, Azərbaycan da bütün dövrlərdə Türkiyənin haqq işini dəstəkləmişdir. Biz erməni lobbisinin və Ermənistanın Türkiyəyə qarşı əsassız ittihamlarını qətiyyətlə pisləyirik.

Bu yaxınlarda Amerika Konqresinin Xarici əlaqələr komitəsində keçirilən müzakirələrə və qəbul edilmiş ədalətsiz qərara biz öz etirazımızı bildirmişik və bu gün də bunu bildiririk. Hesab edirik ki, Türkiyəyə qarşı əsassız ittihamlara son qoyulmalıdır. Bunların nə tarixi əsası, nə də siyası əhəmiyyəti var. Bütün başqa məsələlərdə, Kipr məsələsində, Şimali Kiprin təcridolunma vəziyyətindən çıxarılması işində Azərbaycan öz dəstəyini göstərmişdir və göstərəcəkdir. Bu məsələ ədalətli şəkildə həll olunmalıdır, Birləşmiş Millətlər Təşkilatının təklifləri əsasında öz həllini tapmalıdır.

Biz Türkiyənin terrora qarşı mübarizəsini, PKK terrorçu təşkilatına qarşı bütün əməliyyatlarını dəstəkləyirik və həmişə Türkiyənin yanında olacağıq. Bu bizim mövqeyimizdir. Bu mövqe qardaşlıq duyğuları əsasında formalaşıbdır. Bununla bərabər, indiki zəmanədə Türkiyə və Azərbaycan, iki qardaş müstəqil ölkə bir-birini dəstəkləməklə həm də hər biri öz ölkəsini dəstəkləmiş olur. Bölgədə sülhün, təhlükəsizliyin bərqərar olunmasını təmin edir. Bizim işimiz haqq işidir və bütün işlərdə ədalətin tərəfdarıyıq, normal davranışın, bölgədə sülhün tərəfdarıyıq. Biz sülhsevər siyasət aparırıq, ancaq eyni zamanda, bizə qarşı edilən bütün hərəkətlərə öz cavabımızı verəcəyik.

Bu səfər çərçivəsində aparılan danışıqlar, imzalanan sənədlər, davam etdiriləcək məsləhətləşmələr, əlbəttə ki, ölkələrimizi bir-birinə daha da yaxın edəcəkdir. Biz bunu arzu-

layırıq. Biz istəyirik ki, Türkiyə–Azərbaycan dostluğu, qardaşlığı bundan sonra da inkişaf etsin, xalqlarımız üçün yeni imkanlar açsın. Həm iqtisadi sahədə, həm mədəni sahədə – bütün sahələrdə bizim aramızda olan əlaqələr güclənsin, xalqlarımız bir-birinə daha da yaxın olsunlar.

Cənab Prezident, Sizi Azərbaycanda bir qardaş kimi, dost kimi salamlayırıq. Mən deyə bilərəm ki, bu gün bütün Azərbaycan xalqının duyğularını ifadə edirəm və Sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

Təşəkkür edirəm.

## Türkiyə prezidenti Abdullah Gülün bəyanatı

Hörmətli Prezident, möhtərəm qardaşım!

Hörmətli mətbuat nümayəndələri!

Burada olan bütün seçilmiş qonaqları və mətbuat mənsublarını ən səmimi duyğularla salamlayıram.

Əvvəlcə dost və qardaş Azərbaycanda olmaqdan məmnun olduğumu qarşınızda bir daha təkrarlamaq istəyirəm. Şimali Kipr Türk Cümhuriyyətindən sonra bu ilk xarici səfərim zamanı mənə və nümayəndə heyətinə göstərilən münasibətə və qonaqsevərliyə görə ürəkdən dərin təşəkkürümü bildirirəm. Bu günə qədər Azərbaycana bütün səfərlərimizdə olduğu kimi, bizlər özümüzü evimizdəki kimi hiss edirik.

Bu ziyarətim, bildiyiniz kimi, iki ölkə arasındakı əbədi qardaşlığın tarixi inkişafında yeni çığır açan son 16 ilin hər baxımdan dəyərləndirilərək, gələcəyə yönəlmiş planlarımızın icrası baxımından böyük bir fürsətdir.

Bu gün apardığımız son dərəcə yararlı müzakirələrdə, siyasi və iqtisadi sahələr başda olmaqla, əlaqələrimizdə bütün sahələri hərtərəfli şəkildə müzakirə etdik. Hər sahədə müsbət olan əlaqələrimizin imkanlarını dəyərləndirdik. Görüşümüzdə ikitərəfli əlaqələrimizlə bərabər, regional və hərtərəfli aktual mövzular üzərində də fikir mübadiləsi apardıq.

Cənubi Qafqazda sülhün bərqərar olması və qorunması, bölgə ölkələri arasındakı problemlərin sülh yolu ilə və beynəlxalq hüquq normaları çərçivəsində həll edilməsi məsə-

lərində ölkələrimizin eyni fikirdə olduğunu bir daha məmnuniyyətlə gördük.

Dağlıq Qarabağ münaqişəsi başda olmaqla, Cənubi Qafqaz bölgəsindəki bütün problemlərin sülh yolu ilə çözülməsi üçün birgə ata biləcəyimiz addımları da nəzərdən keçirdik. Dağlıq Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquqa uyğun sülh yolu ilə aradan qaldırılmasını arzulayırıq.

Cənubi Qafqazda daimi sülhün yaradılması, qorunması üçün Türkiyənin əlindən gələni etməyə hazır olduğunu bir daha vurğulamaq istəyirəm. Türkiyə və Azərbaycan Cənubi Qafqazda sülh, sabitlik, rifah və işbirliyinin yaradılması sahəsində eyni fikirləri bölüşürlər.

Şimali Kipr Türk Cümhuriyyətinin təcriddən qurtarması və bu ölkəyə qarşı cəzanın aradan qaldırılması baxımından qardaş Azərbaycanın bu günə qədər verdiyi dəstəyə görə təşəkkür edirəm. Kipr türklərinin haqlı mübarizələrinə Azərbaycanın dəstəyini bundan sonra da əsirgəməyəcəyinə olan inamım böyükdür.

Ölkələrimiz arasındakı iqtisadi və ticari əlaqələrin sürətlə inkişafından məmnuniyyət duyuruq. Məqsədimiz ardıcıl olaraq artan və 1 milyard dolları keçən xarici ticarət dövriyyəsinin həcminin gələcəkdə 3 milyard dolları keçməsini təmin etməkdir. Türkiyə ticarət əlaqələri və sərmayələr yolu ilə Azərbaycanın iqtisadi inkişafında daha yaxından iştirak etməyə hazırdır. İki ölkə arasındakı iqtisadi və ticarət əlaqələrinin inkişaf etdirilməsi üçün istər birgə iqtisadi komissiyanın toplantılarının, istərsə də əməkdaşlıq mexanizmlərinin daha davamlı şəkildə işə salınmasının yararlı olacağına inanırıq.

Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına daxil olmasının ikitərəfli iqtisadi əlaqələrimizin inkişafına və Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasına yardım göstərəcəyinə inanırıq. Bu məqsədlə Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlük məsələsini dəstəkləyirik.

Uzunmüddətli ticarət və iqtisadi əməkdaşlıq proqramının və icra planı anlaşmasının reallaşdırılması böyük önəm daşıyır. Bu anlaşmanın həyata keçirilməsini müəyyənləşdirəcək

icra planının bu səfərim zamanı imzalanması bu sahədə atılmış önəmli bir addımdır.

Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum enerji layihələrindən sonra qarşıdakı günlərdə təməlqoyma mərasimini gerçəkləşdirməyi planlaşdırdığımız Bakı–Tbilisi–Qars dəmir yolu xətti layihəsini də qısa müddətdə tamamlamağı nəzərdə tuturuq. Məqsədimiz üçtərəfli işbirliyini daha da irəliyə aparmaq, üç ölkəni əhatə edəcək ortaq bir iqtisadi dəhliz yaratmaqdır.

Sonuncu dəfə Bakıda iki ölkənin əlaqədar qurumları arasında keçirilən ikitərəfli görüşlərdə Azərbaycan tərəfinə ticarət sahəsində layihəsi təqdim edilmiş müqavilənin imzalanması bu sahədə ilk addım olacaqdır.

Ölkələrimizin yüksək səviyyədə iştirakı ilə 2006-cı il iyulun 13-də rəsmi açılışı gerçəkləşdirilən və dünyanın ikinci ən uzun neft boru xətti olan Bakı–Tbilisi–Ceyhan neft kəməri və Bakı–Tbilisi–Ərzurum təbii qaz kəməri ölkələrimiz arasındakı strateji işbirliyinin çox önəmli göstəricisidir. Ölkələrimiz arasında bu cür böyük və strateji layihələrin artacağına ümid edirəm. Belə böyük layihələr Azərbaycanın iqtisadi rifahı ilə yanaşı, ölkələrimizin enerji təhlükəsizliyinə də böyük kömək göstərəcəkdir. Bu çərçivədə bundan sonra əsas diqqəti Xəzər təbii qaz layihəsinə verəcəyimizə və bu məqsədlə türkmən qardaşlarımızı daha çox işbirliyinə təşviq edəcəyimizə inanıram.

Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin daha da inkişaf etməsinin birbaşa insanlar arasında əlaqələrin sıxlaşması ilə bağlı olduğunu düşünürəm. Bu məqsədlə Azərbaycan vətəndaşlarına turist səfərləri üçün qoyduğumuz bir aylıq viza rejimini aradan qaldırdıq.

İqtisadi əlaqələrimizin önəmli istiqamətlərindən biri də daşımalardır. Bu baxımdan ucuz, tez və təhlükəsiz nəqliyyatın təsis edilməsi çox önəmlidir. Azərbaycanda iki minə qədər türk şirkəti tərəfindən qoyulan sərmayələrin həcmi 2,5 milyard dolları ötmüşdür. Azərbaycandakı xarici sərmayələr arasında türk firmaları enerji sektorundan kənar sahələrdə birinci yeri tutur. Azərbaycana qoyulan sərmayələrimiz enerji sektoru ilə birlikdə təqribən 5 milyard dollar həcmindədir.

Türk şirkətləri 50 minə yaxın Azərbaycan vətəndaşına iş imkanı qazandırmışdır. Şirkətlərimizin Azərbaycanda daha uğurlu fəaliyyət göstərmələri digər tanınmış türk firmalarının da Azərbaycana sərmayə qoymağa istiqamətləndirilməsi baxımından təşviqedici olacaqdır.

Azərbaycanın iqtisadi inkişaf yönündə atdığı addımları və xarici sərmayəçilərə daha əlverişli bir şərait yaratmaq məqsədi ilə gördüyü tədbirləri böyük bir təqdirlə izləyirik. Türk firmalarının Azərbaycanın inkişafına kömək göstərməyə və nəzərdə tutulan sərmayə layihələrini həyata keçirməyə hazır və istəkli olduqlarını xüsusilə bildirmək istəyirəm.

Dəyərli mətbuat nümayəndələri!

Azərbaycan firmalarının da eyni şəkildə Türkiyədə sərmayə qoyduqlarını görməkdən böyük məmnunluq duyuruq. Xüsusilə böyük şirkətlərin Türkiyədəki sərmayələri doğrudan da bizi məmnun edir. «Petkim»in özəlləşdirilməsində Azərbaycanın göstərdiyi uğur bütün türk xalqı tərəfindən də böyük təqdirlə qarşılanmışdır. Qarşımızda çox böyük layihələr var.

Xüsusilə, Ceyhanda nəzərdə tutulan neftayırma ilə bağlı layihələr bunların başında durur. Azərbaycanın böyük neft şirkətinin bu işlərə maraq göstərdiyini görməkdən böyük məmnuniyyət duyuram. Burada tikiləcək müəssisələrin bütün Aralıq dənizi bölgəsinə və dünyaya xidmət edəcəyini düşünsək, bunların nə qədər böyük məsələlər olduğunu görəcəyik.

Vaxtilə bəzilərinin röya kimi düşündüyü, «gerçəkləşəcəkmi?» dediyi böyük layihələrin necə gerçəkləşdiyini hamımız bilirik. O zaman bunlar müzakirə olunarkən etiraz edənlər vardı. İndi bu layihələr fəaliyyət göstərir və hər kəs bunu ürəkdən istəyir. İndi buna bənzər yeni layihələrin gerçəkləşdirilməsi zamanıdır. Bunların da həyata keçiriləcəyinə, baş tutacağına inamım böyükdür. Bu sahədə Azərbaycanın və Türkiyənin siyasi iradələri tam açıqdır. Belə səfərlərimiz, bu gün dəyərli cümhur başqanı, hörmətli qardaşımla birlikdə keçirdiyimiz görüşlər bunların isbatıdır. İnanıram ki, qarşıdakı illərdə bu gün bəzilərinin «baş tutacaqmı?» dediyi layihələrin də gerçəkləşəcəyini, açılışlarını keçirəcəyimizi görəcəyik.

Əlaqələrimiz təkcə iqtisadi sahədə deyildir. Mədəni sahədə də çox böyük əlaqələrimiz vardır. Biz ayrı-ayrı dövlətdə yaşayırıq, amma bir millətik. Bu, getdikcə daha çox anlaşılır. Bunun üçün mədəniyyət, təhsil sahəsindəki fəaliyyətlərə hər iki ölkə çox böyük önəm verir. İnanıram ki, bölgədəki digər ölkələr də, bu millətin bir parçası olan digər dövlətlər də eyni münasibəti göstərəcəklər. Türkdilli ölkələrin dövlət başçılarının zirvə toplantısı ötən il Türkiyədə keçirilmişdir. İndi növbə Azərbaycanındır. Hörmətli cümhur başqanı, dəyərli qardaşım İlham Əliyevin rəhbərliyi ilə bu toplantının Azərbaycanda keçiriləcəyinə inanıram. Qısa bir vaxtdan sonra burada bütün türk dünyasını maraqlandıran toplantı, türk xalqlarının qurultayı keçiriləcəkdir. Azərbaycan ev sahibliyi edəcəkdir, bundan qürur duyuruq.

Hörmətli mətbuat nümayəndələri!

Bu görüşdən sonra proqramın digər hissələrinə keçəcəyik. Bu çərçivədə hər iki ölkəni yaxından maraqlandıran məsələlərlə bağlı təmaslarımızı müxtəlif görüşlərimizdə davam etdirəcəyik. Proqramımın Bakı bölümündən sonra gözəl ölkənizin Gəncə şəhərini də ziyarət edəcəyimdən böyük məmnunluq və həyəcan hissi keçirirəm. Gəncənin tarixi mədəniyyət mərkəzi olduğunu çox yaxşı bilirəm. Bununla əlaqədar çox şeylər oxumuşam. Gedib orada canlı görməkdən isə xüsusi məmnunluq duyacağam.

Məmnuniyyətimin başqa bir səbəbi də ilk dəfə cümhur başqanının Bakıdan kənara, Azərbaycanın başqa şəhərinə getməsidir. Bildiyiniz kimi, heyətimiz böyükdür. Heyətimizdə nazir dostlarım, dövlət nazirləri ilə yanaşı, Türkiyədən gələn çox dəyərli mətbuat nümayəndələri, iş adamları vardır. Onlarla birlikdə Gəncəyə edəcəyimiz bu səfərə də çox böyük önəm verirəm.

Dəyərli qardaşım, hörmətli cümhur başqanının nümayəndə heyətimizə, Türkiyəyə, bizə göstərdiyi bu yaxın münasibətə və qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm. Bu vəsilə ilə bütün azərbaycanlı qardaşlarımıza türk qardaşlarının salamlarını və sevgilərini çatdırıram.

* * *

*Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.*

**S u a l: Hörmətli Prezident, Siz burada görüşlər keçirərkən bu gün Avropa İttifaqının məruzəsi açıqlandı. Əslində, onda gözləmədiyimiz maddələr yoxdur. Fəaliyyətin sürətləndirilməsi istənilir, hərbinin demokratiyaya təsirinə diqqət çəkilir və limanların açılması mövzuları bir daha xatırladılır, müzakirələrin davam etdirilməsi ilə bağlı tövsiyədən də bəhs olunur. Siz bu məruzəni necə dəyərləndirirsiniz?**

**A b d u l l a h G ü l:** Məruzənin detallarının burada dəyərləndirilməsini istəmirəm. Onsuz da bunu nazirlik açıqlayacaqdır. Birincisi, burada söyləmək istədiyim mövzu budur ki, Türkiyə müzakirə müddətinə çox ciddi yer verir, bunu müvəffəqiyyətlə sona çatdırmaq əzmindədir. Bu müddət içində, təbii ki, Türkiyə bəzi fəaliyyətlər göstərəcəkdir. Bunlar nədir desəniz, bildiyiniz kimi, bunlar siyasi meyarların yerinə yetirilməsidir. Əslində, siyasi meyarları yerinə yetirdiyimiz üçün əsas müzakirələr başlanmışdır. Amma hələ görməyimiz lazım olan bəzi işlərimiz vardır. Türkiyə onsuz da bunu bilir. Bilavasitə islahat müddəti Türkiyədə güclü bir şəkildə davam edəcəkdir. Buna heç kimin şübhəsi olmasın. Bunlar türk xalqının mənafeyinə uyğun olduğu üçün ediləcəkdir.

İkincisi, Avropa İttifaqının irəliyə sürdüyü şərtlərdir. Bununla əlaqədar çox əhatəli proqramlar açıqlanmışdır, bir çox qanunlar, qərarlar nəşr edilir, yayılır. Bu mövzuda müvəffəqiyyətimiz göz qabağındadır. Üçüncüsü, görülən işləri Avropa ictimaiyyətinə ən yaxşı şəkildə açıqlamaqdır. Bu müddət çox uzun bir müddətdir. Görülən hər bir iş türk xalqının xeyrinə olduğu üçün görülür. Bunu xüsusilə vurğulayıram. Amma bəzi mövzular var ki, onların bu müddətə aidiyyəti yoxdur. Həmin məruzədəki siz dediyiniz məsələlərin həll olunması üçün Avropa İttifaqı da üzərinə düşən işləri görməlidir, verdiyi sözləri yerinə yetirməsi vacibdir.

**S u a l: Sualım hər iki prezidentədir. Cənab prezidentlər, bir çox hallarda dünyada xalqlarımız, dövlətlərimiz əleyhinə yalan təbliğatın qarşısının alınmasında türk və Azərbaycan**

**diasporlarının fəaliyyətinin daha yaxından əlaqələndirilməsi üçün daha hansı işlərin görülməsi vacibdir?**

**A b d u l l a h G ü l:** Bu mövzuda, sadəcə, hökumətlərin üzərinə vəzifə düşmür. Türkiyəyə gələn Azərbaycanın hörmətli mətbuat nümayəndələrinə verdiyim müsahibədə də onlara dedim. Bu məsələdə qeyri-hökumət təşkilatlarının, universitet müəllimlərinin, mədəniyyət, elm adamlarının üzərinə çox iş düşür. Bəzən rəsmiyyətin anlatdığı çox faydalı olmaz. Amma qeyri-hökumət təşkilatlarının fəaliyyət göstərmələri çox inandırıcı və faydalı olur. Mətbuat nümayəndələrinin, ziyalıların, intellekt sahiblərinin, tarixçilərin fəaliyyəti çox faydalı olur. Bu baxımdan hər kəs buna diqqət yetirməlidir. Sadəcə, öz insanlarımızı məlumatlandırmaq kifayət etməz. Öz-özümüzə təbliğat aparmaqla məşğul olmamalıyıq. Bunları Avropa, Amerika, ərəb, bütün dünya ictimaiyyətinə anlatmağımız lazımdır. Bunlar edilmədikcə, təəssüf ki, bizim mövqeyimiz zəif olur. Yəni Brüsseldə, Strasburqda, Vaşinqtonda, Qahirədə, hər yerdə anlatmaq lazımdır. Bu işdə hər kəsin səfərbər olması lazımdır.

**İ l h a m Ə l i y e v:** Biz bu sahəyə böyük diqqət göstəririk və bildiyiniz kimi, son müddət ərzində Türkiyə və Azərbaycan diaspor təşkilatları öz fəaliyyətlərini birləşdirmişlər. Buna çox böyük ehtiyac var. Çünki dünyada həm Türkiyədən, həm də Azərbaycandan kifayət qədər insanlar var. Bizim problemimiz ondadır ki, dünyada güclü erməni lobbisi Türkiyə və Azərbaycana qarşı fəaliyyət göstərir. Erməni lobbisi, demək olar ki, dünyanın bütün aparıcı ölkələrində mövcuddur. Onların çox böyük imkanları var. Onların təsiri altında kifayət qədər siyasətçilər var, parlament üzvləri, nazirlər var. Bir çox hallarda Türkiyə və Azərbaycana qarşı əsassız ittihamların təməlində məhz erməni lobbisi, onun maliyyə imkanları və onun tərəfindən idarə olunan riyakar siyasətçilərin fəaliyyəti dayanır. Bu reallıqdır, gerçəklikdir. Buna hazır olmalıyıq və bu əsassız ittihamlara cavabımız bizim birgə fəaliyyətimiz, təbliğat işlərimiz və Türkiyə, Azərbaycan həqiqətlərini dünya birliyinə çatdırmağımızdır. Biz bu sahəyə Azərbaycanda həm elmi-tədqiqatlar işində, həm də təbliğat işində çox böyük diqqət göstəririk. Erməni təbliğatından fərqli olaraq, bu sahədəki fəaliyyətimiz uydur-

ma faktlar əsasında deyil, reallıq əsasında qurulubdur. Haqq-ədalət bizim tərəfimizdədir.

Erməni təşkilatlarının, lobbisinin səyləri nəticəsində dünyanın bir neçə ölkəsinin parlamentlərində Türkiyəyə qarşı əsassız qərarlar çıxarılıbdır. Bütün bu qərarlar tarixi faktların təhrifi üzərində qurulubdur. Bu, böyük erməni yalanıdır ki, biz bununla üzləşmişik. Bizim üçün, əlbəttə ki, bu məsələdə dönüş yaratmaq, həqiqəti çatdırmaq çox vacib məsələdir. Bəzi hallarda Türkiyə və Azərbaycan haqqında dünya mətbuatında gedən yazılar tamamilə yanlış, yalan faktlar əsasındadır və qərəzli məlumatlardır. Bunun arxasında da bir çox hallarda erməni diasporu, Ermənistan və bizə düşmənçilik edən dünya erməniləri dayanıbdır. Biz buna hazır olmalıyıq, diaspor təşkilatlarının fəaliyyətini gücləndirməliyik. Azərbaycanda bu sahədə işlər görülür. Bilirəm ki, Türkiyədə də işlər görülür. Həm qeyri-hökumət təşkilatları, həm dövlət qurumları, həm də bütün vətənpərvər insanlar bu məsələ ilə ciddi məşğul olmalıdırlar.

Biz bu yaxınlarda Bakıda Türkiyə–Azərbaycan diaspor təşkilatlarının qurultayını keçirməklə bir daha bu səylərin birləşməsi üçün öz fəaliyyətimizi ortaya qoyduq. Bu səylər birləşdirilməlidir. Bütün ölkələrdə diasporlar təşkilatlanmalıdır. Dövlət və qeyri-hökumət təşkilatları onların fəaliyyətinə öz dəstəyini verməlidir. Yenə də deyirəm, haqq-ədalət bizim tərəfimizdədir. Sadəcə olaraq, biz birgə fəaliyyətimizlə, fəal işlərimizlə bu həqiqəti dünya birliyinin nəzərinə çatdırmalıyıq.

**S u a l: Hörmətli prezident, bugünkü görüşünüzdə, xüsusən də hörmətli İlham Əliyevlə təkbətək görüşünüzdə sərhəddənkənar əməliyyatlar və terrorla mübarizə gündəliyə gəldimi?**

**Hörmətli Baş nazirin Amerika səfərindən əvvəl Türkiyə sözün bitdiyi yerdə idi. Bəs indi haradadır? Buşdan gələn mesajlar Türkiyəni məmnun etdimi?**

**A b d u l l a h G ü l:** Təbii ki, görüşümüzdə bu mövzuda danışdıq. Hörmətli prezident terrorla bağlı fikrini və Türkiyənin terrorla mübarizəsinə verdiyi dəstəyi ifadə etdi. Bundan başqa, son hadisələrlə əlaqədar məndən daha çox məlu-

mat öyrənmək istədilər. Bunları müzakirə etdik. Bu mövzu açıqdır. Türkiyədə bütün qurumlar arasında birlik vardır və necə hərəkət ediləcəyi aydındır.

Hörmətli Baş nazir dünən Amerika Birləşmiş Ştatlarının rəhbərliyi ilə görüşündə Türkiyənin qərarını onlara bildirmişdir. ABŞ-ın bir məsuliyyəti vardır. İraqı işğal edən bir ölkə olaraq, İraqdakı bütün terror təşkilatları ilə mübarizə aparmaq məsuliyyəti vardır. İraqın bir bölgəsində terrorla mübarizə aparıb, başqa bir bölgəsində terror təşkilatı ilə mübarizə etməsə, təzada düşər. Yəni bu, Türkiyəyə kömək etmək məqsədi ilə deyil, öz məsuliyyətidir. Türkiyənin nə edəcəyi, necə davranacağı məlumdur və müəyyən edilmişdir. Hörmətli Baş nazir də məhz belə hərəkət etmişdir.

**S u a l: Mənim sualım hər iki prezidentədir. Cənab prezident Abdullah Gül, cənab prezident İlham Əliyev, siz hər ikiniz Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyətində fəaliyyət göstərmisiniz. Bu baxımdan beynəlxalq təşkilatlarda işlə bağlı böyük təcrübəniz var. Azərbaycan və Türkiyə beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıq edir. Bilmək istərdim, bu əməkdaşlığın gələcəyini necə görürsünüz?**

**İ l h a m Ə l i y e v:** Biz, əlbəttə ki, bütün beynəlxalq təşkilatlarda çox güclü əməkdaşlıq edirik. Üzvü olduğumuz bütün təşkilatlarda bir-birimizi dəstəkləyirik. Birləşmiş Millətlər Təşkilatında, İslam Konfransı Təşkilatında, Avropa Şurasında, İqtisadi Əməkdaşlıq Təşkilatında və başqa təşkilatlarda. Türkiyə və Azərbaycanın iştirak etdiyi təşkilatlar kifayət qədər çoxdur. Onlarla əməkdaşlığımız, əlbəttə ki, təşkilatda bizim rolumuzu artırır. Hər bir ölkə könüllü şəkildə bu və ya digər təşkilata üzv olur. O, təşkilata üzv olmaqla, əlbəttə ki, həm öz siyasi iradəsini ortaya qoyur, həm də burada müəyyən maraqlar da var.

Türkiyə və Azərbaycan, Siz də qeyd etdiniz, Avropa Şurası kimi mühüm Avropa təşkilatının üzvüdür. Bu üzvlük, əlbəttə ki, ölkələrimizdə islahatların daha da sürətlə getməsini təmin edir. Azərbaycan Avropa Şurasına üzv olandan sonra ölkəmizdə siyasi islahatlar çox sürətlə getməyə başlamışdır. Azərbaycanda çoxlu qanunlar qəbul edilmişdir. Qa-

nunvericilik bazası Avropa qanunvericilik bazasına yaxınlaşmışdır, bəzi hallarda ona uyğunlaşmışdır. Bu bizim Avropa strukturlarına inteqrasiya siyasətimizin əlamətidir. Biz çalışırıq ki, bu təşkilatda daha da fəal rol oynayaq. Eyni zamanda, öz mövqelərimizi müdafiə edək. Bəzi hallarda bizi tənqid edənlər o tənqidi yanlış faktlar əsasında ortaya qoymurlar. Bu da var və biz öz maraqlarımızı müdafiə etməliyik. Üzv olduğumuz təşkilatlarda, təbii ki, bundan sonra da vahid mövqedən çıxış edəcəyik.

Mən xatırlayıram ki, Azərbaycan Avropa Şurasına üzv olanda, biz orada qruplararası ilk görüşümüzü türk həmkarlarımızla keçirmişdik və Türkiyə, Azərbaycan nümayəndə heyətləri bizə aid olan bütün məsələlərdə vahid mövqedən çıxış etmişdi, bir-birimizi dəstəkləmişdik. Bir-birimizin sənədlərinə qol qoymuşduq və səsvermədə, çıxışlarda bir-birimizi dəstəkləmişdik. Bu çox böyük əhəmiyyət daşıyan məsələdir.

Onu da deyə bilərəm ki, 2005-ci ilin əvvəlində Avropa Şurasında, Siyasi Komitədə Ermənistan–Azərbaycan münaqişəsi müzakirə olunanda məhz Türkiyə Cümhuriyyətinin nümayəndəsi, Avropa Şurası Parlament Assambleyasının üzvü və onun mövqeyi bu məsələdə ədalətli qərarın çıxarılmasında çox mühüm rol oynamışdır. Yəni bu dəstəyi, bu qarşılıqlı yardımları biz bütün təşkilatlarda görürük və edirik. Bundan sonra da edəcəyik.

**A b d u l l a h   G ü l:** Azərbaycanın Avropa Şurasına üzvlüyü çox önəmlidir. Mən o illərdə Avropa Şurasında Türkiyə nümayəndə heyətinə daxil idim, millət vəkili idim və o vaxtı çox yaxşı bilirəm. Bu üzvlüyə əngəl olmaq istəyənlər də var idi. Biz o zaman buna qarşı çox əmək sərf etmişdik. Azərbaycan Avropa Şurasına üzv olanda Azərbaycanın ulu öndəri Heydər Əliyevin orada söylədiyi nitqin şahidi olmuşam. Bildiyiniz kimi, Avropa Şurası Avropada demokratik standartları, insan haqlarını, hüququn üstünlüyünü müəyyən edən bir qurumdur və böyük bir məktəb şəklindədir.

Azərbaycanın buraya öz istəyi ilə üzv olması onun tutduğu istiqaməti göstərir. Təbii ki, hər şey bir gecədə, bir ildə

olmur. Bunlar bir müddətdir, bir məsafədir. İslahat müddəti dediyimiz məsələ bir gecəlik deyildir. Bunlar müddətə, zamana bağlı olan məsələlərdir. Amma Azərbaycanın tutduğu bu istiqamət ölkədə demokratiyanı getdikcə gücləndirdi, hüquqi cəhətdən formalaşdırdı. Biz bundan böyük məmnuniyyət duyuruq. Çünki ölkələr təkcə iqtisadiyyatı, ordusu ilə güclü olmurlar. Güclü idarəetmə sistemi, hüquqi, demokratik təsisatları ilə də güclü hala gəlirlər. Bu mənada Azərbaycanın bu müddət ərzində keçdiyi yolu, həyata keçirdiyi islahatları təqdirlə izləyirik və gələcəyinin çox parlaq olduğuna inanırıq.

Bir az əvvəl mənə verilən sual da, fikir verirsinizsə, Türkiyədəki siyasi meyarlar və islahat müddəti barədə idi. Bu mövzularda özümüzə güvəncimizin olması lazımdır. Biz Türkiyə olaraq uzun illərdir Avropa Şurasının üzvüyük. Avropa İttifaqı ilə tam üzvlük müzakirələrinə başladıq. Amma hələ islahatlarla bağlı çatışmazlığın olduğunu söyləyirik. Bunlar normal haldır. Əsas istiqamət, siyasi iradə çox önəmlidir. Mən Azərbaycanda bu siyasi iradənin olduğunu görürəm. Çünki Azərbaycan Avropa Şurasına ürəkdən istəyərək daxil olmuşdur. Hörmətli cümhur başqanının, dəyərli qardaşımın xaricdə çox böyük təcrübəsi vardır. Amma adıçəkilən mövzular zamanla bağlı məsələlərdir. Bunlar bir günlük, bir aylıq, bir illik məsələlər deyildir. İnanıram ki, Azərbaycan qarşıdakı illərdə hər baxımdan daha da güclü olacaqdır.

Azərbaycan Qafqazın parlayan bir ulduzudur. Hər kəs hər il ötdükcə buradakı dəyişiklikləri görəcəkdir. Mən Bakıya hər gəlişimdə burada böyük dəyişikliklər görürəm. Bəlkə də bunu Azərbaycanda yaşayanlar müqayisədə görməyə bilər. Uşaq evdə böyüyərkən hiss etməzsiniz, ancaq uzaq yerdən qohumlar gələndə uşağın böyüməsini hiss edərlər.

Siz beş il sonra Türkiyəyə gələndə böyük dəyişiklikləri görəcəksiniz. Buraya da hər gəlişimizdə həm iqtisadi, həm də demokratik dəyişiklikləri – bütün bunları görürük. İnanıram ki, Azərbaycan üçün gələcək daha parlaq, daha yaxşı olacaqdır.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV TƏRƏFİNDƏN TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜLÜN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ NİTQ

*Gülüstan sarayı*

*6 noyabr 2007-ci il*

**Azərbaycan prezidenti İlham Əliyevin nitqi**

Hörmətli cənab Prezident, əziz qardaşım!
Hörmətli Hayrünnisa xanım!
Hörmətli qonaqlar!
Hörmətli xanımlar və cənablar!

Mən bu gün qardaşım, Türkiyə Cümhuriyyətinin Cümhur başqanı hörmətli Abdullah Gülü Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Xoş gəlmisiniz!

Biz çox şadıq ki, Siz cümhur başqanı kimi, ilk rəsmi səfərinizi Azərbaycana etmisiniz. Bu bir daha onu göstərir ki, bizim aramızda olan dostluq, qardaşlıq münasibətləri ən yüksək zirvədədir. Biz bu səfərə çox böyük əhəmiyyət veririk. Çox şadıq ki, Siz yenidən Azərbaycandasınız, amma indi cümhur başqanı kimi, ölkəmizə səfər edirsiniz. Bu gün apardığımız danışıqlar, söhbətlər bir daha onu göstərir ki, bizim münasibətlərimiz sürətlə inkişaf edir, bütün sahələri əhatə edir. Münasibətlərin gələcəyi də çox parlaqdır, çox ümidvericidir.

Bizim xalqlarımız əsrlər boyu bir yerdə olmuşdur, birbirinə dəstək olmuşdur, bir yerdə yaşamışdır. Ancaq Azərbaycan öz dövlət müstəqilliyini bərpa edəndən sonra, təbii ki, bu münasibətlər yeni pilləyə qalxmışdır. Müstəqilliyimizin ilk illərindən Türkiyənin qayğısını, dəstəyini hiss edirik. Xüsusilə müstəqilliyimizin ilk illərində bu dəstək bizim üçün çox vacib idi, bəzi hallarda həlledici idi.

Son 16 il ərzində Türkiyə–Azərbaycan münasibətləri daim inkişaf etmişdir və bu gün bir daha demək istəyirəm ki, bizim aramızda olan əlaqələrin, bəlkə də, dünyada analoqu yoxdur. Mən dünyada ikinci belə ölkələr tanımıram ki, həm etnik mənsubiyyət baxımından, həm tarixi köklər baxımından, həm də xalqlararası dostluq, qardaşlıq baxımından və siyasi maraqlar baxımından bir-birinə bu qədər yaxın olsun. Bu bizim gücümüzdür. Bu bizi birləşdirir. Mən əminəm ki, bu gün apardığımız danışıqlar, imzalanmış sənədlər gələcək əməkdaşlığımız üçün perspektivlər, yeni üfüqlər açır. Əməkdaşlığın yeni sahələri açılacaqdır.

Mən çox şadam ki, Sizinlə bərabər bu gün Azərbaycana böyük nümayəndə heyəti gəlmişdir. Eyni zamanda, iş adamlarından ibarət böyük nümayəndə heyəti gəlmişdir. Sabah keçiriləcək Türkiyə–Azərbaycan biznes-forumu iqtisadi və ticarət əlaqələrinin inkişafında mühüm addım olacaqdır. Bu sahələri inkişaf etdirmək üçün istənilən imkanlar var. Bu gün Türkiyə ilə Azərbaycan çox dinamik inkişaf edən ölkələrdir. İqtisadi baxımdan ölkələrimiz ən çətin, böhranlı anlarını geridə qoyub və bu gün iqtisadi cəhətdən sürətlə inkişaf edir.

Türkiyədən Azərbaycana qoyulan sərmayələr, burada Türkiyə iş adamlarının fəaliyyəti bizi çox sevindirir. Bizim aramızda olan iqtisadi münasibətlərdə yenilik ondan ibarətdir ki, artıq Azərbaycan şirkətləri Türkiyə iqtisadiyyatına böyük həcmdə sərmayələr qoyulmasına başlamışdır. Mən bilirəm ki, bu addımlar Türkiyə dövləti və hökuməti tərəfindən dəstəklənir. Əminəm ki, biz qarşılıqlı yatırımlarla, qarşılıqlı ticarətin inkişafı ilə bir-birimizin gücünü daha da artıracağıq.

Biz ölkələrimiz üçün, bölgə üçün və dünya üçün əhəmiyyətli layihələri uğurla icra edirik. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin işə düşməsi xalqlarımızın tarixi nailiyyətidir. Ondan sonra Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin istismara verilməsi bundan az əhəmiyyət daşımır. Bu layihələr ölkələrimizin uzunmüddətli siyasi və iqtisadi maraqlarını təmin edəcək, bizim aramızda olan işbirliyini daha da gücləndirəcəkdir və bu, bütün bölgə, dünya üçün yeni enerji mənbəyinin üzə çıxması deməkdir.

Azərbaycan Avropanın enerji təhlükəsizliyi məsələlərində fəal iştirak edir. Biz bu işləri Türkiyə ilə bərabər görürük. Bu nəhəng layihələri yalnız və yalnız birgə səylərlə icra edə bilərik. Burada Türkiyə–Azərbaycan işbirliyi, dostluğu, qardaşlığı real nəticələrə gətirib çıxarıbdır. Bu bizim istəyimizdir, niyyətimizdir. Mən əminəm ki, bu böyük transmilli layihələr uzun illər bundan sonra da ölkələrimizin inkişafına öz töhfəsini verəcəkdir.

Bunların ardınca yeni layihələr üzə çıxır. Biz indi nəqliyyat infrastrukturunun birləşməsi ilə məşğuluq. Bu da Türkiyə və Azərbaycanın təşəbbüsü ilə həll olunan məsələdir. Tarixi İpək Yolunun bərpası, Azərbaycanın Türkiyə ilə dəmir yolu ilə birləşməsi, eyni zamanda, Türkiyənin Orta Asiya ilə birləşməsi, Orta Asiyanın Avropa ilə birləşməsi həm iqtisadi, həm də siyasi layihələrdir və bu layihələr türkdilli dövlətlər arasında olan əməkdaşlığı daha da möhkəmləndirəcəkdir. Buna da çox böyük ehtiyac var. Biz bu əməkdaşlığa çox böyük ümidlərlə baxırıq.

Keçən il Antalyada türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşünün uğurlu keçməsi belə deməyə əsas verir. Gələn il isə bu zirvə görüşü Azərbaycanda keçiriləcəkdir. Biz diaspor təşkilatlarının fəaliyyətini gücləndirməklə birgə tədbirlər keçiririk. Türkiyə və Azərbaycan diaspor təşkilatlarının qurultayı keçirilmişdir. Bir neçə gündən sonra Bakıda Türkiyə və Azərbaycan cəmiyyətlərinin və qurumlarının qardaşlıq, əməkdaşlıq və işbirliyi qurultayı keçiriləcəkdir. Bütün bu amillər həm ölkələrimizdə yaşayan insanları, həm də xaricdə yaşayan soydaşlarımızı birləşdirir və bizim gücümüzü artırır. Biz isə güclənməliyik, öz mövqelərimizi müdafiə etməliyik. Bizim işimiz haqq işidir. İstər Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində, istər Kipr probleminin ədalətli və Birləşmiş Millətlər Təşkilatı planı çərçivəsində həllində, istərsə də Türkiyənin terrora qarşı mübarizəsində, PKK terrorçu təşkilatına qarşı aparılan əməliyyatlarda – bütün bu işlərdə haqq-ədalət bizim tərəfimizdədir. Sadəcə olaraq biz öz siyasətimizi elə aparmalıyıq ki, milli maraqlarımızı müdafiə edək, bizə qarşı edilən əsassız ittihamları rədd edək. Biz də bunu edirik.

Xüsusilə bu yaxınlarda Amerika Konqresinin Xarici əlaqələr komitəsində çıxarılmış ədalətsiz qərarı biz qətiyyətlə pisləyirik. Biz bunu açıq şəkildə bəyan etmişik və mən bir daha demək istəyirəm ki, erməni lobbisinin, Ermənistanın təxribatçı fəaliyyəti nəticəsində dünyada bizə qarşı– Azərbaycana və Türkiyəyə qarşı böyük kampaniya aparılır. Bu kampaniya bizi ləkələmək, tarixi həqiqətləri təhtif etmək və beynəlxalq ictimai rəyi çaşdırmaqdan ibarətdir. Biz buna hazırıq və bundan sonra da birgə səylərlə bütün yalançı təbliğatı ifşa etməliyik, haqq-ədaləti bərpa etməliyik. Əminəm ki, birgə səylərimiz, Türkiyə və Azərbaycan dövlətlərinin güclənməsi bütün bu məsələlərdə bizə yardımçı olacaqdır.

Biz gələcəyə çox böyük nikbinliklə baxırıq. Artıq 16 ildir müstəqil dövlətlər kimi bütün beynəlxalq aləmdə, təşkilatlarda bir-birimizi dəstəkləyirik. Bu dəstək mütəmadi xarakter daşıyır. Biz hər an bilirik ki, bütün təşəbbüslərimiz türk qardaşlarımız tərəfindən dəstəklənəcəkdir. Eyni zamanda, biz var gücümüzlə Türkiyənin təşəbbüslərini dəstəkləyirik və bundan sonra da dəstəkləyəcəyik. Bizi birləşdirən tarixi köklər, etnik mənsubiyyət, ortaq maraqlarımız, siyasi və iqtisadi maraqlarımız və regional əməkdaşlıq məsələləridir. Bütün bu sahələrdə biz yalnız və yalnız gözəl nəticələri görürük. Əminəm ki, gələcək illərdə Türkiyə–Azərbaycan birliyi, qardaşlığı daha da möhkəmlənəcək, qarşıda duran bütün çətin məsələlər öz həllini tapacaq və gələcəkdə həm bölgədə, həm də dünyada bizim təsir imkanlarımız daha da artacaqdır. Bunu etmək üçün işbirliyi, qardaşlıq əlaqələri, qarşılıqlı səfərlər davam etməlidir, mütəmadi xarakter daşımalıdır.

Mən bu gün əziz qardaşım prezident Abdullah Gülü Bakıda çox böyük səmimiyyətlə bir daha alqışlayıram, onu salamlayıram. Azərbaycan xalqının ən əziz duyğularını ona və bütün Türkiyə dövlətinə, türk qardaşlarımıza çatdırıram.

Mən bütün türk xalqına uğurlar, xoşbəxtlik, rifah, çiçəklənmə arzu edirəm!

Sağ olun!

## Türkiyə prezidenti Abdullah Gülün nitqi

Hörmətli Cümhur başqanı, əziz qardaşım!
Möhtərəm xanım əfəndi!
Dəyərli qonaqlar!

Bu gün Bakıya gəlməkdən, sizlərlə bərabər olmaqdan hiss etdiyim məmnuniyyəti ifadə etmək istəyirəm. Prezident seçildikdən sonra xaricə ilk ziyarəti Azərbaycana etməyim aramızdakı dostluq və qardaşlığın yalnız sözdə, dildə olmadığını, qəlbimizdə nə qədər dərin yer tutduğunu göstərir.

Hər gəlişimdə Azərbaycanın dəyişdiyini görməkdən qürur duyuram. İqtisadi cəhətdən getdikcə zənginləşən, hər baxımdan güclənən, böyük layihələri gerçəkləşdirən, sadəcə bölgənin deyil, dünyanın diqqətini çəkən bir ölkə olmaq yolunda Azərbaycan çox böyük məsafə qət etmişdir. Bu ziyarətimin Azərbaycanın müstəqilliyinin 16-cı ildönümünə təsadüf etməsi də xüsusi məna daşıyır. Bu 16 il içərisində çox böyük məsafələrin qət edildiyi, inkişafın təmin olunduğu göz qabağındadır. Keçmiş illərlə müqayisədə bu inkişafın nə qədər böyük olduğunu, əminəm ki, hər kəs görəcəkdir.

Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr ən yaxşı şəkildə Azərbaycanın böyük öndəri rəhmətlik Heydər Əliyev tərəfindən ifadə edilmişdir: «Biz bir millət, iki dövlətik!» Bu birlik bundan daha gözəl şəkildə ifadə edilə bilməzdi. Biz həqiqətən də, bir millət, iki dövlətik. Əslində iki dövlətdən daha böyüyük. Bütün bölgəmizdə, ətrafımızda başqa dövlətlər də vardır, amma hamımız eyni millətdənik. Bu gün dünyada ayrı dövlət kimi yaşayırıq, amma əməkdaşlıq etmək, qardaşlığımızı, dostluğumuzu, cəsarətimizi göstərmək mümkündür. Bu əməkdaşlıq həm siyasi, həm iqtisadi, həm də mədəni sahədə mümkündür.

Böyük bir məmnunluq hissi ilə demək istəyirəm ki, çox böyük layihələr həyata keçirilmişdir. Xatırlayırsınız, bu layihələr əvvəllər bəziləri tərəfindən xəyal, röya kimi görünürdü. Amma bunların açılışını hamımız birlikdə etdik. İnanıram ki, gələcəkdə çox böyük layihələri gerçəkləşdirəcəyik. Bakı–Tbilisi–Ceyhan boru xətti uzunluğuna görə dünyanın

ikinci böyük boru kəməridir. Artıq Qafqazın, Azərbaycanın nefti ilə yanaşı, Orta Asiyanın da nefti Aralıq dənizindən bütün dünyaya çatdırılacaqdır.

Keçən il hörmətli İlham Əliyev və hörmətli Nursultan Nazarbayev Qazaxıstanda müqavilə imzaladılar. Ondan sonra Qazaxıstanın nefti bu boru xətti ilə Aralıq dənizinə çatdırılacaqdır. Bakı–Tbilisi–Ərzurum təbii qaz kəməri layihəsi də tamamlanmışdır.

Bunlara əlavə olaraq, başqa bir nəqliyyat xətti Bakı–Tbilisi–Qars dəmir yolu layihəsidir. Uzun illərdir bu barədə danışılırdı, hətta unudulma halına gəlmişdi. Artıq «bu, həyata keçirilməyəcək» deyildiyi bir zamanda təkrar gündəmə gəlmişdir, təməli atılmışdır. İnşallah, bu layihənin də başa çatdırılmasını hamımız bir yerdə görəcəyik. O vaxt sadəcə Qazaxıstandan deyil, Çindən də gələn mallar Azərbaycan–Gürcüstan–Türkiyə üzərindən keçəcəkdir. Bununla da İstanbul boğazından keçməklə Asiya ilə Avropanı birləşdirən layihə tamamlanacaq və ondan sonra Çindən gələn qatarlar Avropanın sonuna qədər gedə biləcəkdir.

Bütün bu böyük layihələri hamımız bir yerdə həyata keçiririk. Bu böyük layihələrin iki təməl lokomotivi Türkiyə və Azərbaycandır. İnanıram ki, buna böyük layihələr, böyük əməkdaşlıq və işbirliyi layihələri əlavə olunacaqdır. Bütün bu sahə böyük bir iqtisadi, ticari sahə halına gələcəkdir.

Hörmətli Əliyevə təşəkkür edirəm, burada dedi, bəzi iş adamlarımız buradadırlar. Bu gün 140 böyük iş adamı ilə gəlmişəm. Bir qismi buradadır. Onlar da çox yaxşı bilirlər ki, Sizin yaratdığınız imkan sayəsində buranı öz evləri, öz vətənləri gördükləri üçün böyük sərmayələr qoyur, böyük işlər görürlər. İndi böyük məmnuniyyətlə deyirəm ki, azərbaycanlı təşəbbüskar iş adamları və Azərbaycanın böyük şirkətləri də artıq Türkiyəyə sərmayə qoymağa başlamışlar. Bildiyiniz kimi, Türkiyənin ən böyük neft-kimya təsislərindən olan «Petkim» azərbaycanlılar tərəfindən özəlləşdiriləcəkdir. Bu bizə böyük qürur verir. İnanıram ki, qarşıdakı illərdə Ceyhanda, Aralıq dənizinin ətrafında çox böyük neftayırma müəssisələri yaradılacaqdır. Bunlara Azərbaycan

şirkətləri şərik olacaqdır. Bütün bunların hamısı bizim gələcəyimizin parlaq olduğunu göstərir.

Siyasi sahədə Türkiyə ilə Azərbaycan bir-birini daim dəstəkləmişdir. Azərbaycanın ərazi bütövlüyü Türkiyə üçün çox önəmlidir. Bu, Azərbaycan üçün nədirsə, Türkiyə üçün də elədir. Bu səbəbdən onu da demək istəyirəm ki, azəri türklərinin qan axan yarası sağalmayınca Türkiyə heç vaxt rahat yaşamayacaqdır. Bununla da əminəm ki, Dağlıq Qarabağ problemi ilə bağlı nə demək istədiyimi anlayacaqsınız. Ən qısa müddətdə bu yaranın sağalmasını və bu məsələnin bitməsini arzu edirik. Dünya bir milyona yaxın azərbaycanlı qaçqının, köçkünün halını görmək istəmir. Amma bunu bütün dünyaya anlatmaq hamımızın borcudur. Mən hər fürsətdə bundan bəhs edirəm və bunun unudulmamasının vacibliyini hər kəsə anladıram.

Dəyərli dostlar, gələn il çox önəmli bir hadisənin, Nuru paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusunun erməni və bolşeviklərin işğalına məruz qalan Bakını azad etməsinin 90-cı ildönümüdür. Bunun önəmi gələcək nəsillərə, gənclərə ən yaxşı şəkildə anladılacaqdır. Çünki tarix elmi və tarix şüuru çox önəmlidir. Bütün nəsillərə, xüsusən gənclərə bunun anladılması əhəmiyyətlidir və bu ildönümünün yüksək səviyyədə keçiriləcəyinə əminəm.

Mədəni sahədə də biz bir-birimizə o qədər bağlıyıq ki, budur, mən türkcə danışıram, siz də türkcə danışırsınız və bir-birimizi başa düşürük. Televiziya verilişlərimiz hər iki ölkədə maraqla izlənilir. Tələbə proqramları çərçivəsində yüzlərlə, minlərlə şagird, tələbə həm Türkiyədə, həm də Azərbaycanda təhsil alır. Burada türk məktəbləri azərbaycanlı qardaşlarımızın təhsilinə yüksək səviyyədə xidmət edir. Universitetlər arasında da yaxşı əməkdaşlıq vardır. Bunların hamısından qürur duyuram.

Ötən il Antalyada keçirdiyimiz türkdilli ölkələrin dövlət başçılarının növbəti zirvə toplantısını hörmətli Əliyevin rəhbərliyi ilə Azərbaycanda keçirəcəyik. Az bir müddətdən sonra türk cəmiyyətlərinin qurultayı keçiriləcək, dünyanın hər tərəfindən, bütün türk dünyasından, Baltikyanı ölkə-

lərdən, Avropadan, Orta Şərqdən – hər yerdən buraya insanlar gələcək, qardaşlarımız gələcəklər. Bütün bunlar bizim sağlam tellərlə bir-birimizə bağlı olduğumuzu bildirən ən yaxşı göstəricidir.

Mən çıxışımı böyük Azərbaycan şairi Bəxtiyar Vahabzadənin sözləri ilə bitirmək istəyirəm:

Bir ağacın iki qolu,
Bir ananın iki oğlu,
O da ulu, bu da ulu,
Azərbaycan–Türkiyə!

Yaşasın Azərbaycan–Türkiyə qardaşlığı!

* * *

*Sonra incəsənət ustalarının iştirakı ilə konsert oldu. Müğənnilərin ifasında səslənən hər iki dost və qardaş ölkənin xalq mahnıları, milli rəqslər böyük maraqla qarşılandı.*

*Azərbaycan prezidenti İlham Əliyev və Türkiyə prezidenti Abdullah Gül incəsənət ustaları ilə görüşüb onlara uğurlar arzuladılar.*

## TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜL HEYDƏR ƏLİYEV FONDUNDA

*Bakı*

*6 noyabr 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev və fondun prezidenti, YUNESKO-nun və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Türkiyənin dövlət başçısını və onun xanımı Hayrünnisa Gülü böyük səmimiyyətlə qarşıladılar.*

*Prezident İlham Əliyev ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış fondun məqsədləri, ulu öndərin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlar barədə ətraflı məlumat verdi.*

*Türkiyə dövlətinin başçısı fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla, dünyanın nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, müxtəlif ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdı. Türk dünyasının böyük oğlu Heydər Əliyevin qardaş ölkəyə səfərlərini, eləcə də Türkiyə Cümhuriyyətinin dövlət və hökumət rəhbərlərinin Azərbaycana səfərlərini, birgə görüşləri əks etdirən fotolar qonaqlarda xüsusi maraq doğurdu.*

*Prezident Abdullah Gül fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.*

*Qardaş ölkənin prezidentinə Heydər Əliyev Fondunun hədiyyəsi təqdim olundu. Prezident Abdullah Gül isə Azərbaycan prezidentinə və xanımı Mehriban Əliyevaya xüsusi hədiyyəsini təqdim etdi.*

*Dövlət başçıları və xanımları birgə şəkil çəkdirdilər.*

*Ali qonaq fonddan xoş və zəngin təəssüratla ayrıldığını bildirdi.*

## AZƏRBAYCAN–TÜRKİYƏ BİZNES-FORUMU

*Bakı Biznes Mərkəzi*

*7 noyabr 2007-ci il*

*Bakı Biznes Mərkəzində Azərbaycan və Türkiyə iş adamlarının biznes-forumu keçirilmişdir.*

*Forum iştirakçıları Azərbaycan prezidenti İlham Əliyevi və Türkiyə prezidenti Abdullah Gülü alqışlarla qarşıladılar. Azərbaycanın İqtisadi İnkişaf naziri Heydər Babayev forumu açaraq, ali qonaqları və iş adamlarını salamladı. O, məlumat verdi ki, nazirliyin dəstəyi ilə Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu və Türkiyənin Ticarət və Sənaye Palataları Birliyi tərəfindən təşkil olunan bu forum ölkələrimiz arasında işgüzar əməkdaşlığın möhkəmlənməsi və genişlənməsinə kömək edəcəkdir. Nazir xüsusi vurğuladı ki, hər iki ölkə prezidentinin forumda iştirakı Azərbaycanla Türkiyə arasında iqtisadi əməkdaşlığın inkişafına ən yüksək səviyyədə verilən dəstəkdir.*

*Azərbaycanla Türkiyə arasında əməkdaşlıq əlaqələrinin yüksək səviyyədə olduğunu vurğulayan H.Babayev hazırda respublikamızda 400-dən artıq türk şirkətinin fəaliyyət göstərdiyini, bu şirkətlərdə 5 min Türkiyə, 50 mindən çox Azərbaycan vətəndaşının çalışdığını bildirdi. Xatırlatdı ki, 1995-ci ildən 2006-cı ilədək Türkiyə şirkətləri Azərbaycanın qeyri-neft sektoruna 838,8 milyon ABŞ dolları həcmində sərmayə qoymuş, ölkəmizdə 1,5 milyard dollardan artıq irihəcmli podrat işləri görmüşdür. 2006-cı ildə Azərbaycanla Türkiyə arasında ticarət dövriyyəsinin həcmi 773 milyon dollar, 2007-ci ilin yarım ili ərzində isə 550 milyon dollar təşkil etmişdir.*

*Türkiyə tərəfindən 200, Azərbaycan tərəfindən isə 250-dən çox rəsmi şəxslərin və iş adamlarının iştirak etdiyi biznes-forumun son dövrdə iki dövlət arasında keçirilən ən böyük iqtisa-*

*di tədbir olduğu vurğulandı. Bildirildi ki, forumda Azərbaycan və Türkiyənin sosial-iqtisadi vəziyyəti, sərmayə mühiti, ticarət və biznes imkanları barədə çıxış və təqdimatlar olacaq, ikitərəfli görüşlər zamanı iş adamları əməkdaşlıq perspektivlərini müzakirə edəcəklər.*

*Biznes-forumda Azərbaycan və Türkiyə prezidentləri çıxış etdilər.*

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli cənab Prezident, əziz qardaşım!

Hörmətli xanımlar və cənablar!

Mən Türkiyədən gəlmiş bütün dostlarımızı Azərbaycanda bir daha ürəkdən salamlayıram. Çox şadam ki, bu gün Türkiyə və Azərbaycanın iş adamları bir araya gəlirlər və əminəm ki, biznes-forumun çox gözəl nəticələri olacaqdır.

Bütövlükdə, bizim aramızda olan münasibətlər onu göstərir ki, bütün sahələrdə, o cümlədən iqtisadi sahədə əlaqələrimiz inkişaf etməkdədir. Bu əlaqələrin çox böyük tarixi var və son 16 il ərzində, Azərbaycan öz dövlət müstəqilliyini bərpa edəndən sonra bizim ən yaxın müttəfiqimiz Türkiyə olmuşdur. Bu gün də belədir. O cümlədən, iqtisadi sahədə ən çox ticarət əlaqələrimiz olan ölkə Türkiyədir. Mən əminəm ki, gələcək illərdə bu gözəl meyil davam edəcək və hər iki ölkənin artan iqtisadi imkanları, o cümlədən iş adamlarının birgə fəaliyyətinə yeni zəmin yaradacaqdır.

Bu günlər biz böyük məmnuniyyət hissi ilə Türkiyə prezidentini Azərbaycanda qarşılayırıq, salamlayırıq. Biz çox şadıq ki, hörmətli prezident öz ilk rəsmi səfərini Azərbaycana edir. Bu bizim dostluğumuzun, qardaşlığımızın nə qədər möhkəm olduğunu bir daha göstərir. Biz hesab edirik ki, bu səfər və onun nəticələri uzunmüddətli inkişaf perspektivlərini müəyyən edəcək, siyasi, iqtisadi, mədəni və başqa sahələrdə əlaqələrin inkişafında öz müsbət rolunu oynayacaqdır. Dünən imzalanmış sənədlər, o cümlədən iqtisadi sahəyə aid sənədlər, əlbəttə, bu sahədə olan gələcək inkişaf perspektivlərini xeyli dərəcədə müəyyən edir.

Son illər ərzində aparılan siyasi və iqtisadi islahatlar nəticəsində Azərbaycan iqtisadi cəhətdən çox sürətlə inkişaf edir. Biz müstəqilliyimizin ilk illərində çox böyük çətinliklərlə üzləşmişdik. Azərbaycanda, demək olar ki, böhran vəziyyəti yaranmışdı. Bu həm siyasi, həm də iqtisadi böhran idi. Ölkə iqtisadiyyatı, demək olar ki, iflic vəziyyətinə düşmüşdü. İqtisadi tənəzzül ölkəmizin inkişafına imkan vermirdi, böyük müəssisələr öz fəaliyyətini dayandırmışdı. Beləliklə, Azərbaycanın gələcək inkişaf perspektivləri qeyri-müəyyən idi. Bu vəziyyət 90-cı illərin əvvəllərində mövcud idi. Ancaq 1993-cü ildən sonra, Azərbaycan xalqı öz milli liderini dəvət etdikdən sonra vəziyyət tədricən sabitləşdi. İqtisadiyyatda və siyasi sahədə yaşanan çətinliklər 1993-cü ildən 1996-cı ilə qədər artıq azalmağa başladı.

1996-cı ildən 2004-cü ilə qədər Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf etməyə başlamışdır. O illərdə iqtisadiyyatın orta artım dinamikası təxminən on faiz təşkil edirdi və bu bizə imkan verdi ki, Azərbaycan iqtisadi cəhətdən inkişaf etməyə başlasın. Əlbəttə ki, aparılan hər bir islahat öz nəticələrini dərhal vermir. Bu nəticələri görmək üçün müəyyən bir dövr lazımdır. Hər bir ciddi, köklü islahat bunu tələb edir. Xüsusilə bir ictimai-siyasi quruluşdan digər ictimai-siyasi quruluşa keçən ölkələrdə bu özünü daha da qabarıq şəkildə göstərir.

Azərbaycan 1991-ci ilə qədər Sovet İttifaqının tərkibində idi, biz müstəqil deyildik. O cümlədən, iqtisadi sahədə də sosialist ölkələrinə xas olan prinsiplər mövcud idi. Yəni Azərbaycanda bazar iqtisadiyyatı mövcud deyildi. İqtisadiyyat, demək olar ki, 100 faiz dövlət sektorunda yaranırdı. Əlbəttə ki, keçid dövrü o qədər də asan olmamışdır. İslahatların ilk illərində böyük çətinliklərlə üzləşmişdik. Ancaq o illərdə başlanmış və bu gün davam etdirilən siyasi və iqtisadi islahatlar çox gözəl nəticələrə gətirib çıxarmışdır. 2004-cü ildən ölkə iqtisadiyyatı çox yüksək sürətlə inkişaf etməyə başlamışdır. 2005-ci ildə Azərbaycan iqtisadiyyatı 26 faiz, 2006-cı ildə 35 faiz, 2007-ci ilin 9 ayında isə 27 faiz artmışdır. Yəni bir sözlə, biz üç il ərzində iqtisadi potensialımızı, demək olar ki, iki

dəfəyə yaxın artırmışıq. Əlbəttə ki, bu, ölkəyə əlavə imkanlar yaradır. Bizim böyük investisiya layihələrimiz var. Ölkə iqtisadiyyatı inkişaf etdikcə, sənayenin inkişafı da görünməkdədir. Keçən il Azərbaycanda sənaye istehsalı 35 faiz artmışdır, bu ilin 9 ayında artım 27 faizdir. Yəni bu onu göstərir ki, iqtisadi artım yerli istehsalın yaranmasına gətirib çıxarır.

Biz regional inkişaf proqramını uğurla icra edirik və son 4 il ərzində Azərbaycanda 610 min yeni iş yeri açılmışdır ki, bunun da 430 mini daimi iş yerləridir. İş yerlərinin açılması eyni zamanda, işsizliyin aradan qaldırılmasına xidmət edir. Bununla bərabər, Azərbaycanda yeni istehsallar yaranır, yəni biz idxaldan asılılığımızı azaldırıq və idxalı əvəzləyən yerli istehsalın yaranmasına çalışırıq. İndi Azərbaycanın bölgələrində iqtisadiyyatın qeyri-neft sektoru çox sürətlə inkişaf edir. Bizim məqsədimiz məhz bundan ibarətdir, qeyri-neft sektorunun inkişafı ilə çox ciddi məşğuluq və bu bizə imkan verəcək ki, ölkə iqtisadiyyatı çoxşaxəli şəkildə inkişaf etsin. Təkcə neft-qaz amilindən asılı olmasın.

Amma şübhəsiz ki, bu gün və bundan sonrakı illərdə enerji sektoru Azərbaycan iqtisadiyyatını inkişaf etdirən əsas sahə olacaqdır. Azərbaycan öz enerji layihələrini uğurla həyata keçirir, qarşıda duran bütün vəzifələr icra olunubdur. Xəzər dənizinin dibindən çox böyük həcmdə neft, qaz hasil edilir. Bu il Azərbaycanda neft hasilatı təxminən 43–45 milyon tona bərabər olacaqdır. Gələn il 50 milyon ton, ondan da çox olacaqdır. Yəni Azərbaycanda gündə 1 milyon barrel neft çıxarılacaqdır. Eyni zamanda, qaz hasilatı da artırılır. Gələn il Azərbaycanda həm «Şahdəniz» qaz yatağından, həm də başqa yataqlardan təxminən 16–18 milyard kubmetr qaz hasilatı gözləyirik. Bildiyiniz kimi, bu qazın bir hissəsi Türkiyəyə, Gürcüstana ixrac olunacaq və ondan sonra Türkiyədən Avropa bazarlarına çatdırılacaqdır. Bu bizim iqtisadiyyatımız üçün çox önəmli bir amildir və bizə əlavə inam verir.

Azərbaycanın valyuta ehtiyatları indi 7 milyard dollar səviyyəsindədir və gələcək illərdə, əlbəttə ki, bu, kəskin şəkildə artacaqdır. Dünya Bankının apardığı hesablamalara görə, növbəti 20 ildə ancaq neft müqavilələrindən Azərbaycana 200

milyard dollar vəsait daxil olacaqdır. Onlar bunu hesablayanda neftin qiymətini 50 dollar səviyyəsində götürmüşdülər. Yəni bu, ölkəmizin qarşısında çox böyük imkanlar açır.

Biz indi ölkəmizin müasirləşməsi – siyasi islahatların, iqtisadi islahatların, infrastruktur layihələrinin həyata keçirilməsi ilə məşğuluq. Yəni buna çox böyük ehtiyac vardır. İnvestisiya üçün də Azərbaycan çox əlverişli bir ölkədir. Burada çox gözəl sərmayə mühiti var. Biz adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə keçmiş sovet məkanında qabaqcıl yerlərdəyik. Son 10-12 il ərzində ölkə iqtisadiyyatına 40 milyard dollar sərmayə qoyulubdur. Bu il 8 milyard dollar qoyulacaqdır. Çox müsbət hal ondan ibarətdir ki, indi daxili sərmayələr xarici sərmayələri üstələyir. Bu o deməkdir ki, daxili imkanlar artır. Yerli firmalar, şirkətlər öz sərmayələrini Azərbaycana qoyur. Dövlət sərmayə proqramı da çox genişdir. Gələn il ancaq dövlət xətti ilə Azərbaycanda həyata keçirilən müxtəlif layihələrə 3 milyard dollardan çox vəsait qoyulacaqdır. Yollar, su kəmərləri, qaz xətləri, kommunikasiyalar, infrastruktur layihələri, elektrik stansiyaları, yəni bütün infrastruktur ölkəmizin hərtərəfli inkişafına lazımdır və biz buna nail olmuşuq.

Dövlət xərcləri də artmaqdadır. Son 4 il ərzində Azərbaycanın dövlət büdcəsi təxminən 10 dəfə artıbdır. 2003-cü ildə haradasa 1,3–1,5 milyard dollar səviyyəsində idi. 2008-ci ilin icmal büdcəsi 12 milyard dollar təşkil edəcəkdir. Yəni 8,5 milyon əhalisi olan ölkə üçün bu, kifayət qədər yaxşı bir göstəricidir. Ən əsası isə, bu bizə imkan verəcək ki, həm sərmayələr qoyulsun, həm infrastruktur yeniləşsin, həm də insanların həyat səviyyəsi yaxşılaşsın. Bizim islahatlarımızın əsl məqsədi məhz bundadır ki, Azərbaycan xalqı yaxşı yaşasın, rifah içində yaşasın, işsizlik, yoxsulluq aradan qaldırılsın.

Çox sevindirici hal ondan ibarətdir ki, Azərbaycanda neftdən əldə edilmiş gəlirlər cəmiyyətdə bərabər şəkildə bölünür. Biz buna şəffaflıqla nail olmuşuq. Bu yaxınlarda Birləşmiş Millətlər Təşkilatı Azərbaycan Dövlət Neft Fondunu məhz şəffaflığın təmin olunmasına görə çox böyük mükafatla mükafatlandırıbdır. Azərbaycanda neftdən gələn gəlirlər

insanların həyat səviyyəsinin yaxşılaşmasına sərf olunur. Bəzi hallarda neftlə zəngin olan ölkələrdə təbəqələşmə prosesi sürətlə gedir. Yəni varlılar daha da varlanır, yoxsullar daha da müflisləşir, kasıblaşır. Ancaq Azərbaycanda belə deyildir. Əgər 2003-cü ildə yoxsulluq səviyyəsində yaşayanlar 49 faiz idisə, 2007-ci ilin əvvəlinə bu, 20 faizə düşübdür. Mən əminəm ki, 2007-ci ilin yekunlarına görə daha da aşağı düşəcəkdir. Yəni, məqsəd yoxsulluğu, işsizliyi tam aradan qaldırmaq, güclü iqtisadiyyat yaratmaq, qeyri-neft sektoru yaratmaq, özəl sektora yardım göstərmək və beləliklə, Azərbaycanın uzunmüddətli, dayanıqlı, neft-qaz qiymətlərindən asılı olmayan inkişafını təmin etməkdir.

Onu da demək istəyirəm ki, bu illər ərzində aparılan islahatlar nəticəsində özəl sektorun inkişafına böyük diqqət verilir və indi özəl sektorun ümumi daxili məhsuldakı payı 80 faizdən yuxarıdır. 1991-ci ildə 0 faiz, 2007-ci ildə 80-81 faiz! Yəni Azərbaycanda çox geniş özəlləşdirmə proqramı həyata keçirilmişdir. İqtisadiyyatımız liberallaşır. İndi əlavə tədbirlər nəticəsində Azərbaycanda biznes qurmaq üçün daha da əlverişli şərait olacaqdır. Biz qeydiyyat məsələlərini sadələşdiririk, Azərbaycanda biznes yaratmaq istəyən şirkətlər vahid pəncərə prinsipi əsasında çox qısa bir müddətdə bütün icazələri, qeydiyyatları ala biləcəklər.

Bütün bunlar, əlbəttə ki, ölkənin siyasi çəkisini də artırır, bölgədəki rolunu artırır. Bölgədə, Cənubi Qafqazda gedən proseslər Azərbaycanın iştirakı ilə, bir çox hallarda təşəbbüsləri ilə həyata keçirilir. Biz böyük transmilli enerji layihələrinin təşəbbüskarı olmuşuq. Türkiyə və Gürcüstanla bərabər bu layihələri həyata keçirməklə ölkələrimizin birləşməsinə nail olmuşuq. İqtisadi və siyasi sahədə bütün geosiyasi vəziyyətin dəyişdirilməsinə nail olmuşuq.

Bu gün Azərbaycanı Türkiyə ilə birləşdirən neft, qaz kəmərləri, bu yaxınlarda başlanacaq dəmir yolu layihəsi – bütün bunlar, əlbəttə ki, bizim aramızda olan dostluq, qardaşlıq münasibətlərini daha da gücləndirir. Biz də bunu çox istəyirik. İstəyirik ki, daha da birləşək, bütün sahələrdə sıx əməkdaşlıq olsun, o cümlədən biznes aləmi də bir-biri ilə

yaxşı əlaqələr qursun. Bu da var. Bu gün səslənən çıxışlarda göstərildi ki, Azərbaycanda nə qədər türk şirkəti var. Minlərlə Azərbaycan vətəndaşı bu şirkətlərdə çalışır.

Biz Türkiyənin uğurlarına çox sevinirik. Bu gün Rifat bəyin çıxışında eşitdim ki, Türkiyə Avropanın ümumi daxili məhsulun həcminə görə 6-cı iqtisadiyyatıdır. Dünyada 17-cidir. Yəni bu, böyük bir qüvvədir. Bu bizi də gücləndirir. Siz həm iqtisadi, həm də siyasi cəhətdən nə qədər güclü olsanız, o qədər də Azərbaycanın gücü artacaqdır. Biz bu qarşılıqlı imkanlardan istifadə etməliyik, qarşılıqlı ticarəti, biznesi daha da irəliyə aparmalıyıq. Bütün mümkün olan layihələrdə birgə fəaliyyət göstərməliyik.

Dünən danışıqlar zamanı mən qeyd etdim ki, Azərbaycanda həm maliyyə həcmi, həm də texniki parametr baxımından ən böyük layihələri türk firmaları icra edirlər. Hava limanları, xəstəxanalar, yollar, su kəmərləri – yəni bütün böyük layihələrin icraçıları türk şirkətləridir. Biz onların fəaliyyətindən çox razıyıq. Onlar bəzi hallarda investor kimi, bəzi hallarda podratçı kimi çıxış edirlər. Gələcəkdə bu imkanlar daha da artacaqdır. Çünki bir tərəfdən, Azərbaycan daha xarici maliyyə qurumlarının kreditlərindən asılı vəziyyətdə deyil, biz özümüz bəzi layihələri maliyyələşdiririk və qonşu ölkələrə kreditlər veririk. Digər tərəfdən, yaranan əlavə imkanlar, əlbəttə, türk şirkətləri üçün də yeni fürsət açacaqdır.

Biz hörmətli cənab prezidentlə dünən bir məsələyə də böyük məmnuniyyətlə toxunduq. Bu bizim münasibətlərimizdə bir yenilikdir. Artıq Azərbaycan firmaları Türkiyə iqtisadiyyatına investisiya qoyur. Biz bunu alqışlayırıq. Deyə bilərəm ki, indi Azərbaycan şirkətləri, xüsusilə enerji şirkətləri kifayət qədər böyük maliyyə imkanlarına malikdir və onların xaricdə əsas sərmayə məkanı məhz Türkiyədir. Biz bunu çox alqışlayırıq. Mən əminəm ki, gələcəkdə qarşılıqlı yatırımlar daha da böyük həcmdə qoyulacaqdır. Bu, həm ölkələrimizi birləşdirəcək, həm də iş adamları üçün yeni imkanlar yaradacaqdır.

Mən sizin hamınızı bir daha ürəkdən salamlayıram. Bu biznes-foruma çox böyük diqqət göstərirəm. Bilirəm ki, biz-

nes-forum zamanı müxtəlif sazişlər bağlanacaqdır, iki ölkənin imkanları, qanunvericilik bazası, biznes imkanları təhlil ediləcəkdir ki, hələ Azərbaycanda fəaliyyət göstərməyən türk şirkətləri də buraya gəlsinlər. Azərbaycan sizin vətəninizdir. Biz bir millətik, iki dövlətik və bizim gücümüz birlikdədir.

Əziz qardaşlar, dostlar, sizi bir daha ürəkdən salamlayıram və fəaliyyətinizdə uğurlar diləyirəm. Sağ olun.

**Türkiyə prezidenti Abdullah Gülün çıxışı**

Dəyərli qardaşım, hörmətli prezident İlham Əliyev!

Hörmətli nazirlər!

Hörmətli iş adamları, dostlar!

Sözlərimə bu gün Azərbaycanda sizlərlə bərabər olmaqdan çox məmnunluq duyduğumu ifadə etməklə başlamaq istəyirəm. Dünəndən bu günə qədər bizə göstərilən qonaqpərvərliyə görə çox təşəkkür edirəm.

Sizin dediyiniz kimi, bu mənim Şimali Kipr Türk Cümhuriyyətindən sonra xaricə etdiyim ilk rəsmi səfərimdir. Bu səfəri Azərbaycana etməyim dostluğa, qardaşlığa, əlaqələrimizə verdiyim əhəmiyyəti göstərir. Sağ olun, Siz məni təbrik etdiyiniz zaman dəvət etmişdiniz. Bu dəvəti bu şəkildə icra etmək, həqiqətən də məni  çox məmnun edir.

Bu səfərə sadəcə nazir dostlarım, dövlət əhəmiyyətli bürokratlarla gəlmədim. Bu səfərin başqa bir xüsusiyyəti də Türkiyənin seçilmiş iş adamları ilə birlikdə – Türkiyə Ticarət və Sənaye Palataları Birliyinin təşkilatçılığı ilə hər sektoru təmsil edən, iş görmək istəyən, yaxud şərik iş görməyi düşünən bir çox bacarıqlı iş adamları ilə bərabər gəldik.

Bu gün azəri iş adamları ilə birlikdə onların toplantısına qatılmaq Sizi nə qədər çox məmnun etdisə, məni də o qədər məmnun edir və həyəcanlandırır. Bir az əvvəl Birliyin sədrinin çıxışını ikimiz də çox diqqətlə izlədik. Potensialı açıq şəkildə ortaya qoydu. Əslində son illər  Türkiyə həqiqətən çox böyük işlər gördü. Bir az əvvəl söylədiyiniz kimi, Avropanın ümumi daxili məhsulun həcminə görə 6-cı iqtisadiyyatı olmuş, xarici ticarətin həcmi təqribən 220 milyard

dollardır, ixrac 100 milyard dolları keçir. Bu ixracda çox önəmli olan bəzi məqamları qeyd etmək istərdim. Məsələn, avtomobil ixracı 20 milyard dolları, dəmir-polad ixracı 12 milyard dolları keçmişdir. Keçmişdə olduğu kimi, ixrac sadəcə, kənd təsərrüfatı və yüngül sənaye məhsulları deyil, daha fərqli məhsullar istehsal edilməyə başlandı, Avropa və Amerika bazarlarına ixrac olundu.

Təbii ki, biz nə qədər çox güclənsək, siz də o qədər çox qürurlanarsınız. Siz də nə qədər çox güclənsəniz, inkişaf etsəniz, biz də o qədər qürurlanarıq. Azərbaycandakı inkişafı mən gözlərimlə görürəm. Çünki buraya daha əvvəl də müxtəlif səbəblərlə – Xarici İşlər naziri kimi, başqa işlərlə əlaqədar gəldim. İndi prezident olaraq gəlirəm və inanın ki, bunu görmək bizi çox qürurlandırır.

Keçən il bu salonda toplantı keçirdik. Bu salonun ətrafında belə inşaat işləri getmirdi. Bu körpülər, yollar, binalar yox idi. Bir ildən bəhs edirəm. Hər dəfə gələndə Bakının nə qədər dəyişdiyini, inkişaf etdiyini görmək, inanın, bizi çox sevindirir. Anadoluda hər hansı bir şəhərə gedib oradakı inkişafı gördükdə nə qədər seviniriksə, hansı hissiyyatı keçiririksə, burada da eyni hissiyyatı keçiririk. Buna görə başda zati-aliniz olmaqla, əməyi keçən hər kəsi təbrik edirəm.

Aramızda çox böyük layihələr həyata keçirilir. Bunların əsasında dostluq, bərabərlik və qardaşlıq var. Türkiyənin qurucusu, böyük öndər Atatürkün «Azərbaycanın kədəri Türkiyənin kədəri, Azərbaycanın sevinci bizim sevincimizdir» dediyi kimi, Azərbaycanın ulu öndəri Heydər Əliyevin də «Biz bir millət, iki dövlətik» müdrik kəlamı əslində hər şeyin təməlini qoymuşdur.

İndi biz buna uyğun gedirik, daha böyük uğurlar qazanmağa çalışırıq. Sadəcə dostluq və qardaşlıq duyğularından başqa, böyük layihələr həyata keçiririk və xalqlarımızın mənafeyinə uyğun böyük işlər görürük.

Dünəndən bəri bir neçə dəfə demişik, amma dəyərli olduğu üçün təkrarlayırıq. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft və qaz, Bakı–Tbilisi–Qars dəmir yolu layihələri əvvəllər xəyal, röya kimi görünən, bəzilərinin «Olmaz!»

deyərək əngəlləməyə çalışdıqları layihələrdir. Bütün bunlar bu gün artıq funksiyasını yerinə yetirir, uğurla işləyir. Azərbaycanın nefti Aralıq dənizinə gedir, hətta Qazaxıstan da buna qoşulur. Dəyərli qardaşım keçən il Qazaxıstana getdi, hörmətli Nazarbayevlə bu müqaviləni bağladılar. Artıq Orta Asiyanın nefti Aralıq dənizi vasitəsilə bütün dünyaya çatdırılacaqdır. Bütün bunlar həyata keçdi.

İndi yeni-yeni böyük layihələrin axtarışında olmaq lazımdır. İnşallah, bunlar da həyata keçəcəkdir. İnanıram ki, qısa müddətdə Aralıq dənizi sahilində böyük neftayırma müəssisələrinin yaradılmasında Azərbaycan da iştirak edəcək, buradan bütün dünya bazarlarına çıxış əldə edəcəkdir. Eyni şəkildə, Qara dənizi Aralıq dənizi ilə birləşdirən layihələrin həyata keçiriləcəyinə əminəm.

Təbii, bizi sevindirən bir məsələ də budur ki, təkcə türk iş adamları Azərbaycanda fəaliyyət göstərmirlər, artıq Azərbaycanın böyük şirkətləri də Türkiyədə fəaliyyətə, özlərini göstərməyə başlamışlar. Son özəlləşdirmələrdə Azərbaycan şirkətlərinin uğurları, böyük neft kimyası müəssisələrində «biz də varıq» demələri, inanın ki, Türkiyə üçün böyük bir qürur mənbəyi olmuşdur. Eyni şəkildə, neftayırma layihələrində də Azərbaycanın yer alacağına inanıram. Bunun üçün birlikdə çalışırıq.

Azərbaycanda türk iş adamlarının müvəffəqiyyəti hər kəsə məlumdur. Türk iş adamlarına güvəndiyiniz, onlara bu fürsəti verdiyiniz üçün ölkəm, dövlətim və bütün vətəndaşlarım adından Sizə bir daha təşəkkür edirəm. Təbii, Siz onlara etimad göstərməsəniz, bu müvəffəqiyyətə nail ola bilməzlər. Azərbaycanda böyük inkişaf var, xüsusən infrastruktur sahəsində bir çox layihələr tamamlanmışdır. Yeniləri davam etməkdədir. Bunları yaxından müşahidə edirik. Siz də buna çox yaxından nəzarət edirsiniz. Bunlar hamımız üçün qürur mənbəyidir.

Müasir dövrdə dövlət və hökumətlərin üzərinə düşən vəzifələr iş dünyasında əməkdaşlığın zəminini, hüquqi sənədləri, iqtisadi müqavilələri yaratmaqdır. Bütün bunları gördükdən sonra yollar, dəmir yolları çəkməkdir. Ondan sonra

şirkətlər səmərəli fəaliyyət göstərərək ölkələri bir-biri ilə yaxşı formada birləşdirəcəklər. Bu istiqamətdə də önəmli addımlar atılmışdır. Dünən imzaladığımız uzunmüddətli ticarət və iqtisadi əməkdaşlıq proqramı və planı, qısa müddət içərisində imzalanacaq digər ticarət müqavilələri bunlara imkan verəcək və inanıram ki, bu bölgədə böyük müştərək iqtisadi zona yaradılacaqdır. Təbii ki, buna Qafqazdakı digər ölkələr də qatıla bilər. Necə ki, Gürcüstan iştirak edir və bu böyük layihələrdən pay alır. Burada sülh və əmin-amanlıq olduqdan, torpaq işğallarına son qoyulduqdan sonra başqa dövlətlər də bu layihələrdə iştirak edə bilər.

Biz hamımız bu bölgədə sabitlik və təhlükəsizlik, bir-birinə qarşılıqlı hörmət olmasını və hər bir ölkənin ərazi bütövlüyünə hörmət edilməsini, iqtisadi yüksəlişin, rifahın bütün bölgəyə yayılmasını istəyirik. Bu baxımdan başqa fikrimiz yoxdur. Amma təbii ki, torpaq güclə işğal edilirsə, bu qədər qaçqın, köçkün ən çətin şəraitdə yaşayırsa, bunlara da göz yuma bilmərik.

Hörmətli Prezident, dəyərli qardaşım!

Hörmətli dostlar!

Biz yolunuzu açmaq üçün buradayıq. Siz də dürüst çalışaraq, özünüzü isbat edəcəksiniz. 16 il içərisində Azərbaycanın inkişafı böyük təqdirlə izlənilir. Bu inkişaf sadəcə, iqtisadi sahədə deyil, başqa sahələrdə də mövcuddur. Öz hərbi hissələrini sağlam şəkildə qurması, ordusunun, iqtisadiyyatın güclənməsi, Avropa Şurasının üzvü olan Azərbaycanda demokratiyanın günbəgün dərinləşməsi və güclənməsi Azərbaycanı Qafqazda parlayan bir ulduza çevirmiş, dünyanın diqqətini çəkməyə başlamışdır. Bütün bu uğurlarda Türkiyə əvvəldən hər zaman Azərbaycanın yanında olmuşdur. Türkiyə böyük mübarizələrdə Azərbaycanın yanında olmuşdur və buna davam edəcəkdir. Bunu bütün dünya belə bilməlidir və bilir. Bu birlik iki ölkə arasında olan çox səmimi əlaqələrdən irəli gəlir. Bu, eyni millətin iki dövlətinin əlaqələridir. Ona görə də çox özəl, strateji əlaqələrdir və getdikcə daha çox güclənəcəkdir.

Hökumətlərimizin, hər iki dövlətin siyasi iradəsi olduqca açıqdır. Bu toplantını bunun üçün, sizi təşviq etmək üçün edirik. Sizlər nə qədər çox uğur qazansanız, böyük layihələri ortaq şəkildə həyata keçirsəniz, biz o qədər məmnun olarıq. İnanıram ki, önümüzdəki illər yeni-yeni böyük layihələrin, arzuların gerçəkləşdiyi illər olacaqdır. Buna tam inanıram.

Mən bu vəsilə ilə bizə göstərdikləri qonaqpərvərliyə və dostluğa görə dəyərli qardaşıma bir daha təşəkkür edirəm. Özümüzü öz evimizdəki kimi hiss edirik. Əslində öz evimiz, öz yurdumuzdur. Bizim atalarımız buralardan gəlmişlər.

Sabah Gəncəyə gedəcəyəm. Türkiyənin dövlət adamının Bakıdan kənarda yerləşən başqa şəhərə ilk dəfə getməsi, Gəncəyə getməyim mənə xüsusi qürur verir. Orada ortaq tariximizi yaşadan çoxlu nişanələr, böyük xatirələr vardır. Bu xatirələri gedib yerində görmək mənə bir həyəcan verir.

Sizə bir daha müvəffəqiyyətlər diləyirəm. Azərbaycanın gələcəyinə olan inamımı təkrarlayıram. Türkiyə–Azərbaycan qardaşlığının, dostluğunun dərin kökü, çox əbədi olduğunu və gələcəyinin də çox parlaq olduğunu bir daha vurğulamaq istəyirəm.

Hamınıza müvəffəqiyyətlər diləyirəm.

## DƏVƏÇİ RAYONUNDA TAXTAKÖRPÜ SU ANBARININ VƏ SU ELEKTRİK STANSİYASININ TƏMƏLQOYMA MƏRASİMİ

*Dəvəçi rayonu*

*8 noyabr 2007-ci il*

*Noyabrın 8-də Dəvəçi rayonu ərazisində Taxtakörpü su anbarının və su elektrik stansiyasının təməlqoyma mərasimi keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Buraya toplaşan inşaatçılar dövlətimizin başçısını hörmətlə qarşıladılar.*

*Prezident İlham Əliyev Samur–Abşeron kanalı sistemi üzrə uzunmüddətli strategiya və texniki-iqtisadi əsaslandırmada təklif olunan sxemə əsasən, Taxtakörpü su anbarının su elektrik stansiyası ilə birgə tikintisi və Taxtakörpü–Ceyranbatan, Vəlvələçay–Taxtakörpü kanallarının tikintisi layihələrinin texniki-iqtisadi göstəriciləri ilə tanış oldu.*

*«Azərbaycan Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə dövlətimizin başçısına məlumat verərək bildirdi ki, Taxtakörpü su anbarının inşası Samur–Abşeron suvarma sisteminin yenidən qurulması kompleksinə daxil olan obyektdir. Samur–Abşeron kanalının uzunluğu 180 kilometrdir. Yenidənqurma işlərinə kanalın baş qurğusunun yeniləşdirilməsi, 50 kilometrlik hissəsinin təmir olunması, Taxtakörpü su anbarının, Taxtakörpü–Ceyranbatan və Vəlvələçay–Taxtakörpü kanalının tikintisi daxildir. Taxtakörpüsu anbarı Samur–Abşeron kanalının suyu ilə doldurulacaqdır. Həcmi 268 milyon kubmetr olacaq ki, bu da Bakı, Sumqayıt şəhərlərinin, ümumən Abşeron yarımadasının*

*içməli su, suvarma suyu və texniki su təminatını 2 dəfə yaxşılaşdıracaqdır.*

*Bildirildi ki, ümumilikdə layihələrə 392 milyon manat vəsait xərclənəcəkdir. Azərbaycan Respublikasının Dövlət Neft Fondundan ayrılmış həmin vəsait hesabına bu ərazidən keçən şimal qaz xəttinin 10 kilometrlik, Bakı–Novorossiysk neft kəmərinin 10 kilometrlik hissələri, avtomobil yolları da köçürülmüşdür. Su anbarı su elektrik stansiyası ilə eyni vaxtda tikiləcəkdir. Türkiyənin «Təməlsu» şirkətinin məsləhətçi olduğu konsorsiuma daxil olan «Azərsu», «Azərkörpü» və «Azərenerjitikinti quraşdırma» təşkilatlarının yerinə yetirəcəkləri tikinti işləri 2010-cu ildə başa çatdırılacaqdır. Burada 26 milyon kubmetr torpaq, 60 min kubmetrdən çox beton işləri görüləcəkdir. Bəndin hündürlüyü 142,5 metr, eni 10–15 metr olan su anbarında 8,5 milyon kubmetr qazma işləri yerinə yetiriləcəkdir.*

*Ə.Əhmədzadə daha sonra bildirdi ki, Taxtakörpü və Ceyranbatan su anbarları arasında uzunluğu 110,33 kilometr, dərinliyi 3,8 metr, suburaxma qabiliyyəti saniyədə 40 kubmetr, Vəlvələçay ilə Taxtakörpü su anbarı arasında uzunluğu 31,45 kilometr, dərinliyi 3,8 metr, suburaxma qabiliyyəti saniyədə 75 kubmetr olan kanallar çəkiləcəkdir.*

*Bu kanallar üzərində 512 qurğu, o cümlədən 13 akveduk, 35 düker, 1 tunel, 99 avtomobil və piyada körpüsü, 255 selötürücü və 129 leysan keçidləri tikiləcəkdir. Bu kanallar vasitəsilə əlavə 49,174 hektar əkin sahəsi suvarılacaqdır.*

*Prezident İlham Əliyev su anbarının və torpaq bəndin baş planına baxdı, içərisində yazı olan gilizi təmələ qoydu və düyməni basaraq betontökən maşını işə saldı.*

*Azərbaycan prezidenti İlham Əliyev su anbarının yuxarı hissəsində inşa olunacaq 24–27 meqavat gücündə su elektrik stansiyasının layihəsi ilə də tanış oldu. Bildirildi ki, su anbarı ilə birlikdə bu enerji obyektinin istifadəyə verilməsi nəticəsində ildə 15 milyon manatlıq elektrik enerjisinə qənaət olunacaqdır. Çünki Sitalçay və Ceyranbatan nasos stansiyaları ləğv ediləcəkdir. Ümumilikdə isə su elektrik stansiyasının istismarından hər il 40–50 milyon manat gəlir əldə olunacaq ki, bu da su anbarının*

*və SES-in tikintisinə çəkilən xərcin 7 ilə ödənilməsi deməkdir. Aparılacaq tikinti işlərində əksəriyyəti Dəvəçi rayonundan və qonşu rayonlardan olan 450 nəfər çalışacaqdır. Əməkhaqqı iş həcmindən asılı olaraq 300 manatdan 1000 manatadəkdir.*

*Dövlətimizin başçısı su elektrik stansiyasının təməlinə də giliz ataraq, tikintiyə start verdi.*

**İlham Əliyev:** Artıq təcrübəniz var, burada da yaxşı işləyəcəksiniz. Azərbaycan üçün çox lazım olan həm su anbarını, həm də elektrik stansiyasını tikəcəksiniz. İndi Azərbaycanda o qədər işlər görülür ki, sizin üçün hələ uzun illər iş olacaqdır. Özü də sevindirici haldır ki, bu işləri yerli şirkətlər görürlər. Bu həm iş yeridir, həm də əməkhaqqı yaxşıdır. Dörd ildən sonra da işlər çox olacaqdır. Əvvəlki illərdə belə böyük layihələri, adətən, xarici şirkətlər icra edirdilər. Bizim şirkətlərin təcrübəsi o qədər də yox idi. Amma indi bizim xarici şirkətə ehtiyacımız yoxdur, ancaq Azərbaycan şirkətləri işləyir, özü də keyfiyyətlə. Gələcəkdə həm Azərbaycanda, həm də başqa ölkələrdə işləyəcəksiniz. Sizə uğurlar arzulayıram. Sağ olun.

*Sonra prezident İlham Əliyev yüksəkliyə qalxaraq ətraf mənzərəni və tikintinin aparıldığı sahəni seyr etdi.*

*Dövlətimizin başçısı daha sonra Azərbaycanda meliorasiya və su təsərrüfatının inkişafına dair sənədli filmə baxdı, ölkəmiz üçün əhəmiyyətli olan su anbarının və elektrik stansiyasının vaxtında, keyfiyyətlə başa çatdırılması barədə müvafiq tapşırıqlarını verdi.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞANIN İQTİSADİYYAT NAZİRİ, POLŞA–AZƏRBAYCAN HÖKUMƏTLƏRARASI İQTİSADİ KOMİSSİYASININ HƏMSƏDRİ PYOTR QJEQOJ VOZNYAKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*8 noyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Prezident sarayında Polşanın İqtisadiyyat naziri, Polşa–Azərbaycan hökumətlərarası iqtisadi komissiyasının həmsədri Pyotr Qjeqoj Voznyakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycanla Polşa arasında münasibətlərin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev Polşanın İqtisadiyyat nazirinin ölkəmizə bu səfərinin ikitərəfli əlaqələrimizin daha da genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.*

*Pyotr Qjeqoj Voznyak Polşa prezidenti Lex Kaçinskinin salamlarını Azərbaycan prezidenti İlham Əliyevə çatdırdı. Qonaq ölkələrimiz arasında iqtisadi sahədə, eləcə də enerji sahəsində əməkdaşlığın inkişaf etdiyini bildirdi. O bu istiqamətdə əməkdaşlığımızın daha da möhkəmləndirilməsi baxımından hər iki prezidentin Vilnüsdə keçirdiyi görüşün əhəmiyyətini xüsusi vurğuladı.*

*Prezident İlham Əliyev Polşa prezidenti Lex Kaçinskinin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Polşanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

**LİVAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB EMİL LƏHHUDƏ**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Livan münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 noyabr 2007-ci il*

**LATVİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VALDİS ZATLERSƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı– Latviya Respublikasının elan edilməsi günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Latviya arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri bu gün özünün yeni dövrünü yaşayır. Ümidvaram ki, çoxşaxəli əlaqələrimizin, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın inkişafı prosesləri bundan sonra da sabit və davamlı xarakter daşıyacaqdır.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 noyabr 2007-ci il*

**OMANIN SULTANI ƏLAHƏZRƏT**
**QABUS BİN SƏİDƏ**

Əlahəzrət!

Omanın milli bayramı– Təvəllüd gününüz münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin hərtərəfli inkişafı üçün bundan sonra da ardıcıl səylər göstərəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Oman xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 noyabr 2007-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN AMERİKA–İSRAİL İCTİMAİ MƏSƏLƏLƏR KOMİTƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*9 noyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 9-da Prezident sarayında Amerika–İsrail İctimai Məsələlər Komitəsinin nümayəndə heyəti ilə görüşmüşdür.*

**İ l h a m  Ə l i y e v:** Mən sizi görməyimə çox şadam, Azərbaycana xoş gəlmisiniz. Məmnunam ki, siz ölkəmizə səfər edirsiniz. Ümid edirəm ki, səfər maraqlı və əhəmiyyətli olacaq – Birləşmiş Ştatlar ilə Azərbaycan, habelə İsrail ilə Azərbaycan arasındakı gələcək tərəfdaşlığa töhfə verəcəkdir. Sizin sıx proqramınız var və çoxsaylı görüşləriniz olacaqdır. Eyni zamanda, bilirəm ki, siz Qubaya səfər etməyi və Azərbaycanın yəhudi icması ilə görüşməyi planlaşdırırsınız. Hesab edirəm ki, həmin görüş Azərbaycan haqqında daha çox məlumatların əldə edilməsi baxımından sizin üçün maraqlı olacaqdır. Qərbdə ölkəmiz haqqında məlumatlar hələ də yetərli deyildir. Ölkənin necə inkişaf etdiyini, onun nailiyyətlərini və problemlərini, siyasi və iqtisadi inkişafını və əlbəttə ki, insanlar arasındakı münasibətləri yerindəcə öyrənmək daha yaxşıdır. Bizim cəmiyyətimizdə yüksək tolerantlıq hökm sürür. Azərbaycan çoxmillətli ölkədir. Ölkəmizdə bir çox milli azlıqlar yaşayır. Bizim hamımız sülh şəraitində yaşayırıq. Azərbaycandakı yəhudi icması cəmiyyətimizin mühüm hissələrindən biridir və ölkəmizin inkişafında fəal rol oynayır. Biz əsrlər boyu, hətta Azərbaycan Rusiya imperiyasının bir hissəsinə çevriləndən əvvəlki dövrdə də birgə

yaşamışıq. Həmin dövrdə və Sovet İttifaqı dövründə biz əmin-amanlıq şəraitində yaşamışıq. İndi, Azərbaycan müstəqillik əldə etdikdən sonra da belə şəraitdə yaşayırıq. Azərbaycanda bütün millətlərin və dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Bu, ölkəmizin ümumi inkişafında əhəmiyyətli haldır. Hesab edirəm ki, həmin insanlarla görüşmək, ümumiyyətlə, Azərbaycanın inkişafı və ölkəmizin gələcək perspektivləri ilə tanış olmaq üçün əlavə imkanlar yaradacaqdır. Müstəqil ölkə kimi, biz gənc dövlətik. 16 ildir ki, müstəqilik. Lakin, əlbəttə ki, ölkəmiz böyük tarixə, mədəniyyətə və zəngin adət-ənənələrə malikdir. Hesab edirəm ki, siz Bakıda bir sıra tarixi yerləri də görmək imkanına malik olacaqsınız.

Zənnimcə, müstəqil ölkə kimi, Azərbaycan totalitar cəmiyyətdən demokratik cəmiyyətə, planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid zamanı çox böyük uğurlara nail olmuşdur. Bu qısa dövrdə, biz bütün lazımi siyasi və iqtisadi islahatları həyata keçirə bildik. Bu proses davam edir və Azərbaycan get-gedə dünya iqtisadiyyatına daha çox inteqrasiya olunur. Siyasi sahədə bizim Birləşmiş Ştatlarla güclü tərəfdaşlığımız mövcuddur. Bu tərəfdaşlıq, demək olar ki, bütün sahələri əhatə edir.

Müstəqilliyin ilk illəri asan olmamışdır, çünki xeyli sosial və iqtisadi problemlərimiz var idi. Ölkədə tam mənada böhran hökm sürürdü və bundan əlavə, vətəndaş müharibəsi, Ermənistan tərəfindən təcavüz və ərazilərimizin işğalı baş verdi. Bütün bunlar, təbii ki, vəziyyəti daha da çətinləşdirirdi. Lakin 90-cı illərin ortalarından başlayaraq, bu günə qədər ölkə uğurla inkişaf etməkdədir və bu illər ərzində biz əhəmiyyətli dərəcədə iqtisadi artıma nail olmuşuq. Son 3 ildə Azərbaycan ÜDM-in artımına görə nəinki regionda, ümumiyyətlə, bütün dünyada lider ölkədir. 2005-ci ildə ÜDM-in artımı 26 faiz, 2006-cı ildə 35 faiz olmuşdur. 2007-ci ilin 9 ayında isə 27 faiz iqtisadi artım müşahidə edilir. Əlbəttə, bu bizə ölkədə yaşayış səviyyəsinin yüksəldilməsi üçün bir çox sosial layihələri və iqtisadi proqramları həyata keçirməyə imkan yaradır.

Hesab edirəm ki, bizim yaxşı gələcəyimiz var. Bütün əsas sosial problemlər həll olunub, işsizlik kəskin surətdə aşağı

düşübdür. Son 3 il ərzində ölkəmizdə 600 min yeni iş yeri açılmışdır. Yoxsulluğun azaldılması da uğurla həyata keçirilir. Hesab edirəm ki, sabitlik və siyasi inkişaf baxımından Azərbaycan regionda nümunəvi dövlət ola bilər. Lakin, əlbəttə ki, burada baş verənləri öz gözünüzlə görmək sizin üçün daha yaxşıdır.

Biz mühüm enerji layihələrini həyata keçiririk. Onlar nəinki bizim üçün, o cümlədən region üçün çox mühüm rol oynayır. Xarici tərəfdaşlarımızla, xarici neft şirkətləri ilə birgə, eləcə də ABŞ-ın dəstəyi ilə biz tarixi transmilli neft və qaz layihələrini reallaşdırdıq. Bu gün Azərbaycan çox mühüm neft və qaz hasilatçısına çevrilməkdədir. Ölkəmiz Xəzər regionunu beynəlxalq əməkdaşlıq üçün açdı. Xəzər regionu coğrafi baxımdan hər tərəfdən quru ilə əhatə olunub, lakin əvvəllər o, siyasi və iqtisadi baxımdan da qapalı region idi.

İndi isə region əməkdaşlıq üçün açıqdır. Xəzərdə hasil olunan neft və qazımız boru kəmərlərimiz vasitəsilə Avropa və dünya bazarlarına nəql olunur. Yeri gəlmişkən, bu yaxınlarda İsrail neftimizin əsas istehlakçılarından birinə çevrilmişdir. Bu, qarşılıqlı fayda gətirən mühüm layihədir. Aralıq dənizinə nəql etdiyimiz neft sonra İsrailin neft emalı zavodlarına daxil olur. Əlbəttə ki, gələcəkdə bu əməkdaşlıq artacaqdır. Enerji təhlükəsizliyi və Avropa üçün enerji təchizatının çoxşaxəliliyi baxımından Azərbaycan güclü ölkəyə çevrilməkdədir. İndiki beynəlxalq vəziyyətdə enerji təhlükəsizliyi ölkənin ümumi təhlükəsizliyi ilə sıx bağlıdır. Bunlar, demək olar ki, eyni amillərdir. Etibarlı tərəfdaş kimi, biz Avropanın və dünyanın enerji təhlükəsizliyində fəal rolumuzu davam etdirəcəyik.

Birləşmiş Ştatlarla biz iqtisadi sahədə də əməkdaşlıq edirik, möhkəm iqtisadi əlaqələrimiz mövcuddur. Antiterror əməliyyatlarında Azərbaycan Əfqanıstan və İraqa əsgərlərini göndərən ilk ölkələrdən biri oldu. Bizim əsgərlərimiz hələ də orada xidmətdədir. Baxmayaraq ki, NATO-nun bir sıra üzvləri öz qüvvələrini artıq İraqdan çıxarmağa başlamışdır. Azərbaycan əsgərləri koalisiya qüvvələri ilə İraqda çiyin-çiyinə xidmətlərini davam etdirirlər. Biz bunu regiondakı təhlükəsizliyə töhfəmiz kimi dəyərləndiririk.

Birləşmiş Ştatlarla tərəfdaşlığımız həmin sülhməramlı əməliyyatlar sahəsi ilə məhdudlaşmır. Əməkdaşlığımızın geniş və səmərəli gündəliyi var. Təhlükəsizlik sahəsində də uğurlu əməkdaşlıq həyata keçiririk. Artıq qeyd etdiyim kimi, enerji məsələləri sahəsində işbirliyi qurmuşuq və tərəfdaş kimi çalışırıq. Eyni zamanda, siyasi islahatların davam etdirilməsi, cəmiyyətin demokratikləşməsi Birləşmiş Ştatlar ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin vacib elementlərindən biridir. Biz münasibətlərimizin uğurlu inkişafından məmnunuq. Biz əlaqələrimizin səviyyəsindən çox razıyıq. Ötən ilin aprel ayında Birləşmiş Ştatlara mənim rəsmi səfərim tərəfdaşlığımızın vacib elementini təşkil etdi. Əminəm ki, tərəfdaşlığımız bundan sonra da uğurla davam edəcəkdir.

Enerji mənbələrinin işlənilməsi və iqtisadi təşəbbüslər baxımından ölkənin gələcək inkişaf perspektivləri üçün vacib olan bütün iqtisadi göstəricilərə və sosial problemlərin həllinə baxmayaraq, ölkəmiz nəinki bizim üçün, o cümlədən bütün region üçün ən böyük təhlükə olan və gələcək uğurlu inkişafımıza əngəl törədən bir problemlə hələ də üzləşməkdədir. Bu, Azərbaycan torpaqlarının Ermənistanın Silahlı Qüvvələri tərəfindən işğalının davam etməsidir. Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın təqribən 20 faizi işğal altındadır. Ermənilər azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparmışlar. Etnik təmizləməyə məruz qalmış 700 min azərbaycanlı Azərbaycanın Dağlıq Qarabağ regionundan və digər torpaqlarından, 250 min azərbaycanlı isə Ermənistandan qovulmuşdur. Bu, regionda ən böyük humanitar fəlakətdir. Bəlkə də bu, dünyada əhalinin sayına nisbətdə qaçqın və məcburi köçkünlərin sayına görə ən yüksək göstəricidir. 8,5 milyonluq əhalinin bir milyonu qaçqın və məcburi köçkün vəziyyətindədir. Bu bizim üçün böyük problemdir. Bu, böyük ədalətsizlikdir. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası erməni işğalçı qüvvələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən dörd qətnamə qəbul edibdir. Lakin onlar yerinə yetirilməyibdir. Avropa Şurası oxşar qətnamə qəbul etmişdir. Yenə də erməni tərəfi buna məhəl

qoymur. Artıq 13 il danışıqlar prosesində olmağımıza və 1994-cü ildən atəşkəs rejimi hökm sürməsinə baxmayaraq, hələ də heç bir nəticə yoxdur. Danışıqlar aparılır, lakin heç bir nəticə əldə edilməmişdir.

Vəziyyət bu cür davam edə bilməz. Azərbaycan öz tarixi ərazisinin, Dağlıq Qarabağın ondan ayrılmasına heç vaxt razılıq verməyəcəkdir. Beynəlxalq ictimaiyyət bizim tərəfimizdədir. Bu prosesdə vasitəçi rolunu oynayan ATƏT-in Minsk qrupu və onun həmsədrləri – Birləşmiş Ştatlar, Fransa və Rusiya da eyni mövqedədir. Bütün beynəlxalq ictimaiyyət Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və münaqişənin həllini həmin prinsip əsasında görür. Dağlıq Qarabağdakı ermənilərin öz müqəddəratını təyin etməsinə gəldikdə, deyə bilərəm ki, ermənilər artıq öz müqəddəratını təyin ediblər. Onların artıq Ermənistan dövləti var. Ermənilərin bir çox ölkələrdə, o cümlədən Birləşmiş Ştatlarda, Avropada və bizə qonşu dövlətlərdə yaşamasını nəzərə alsaq, ermənilər istədikləri yerdə öz müqəddəratını müəyyən etmək arzusuna düşsələr, onda neçə erməni dövlətinin yaranacağını təsəvvür etmək çətin deyildir. Bu nə bizim üçün, nə də ki, beynəlxalq ictimaiyyət üçün qəbuledilləndir.

Hesab edirəm ki, Ermənistanın işğalçı rejiminə qarşı beynəlxalq təzyiqin olmaması səbəbindən torpaqlarımız hələ də Ermənistanın işğalı altındadır. Bu, Dağlıq Qarabağa və onun ətrafında yerləşən yeddi rayona aiddir. Həmin rayonlarda tarixən ermənilər, ümumiyyətlə, heç vaxt yaşamamışlar. Orada məhz azərbaycanlılar yaşamışlar. Bu gün həmin yeddi rayon tamamilə dağıdılıbdır. İki il bundan əvvəl ATƏT-in faktaraşdırıcı missiyası həmin işğal olunmuş yerlərə getmiş və monitorinq aparmışdır. Missiyanın hesabatında həmin ərazilərdə hər şeyin yerlə yeksan olunduğu qeyd edilmişdir. Bütün binalar, zavodlar, fabriklər, məscidlər, qəbiristanlıqlar – hər şey dağıdılıbdır. Bu, beynəlxalq hüquq normalarının, normal insan davranışının kobudcasına pozulması deməkdir. Bu, XXI əsrə yox, orta əsrlərə xas olan davranışdır.

Əgər Ermənistan beynəlxalq ictimaiyyətin bir hissəsi olmaq və ona inteqrasiya olunmaq istəyirsə, onda öz siyasə-

tini dəyişməlidir. Ermənilər anlamalıdırlar ki, onlar həmin torpaqları uzun illər ərzində əllərində saxlaya bilməyəcəklər. Onlar oradan çıxmalı olacaqlar. Lakin yaxşı olardı ki, hərbi əməliyyat olmadan özləri oranı tərk etsinlər. Biz sülh prosesinə sadiqik, lakin hərb yolunu da istisna etmirik. Azərbaycan özünün beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünü bərpa etmək hüququna malikdir. Hazırda bizim inkişaf səviyyəmizlə Ermənistanın inkişaf səviyyəsi arasında olan böyük fərqi, eləcə də Azərbaycan ordusunun geniş imkanlarını nəzərə alsaq, bu variant realdır. Amma biz yenə də məsələnin dinc yolla həllinə ümid edirik. 13 il ərzində heç bir nəticəyə gətirməyən danışıqlar prosesində olmağımıza baxmayaraq, yenə də düşünürük ki, münaqişənin həlli üçün hələ də imkan ola bilər və biz ondan istifadə etməliyik. Amma belə olmasa, əlbəttə ki, onda bu vəziyyətlə bağlı yanaşmamızı bir daha nəzərdən keçirəcəyik.

Bilirəm ki, İctimai Məsələlər Komitəsi ABŞ Konqresində çox fəaldır. Fəaliyyətinizdə əsas yer tutan məsələlərdən də məlumatım var. Mən sizin diqqətinizi bir məsələyə də cəlb etmək istərdim. Bəlkə də bu məsələ haqqında xəbəriniz var. Bu, Sovet İttifaqı dağıldıqdan sonra «Azadlığa Dəstək Aktı»na edilmiş düzəlişlə bağlıdır. «Azadlığa Dəstək Aktı»na 907-ci düzəliş olduqca ədalətsiz bir sənəddir. O, erməni lobbisinin fəaliyyəti nəticəsində qəbul olunmuşdur. Həmin vaxt Azərbaycanın ABŞ-da hətta səfirliyi də yox idi, ABŞ konqresmenlərinin nələr baş verməsi barədə məlumatları yox idi. Bu düzəliş Azərbaycanı ABŞ-ın birbaşa yardımından məhrum edir. Əlbəttə ki, müstəqilliyimizin ilk illərində xaricdən gələn yardım bizim üçün çox əhəmiyyətli idi. Bu gün isə Azərbaycan 7 milyard dollarlıq valyuta ehtiyatlarına malikdir. Dünya Bankının hesablamalarına görə, qarşıdan gələn 20 il ərzində biz neftin satışından 200 milyard dollardan çox vəsait əldə edəcəyik. Bizim hər hansı maliyyə yardımına ehtiyacımız yoxdur. Lakin bu düzəliş nəinki ədalətsizdir, o həmçinin regiona çox sərt mesajdır. Yadımdadır ki, həmin düzəlişin qəbul olunmasının səbəbi guya Azərbaycanın Ermənistanı blokadada saxlaması ilə izah edilirdi. Bir halda

ki, Ermənistan ərazimizin 20 faizini işğal edib, biz həmin ölkəni necə blokadada saxlaya bilərik? Bizim Ermənistanla cənub sərhədimiz separatçı rejimin nəzarəti altındadır. Biz onları necə blokadaya sala bilərik?! Bu tamamilə ədalətsiz qərar idi və yenə də Konqres üzvlərinə yalan məlumatlat vermiş erməni lobbisinin fəaliyyəti nəticəsində mümkün olmuşdur. Hazırda isə terrorçuluğa qarşı mübarizə sahəsində Birləşmiş Ştatlarla  fəal tərəfdaşlıq apardığımız bir dövrdə ABŞ prezidenti hər il həmin düzəlişin qüvvəsini dayandırır. Əlbəttə ki, bu, irəliyə doğru atılmış addımdır. Lakin məsələnin həlli demək deyildir. Hesab edirik ki, regionda güclü tərəfdaşlıq və mühüm istiqamətlərdə əməkdaşlıq etdiyimiz bir halda, bu cür ədalətsiz düzəlişin qüvvədə qalması anlaşılmazdır. Ümid edirəm ki, bu düzəliş, ümumiyyətlə, aradan qaldırılacaq və bu da öz növbəsində, mühüm siyasi addıma çevriləcəkdir.

Mən Azərbaycan haqqında saatlarla danışa bilərəm. Biz ölkəmizi sevirik. Müstəqil olmaq bizim ölkəmiz üçün ən böyük nailiyyətdir. Biz bundan çox razıyıq. Çox məmnunuq ki, bu dövrdə yaşayırıq. Əsrlər boyu nəsillər bir-birini əvəz etmiş və onlar müstəqillik uğrunda mübarizə aparmışlar. Onlar bir ümidlə yaşayırdılar ki, müstəqil olsunlar, heç kimdən asılı olmasınlar və öz talelərini özləri həll etsinlər. Biz çox şadıq ki, həmin dövr, yəni müstəqil ölkənin, dövlətçiliyin qurulması dövrü bizə nəsib oldu. Bu illər ərzində biz hiss etdik ki, real mənada müstəqil ölkəyik. Müstəqillik, sadəcə, rəmzlərin olması demək deyil, müstəqillik müstəqil siyasətin aparılması deməkdir. Azərbaycan bütün təşəbbüslərdə – siyasi, iqtisadi, beynəlxalq təşəbbüslərdə öz müstəqil siyasətini həyata keçirir və bu siyasət milli maraqlar, Azərbaycan xalqının maraqlarına əsaslanır. Bizimlə dost olan ölkələrlə dostluq münasibətlərini inkişaf etdiririk.

Azərbaycana gəldiyinizə görə bir daha minnətdaram. Çox şadıq ki, siz ölkəmizə səfər edirsiniz, bu təmasları qurursunuz və Azərbaycan haqqında məlumatlarınızı artırırsınız. Hesab edirəm ki, sizin səfəriniz gələcəkdə əməkdaşlığımızda və qarşılıqlı anlaşmada daha böyük rol oynayacaqdır. Sağ olun.

* * *

*Amerika–İsrail İctimai Məsələlər Komitəsinin nümayəndə heyətinin başçısı Ron Barness böyük tərkibli nümayəndə heyətini qəbul etdiyinə görə Azərbaycan prezidentinə minnətdarlığını bildirdi. O, Azərbaycanda tolerantlığın mövcud olduğunu, burada yaşayan bütün millətlərə, o cümlədən yəhudi icmasının nümayəndələrinə yüksək diqqət göstərildiyini dedi. Qonaq ümummilli lider Heydər Əliyevin xidmətləri nəticəsində Azərbaycanda tolerantlığın qorunub saxlanıldığını vurğulayaraq, bu siyasətin prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini məmnunluqla qeyd etdi.*

*Azərbaycanda çox böyük iqtisadi inkişafın şahidi olduqlarını vurğulayan Ron Barness dedi ki, cənab Prezident, Sizin ölkə rəhbərliyində olmağınız Azərbaycan xalqının xoşbəxt gələcəyinin təminatıdır.*

*Ron Barness Amerika–İsrail İctimai Məsələlər Komitəsinin nümayəndə heyəti adından üzərində Vaşinqtondakı Kapitoli – Konqresin binası təsvir olunan xüsusi hədiyyəni prezident İlham Əliyevə təqdim etdi.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev nümayəndə heyəti üzvlərini maraqlandıran sualları cavablandırdı.*

## CƏNUBİ KOREYADAN GƏTİRİLMİŞ ŞƏHƏRDAXİLİ SƏRNİŞİN AVTOBUSLARININ TƏQDİMAT MƏRASİMİNDƏ

*Bakı*

*12 noyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Cənubi Koreyadan gətirilmiş və şəhərdaxili marşrutlarda istifadə üçün nəzərdə tutulmuş çoxyerli avtobusların təqdimat mərasimində iştirak etmişdir.*

*Dövlət başçısının Bakı şəhərində yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair sərəncam və göstərişlərinə uyğun olaraq gətirilmiş bu avtobuslar Cənubi Koreyanın «Daewoo» şirkətində istehsal edilmişdir. Prezident İlham Əliyevə məlumat verildi ki, yeni avtobusların alınması ilə bağlı bu ilin fevralında Nəqliyyat Nazirliyi ilə Cənubi Koreyanın «Daewoo» şirkəti arasında müqavilə imzalanmışdır. Müqaviləyə əsasən, Cənubi Koreyadan 200 iritutumlu sərnişin avtobusu gətirilməlidir. İndiyədək 68 avtobus gətirilmişdir. İlin sonunadək daha 132 avtobus gətiriləcəkdir.*

*Yeni nəqliyyat vasitələrinin texniki göstəriciləri ilə tanışlıq zamanı dövlət başçısına bildirildi ki, avtobuslar 60 və 80 sərnişin üçün nəzərdə tutulmuşdur. 60 sərnişinlik avtobuslarda 23, 80 sərnişinlik avtobuslarda isə 28 oturacaq yeri var. Bu şəhər tipli nəqliyyat vasitələri Avropanın ekoloji standartlarına tam cavab verir. Avtobuslardakı kassa aparatları gediş haqqını nağd pula və kart vasitəsilə ödəməyə imkan verəcəkdir.*

*Prezident İlham Əliyevin bu ilin aprelində Cənubi Koreyaya səfəri zamanı imzalanmış müqaviləyə əsasən Bakıda yaradılacaq nəqliyyatın intellektual idarəetmə sisteminə daha tez qoşulması üçün avtobuslarda xüsusi monitor və naviqasiya sistemi quraşdırılmışdır. Yeni avtobusların idarə edilməsi üçün azərbaycanlı sürücülər Cənubi Koreyada xüsusi kurs keçiblər.*

*Hər cür rahatlığı ilə seçilən avtobusların hərəkət edəcəyi marşrutlar da artıq müəyyənləşdirilmişdir. Avtobuslar əsasən şəhərin mərkəzi hissələrində hərəkət edəcəkdir. Dövlət başçısına məlumat verildi ki, marşrutların hərəkətinə ciddi nəzarət olunacaqdır. Eyni zamanda, müasir tipli texniki xidmət mərkəzi yaradılır.*

*Prezident İlham Əliyev sükan arxasında oturaraq yeni nəqliyyat vasitəsini sınaqdan keçirdi.*

*Dövlət başçısı sərnişinlərin rahatlığını təmin etmək üçün yeni nəqliyyat vasitələrindən səmərəli istifadə olunması ilə bağlı tapşırıqlarını verdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN AVRASİYA FONDUNUN PREZİDENTİ HORTON BİBİ-SENTERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*12 noyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Prezident sarayında Avrasiya Fondunun prezidenti Horton Bibi-Senterin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Horton Bibi-Senter Avrasiya Fondunun Azərbaycanda 15 ilə yaxın bir müddətdə fəaliyyət göstərdiyini və əsas məqsədinin ölkə vətəndaşlarının mülki və iqtisadi sahədə rifahına dəstək vermək olduğunu bildirdi. O, Avrasiya Fondunun Azərbaycanda gələcək fəaliyyət planları barədə prezident İlham Əliyevə məlumat verdi.*

*Dövlətimizin başçısı İlham Əliyev Avrasiya Fondunun Azərbaycan ilə əməkdaşlığından məmnunluğunu ifadə etdi. O, bu əməkdaşlığın Azərbaycan ilə ABŞ arasında əlaqələrin daha da genişlənməsinə öz töhfəsini verdiyini, eyni zamanda, Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafı, qeyri-hökumət təşkilatlarının fəaliyyətinin təkmilləşməsi işinə kömək göstərdiyini bildirdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BOLQARISTANIN BAŞ NAZİRİ SERGEY STANİŞEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*12 noyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Prezident sarayında Bolqarıstanın Baş naziri Sergey Stanişevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev iki il bundan əvvəl Sofiyaya səfərini məmnunluqla xatırladı və bu səfərin əlaqələrimizin möhkəmləndirilməsi baxımından əhəmiyyətli olduğunu bildirdi.*

*Dövlətimizin başçısı bir sıra beynəlxalq təşkilatlar, o cümlədən Avropa İttifaqı çərçivəsində ölkələrimiz arasında tərəfdaşlığın dinamik surətdə inkişaf etdiyini dedi. «Yeni qonşuluq siyasəti» proqramında Bolqarıstanın dəstəyinin daim hiss olunduğunu qeyd edən dövlətimizin başçısı hazırda iqtisadi əlaqələr üçün yeni perspektivlərin olduğunu bildirdi və Bolqarıstanın Baş nazirinin ölkəmizə səfərinin münasibətlərimizin daha da genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.*

*Sergey Stanişev Azərbaycan prezidentinin Bolqarıstana səfərinin ikitərəfli münasibətlərimizin inkişaf etdirilməsi baxımından əhəmiyyətli olduğunu bildirdi. Dövlət başçılarının qarşılıqlı səfərlərinə toxunan Bolqarıstanın Baş naziri bu səfərlərin siyasi əlaqələrimizin uğurla inkişaf etdirilməsində mühüm rol oynadığını vurğuladı, iqtisadi əlaqələrimizin daha da gücləndirilməsinin zəruriliyini qeyd etdi.*

## «DÖVLƏT BAYRAĞI» MEYDANININ YERLƏŞƏCƏYİ ƏRAZİ İLƏ TANIŞLIQ

*Bakı, Bayıl qəsəbəsi*

*13 noyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də «Dövlət bayrağı» meydanının yerləşəcəyi ərazi ilə tanış olmaq üçün paytaxtın Bayıl qəsəbəsinə – Hərbi Dəniz Qüvvələrinin bazasına gəlmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, «Dövlət bayrağı» meydanının yeri relyef baxımından standartlara cavab verir. Bu ərazi Dövlət bayrağının paytaxtın müxtəlif nöqtələrindən görünməsinə imkan yaradacaqdır. Bundan başqa, layihənin icrası ilin bütün aylarında turistlərin və paytaxta gələn qonaqların buraya cəlb olunması baxımından da əhəmiyyət daşıyır.*

*Prezident İlham Əliyev «Dövlət bayrağı» meydanının yerləşəcəyi ərazi ilə yaxından tanış oldu, ətrafı seyr etdi. Dövlətimizin başçısına məlumat verildi ki, tezliklə meydanın təməli qoyulacaq və inşaat işlərinə başlanacaqdır. 20 min kvadratmetr ərazisi olacaq meydanda bütün infrastruktur yaradılacaqdır.*

*Prezident İlham Əliyev tikinti işlərinin ən yüksək səviyyədə aparılması ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

**ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**XANIM KRİSTİNA FERNANDES DE KIRŞNERƏ**

Hörmətli xanım Prezident!

Argentina Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Ümidvaram ki, Azərbaycan ilə Argentina arasında təşəkkül tapmış münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Argentina xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 noyabr 2007-ci il*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ ÖLKƏNİN ENERGETİKA SEKTORUNDA VƏZİYYƏTƏ VƏ QIŞA HAZIRLIQ MƏSƏLƏLƏRİNƏ DAİR MÜŞAVİRƏDƏ* GİRİŞ NİTQİ

*Prezident sarayı*

*14 noyabr 2007-ci il*

**İ l h a m Ə l i y e v:** Bugünkü müşavirə energetika sektorunda yaranmış vəziyyətlə bağlıdır. Görülən bütün işləri təhlil etməliyik və gələcək planlar haqqında fikirləşməliyik. Eyni zamanda, gərək qışa hazırlıqla bağlı görülən tədbirlər haqqında məruzələri dinləyək və lazım olan bütün tədbirlərin görülməsi üçün əməli-praktik addımlar ataq.

Bütövlükdə, Azərbaycanda energetika sektorunun inkişafı çox uğurlu gedir. Azərbaycan böyük həcmdə neft-qaz hasil və ixrac edən ölkəyə çevrilir. Azərbaycanın zəngin neft-qaz ehtiyatları artıq dünya və Avropa bazarlarına müxtəlif yollarla çatdırılır. Demək olar ki, biz öz neft-qaz layihələrimizin əsas hissəsini uğurla başa çatdırmışıq. Heydər Əliyevin neft strategiyasının uğurla icra olunması Azərbaycana çox böyük həm iqtisadi, həm də siyasi dividentlər gətiribdir. Bizim ildən-ilə artan iqtisadi gücümüzün, artan büdcəmizin və bütövlükdə, Azərbaycanda bütün sahələrdə görülən işlərin təməlində məhz 90-cı illərin ortalarında başlanmış Heydər Əliyevin neft strategiyası dayanır.

---

* Müşavirədə Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev, «Azərenerji» Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirverdiyev, «Azəriqaz» Səhmdar Cəmiyyətinin sədri Əlixan Məlikov, «Azəristilik təchizat» Səhmdar Cəmiyyətinin sədri Yaşar Həsənov, «Bakıelektrikşəbəkə» Səhmdar Cəmiyətinin sədri Baba Rzayev və Sənaye və Energetika naziri Natiq Əliyev çıxış etdilər.

Bu günlərdə Milli Məclisdə növbəti ilin büdcəsi müzakirə olunur və o, bu ilin büdcəsinə görə həcm baxımından daha da böyükdür. Əgər 2003-cü ilin dövlət büdcəsini yada salsaq görərik ki, bu dörd il ərzində Azərbaycanın büdcəsi, icmal büdcə təxminən 10 dəfə artıbdır. Mən inanmıram ki, hansısa başqa ölkədə buna bənzər nailiyyətlər olsun. Bu, əlbəttə, ilk növbədə, Azərbaycanın uğurlu neft siyasətinin nəticəsidir, eyni zamanda, ölkəmizdə aparılan liberal iqtisadi islahatların nəticəsidir. Biz iqtisadiyyatımızı liberallaşdırırıq. Bunu etmək üçün müxtəlif qərarlar qəbul edilibdir, proqramlar icra olunur, həm də beynəlxalq maliyyə qurumları ilə eyni zamanda, ölkə daxilində aparılan islahatlar, əlbəttə, bizim iqtisadi gücümüzü artırır. Maliyyə nizam-intizamı möhkəmlənir. Büdcə xərclərinə nəzarət güclənir və növbəti ildə daha da güclü olmalıdır. Çünki bizim artan imkanlarımız, neft satışından əldə edilən gəlirlərin çoxalması və büdcə xərclərinin artması çox güclü nəzarət tələb edir ki, büdcə vəsaitinin xərclənməsində heç bir pozuntular olmasın, şəffaflıq tam şəkildə təmin olunsun və ölkəmiz bu gözəl imkanlardan maksimum dərəcədə faydalansın.

Bildiyiniz kimi, müxtəlif beynəlxalq maliyyə qurumları Azərbaycanın neft-qaz perspektivlərini çox yüksək qiymətləndirir. Biz də bunu bilirik. Əlbəttə, bunu ən yaxşı bilən bizik. Çünki biz gündəlik həyatda bu məsələlərlə bağlı işlər görürük, qərarlar qəbul edirik. Bir sözlə, deyə bilərik ki, növbəti illərdə Azərbaycanın neft-qaz sektoru ölkəmizin inkişafına daha da böyük töhfə verəcəkdir. Yüz milyardlarla dollar həcmində ölçülən gələcək gəlirlərimiz ölkəmizin bütün problemlərinin həllinə yönəldiləcəkdir. Dövlət investisiya xərcləri ildən-ilə artır. Bu, gələn il təxminən 3 milyard manat təşkil edəcəkdir. Təxminən 3,5 milyard dollara yaxın ancaq dövlət investisiya xərcləri nəzərdə tutulur. Bildiyiniz kimi, bu xərclər əsasən infrastruktur layihələrinə yönəldilir, Azərbaycanın iqtisadi, sənaye potensialının möhkəmlənməsinə və eyni zamanda, ölkəmizin energetika potensialının möhkəmlənməsinə yönəldilməlidir.

Biz öz enerji təhlükəsizliyi məsələlərimizi tam şəkildə həll etdik. Bu gün dünyada enerji təhlükəsizliyi ölkələrin təhlükəsizliyi ilə sıx bağlı olan məsələdir. Enerji baxımından müstəqil ölkələr müstəqil siyasət aparmaqda daha da sərbəstdirlər. Azərbaycanın müstəqil ölkə kimi, müstəqil siyasət aparması Azərbaycan xalqının milli maraqlarına tam şəkildə uyğundur. Bunu təmin edən müxtəlif amillər var. Onlardan biri də enerji təhlükəsizliyidir. Amma bu enerji təhlükəsizliyi göydən düşməyibdir. Biz bunu öz siyasətimizlə, öz addımlarımızla, regional layihələrin icrası ilə, təşəbbüskar olmağımızla yaratmışıq. Yəni, bunun müxtəlif izahları, səbəbləri var. Həm siyasi, həm iqtisadi, həm də regional əməkdaşlıq. Bir sözlə, biz buna nail olmuşuq və bu, artıq heç kimdə şübhə doğurmur ki, Azərbaycan nəinki öz enerji təhlükəsizliyini həll etmiş ölkədir, eyni zamanda, qonşu ölkələrin və beynəlxalq təşkilatlara üzv olan dövlətlərin enerji təhlükəsizliyinin təmin olunmasında öz rolunu oynayır.

Biz ölkəmizin inkişafı üçün neft-qaz resurslarımızdan çox səmərəli istifadə edirik. Beynəlxalq müstəvidə bu amildən əməkdaşlığın genişlənməsi üçün istifadə edirik. Biz öz təbii ehtiyatlarımızdan başqa məqsədlə istifadə etmirik. İstəyimiz, məqsədimiz bölgədə əməkdaşlığı dərinləşdirmək, bizə dost olan ölkələrlə əməkdaşlığı inkişaf etdirmək və tərəfdaşlarla müxtəlif sahələrdə, o cümlədən enerji sahəsində əməkdaşlığı dərinləşdirməkdir. Bir daha demək istəyirəm ki, biz bu amildən yalnız və yalnız müsbət işlərin görülməsi üçün istifadə edirik və Azərbaycanın etibarlı tərəfdaş kimi dünyada qəbul olunmasının səbəblərindən biri də məhz bundan ibarətdir. Bu, sadəcə olaraq, bəyanatlar deyil, bizim praktik addımlarımızdır.

Bir daha demək istəyirəm ki, bu gün biz ölkəmiz üçün lazım olan bütün böyük enerji layihələrimizi uğurla başa çatdırmışıq. Bakı–Tbilisi–Ceyhan neft kəməri uğurla işləyir, tam gücünə çıxır. Yəqin ki, gələn il neftlə tamamilə doldurulacaqdır. Bakı–Tbilisi–Ərzurum qaz kəməri vasitəsilə Azərbaycan qazı Gürcüstana, Türkiyəyə verilir və yəqin ki, yaxın zamanlarda Yunanıstana nəql ediləcəkdir. Beləliklə, biz Avropa İttifaqı bazarına Azərbaycanın qazı ilə çıxırıq. Avropa

İttifaqı ilə Azərbaycan arasında əməkdaşlıq çoxşaxəlidir, eyni zamanda, enerji sektorunu da əhatə edir. Bizim aramızda imzalanmış strateji tərəfdaşlıq haqqında memorandumun nəticəsi olaraq, enerji sahəsində münasibətlərimiz dərinləşir.

Biz həm hasilat baxımından, həm nəql baxımından tam şəkildə müstəqil ölkəyik və öz neft-qaz sərvətlərimizi dünya və Avropa bazarlarına, müxtəlif istiqamətlərə yönəldirik. Ona görə bu gün və sonrakı illərdə Azərbaycanın qarşısına enerji təhlükəsizliyi ilə bağlı olan məsələlər çıxmayacaqdır. Ancaq bununla bərabər, Azərbaycanın neft-qaz ehtiyatlarına dünyada və Avropada tələbat artır. Avropa İttifaqının resursların şaxələndirilməsi siyasəti ona gətirib çıxarıb ki, onlar yeni mənbələr axtarırlar və Xəzər hövzəsində mövcud olan neft-qaz yataqları onlar üçün böyük əhəmiyyət kəsb edir. Bu bizim üçün deyə bilərəm ki, nisbətən yeni bir vəziyyətdir.

Biz «Şahdəniz» qaz yatağının istismarına başlayanda təsəvvür edə bilmirdik ki, bizim qazımız Avropa bazarı üçün maraqlı ola bilər. Bildiyimiz kimi, o vaxt qaz bazarı kimi, biz ancaq Türkiyəni nəzərdə tuturduq. Hətta Gürcüstan o zaman bu layihədə sadəcə olaraq bir tranzit ölkə kimi iştirak edirdi və tranzit haqqının ödənilməsinə görə «Şahdəniz» yatağından müəyyən miqdar qaz Gürcüstana verilməli idi. Amma indi vəziyyət dəyişir və bizim qazımıza tələbat artır. İndi Gürcüstanın qaz tələbatını Azərbaycan həm «Şahdəniz» yatağından, həm də neft şirkətinin köhnə yataqlarından çıxarılan qazla təmin edir. Bu gün Gürcüstan qazın 70–75 faizini Azərbaycandan alır.

Qazımız Türkiyəyə ixrac edilir. Türkiyə bizim qazımızın bir hissəsini Yunanıstana ötürəcəkdir. Beləliklə, Azərbaycan qazı Avropa İttifaqı bazarlarına çıxarılacaqdır. İndi Azərbaycanla Türkiyə arasında tranzit anlaşma haqqında danışıqlar gedir.

Əminəm ki, onlar da uğurla nəticələnəcək və müstəqil, qaz hasil edən ölkə kimi, Azərbaycan öz qazını Avropa ölkələrinə nəql edəcəkdir. Bizim qazımıza maraq çox böyükdür. Bu həm Türkiyə–Yunanıstan–İtaliya layihəsidir, həm də Nabukko layihəsidir. Bu yaxınlarda Nabukko layihəsinə də-

vət almışıq ki, biz orada iştirak edək. Bu da bir neçə ölkəni əhatə edir: Türkiyə, Bolqarıstan, Rumıniya, Macarıstan, Avstriya, Yunanıstan, İtaliya. Yəni, bütün bu böyük layihələr ilk növbədə, Azərbaycan qazına hesablanıbdır. Halbuki bir neçə il bundan əvvəl bu layihələrin həyata keçirilməsi üçün başqa mənbələr nəzərdən keçirilirdi. İndi də bu mənbələr haqqında düşünülür. Ancaq o nə vaxt olacaq, olacaqmı, olmayacaqmı, biz bunu hələ bilə bilmərik. Daha doğrusu, bu bizim işimiz deyildir. Əgər tərəfdaşlarımız Xəzər dənizinin şərqindən öz enerji resurslarını bizim ərazimizlə Qərb istiqamətinə göndərmək istəsələr, əlbəttə ki, razılaşdırılmış şərtlər əsasında biz buna baxa bilərik və bu məsələ həll oluna bilər. Ancaq biz bu işin təşəbbüskarı deyilik, olmayacağıq da. Bir də demək istəyirəm ki, biz öz neft-qaz layihələrimizin böyük əksəriyyətini artıq icra etmişik.

Ancaq başqa ölkələrin əməkdaşlığı üçün biz öz tranzit imkanlarımızdan istifadə edə bilərik. Azərbaycanın coğrafi vəziyyəti belədir ki, bizim iştirakımız olmadan bu bölgədə böyük layihələr həyata keçirilə bilməz. Bunu artıq tarix göstəribdir. Gələcəkdə Şərq-Qərb enerji və nəqliyyat dəhlizinin tam şəkildə işə düşməsi üçün Azərbaycanın iştirakı, razılığı burada başlıca şərtdir.

Bizim coğrafi vəziyyətimiz, bölgədə mövcud olan geosiyasi durum, Azərbaycanın uğurlu xarici siyasəti, daxili sabitlik, enerji layihələrinin uğurla icra olunması – bütün bu amillər birlikdə bu yeni vəziyyəti yaradıbdır. Daha doğrusu, biz bunu yaratmışıq. Bütün bu işlərin təşəbbüskarı Azərbaycandır və gələcəkdə geniş mənada Şərq–Qərb əməkdaşlığının mümkünlüyü üçün, əlbəttə ki, Azərbaycan öz aparıcı rolunu oynamaqda davam edəcəkdir. Bir sözlə, indi qarşımızda yeni imkanlar açılır və bu bizə həm iqtisadi, həm də siyasi dividentlər gətirəcəkdir. Biz buna hazırıq və bu işlərdə fəal iştirak edirik.

Bununla bərabər, Azərbaycanda daxildə energetika sektorunun inkişafı üçün çox böyük işlər görülür, nəhəng layihələr icra olunur. Son illər ərzində Azərbaycanda istismara verilmiş və veriləcək enerji gücü, bəlkə də, bütün keçmiş dövrlərdə yaradılan güc ilə müqayisə oluna bilər. Biz

indi bir neçə yeni elektrik stansiyasının tikintisi ilə məşğuluq və bir neçəsi artıq tikilibdir. Bir neçə stansiyanın da tikintisi nəzərdə tutulur. Bu bizə artan daxili tələbatı ödəmək üçün əlavə imkanlar verəcəkdir. Çünki tələbat da ildən-ilə artır. Ölkəmiz dünyada analoqu olmayan sürətlə inkişaf edir və yeni müəssisələr yaradılır. Yeni iş yerləri, fabriklər, zavodlar, yaşayış yerləri – bütün bunlar enerji tələb edir. Həm də əminəm ki, yaxın gələcəkdə biz elektrik enerjisinin ixracı ilə də məşğul ola bilərik. Bu barədə indi söhbətlər aparılır və Azərbaycan bu imkanlardan istifadə etməlidir.

Elektrik stansiyalarının yaradılması, elektrik xətlərinin təmiri, qaz xətlərinin təmiri və tikilməsi – bütün bu proqramlar ölkəmizin elektrik enerjisi ilə dayanıqlı təmin olunması üçün lazımdır. Deyə bilərəm ki, bu günə qədər bütün görülən işlər bizi qane edir. Ancaq problemlər, çatışmayan cəhətlər də var və biz bu məsələləri müzakirə etməliyik.

Qışa hazırlıq məsələləri də indi geniş müzakirə olunacaq və əməli tədbirlər görüləcəkdir. Düzdür, biz bu məsələlərlə mütəmadi qaydada məşğuluq. Deyə bilərəm ki, son iki-üç ay ərzində qışa hazırlıqla bağlı müxtəlif tədbirlər görülübdür. Vəsait ayrılıb, layihələrə baxılıb, göstərişlər verilibdir. Amma hesab edirəm ki, indi bu müşavirədə bütün görülən işləri təhlil etməliyik, məruzələri dinləməliyik və çatışmayan məsələlərin aradan qaldırılması üçün addımlar atmalıyıq.

## YEKUN NİTQİ

Beləliklə, bütövlükdə görülən işlər deməyə əsas verir ki, energetika sahəsində son illər ərzində aparılan islahatlar, yeni yanaşmalar bu sahəni xeyli dərəcədə sağlamlaşdırmışdır. İndi ölkə qarşısında enerji təchizatı ilə bağlı elə bir ciddi problem yoxdur. Elə etməliyik, çalışmalıyıq ki, qış aylarında da enerji tələbatı tam şəkildə ödənilsin. Yeni çəkilən qaz xətləri ilə bərabər, istilik təchizatı ilə bərabər, bütövlükdə ölkəmizin və əhalinin enerjiyə olan tələbatını tam şəkildə ödəməliyik. Əlbəttə ki, bu məsələlər çox vacibdir. Hər bir ölkənin inkişafı üçün, yaşaması üçün birinci dərəcəli məsələlərdir.

Mən hesab edirəm ki, Dövlət Neft Şirkəti bundan sonra da neft və qaz hasilatının artırılması üçün əməli-praktik işləri görməlidir. Böyük işlər görülüb, böyük investisiyalar qoyulub, kreditlər götürülübdür. Xüsusilə Azərbaycanda qaz hasilatının artırılması üçün şirkətin öz vəsaiti hesabına böyük işlər görülübdür. Burada qeyd olundu ki, biz artıq 2007-ci ildən xaricdən qaz almırıq, halbuki ildə 4,5 milyard kubmetr qaz alırdıq. Lakin qiymətlərin yüksək olmasına görə ondan imtina etdik, buna baxmayaraq, Azərbaycan xalqı və Azərbaycan iqtisadiyyatı, demək olar ki, bunu hiss etmədi. Nəyə görə? Çünki öz qaz hasilatımız artıbdır, daha da səmərəli işlər görülübdür. İsrafçılığa qarşı tədbirlər görülübdür və Azərbaycan bu vəziyyətdən çox şərəflə çıxdı. Neft şirkətinin növbəti illərdə qaz hasilatını artırması təkcə ölkənin tələbatını ödəmək üçün deyil, eyni zamanda, xarici tərəfdaşlarla əməkdaşlığın dərinləşməsi üçün lazımdır. Demək olar ki, bir il ərzində Dövlət Neft Şirkəti öz qaz hasilatını, təxminən iki dəfə artırır. Bu çox böyük nəticədir və bizə böyük imkanlar yaradır. Yəni işlər bu istiqamətdə davam etdirilməlidir və xüsusilə qaz amilinə daha da böyük diqqət göstərməliyik.

Dövlət Neft Şirkəti tərəfindən görülən işlər sayəsində neft hasilatı sabit səviyyədə saxlanılır. Nəzərə alsaq ki, beynəlxalq konsorsium artıq gələn il tam gücü ilə işləyəcək, bəlkə də bunun artırılmasına o qədər böyük ehtiyac yoxdur. Azərbaycanda gələn il bütövlükdə təxminən 50 milyon ton, bəlkə də çox neft hasilatı gözlənilir. Bunu artırmaq, bəlkə o qədər də lazım deyil, bu səviyyə bizə kifayətdir. Azərbaycan bundan çox böyük həcmdə valyuta əldə edir və bu bizə kifayətdir.

Mən hesab edirəm ki, biz gələcəkdə neft hasilatını çox da artırmamalıyıq. Bizim buna ehtiyacımız yoxdur. 50 milyon ton, bəlkə də 60 milyon ton illik hasilat tam şəkildə bizə kifayətdir ki, bütün problemləri həll edək və valyuta ehtiyatlarını artıraq. Beləliklə, bizim neft yataqlarımız daha uzun müddətdə Azərbaycan xalqına xidmət edəcəkdir.

Qaz hasilatına isə daha böyük diqqət göstərməliyik. Azərbaycanda çox böyük qaz ehtiyatları var. Təkcə təsdiq olunmuş 2 trilyon kubmetr, bəlkə də çox ehtiyat var. Bu, Azər-

baycanın daxili tələbatının ödənilməsi üçün 150 il kifayət edəcəkdir. Ancaq mən əminəm ki, əlbəttə, hasilat getdikcə, yeni quyular qazılandan sonra bu həcm daha da böyüyəcəkdir. Biz həm özümüzün, həm də Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi üçün qaz hasilatımızı artırmalıyıq.

Azərbaycan Dövlət Neft Şirkəti uzun illərdir ki, xarici şirkətlərlə birgə işləyir və öz öhdəliklərini yerinə yetirir. Elə hal olmayıb ki, Dövlət Neft Şirkəti öz üzərinə düşən öhdəliyi yerinə yetirməsin, yaxud da müqavilə şərtlərini pozsun. Biz çox etibarlı tərəfdaşıq və hesab edirik ki, Azərbaycanda gözəl investisiya mühitinin yaranmasında Dövlət Neft Şirkətinin məhz bu şəkildə fəaliyyət göstərməsi az rol oynamayıbdır. Əlbəttə, biz xarici tərəfdaşlardan da haqlı olaraq tələb edirik ki, onlar da bütün müqavilələrdə təsbit edilmiş müddəalara əməl etsinlər. Müqavilənin şərtlərinə dəyişiklik etmək mümkün deyildir. Müqavilələr qanundur və orada əks edilmiş bütün məsələlər öz həllini tapmalıdır.

Mən əminəm ki, son 10 il, bəlkə də ondan da çox müddət ərzində Dövlət Neft Şirkəti və xarici tərəfdaşlar arasında yaranmış işgüzar və qarşılıqlı inam əsasında qurulmuş əlaqələr davam edəcəkdir. Hər iki tərəf öz öhdəliklərinə əməl edəcək və üzərlərinə düşən vəzifələri vaxtlı-vaxtında icra edəcəkdir.

Dövlət Neft Şirkəti indi yeraltı qaz anbarlarının genişləndirilməsi ilə məşğuldur. Bu göstərişi mən onlara vermişəm. Hesab edirəm ki, çox düzgün qərar idi. Uzun illər ərzində bu məsələlərlə bağlı biz danışıqlar aparırdıq. Müxtəlif xarici şirkətlər təkliflər verirdilər. Bizə kreditlər təklif edirdilər. Biz çox götür-qoy etdik, bu məsələni araşdırdıq və gördük ki, bəzi hallarda bu təkliflər bizə sərf etmir. Həm qiymət çox şişirdilib, həm də kredit şərtləri bizə münasib deyildir. Bir də ki, indi biz bu işləri artıq özümüz görmək iqtidarındayıq. Ona görə göstəriş verildi və qısa müddət ərzində Dövlət Neft Şirkəti bu işlərlə məşğul olmağa başladı. Əminəm ki, yaxın zamanlarda yeraltı qaz anbarlarının həcmi daha da artırılacaqdır.

Biz ilkin mərhələdə «Azəriqaz»ın gücü ilə bunu təxminən 500 milyon kubmetrdən 1 milyard – 1 milyard 200 milyon

kubmetrə qaldırdıq. Bu, artıq böyük nailiyyətdir. İndi vəzifə bunu 3 milyard kubmetrə qaldırmaqdır. Belə olan halda, həm daxili tələbat heç bir problemsiz təmin olunacaq, həm də ixracla bağlı yeni əlavə imkanlar yaranacaqdır. O ölkələrin ki, böyük həcmli yeraltı qaz anbarları var, onlar, əlbəttə, dünya, bölgə və qonşu qaz bazarına əhəmiyyətli dərəcədə təsir göstərirlər. Bu həqiqətdir.

Mən əminəm ki, Dövlət Neft Şirkəti bu işləri çox münasib qiymətə, xarici kreditlərdən xeyli dərəcədə ucuz və daha keyfiyyətli görəcəkdir.

Eyni zamanda, hesab edirəm ki, indi Azərbaycanda xüsusilə energetika, qaz sektorunda vəziyyət elə inkişaf edir ki, biz böyük neft kimyası kompleksinin yaradılması ilə məşğul olmalıyıq. Bu fikirlər çoxdan mövcud idi, nazirliklər tərəfindən müxtəlif təkliflər var idi. Bununla müxtəlif nazirliklər məşğul olurdu. «Azərikimya» Dövlət Şirkəti bununla məşğul idi. Mən hesab edirəm ki, Dövlət Neft Şirkəti bu məsələ ilə də məşğul olmalıdır, məsələni araşdırmalı, öz təkliflərini verməlidir. Əgər bütün təkliflər məqbul olarsa, Azərbaycanda ən müasir standartlara cavab verən, yeni, ən yüksək texnologiyalarla təchiz edilmiş neft kimyası kompleksinin tikintisi mümkün olacaqdır. Buna böyük ehtiyac var. Azərbaycanda böyük qaz ehtiyatları vardır. Əlbəttə, biz bu qazı ixrac edəcəyik və edirik. Amma bunu məhsula çevirmək, əlbəttə, həm əlavə mənfəət, həm iş yerləri deməkdir və həm də Azərbaycanda yeni sənayenin yaranması deməkdir. Nəzərə alsaq ki, Dövlət Neft Şirkəti Türkiyədə ən böyük neft kimyası kompleksinin özəlləşdirilməsində birinci yeri tutub, indi «Petkim» neft kimyası kompleksi Dövlət Neft Şirkətinin mülkiyyəti olacaqdır. O da böyük investisiya tələb edən layihədir. Ancaq o böyük kompleksin alınması üçün 2 milyard dollar, bəlkə də ondan bir qədər çox vəsait tələb olunur. Bu vəsait də kredit şəklində təmin olunacaqdır. Beləliklə, həm Türkiyədə, həm də Azərbaycanda böyük, nəhəng neft kimyası komplekslərinin fəaliyyəti bizə böyük xeyir gətirəcəkdir.

Yenilik də ondan ibarətdir ki, artıq Azərbaycan investisiyaları başqa ölkələrə yönəldilir. Bu həm bizim maraq-

larımıza uyğundur, həm də bizə dost, yaxın olan ölkələr də bunu alqışlayır.

«Petkim»in özəlləşdirilməsi və Dövlət Neft Şirkətinin mülkiyyətinə keçməsi ən böyük investisiya layihəsidir. Onunla bərabər, Ceyhan limanında Dövlət Neft Şirkətinin iştirakı və onun təşəbbüsü ilə yeni neft emalı zavodunun tikintisi nəzərdə tutulur. Əlbəttə ki, bu zavodun tikintisi Dövlət Neft Şirkətinin iştirakı olmadan mümkün deyildir. Çünki gələn ildən başlayaraq, Bakı–Tbilisi–Ceyhan kəməri vasitəsilə Ceyhan limanına göndərilən neftin əsas sahibi Dövlət Neft Şirkəti olacaqdır. İndi dünyada neftin qiyməti o qədər yüksəkdir ki, «Azəri», «Çıraq», «Günəşli» yataqları ilə bağlı müqavilənin şərtlərinə uyğun olaraq, pay bölgüsü Azərbaycanın xeyrinə daha da qısa müddət ərzində dəyişəcəkdir və beləliklə, mənfəət neftinin 80 faizi yaxın zamanlarda Azərbaycanın payına düşəcəkdir.

Beləliklə, Dövlət Neft Şirkətinin iştirakı olmadan Ceyhan limanında neftayırma zavodunun tikintisi mümkün deyildir. Çünki bunu tikmək üçün oraya neft göndərmək lazımdır. Bu neft də Dövlət Neft Şirkətinindir. Mən bilirəm ki, indi bu barədə danışıqlar gedir və əlbəttə ki, Azərbaycan Dövlət Neft Şirkəti Ceyhan limanında tikiləcək neftayırma zavodunun əsas səhmdarı olmalıdır.

Digər investisiya layihələri də icra olunur. Gürcüstanda Kuleridə böyük terminal tikilibdir. Yəni bu, xaricə investisiyaların qoyuluşu çox müsbət haldır. Bu yaxınlarda Rumıniyada Dövlət Neft Şirkətinin Mərkəzi Avropa üzrə nümayəndəliyi açılmışdır. Digər ölkələrdən təkliflər var ki, başqa layihələrə biz də qoşulaq, onlarda iştirak edək. Nabukko layihəsinə bizi dəvət ediblər. Odessa–Brodı–Plotsk–Qdansk layihəsinə dəvət ediblər və əlbəttə ki, Azərbaycanın burada iştirakı məsələnin həlli üçün vacib amildir. Bütün bu layihələrdə biz investor kimi iştirak edəcəyik və investisiya istiqamətini gərək genişləndirək.

Azərbaycana çox böyük valyuta axını gözlənilir. Biz neft satışından əldə olunacaq bütün vəsaiti, əlbəttə ki, ölkə iqtisadiyyatına yönəldə bilmərik. Çünki bu, böyük inflyasiyaya

səbəb olacaqdır. Biz bu vəsaiti ən vacib, ən lazımlı olan iqtisadi infrastruktura, sosial məsələlərə yönəldəcəyik. Qalan vəsaiti isə biz xarici banklarda saxlamaqdansa, gərək layihələrə yönəldək. Bizim üçün lazım olan və iqtisadi səmərə verən layihələrə.

Eyni zamanda, Dövlət Neft Şirkətinin qarşısında vəzifə qoyulubdur ki, o, sosial məsələlər ilə də məşğul olsun. İndi Dövlət Neft Şirkətinin vəsaiti hesabına ölkəmizin müxtəlif bölgələrində yeni müalicə-diaqnostika kompleksləri, mərkəzləri, xəstəxanalar tikilir. Buna çox böyük vəsait ayrılır və bu xəstəxanalar ən yüksək səviyyədə tikilir. Dünyada olan ən qabaqcıl texnologiyalar, avadanlıqlar, tibbi ləvazimatlar onlarda quraşdırılır və bu proses davam edəcəkdir.

Eyni zamanda, göstəriş vermişəm ki, ekoloji məsələlərlə də ciddi məşğul olsunlar. Onilliklər ərzində çirklənmiş yerləri, xüsusilə Abşeron yarımadasında neftlə çirklənmiş yerləri təmizləsinlər və ilk növbədə, Bibiheybət neft mədəninin təmizlənməsi ilə məşğul olsunlar. İndi Bibiheybət neft mədəni elə gündədir ki, oraya baxanda adamın ürəyi ağrıyır. Biz gərək oranı təmizləyək və orada gözəl, yəni ekoloji cəhətdən ən müasir infrastruktur yaradılmalıdır. Parklar salınmalıdır ki, ora insanların istirahət elədikləri yerə çevrilsin. Bu, planlarda var və bu ekoloji məsələlərə də böyük diqqət göstərilməlidir.

Bir sözlə, Azərbaycan Dövlət Neft Şirkəti dünya miqyaslı şirkətə çevrilməlidir. Bunu etmək üçün kifayət qədər imkanlar var. Güclü infrastruktur, güclü potensial, o cümlədən kadr potensialı, böyük həcmdə neft və qaz hasilatı və böyük həcmdə neft və qaz ehtiyatları. Dünya miqyaslı şirkətin əsas parametrlərini müəyyən edən məhz bu amillərdir, bunların da hamısı var və Azərbaycan Dövlət Neft Şirkəti dünyada qabaqcıl neft-qaz şirkətinə çevrilməlidir. «Azərenerji»nin qarşısında qoyulan vəzifələr də kifayət qədər böyükdür. Bu vəzifələr icra olunur. Yeni elektrik stansiyaları tikilir. Bu barədə burada deyildi. Son bir il, il yarım ərzində Azərbaycanın müxtəlif bölgələrində 5 modul tipli stansiya tikilibdir və yeni stansiyaların tikintisi və təmiri davam edir.

Sumqayıt stansiyasının gücü 517 meqavat, Səngəçal stansiyasının gücü 300 meqavat olacaqdır. «Şimal-2» stansiyasının tikintisi, düzdür, bir az yubanır, onun da gücü 400 meqavata yaxındır. Danışıqlar uzun illərdir ki, aparılır və biz gərək bunu yekunlaşdıraq. «Şimal-2» elektrik stansiyası, əlbəttə ki, bizim üçün çox lazımdır və vacibdir. Ancaq bu stansiyanın tikintisi ilə əlaqədar gedən danışıqlar müddətində Azərbaycanda 5 elektrik stansiyası tikilib, biri də tikilir və yaxınlarda istismara veriləcəkdir. Bu 6 stansiyanın ümumi gücü 1000 meqavatdan çoxdur. Son 5 il ərzində «Şimal-2» haqqında danışıqlar gedir, lakin hələ ki, bir nəticə yoxdur. Onu demək istəyirəm ki, əlbəttə, «Şimal-2»nin tikintisi öz vacibliyini saxlayır, amma bizim üçün o qədər də böyük əhəmiyyət kəsb etmir. Biz 5 elektrik stansiyasının tikintisinə nail olduq. Sumqayıt elektrik stansiyası bu yaxınlarda istismara veriləcəkdir, Səngəçalda 300 meqavat gücündə stansiya inşa edilir. Əli Bayramlı stansiyasının tikintisi ilə bağlı ilkin addımlar atılıbdır. Bunun da gücü 700 meqavatdan çox olacaqdır. Xüsusilə, nəzərə almalıyıq ki, Əli Bayramlı stansiyası bizim ən ağrılı yerimizdir. Çünki orada şərti yanacaq sərfi həddindən artıq yüksəkdir və Azərbaycan iqtisadiyyatı çox böyük vəsait itirir.

«Şimal-2» stansiyasının da tikintisi başlanmalıdır, ancaq Azərbaycan üçün münasib şərtlərlə və yüksək keyfiyyətlə.

Bundan başqa, Mingəçevirdə, Azərbaycan DRES-də yenidənqurma işləri çox uğurla gedir, orada da əlavə güc yaranır. Qubada yeni elektrik stansiyasının tikintisi planlaşdırılıbdır. Buna da biz yəqin ki, yaxın zamanlarda başlayacağıq. Etibar Pirverdiyev burada qeyd etdi, Şəmkir və Mingəçevir su elektrik stansiyalarında da yenidənqurma işlərinin aparılması çox vacibdir.

Biz indi müxtəlif şirkətlərdən təkliflər alırıq ki, Azərbaycanda özəl elektrik stansiyaları tikilsin. Vaxtilə bir stansiyanın tikilməsi üçün biz kredit tapa bilmirdik. Amma indi nəinki bizim üçün bütün kredit imkanları açıqdır, hətta xarici firmalar Azərbaycanda öz vəsaiti hesabına elektrik stansiyaları tikmək istəyirlər. Bu nəyi göstərir? İlk növbədə, Azərbaycanın inkişafını, artan potensialını, Azərbaycana olan inamı, eyni zamanda, Azərbaycanda energetika sektorunun nə qə-

dər cəlbedici olmasını göstərir. Mən prinsip etibarilə buna etiraz etmirəm. Biz liberal iqtisadiyyat siyasəti aparırıq, investisiyaları alqışlayırıq, Azərbaycana nə qədər çox investisiya qoyulsa, bizim üçün bir o qədər yaxşıdır. Ona görə prinsipcə mən buna etiraz etmirəm. Halbuki, Azərbaycan iqtisadiyyatı üçün artıq bunun o qədər də böyük əhəmiyyəti yoxdur. Sadəcə, biz buna bir biznes layihəsi kimi baxırıq. Ancaq əgər xarici şirkətlər Azərbaycan üçün münasib şərtlərlə belə bir stansiyanı tiksələr, mən hesab edirəm ki, bu, müsbət hal ola bilər.

Ancaq eyni zamanda, mən Pirverdiyevlə razıyam ki, ilk növbədə, xarici investorları biz alternativ enerji mənbələrinin yaranmasına yönəltməliyik. İlk növbədə, su elektrik stansiyalarının, külək, günəş elektrik stansiyalarının tikintisinə. Bu bizim üçün, Azərbaycan dövləti üçün daha da əlverişli olar, nəinki xarici şirkətlərin istilik elektrik stansiyaları tikməsi. Mən yenə də deyirəm, buna etiraz etmirəm, əksinə, Azərbaycana investisiya qoymaq üçün maraqlı olan şirkətləri mən alqışlayıram. Ancaq bütün bu işlər Azərbaycanın uzunmüddətli enerji strategiyasının tərkib hissəsi olmalıdır. Bütün bu məsələləri biz vahid strateji plan çərçivəsində həll etməliyik.

Biz indi yeni yüksəkgərginlikli elektrik xətlərinin çəkilməsi ilə də məşğuluq. İndi Gürcüstanla danışıqlar gedir. Azərbaycan ilə Gürcüstan arasında yeni xətlərin çəkilişi bizə imkan verəcək ki, gələcəkdə elektrik enerjisinin ixracı ilə də ciddi şəkildə məşğul olaq. Bu həm böyük regional layihə ola bilər, Azərbaycanın elektrik enerjisi Gürcüstan və Türkiyə bazarlarına çatdırıla bilər. Həm də böyük iqtisadi səmərəsi ola bilər və bu, Azərbaycanın ixrac potensialının genişlənməsi deməkdir. Əgər biz buna nail olsaq – amma bunu etmək üçün bütün imkanlar var – bu, elə bil ki, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin məntiqi davamı kimi, Azərbaycan, Gürcüstan və Türkiyəni elektrik xətləri ilə birləşdirən bir layihə olacaqdır.

Nəzərə alsaq ki, bizim elektrik xətlərimiz Rusiya və İranın şəbəkələri ilə birləşmişdir və indi İmişli–Parsabad elektrikötürmə xəttinin çəkilişi davam edir, bu bizə imkan verəcək ki,

700 meqavat həcmində elektrik enerjisi mübadiləsi edək. Rusiya ilə də biz uğurla işləyirik. Bütün bölgənin – həm qərbə, həm də ki, şimaldan cənuba, yəni İran və Rusiyanın elektrik-ötürmə xətlərinin birləşməsi yalnız Azərbaycan ərazisi ilə mümkündür. Bu, əlbəttə ki, həm iqtisadi cəhətdən, regional əməkdaşlıq baxımından və bütün başqa cəhətlərdən çox böyük bir regional layihə olacaq və bu layihə ilə də ciddi məşğul olmaq lazımdır.

İndi bizdə qış üçün lazım olan bütün mazut və qaz anbarları doludur. 1 milyard 200 milyon kubmetr qaz doldurulubdur, daha da çox doldura bilərdik, yer yoxdur. Mən demişəm, anbarlar tikiləcəkdir. 300 min ton mazut yığılıbdır. Daha da çox yığa bilərdik, yer yoxdur. Vaxtilə bizim imkanlarımız ancaq buna çatırdı. Ona görə bir müddət bundan əvvəl mən göstəriş verdim ki, «Azərenerji» yeni mazut çənləri tiksin və indi soruşmaq istəyirəm məsələ nə yerdədir?

**E t i b a r  P i r v e d i y e v** *(«Azərenerji» SC-nin prezidenti)*: Cənab Prezident, Sizin göstərişinizə əsasən 120 min ton həcmində–hər biri 20 min tonluq 6 çənin artıq inşasına başlanılmışdır. Bununla əlaqədar bütün metal gətirilibdir. Artıq həmin metal çənlərin yığılması üçün hazırlıq işləri gedir.

**İ l h a m  Ə l i y e v:** Təxminən nə vaxta qurtarmağı fikirləşirsiniz?

**E t i b a r  P i r v e r d i y e v:** İl yarım ərzində biz bu işi qurtaracağıq.

**İ l h a m  Ə l i y e v :** İl yarım ərzində. Bəs onda bizim ehtiyatımız nə qədər olacaqdır?

**E t i b a r  P i r v e r d i y e v :** 420 min ton.

**İ l h a m  Ə l i y e v:** Çox yaxşı, bu da böyük bir işdir. Bu bizim ehtiyatımızı artıracaqdır, çünki indi tələbat artır və getdikcə daha da artacaqdır.

Biz indi stansiyaları tikirik, əlbəttə, buna böyük vəsait qoyuruq. Amma onu tikirik ona görə ki, tələbat artır və getdikcə artacaqdır. Düzdür, indi istehlak aşağı düşür, çünki sayğaclaşdırma prosesi, demək olar ki, tam başa çatdı. Əlbəttə, sayğac olan yerdə insanlar bilirlər ki, nəyin pulunu ödəyirlər. Əvvəllər olan bütün o xoşagəlməz hallara son qoyulmalıdır. Burada qeyd olundu ki, bəzi hallarda sayğaclara müdaxilə edirlər, on-

ları sındırırlar. Bu, qətiyyən yolverilməzdir. Kim bunu edirsə, o, məsuliyyətə cəlb olunmalıdır. Artıq bildiyimə görə, Cinayət Məcəlləsində də dəyişikliklər edilib və sayğaclara müdaxilələr edən, onları sındıran, yaxud da müfəttişlərə təzyiq göstərən şəxslərə qarşı çox ciddi tədbirlər görülməlidir.

Elektrik stansiyalarının tikintisi ilə bərabər, yardımçı stansiyaların tikintisi də çox vacibdir, bu işlər də gedir. Bu işlərlə – yardımçı stansiyaların, transformatorların, elektrik xətlərinin təzələnməsi ilə «Bakıelektrikşəbəkə» və «Azərenerji» məşğuldur. Bakıda bütün elektrik xətləri yerin altına salınmalıdır. Bu həm mümkün olan oğurluğun qarşısını alır, həm də gözəl mənzərə yaradır. İndi bəzi yerlərdə görürük, o xətlər çox eybəcər vəziyyətdədir, bütün mənzərəni pozur. Ona görə bütün o xətlərin yerin altına salınması ilə, əminəm ki, biz həm şəhərimizin gözəlliyini daha da artıracağıq, həm də mümkün olan oğurluq hallarının qarşısını alacağıq.

Mən Bakı şəhərinin küçələrinin işıqlandırılması ilə bağlı müvafiq göstərişlər vermişəm. İndi Şəhər İcra Hakimiyyəti yeni gözəl işıq dirəkləri alır və onların böyük hissəsi artıq qoyulubdur. Əlbəttə, ilk növbədə, şəhərin mərkəzində, ancaq indi siz məruzə edin, bu vəziyyət nə yerdədir. Çünki başqa küçələrə də müasir işıq dirəkləri qoyulmalıdır.

**H a c ı b a l a  A b u t a l ı b o v** (*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı*): Sankt-Peterburqda sifariş olunmuş bütün işıq dirəkləri bu ilin axırına qədər Bakı şəhərinə gətiriləcək və quraşdırılacaqdır. Gələn ildən isə həm Sankt-Peterburqdan, həm də İtaliyadan gətiriləcəkdir. Ona görə də çalışacağıq ki, gələn il, ümumiyyətlə, Bakı şəhərinin mərkəzi küçələrində işıq dirəkləri yeniləri ilə əvəz edilsin.

**İ l h a m  Ə l i y e v:** Biz bu işi mərkəzi küçələrdə və mərkəzdən kənardakı küçələrdə də etməliyik. Çünki o dirəklər çoxdan qalmışdır, köhnəlmişdir. İndi mərkəzi küçələr işıqlandırılır, amma mərkəzdən uzaqda yerləşən küçələr hələ ki, lazımi səviyyədə işıqlandırılmır.

**H a c ı b a l a  A b u t a l ı b o v:** Siz dediyiniz dirəkləri biz mərkəzdən götürərək dəyişdiririk. Həmin dirəklər digər məhəllələrə köçürülür.

**İ l h a m Ə l i y e v:** Köçürün və əlbəttə, biz elə etməliyik ki, Bakının bütün küçələrində axşamlar işıq olsun. Bu, hər bir normal, müasir şəhərin əsas əlamətlərindən biridir.

**H a c ı b a l a A b u t a l ı b o v:** Əsas magistral küçələr işıqlandırılır. Müəyyən küçələr var ki, orada hələlik işıq dirəkləri yoxdur.

**İ l h a m Ə l i y e v:** Bəli, mən bunu bilirəm. Ona görə deyirəm, çalışmaq lazımdır ki, bütün küçələrdə işıq elə olmalıdır, elə bil gündüzdür.

**H a c ı b a l a A b u t a l ı b o v:** Əlimizdən gələni edəcəyik ki, Sizin göstərişləriniz ən yüksək səviyyədə yerinə yetirilsin.

**İ l h a m Ə l i y e v:** Əlbəttə, biz gərək büdcədə də əlavə xərclərin olmasını nəzərə alaq ki, Bakı Şəhər İcra Hakimiyyəti küçələrin işıqlandırılmasının pulunu ödəyə bilsin. Çünki bəzi hallarda biz onlardan tələb edirik ki, bunu təmin etsinlər. Amma onların büdcəsində pul yoxdur. Ona görə məcburdurlar bəzi yerlərdə işığı kəssinlər. Bunun qarşısını almaq üçün nə qədər vəsait lazımdır, hesablayın. Şəhərin bütün küçələrinin işıqlandırılmasını təmin etmək üçün və işıq pulunu ödəmək üçün o vəsait sizə ayrılacaqdır. Siz o vəsaiti «Bakıelektrikşəbəkə»yə ödəyəcəksiniz. Yenə də o pul qayıdacaq dövlətə. Sadəcə olaraq, burada normal sistem yaranacaqdır.

Beləliklə, «Azərenerji» və «Bakıelektrikşəbəkə»nin qarşısında qoyulan əsas məsələlər bunlardır və qalan işləri də onlar özləri bilirlər.

«Azəriqaz»la bağlı burada məruzədə də göstərildi ki, son müddət ərzində qazlaşdırma prosesi sürətlə gedir və bu vaxta qədər qazlaşdırılmayan rayonlara qaz verilir. Hazırda obyektiv səbəblərə görə iki rayona – Ağcabədi və Beyləqana qaz verə bilmirik. Bu rayonlara da qazın verilməsi təmin olunacaqdır. Ümid edirəm ki, Ağcabədiyə bu ilin sonuna qədər, Beyləqan rayonuna isə gələn il qaz veriləcəkdir. Beləliklə, Azərbaycanda bütün rayon mərkəzlərinə, bütün rayonlara qaz veriləcəkdir. Biz qazlaşdırma proqramımızı davam etdirməliyik. Vaxtilə bəzi istisnalarla Azərbaycanın, demək olar ki, bütün bölgələri qazlaşdırılmışdı. Biz bunu

bərpa etməliyik. İndi dəqiq yadımda deyil, qazlaşdırmanın ümumi faizi nə qədər idi?

**Ə l i x a n  M ə l i k o v** *(«Azəriqaz» SC-nin sədri)*: Cənab Prezident, 92 faizdir.

**İ l h a m  Ə l i y e v:** 92 faiz. Yəni, xətlər var idi?

**Ə l i x a n  M ə l i k o v:** Respublikada mövcud abonentlərin 92 faizi qazla təmin olunurdu.

**İ l h a m  Ə l i y e v:** Amma indi?!

**Ə l i x a n  M ə l i k o v:** Hazırda 75 faizdir.

**İ l h a m  Ə l i y e v:** Hər halda, 75 də yüksək faizdir. Bilirik ki, bizdən qat-qat çox qaz hasil və ixrac edən ölkələrdə bu, təxminən 50 faiz səviyyəsindədir. 75 faiz çox böyük göstəricidir. Amma biz çalışmalıyıq ki, 100 faizə yaxınlaşaq. İmkan var, qaz ehtiyatlarımız var və bunu etməliyik.

Xüsusilə, ilk növbədə, Bakıətrafı qəsəbələrə qazın verilməsini təmin etməliyik. Bakının qəsəbələrinin sosial-iqtisadi inkişafı proqramında bunların hamısı nəzərdə tutulur və bu ilin sonuna qədər əsas işlər görülməlidir və gələn il Bakıətrafı qəsəbələrə qaz tam verilməlidir. Biz ucqar rayonlara qaz xətləri çəkirik, amma bəzi hallarda burada, Bakının ətrafına qaz verə bilmirik. Bu, dözülməz bir haldır. Bütün qəsəbələrə lazımi səviyyədə qaz verilməlidir. Mən bilirəm ki, indi yeni xətlər çəkilir, müasir borular quraşdırılır. Qaz hasilatı bizdə kifayətdir ki, bunu təmin edək.

Naxçıvan Muxtar Respublikasının qazlaşdırılması ilə bağlı işlər yaxşı gedir. Birinci və ikinci mərhələ artıq başa çatıbdır. İndi üçüncü mərhələ başlanmışdır və beləliklə, Naxçıvanda qazlaşdırma tam şəkildə təmin olunacaqdır. Eyni zamanda, indi Naxçıvanın enerji potensialı xeyli dərəcədə artırılıbdır. O dərəcədə ki, indi Naxçıvan elektrik enerjisini ixrac edə bilər və buna da hazırdır. Əminəm ki, qarşılıqlı razılaşma əsasında biz bunu təmin edə bilərik. Prinsip etibarilə indi və qış mövsümündə Naxçıvandan Türkiyəyə elektrik enerjisinin ixracı təmin oluna bilər. Vaxtilə qaranlıqda, qazsız, işıqsız yaşayan Naxçıvan artıq görülən işlər nəticəsində və orada tikilən və bərpa olunan elektrik stansiyalarının hesabına elektrik enerjisini ixrac edə biləcəkdir.

Əlbəttə ki, yığımla bağlı son aylar ərzində böyük irəliləyiş var. Əgər keçən ili götürsək, biz burada müqayisəedilməz dərəcədə böyük nəticələrə nail olmuşuq. Bütövlükdə, elektrik enerjisi və qazda yığım 80–90 faiz arasındadır. Bu, yaxşı göstəricidir. Əlbəttə, hamı istəyər ki, 100 faiz yığım təmin olunsun. Amma bəzi hallarda obyektiv səbəblərə görə buna nail ola bilmirik. Azərbaycanda hələ ki, yoxsul təbəqə mövcuddur. Düzdür, yoxsulluğun səviyyəsi ildən-ilə aşağı düşür. Amma doğrudan da elə adamlar var ki, onlar enerji haqqının ödənilməsinə o qədər də hazır deyillər və əziyyət çəkirlər. Amma elələri var ki, imkanı da var, gözəl şəraiti də var, sadəcə olaraq, elektrik enerjisinin və qazın pulunu vermək istəmir, sayğacları sındırır, gələn müfəttişləri təhqir edir, onlara təzyiq göstərirlər. Onlara qarşı amansız mübarizə aparılmalıdır.

Əlbəttə, yığımla məşğul olanlar, müfəttişlər insanlarla münasibətdə mədəni olmalıdırlar. Yəni, kobud olmamalıdırlar. Real imkanı olmayan insanlara o qədər də təzyiq etməməlidirlər. İmkanı olan, qəsdən pulunu verməyənə qarşı isə çox ciddi olmalıdırlar. Mən xahiş edirəm ki, siz bu məsələlərə diqqət yetirəsiniz.

İstilik təchizatı ilə bağlı işlər davam edir. Bu səhmdar cəmiyyəti nisbətən yaxınlarda yaradılıbdır. İndi bizim qarşımızda yeni imkanlar yaranır, evlərə, məktəblərə, xəstəxanalara istilik verilir. İndi çalışmalısınız ki, ilk növbədə, bütün məktəblərə, xəstəxanalara, uşaq bağçalarına istilik verilsin. Obyektiv problemlər də var. Çünki dediyiniz kimi, bəzi vətəndaşlar batareyaları kəsib atıblar, istilik verilməsini bərpa etmək üçün çox böyük vəsait və texniki işlər görmək lazımdır. Hər halda, biz ilk növbədə, Bakı şəhərinin istiliklə təmin edilməsinə tam şəkildə nail olmalıyıq. Ondan sonra ölkəmizin başqa şəhərlərinə, Siz də burada çıxışda qeyd etdiniz ki, artıq rayonlarda da istilik verilməsi başlanmışdır. Bu çox yaxşı haldır. Mən bunu alqışlayıram. Bu həm insanlara xidmətdir, həm də elektrik enerjisinə qənaətdir. Biz bundan böyük iqtisadi səmərə götürəcəyik.

Bütövlükdə, mən deyə bilərəm ki, energetika sektorunda, nəhayət, ciddi dönüşə nail ola bildik. İndi qarşılıqlı ödəmələr, demək olar ki, aradan qaldırılıbdır. Bu bizim əbədi

problemimiz idi. Hamı hamıya, bütün qurumlar bir-birinə borclu idi. Bu, artıq aradan qaldırılıbdır. Yığım təmin olunur, 40 faizdən 80–90 faizə gəlmişdir. Hesab edirəm, bu çox yüksək göstəricidir.

Energetika sektorunda aparılan islahatlar ona gətirib ki, artıq bu sahəyə investisiya qoymaq istəyən şirkətlər meydana çıxır. Hətta indi biz fikirləşirik ki, o şirkətlərlə necə işləyək. Hansı sahələrə onları yönəldək. Yəni, energetika sektorunda sağlamlaşma göz qabağındadır və bu, iqtisadiyyatın əsas hissəsidir. Biz bu sahədə islahatları davam etdirməklə, bütün iqtisadi münasibətlərimizi sağlamlaşdırırıq. Azərbaycan iqtisadiyyatı tam şəkildə bazar iqtisadiyyatı prinsiplərinə əsaslanır. Bu, əslində uzun illərdir ki, belə idi. Amma siz də bilirsiniz, açıq deməliyik, energetika sektorunda bazar iqtisadiyyatı prinsipləri mövcud deyildir. Burada müxtəlif prinsiplərin sintezi var idi. Planlı iqtisadiyyat, inzibati metodlar, ondan sonra bazar iqtisadiyyatının müəyyən elementləri var idi. Amma bütövlükdə bu sektor qeyri-sağlam idi. İndi biz bunu sağlamlaşdırırıq. Prinsiplər tamamilə düzgün qurulub və nəticələr də var. Belə olan halda bu, bütün iqtisadiyyata güclü təkan verəcək və artıq verir. Biz bunu gündəlik həyatda görürük. Elə etməliyik ki, qış mövsümündə elektrik enerjisi, qaz, istilik təchizatında heç bir problem olmasın və insanları narahat edən məsələlər öz həllini tapsın.

Sağ olun.

## BEYNƏLXALQ TOLERANTLIQ GÜNÜ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Beynəlxalq Tolerantlıq günü münasibətilə keçirilən, olduqca aktual bir mövzuya həsr edilmiş konfransınızı salamlayır və onun işinə uğurlar diləyirəm.

Böyük İpək Yolu üzərində yerləşən ölkəmiz tarix boyu bütün səmavi dinlərin məbədlərini ucaldaraq onlara sitayiş edən insanlar üçün unikal dözümlülük mühitinin formalaşdırılması ilə həqiqətən fəxr edə bilər. Müstəqil Azərbaycan Respublikası qloballaşma şəraitində İpək Yolunun bərpası sayəsində irimiqyaslı layihələr çərçivəsində enerji, nəqliyyat və informasiya dəhlizlərini yaratmaqla tolerantlıq ənənələrinin dirçəldilməsini və yaşadılmasını təmin etmişdir.

Birləşmiş Millətlər Təşkilatı tərəfindən təsis olunmuş Beynəlxalq Tolerantlıq günü və qəbul edilmiş «Dözümlülük prinsipləri deklarasiyası» istər ölkəmizin tarixi ənənələri, istərsə də mövcud mühiti ilə həmahəng səsləşir. Tolerantlığın mənəvi, siyasi və hüquqi müstəvidə bərqərar olması təhsildə, mədəniyyətdə, ümumən cəmiyyət həyatının müxtəlif sahələrində strateji əhəmiyyətə malik proqramların həyata keçirilməsini tələb edir. Məhz bu baxımdan Azərbaycanda təmsil olunan bütün dini icma nümayəndələrinin bu konfransda tolerantlıq, dözümlülük problemlərinin geniş müzakirəsini keçirmələri təqdirəlayiqdir.

Ölkəmizdə müxtəlif konfessiyaların nümayəndələri tərəfindən nümayiş etdirilən qarşılıqlı ehtiram, konstruktiv əməkdaşlıq, həmçinin ümumbəşəri mənəvi dəyərlərin mənimsənilməsi yolunda görülən işlər olduqca yüksək qiymətləndirilir və Azərbaycanı tolerantlıq baxımından bir çox ölkələr üçün örnək hesab etməyə imkan verir. Bu gün sivilizasiyaların toqquşması və qarşıdurması konsepsiyasına tərəf-

dar çıxanlar zəngin tolerantlıq ənənələrinə malik olan və Şərqlə Qərb arasında körpü rolunu oynayan bir ölkə kimi, Azərbaycanın təcrübəsindən ibrət götürə bilərlər.

Hər birinizə cansağlığı, xoşbəxtlik və səmərəli fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 noyabr 2007-ci il*

## MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SİDİ MƏHƏMMƏD ULD ŞEYX ABDULLAHİYƏ

Hörmətli cənab Prezident!

Milli bayramınız – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Mavritaniya arasında təşəkkül tapmış münasibətlər qarşıdakı illərdə dostluq və əməkdaşlıq məcrasında böyük inkişaf yolu keçəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 noyabr 2007-ci il*

**ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB BAMİR TOPİYƏ**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Müstəqillik günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Ümidvaram ki, Azərbaycan ilə Albaniya arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı*, 16 noyabr 2007-ci il*

**BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB ZELJKO KOMŞİÇƏ**

Hörmətli cənab Sədr!

Ölkənizin milli bayramı – Bosniya və Herseqovinanın yaranması günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı*, 16 noyabr 2007-ci il*

## «AZƏRBAYCANDA SÖZ VƏ MƏTBUAT AZADLIĞI YERLİ VƏ BEYNƏLXALQ QANUNLAR KONTEKSTİNDƏ» MÖVZUSUNDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi – Söz Azadlığını Müdafiə Fondu ilə Bolqarıstanın «Assosiasiyası Bulqariya» Təşkilatının birlikdə təşkil etdiyi «Azərbaycanda söz və mətbuat azadlığı yerli və beynəlxalq qanunlar kontekstində» beynəlxalq konfransın iştirakçılarını səmimiyyətlə salamlayıram.

Bu gün Azərbaycan Respublikasında dinamik iqtisadi inkişafla yanaşı, demokratiyanın genişləndirilməsi, insan hüquqlarının qorunması, vətəndaş cəmiyyətinin formalaşması sahəsində mühüm işlər görülür. Demokratik dövlət quruculuğu prosesində söz və mətbuat azadlığı müstəsna əhəmiyyət kəsb edir. Azad mətbuat, siyasi plüralizm demokratiyanın əsas sütunlarından biridir və dünyanın heç bir ölkəsində vətəndaş cəmiyyəti bunsuz təsəvvür edilə bilməz.

Son illərdə Azərbaycanda azad mətbuatın çərçivəsini genişləndirmək, ona zəruri maddi baza və əlverişli siyasi mühit təmin etmək, fəaliyyətini stimullaşdırmaq dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Ölkədə kütləvi informasiya vasitələri ilə cəmiyyət arasında münasibətlərin nizamlanması, mətbuatın özünü tənzimləmə mexanizminin təmin edilməsi, iqtisadi və maliyyə vəziyyətinin yaxşılaşdırılması istiqamətində çoxsaylı tədbirlər həyata keçirilmişdir. Avropa standartlarına uyğun bir sıra yeni qanunlar qəbul olunmuş, milli mətbuatımızın 130 illik yubileyi dövlət səviyyəsində geniş qeyd edilmiş, Mətbuat Şurası, İctimai Televiziya və Radio Yayımları Şirkəti yaradılmışdır. Bütün bunlar Azərbaycanda kütləvi informasiya vasitələrini gücləndirmiş, onların ictimai həyatdakı rolunu artırmışdır.

Eyni zamanda, mətbuatın inkişafı sahəsində Azərbaycanda bəzi problemlər də mövcuddur. Cəmiyyətdə sağlam tənqidə dözümlü münasibət yaradılması, mətbuatın maddi-texniki bazasının və peşəkarlığının yüksəldilməsi, jurnalistlərin etik normalara əməletmə vərdişlərinin gücləndirilməsi həm dövlət, həm də jurnalist təşkilatları qarşısında mühüm vəzifələt qoyur. Demokratik cəmiyyətin inkişafına xidmət edən müstəqil mətbuatın formalaşdırılması və inkişafı bu işə bütün aidiyyəti qurumların xüsusi və məsuliyyətli yanaşmasını tələb edir.

İnanıram ki, nüfuzlu beynəlxalq təşkilatların təmsilçilərinin, Azərbaycanın və müxtəlif ölkələrin tanınmış media mənsublarının iştirak etdiyi bu mötəbər konfrans milli mətbuatımızın inkişafına mühüm töhfə verəcəkdir.

Sizə ən xoş arzularımı çatdırır və konfransın işinə uğurlar diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı*, 16 noyabr 2007-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKMƏNİSTANIN NAZİRLƏR KABİNETİ SƏDRİNİN MÜAVİNİ XIDIR SAPARLIYEV İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*16 noyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Prezident sarayında Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini Xıdır Saparlıyevi qəbul etmişdir.*

*Xıdır Saparlıyev Türkmənistan prezidenti Qurbanqulu Berdimühəmmədovun salamlarını Azərbaycan prezidentinə çatdirdi. O, Türkmənistanın dövlət başçısının tapşırığı ilə Türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayında iştirak etmək üçün Bakıya gəldiyini bildirdi.*

*Azərbaycan prezidenti İlham Əliyev Türkmənistan prezidentinin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Türkmənistanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün yaxşı potensialın olduğunu vurğuladı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞÜ

*Gülüstan sarayı*

*17 noyabr 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın görüşü olmuşdur.*

*Görüş zamanı Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq əlaqələrinin bütün istiqamətlərdə uğurla inkişaf etdiyi vurğulandı. Ölkələrimizin iştirakı və təşəbbüsü ilə həyata keçirilən qlobal enerji layihələrinin xalqlarımızın firavanlığına, bölgədə sülhün, sabitliyin təmin olunması işinə xidmət etdiyi qeyd olundu.*

*Türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayının Azərbaycan ilə Türkiyə, habelə bütün türkdilli ölkələr arasında əlaqələrin genişlənməsi işində mühüm rol oynayacağı vurğulandı.*

*Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminliklərini bildirdilər.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞİMALİ KİPR TÜRKLƏRİNİN LİDERİ, CÜMHUR BAŞQANI MEHMET ƏLİ TƏLƏT İLƏ GÖRÜŞÜ

*Gülüstan sarayı*

*17 noyabr 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev Şimali Kipr türklərinin lideri, cümhur başqanı Mehmet Əli Tələt ilə görüşmüşdür.*

*Görüşdə türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayının əhəmiyyəti vurğulandı, bunun türk dövlətləri və türkdilli xalqlar arasında əlaqələrin daha da möhkəmlənməsinə xidmət edəcəyi bildirildi.*

## TÜRK DÖVLƏT VƏ CƏMİYYƏTLƏRİNİN XI DOSTLUQ, QARDAŞLIQ VƏ ƏMƏKDAŞLIQ QURULTAYINDA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

*Gülüstan sarayı*

*17 noyabr 2007-ci il*

Hörmətli xanımlar və cənablar!
Əziz qonaqlar!
Əziz qurultay iştirakçıları!

Mən sizin hamınızı Azərbaycanda ürəkdən salamlayıram. Bütün qonaqlara «Xoş gəlmisiniz!» deyirəm.

Türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayının Azərbaycanda keçirilməsi bütün türk dünyası üçün çox böyük hadisədir. Qurultaylar, adətən, Türkiyədə keçirilirdi. Mən xatırlayıram, keçən il biz Antalyada qurultayda bərabər iştirak etmişdik. Orada çox vacib, çox önəmli qərarlar qəbul edilmişdi, çox maraqlı müzakirələr keçirilmişdi. Mən çox şadam ki, növbəti qurultayın Azərbaycanda keçirilməsi barədə bizim təklifimiz qəbul olundu və bu gün biz bu gözəl qurultayı Bakıda keçiririk. Bu bir daha onu göstərir ki, bütün türk dünyası birləşməyə doğru daha da sürətlə gedir. Buna çox böyük ehtiyac var.

Bizim müstəqil ölkə kimi yaşamağımız, Sovet İttifaqının dağılmasından sonra 5 türk cümhuriyyətinin meydana gəlməsi nəticəsində yaranmış yeni bir vəziyyət, əlbəttə ki, bizi daha sıx birləşməyə sövq edir. Biz bunu fəal şəkildə edirik. Son qısa müddət ərzində Türkiyədə və Azərbaycanda bizim birliyimizi möhkəmləndirən çox vacib tədbirlər keçirildi. Qeyd etdiyim kimi, ötən il Antalyada qurultay keçirildi. Ondan sonra Antalyada türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşü keçirildi. Bu ilin mart ayında Bakıda Azərbaycan və türk diasporları rəhbərlərinin I forumu keçirildi.

Bu gün bu gözəl qurultay keçirilir. Gələn il, 2008-ci ildə Bakıda türkdilli dövlət başçılarının növbəti zirvə görüşü keçiriləcəkdir. Yəni bütün bu görüşlər, qurultaylar, tədbirlər bir məqsəd güdür – türk dünyası daha da mütəşəkkil olsun, bir-birilə əlaqələrini və dünyadakı mövqelərini daha da möhkəmləndirsin. Bu bizim hamımızın marağındadır. Bizim birliyimiz nə qədər güclü olsa, hər bir ölkə öz milli maraqlarını bir o qədər uğurla müdafiə edə bilər.

İndi dünyada gedən qloballaşma prosesləri, əlbəttə ki, bizim ölkələrdən də yan keçmir. Amma bununla bərabər, biz milli dəyərlərimiz üzərində dövlətlərimizi qururuq. Müstəqil olmayan dövrdə bizi bir xalq kimi saxlayan, milli mənsubiyyətimizi qoruyan bizim tariximiz olubdur, mədəniyyətimiz olubdur, ana dilimiz olubdur, bizim milli musiqimiz olubdur, ədəbiyyatımız olubdur. Bu sahədə birliyin və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi üçün çox gözəl imkanlar var.

Bu gün bu gözəl gündə türk dünyasının iki dahi şəxsiyyətinin unudulmaz kəlamları yada düşür. Ulu öndər Mustafa Kamal Atatürk demişdir: «Azərbaycanın kədəri bizim kədərimiz, Azərbaycanın sevinci bizim sevincimizdir». Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: «Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir». Bu kəlamlar bizim münasibətlərimizin təməl prinsipidir. Bu gün Türkiyə–Azərbaycan münasibətləri məhz bu əsasda qurulur və əminəm ki, bizim uğurlu işbirliyimiz bütün türk dünyasına öz müsbət təsirini göstərir. Bu iki məşhur tarixi kəlamda çox böyük məna var və çox böyük məhəbbət var. Bu bizi birləşdirir və mən çox şadam ki, bu gün bizimlə bərabər bütün türk dünyasını əhatə edən qonaqlar bu qurultayda iştirak edirlər.

Bu gün Azərbaycanın tarixində də çox əlamətdar bir gündür. Düz 17 il bundan əvvəl, 1990-cı ilin noyabrın 17-də Azərbaycanın milli bayrağı ilk dəfə olaraq, rəsmi bayraq kimi qəbul edilmişdir. O zaman Azərbaycan hələ müstəqil dövlət deyildi. Hələ ki, biz Sovet İttifaqının tərkibində idik. Hələ ki, Bakıda Azərbaycan Kommunist Partiyası iqtidarda idi. Ancaq Azərbaycanın tarixi torpağı, ayrılmaz hissəsi olan Naxçıvanda Muxtar Respublikanın Ali Məclisinin o vaxtkı sədri Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı, üçrəng-

li bayraq Ali Məclisin binasında qaldırılmışdır. Əminəm və şübhə yoxdur ki, bu tarixi hadisə Azərbaycanın dövlət müstəqilliyini yaxınlaşdıran bir addım idi.

Bir daha demək istəyirəm ki, o vaxt Azərbaycan müstəqil deyildi. Bizim müstəqilliyə gedən yollarımız müxtəlif istiqamətlərdən keçibdir. Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsi, bütün cəmiyyətin birləşməsi və əlbəttə ki, Dövlət bayrağının, üçrəngli bayrağın qaldırılması bu istiqamətdə çox vacib bir addım idi.

Biz gözəl bir gündə toplaşmışıq. Bu da yəqin ki, rəmzi xarakter daşıyır. Müstəqillikdən keçən dövr ərzində bütün türk dövlətləri güclənmişdir. Əgər 1991-ci ildə bizim ölkələrimizdə, demək olar ki, həm iqtisadi, həm də siyasi problemlər kifayət qədər idisə, bu gün, 16 il keçəndən sonra biz bütün ağır günlərimizi arxada qoymuşuq, biz bütün böhranlardan şərəflə çıxmışıq. Həm iqtisadi artım, həm siyasi sabitlik, həm də dünyadakı mövqelərimizin möhkəmləndirilməsi bizim ölkələrimizi çox qabağa aparıbdır. Tarix baxımından 16 il o qədər də böyük zaman deyil. Ancaq xalqlarımız sübut etdilər ki, biz müstəqil xalqlar kimi yaşaya bilərik.

Müstəqillik ən böyük sərvətdir. Azərbaycan xalqının ən böyük nemətidir. Əsrlər boyu Azərbaycan xalqı müstəqilliyə həsrət qalmışdır. Biz başqa ölkələrin tərkibində yaşayırdıq və müstəqil deyildik. Ancaq bu gün Azərbaycan müstəqil ölkədir. Müstəqilliyimiz bu gün təkcə rəsmi atributlarla deyil, eyni zamanda, bizim siyasətimizlə ölçülür. Azərbaycan müstəqil siyasət aparmaq iqtidarındadır. Nəyin hesabına? Əlbəttə ki, ölkədə gedən iqtisadi, siyasi islahatlar nəticəsində, aparılan böyük quruculuq işləri nəticəsində və eyni zamanda, türk dünyası dövlətlərinin bir-birinə dəstək verməsi nəticəsində.

Mən bizim müstəqil dövlətlərimizin formalaşmasında Türkiyə Cümhuriyyətinin rolunu qeyd etmək istəyirəm. Türkiyə Azərbaycanı müstəqil ölkə kimi tanıyan ilk dövlət olmuşdur. İlk illərdə və bütün dövrlərdə biz Türkiyənin dəstəyini, köməyini hiss etmişik, bu gün də hiss edirik və bu bizə əlavə güc verir. Biz müstəqil ölkə olanda dünya birliyinə yeni qədəm qoymuşduq. Amma Türkiyə kimi böyük dövlətin, qardaş ölkənin yanımızda olması, əlbəttə, Azərbaycana çox böyük faydalar gətirirdi.

Bu gün isə qarşılıqlı fəaliyyət nəticəsində bizim gücümüz, Azərbaycanın artan gücü eyni zamanda, Türkiyəni gücləndirir. Bu gün qarşılıqlı investisiyaların həcmi ildən-ilə artır. Artıq Azərbaycan investisiyaları Türkiyəyə qoyulur. Bu investisiyalar milyardlarla dollar həcmindədir. Azərbaycanın artan iqtisadiyyatı Türkiyəni gücləndirir və əksinə. Bu yaxınlarda Türkiyə–Azərbaycan biznes-forumunun keçirilməsi bu istiqamətdə çox önəmli addımdır. Forumda bütün iqtisadi sahədə olan məsələlər müzakirə edildi və gələcək planlar müəyyən olundu. Ölkələrimizin ildən-ilə artan iqtisadi potensialı, əlbəttə, bütün türk dünyasını birləşdirəcəkdir. Biz elə etməliyik ki, qarşılıqlı ticarətin təşviqi ilə bir-birimizi gücləndirək. Bu gün bizim ölkələrimizdə kifayət qədər imkanlar var. Həm təbii sərvətlər, həm inkişaf etmiş sənaye, həm də liberal müasir bazar iqtisadiyyatı. Biz öz resurslarımızı birləşdirib böyük gücə çevrilməliyik.

Yeni yaradılmış, gənc müstəqil türk cümhuriyyətlərində çox böyük təbii ehtiyatlar var. Qazaxıstanda, Türkmənistanda, Azərbaycanda birlikdə neft və qazın hasilatı dünyanın ən böyük neft və qaz hasil edən ölkələri səviyyəsindədir. Eyni zamanda, mövcud neft-qaz ehtiyatları dünya enerji bazarına çox böyük təsiretmə gücündə olan həcmdədir. Biz bunlardan səmərəli istifadə etməklə ölkələrimizi inkişaf etdiririk. Eyni zamanda, qardaş Türkiyənin infrastruktur və tranzit imkanlarından istifadə edərək, öz resurslarımızla dünya bazarlarına çıxırıq. Bu bizi gücləndirir, əlavə maddi imkanlar yaradır, müstəqil siyasət aparmaq üçün bizə çox gözəl şərait yaradır. Eyni zamanda, bütün türk dünyasını birləşdirir.

Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft və qaz kəmərləri dünya miqyaslı layihələrdir. Bu layihələr bütün bölgədə coğrafi-siyası və iqtisadi vəziyyəti köklü şəkildə bizim xeyrimizə dəyişdirmişdir. Bu layihələr həyata keçdikcə bizim xalqlarımız bundan çox böyük fayda götürür. Biz Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən neft-qaz yataqlarından səmərəli istifadə etməklə, Türkiyə ərazisi ilə dünya bazarlarına çatdırırıq. Bu yeni iqtisadi, enerji dəhlizlərinin açılması bizim müstəqilliyimizi daha da gücləndirir. İndi enerji müstəqilliyi ölkələrin müstəqilliyi deməkdir. Biz enerji

cəhətdən tam müstəqil ölkəyik. Amma dünya bazarlarına çıxışımız yoxdur. Bu çıxışı bizim üçün qardaş Türkiyə təmin edir və bundan bütün türk dünyası faydalana bilər.

Mən əminəm ki, gələcəkdə bu sahədə mövcud olan əməkdaşlıq daha da dərinləşməlidir, yeni ölkələri əhatə etməlidir. Türkiyə və Azərbaycan uzun illər ərzində bu sahədə çox səmərəli işləyirlər. Vaxtilə əfsanə kimi tanınan layihələri bizim təşəbbüsümüzlə, birgə səylərlə, rəhbərlərin iradəsi və xalqların dəstəyi ilə gerçəkliyə çevirmişik. İndi artıq bu yollar açılıbdır. Bunlar yeni yollardır, gələcəyə aparan yollardır. Bu yollar müstəqilliyin möhkəmlənməsinə gedən yollardır. Mən əminəm ki, bu gözəl imkanlardan bütün türk dünyası istifadə edəcəkdir.

Əlbəttə, bizi birləşdirən bizim tariximizdir – xalqlarımız əsrlər boyu bir yerdə yaşamış, yaratmışlar – ənənələrimizdir, bizim mədəniyyətimizdir, dilimizdir, kökümüzdür, etnik mənsubiyyətimizdir. Bu, gələcək inkişaf üçün çox böyük bir əsasdır. Ancaq bununla bərabər, onu da bilirik ki, dünyada başqa ölkələr var ki, onlar da etnik cəhətdən bir-birinə yaxındır, onların da etnik mənsubiyyəti birdir, onlar da əsrlər boyu bir yerdə yaşamışlar və bir yerdə olmuşlar. Amma bu heç də o demək deyil ki, onların indiki maraqları və ya siyasi baxışları üst-üstə düşür, yaxud da dostluğu yüksək səviyyədədir.

Yəni, bu çox böyük bir üstünlükdür, çox böyük bir zəmindir. Bu zəmin üzərində qurulan münasibətlər xalqların bir-birinə bağlı olmasından, siyasətçilərin bir-birinə yaxın olmasından, maraqların üst-üstə düşməsindən asılıdır.

Bizim aramızda, Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq münasibətləri bütün sahələrdə özünü büruzə verir. Həm xalqlarımız birdir, həm xalqlara rəhbərlik edən insanlar dostdur, qardaşdır, həm də qeyri-hökumət sektoru – millət vəkilləri, bütün elm adamları, ziyalılar bir-biri ilə sıx bağlıdır. Bu bizim birliyimizi daha da gücləndirir. Mən bugünkü qurultaya bu prizmadan baxıram. Bu qurultay, əlbəttə, çox gözəl qərarlar qəbul edəcəkdir.

Əminəm ki, burada aparılan müzakirələr həm praktik cəhətdən, həm elmi cəhətdən, həm də bizim bütün sahələrdə işbirliyimiz baxımından çox önəmli olacaqdır. Ancaq bu-

nunla bərabər, əminəm ki, Azərbaycanda keçirilən bu qurultay bütün türk dünyasının birləşməsində çox mühüm bir addımdır. Mən şübhə etmirəm ki, qurultayın nəticələri bizim birliyimizi daha da möhkəmləndirəcəkdir.

Biz indi elə bir mərhələdəyik ki, bütün imkanlardan istifadə edib öz mövqelərimizi daha da möhkəmləndirməliyik. Bu sahədə, əlbəttə, xaricdə yaşayan soydaşlarımızın fəaliyyətindən çox şey asılıdır. Təsadüfi deyil ki, bu ilin mart ayında Bakıda Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I forumu keçirilmişdir. Forum türk və Azərbaycan diaspor təşkilatlarının birləşməsi işində çox mühüm rol oynamışdır. Biz artıq bunun nəticələrini görməkdəyik.

Deмək olar ki, indi bütün ölkələrdə türk və Azərbaycan diaspor təşkilatları birgə fəaliyyət göstərirlər, birgə işlər görürlər. Bizi narahat edən, bizim əleyhimizə yönəldilən tədbirlərin qarşısını almaqda da birlikdə çıxış edirlər. Bir-birinin imkanlarından, təşkilatlanma imkanlarından istifadə edirlər. Bəzi hallarda bizə qarşı aparılan ədalətsiz kampaniyalara qarşı çox əsaslandırılmış mövqe ortaya qoyurlar. Əvvəllər bizim buna imkanımız yox idi.

Azərbaycan gənc müstəqil ölkə idi. Müstəqilliyimizin ilk illərində bu sahədə o qədər də böyük imkanlarımız yox idi. Amma bu gün bu sahəyə böyük diqqət göstərilir. Türk diaspor təşkilatlarının bütün dünyada çox böyük tarixi var. Azərbaycan diaspor təşkilatları gəncdir. Amma bunlar birləşərək, bir nöqtəyə vuraraq öz məqsədlərinə nail olurlar, ölkələrimizi müdafiə edirlər, ölkələrimizin milli maraqlarını müdafiə edirlər. Biz dövlətlər də öz dəstəyimizlə onları gücləndiririk. Onların orada bütün strukturlarda fəal olması bizim gücümüzdür. Onlar həm iqtisadi sektorda, həm də siyasi müstəvidə – yaşadıqları ölkələrin parlamentlərində təmsil olunmalıdırlar. Onların təsir imkanları daha da güclü olmalıdır. O təsir imkanları ölkələrimizin milli maraqlarına xidmət edəcəkdir.

Biz, Türkiyə və Azərbaycan bəlkə də dünyada nadir ölkələrik ki, bizə qarşı çox böyük təşkilatlanmış, böyük maliyyə imkanlarına malik olan erməni lobbisi və dünya erməniləri kampaniya aparırlar. Başqa ölkələrin belə prob-

lemləri yoxdur. Amma bizə qarşı əsassız ittihamlar, əsassız iddialar, düşmənçilik addımları var və əlbəttə, bu bizi biganə qoya bilməz. Biz buna hazır olmalıyıq.

Ermənistanın, erməni lobbisinin və onun himayəsi ilə bəzi inkişaf etmiş ölkələrin riyakar siyasətçilərinin əsassız ittihamlarına qarşı biz öz həqiqətimizi qoymalıyıq. Çünki haqqədalət bizim tərəfimizdədir.

Erməni lobbisi və Ermənistan 1915-ci ilin hadisələrinə görə Türkiyəni daim bütün ölkələrdə günahlandırmaq istəyir. Bütün ölkələrin parlamentlərində qondarma «soyqırımı»nı tanıtdırmaq istəyir. Bu, böyük erməni yalanıdır, böyük erməni təxribatıdır. Ermənilər həmişə türklərə, azərbaycanlılara qarşı soyqırımı siyasəti aparmışlar. Keçmiş tarixdə də belə olub, yaxın tarixdə də belə olubdur və Xocalı soyqırımı bunun bariz nümunəsidir. Günahsız insanları, uşaqları, yaşlı qadınları qətlə yetirmək soyqırım deyil, bəs nədir? Ancaq əfsuslar olsun ki, dünya birliyi bunu ya görmür, ya da görmək istəmir, ermənilərin, erməni lobbisinin və dünya ermənilərinin uydurma «faktları» əsasında qərar qəbul edirlər. Biz buna qarşı öz siyasətimizi, öz həqiqətimizi qoymalıyıq, öz təbliğatımızı, öz gücümüzü qoymalıyıq. Əlbəttə ki, həqiqəti çatdırmaq, təbliğ etmək, bütün dünyaya yaymaq bizim işimizdir – dövlətlərin, diaspor təşkilatlarının, hər bir vətənpərvər insanın işidir.

Biz indi bunu edirik və bu sahədə Türkiyə dövlətinin, türk xalqının fəal çalışmaları nəticəsində Amerika Konqresinin Xarici əlaqələr komitəsində qəbul edilmiş ədalətsiz qərarın müzakirəsi dayandı və onun davamı olmadı. Yəni bu, Türkiyənin gücü hesabına mümkün oldu. Amma burada, əlbəttə ki, müxtəlif amillərin mövcudluğu vacibdir. Təbliğat, bizim həqiqətə əsaslanmış sözlərimiz və eyni zamanda, bizim gücümüz. Bizim gücümüz isə birliyimizdədir. Biz nə qədər güclü olsaq, bizim həqiqətimiz də bir o qədər üstün olacaqdır. O qədər də bizim sözümüzü eşidəcəklər, bizim sözümüzlə hesablaşacaqlar. Ona görə bir daha mən bu məsələyə qayıtmaq istəyirəm ki, bizim birliyimiz ölkələrimizin gələcəyi üçün başlıca şərtdir və bizim gücümüz bundadır.

Azərbaycana qarşı uzun illər aparılan işğalçı siyasət, əfsuslar olsun ki, dünya birliyi tərəfindən lazımi səviyyədə pislənmir. Azərbaycanın ərazi bütövlüyü pozulubdur. Ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan çox soydaşımız qaçqın, köçkün vəziyyətinə düşübdür. Azərbaycanın işğal olunmuş əraziləri tamamilə dağıdılıbdır. Bizim məscidlərimiz, qəbirlər, bütün binalarımız orada yerlə yeksan edilibdir. Heç kim buna reaksiya vermir. Heç kim buna görə Ermənistanı cəzalandırmır. Bizim qarşımızda seçim qalmır. Biz nə etməliyik?! Biz artıq 13 ildir sülh danışıqları aparmaqla çalışırıq ki, öz ərazi bütövlüyümüzü danışıqlar yolu ilə bərpa edək. Amma görəndə ki, bu, baş vermir, biz başqa üsullara əl atmağa məcburuq.

Yenə də qayıdıram bizim əsas mövzumuza – yenə də birlik, yenə də bizim gücümüz. Biz bütün işlərimizdə öz gücümüzə əsaslanmalıyıq və öz haqqımızı bərpa etməliyik. Mən şübhə etmirəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Azərbaycanın işğal altındakı bütün bölgələri azad olunacaq və bizim soydaşlarımız oraya qayıdacaqlar və o gün uzaqda deyildir.

Əziz dostlar!

Mən bu gözəl gündə sizi bir daha ürəkdən salamlayıram. Azərbaycana gəlmiş bütün qonaqları səmimiyyətlə salamlayıram. Sizə «Xoş gəlmisiniz!» deyirəm. Siz öz gəlişinizlə, burada olmağınızla Azərbaycana böyük sevinc gətirdiniz. Bu gün bütün türk dünyası Azərbaycandadır. Bu gün bütün türk dünyası birdir. Mən arzu edirəm ki, türk dünyası həmişə bir olsun. Həmişə bir yerdə olsun və gələcək işlərimiz nəticəsində bizim gücümüz artsın, imkanlarımız artsın, türk dünyası rifah içində yaşasın və bütün türk dövlətləri çiçəklənsin, inkişaf etsin.

Sağ olun.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ İŞGÜZAR SƏFƏRİ

*17 noyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də Türkiyəyə işgüzar səfərə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də gecə İstanbul şəhərinə gəlmişdir.*

*Dövlətimizin başçısını Atatürk Beynəlxalq Hava Limanında İstanbul şəhərinin valisi Müəmmər Gülər və digər rəsmi şəxslər böyük hörmət və ehtiramla qarşıladılar.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ YUNANISTANIN BAŞ NAZİRİ KONSTANTİNOS KARAMANLİSİN GÖRÜŞÜ

*18 noyabr 2007-ci il*

*Türkiyə–Yunanıstan qaz kəmərinin açılış mərasimində iştirak edən Azərbaycan prezidenti İlham Əliyev noyabrın 18-də Yunanıstanın Baş naziri Konstantinos Karamanlislə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafı ilə bağlı fikir mübadiləsi aparıldı. Qeyd olundu ki, Türkiyə–Yunanıstan qaz kəmərinin istifadəyə verilməsindən sonra Azərbaycan, Türkiyə və Yunanıstan arasında əməkdaşlığın yeni formatı yaranıbdır. Bunun həm region dövlətləri, həm də Azərbaycan və Yunanıstan üçün yaxşı perspektivləri vardır.*

*Prezident İlham Əliyev bildirdi ki, bu əməkdaşlıq Azərbaycanın Avropa İttifaqı ilə enerji sahəsində əməkdaşlığı istiqamətində mühüm bir addımdır.*

*Tərəflər qeyd etdilər ki, Avropa İttifaqı bu cür tədbirləri dəstəkləməlidir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də söhbət getdi, Yunanıstanın Baş naziri Konstantinos Karamanlis Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bildirdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-ın ENERGETİKA NAZİRİ SAMUEL BODMAN İLƏ GÖRÜŞÜ

*Türkiyə, Ədirnə şəhəri*

*18 noyabr 2007-ci il*

*Türkiyə–Yunanıstan qaz kəmərinin açılış mərasimində iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Ədirnə şəhərində Amerika Birləşmiş Ştatlarının Energetika naziri Samuel Bodman ilə görüşmüşdür.*

*Samuel Bodman Azərbaycanın bu və digər irimiqyaslı layihələrdə iştirakını və fəaliyyətini yüksək qiymətləndirdi.*

*Prezident İlham Əliyev regional əməkdaşlıq və enerji təhlükəsizliyi məsələlərində ölkəmizin əhəmiyyətini vurğuladı, Azərbaycan ilə ABŞ arasında energetika sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyini bildirdi.*

*Görüşdə ölkələrimiz arasında energetika sahəsində işbirliyinin bundan sonra da inkişaf edəcəyinə əminlik vurğulandı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ–YUNANISTAN QAZ KƏMƏRİNİN AÇILIŞ MƏRASİMİNDƏ

*Türkiyə, İpşala sərhəd-keçid məntəqəsi*

*18 noyabr 2007-ci il*

*Noyabrın 18-də Türkiyə ilə Yunanıstan arasında inşa olunmuş qaz kəmərinin təntənəli açılış mərasimi keçirilmişdir.*

*Türkiyənin Ədirnə şəhərinin ərazisində, Yunanıstanla sərhəddə yerləşən İpşala sərhəd-keçid məntəqəsində təşkil edilmiş tədbirdə Azərbaycan prezidenti İlham Əliyev, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, Yunanıstanın Baş naziri Konstantinos Karamanlis, Türkiyənin Energetika və Təbii Ehtiyatlar naziri Hilmi Gülər, ABŞ-ın Energetika naziri Samuel Bodman və digər rəsmi şəxslər iştirak edirdilər.*

*Türkiyə ilə Yunanıstanın qaz kəmərləri şəbəkələrini birləşdirəcək bu boru xəttinin inşasına dair ilkin sənəd 2002-ci ilin aprelində imzalanmış, 2003-cü ilin fevralında hökumətlərarası razılıq əldə olunmuşdu. 296,5 kilometrlik kəmərin 210 kilometri Türkiyənin, 86,5 kilometri Yunanıstanın ərazisindən keçir. Layihənin ümumi dəyəri təxminən 250 milyon avrodur. İlkin mərhələdə 250 milyon kubmetr, ikinci ildə 500 milyon kubmetr, üçüncü ildə 750 milyon kubmetr qaz nəql ediləcəkdir. Sonrakı 15 il ərzində bu göstərici 12 milyard kubmetrə çatdırılmalıdır. Bundan başqa, 2012-ci ilin sonunadək Adriatik dənizinin dibi ilə daha bir kəmərin inşası planlaşdırılır. Bu xətt Yunanıstanla İtaliyanı birləşdirəcəkdir. Nəticədə Xəzər regionunda hasil ediləcək təbii qazın Mərkəzi Avropaya çatdırılması imkanı daha da genişlənəcəkdir.*

*Xatırladaq ki, 2007-ci ilin iyulunda Cənubi Qafqaz Boru Kəməri (CQBK) vasitəsilə Türkiyənin «Botaş» şirkətinin qaz nəqli sisteminə ilk qaz verilmişdir.*

*Azərbaycanın, Türkiyənin və Yunanıstanın dövlət himnləri səsləndirildi.*

*Mərasimi Türkiyənin Energetika və Təbii Ehtiyatlar naziri Hilmi Gülər açdı.*

*Hilmi Gülər mərasim iştirakçılarını salamlayaraq, Türkiyə–Yunanıstan qaz kəməri vasitəsilə Xəzər hövzəsindən, Orta Şərqdən və Türkiyəyə qonşu olan digər bölgələrdən təbii qazın Türkiyə və Yunanıstan ərazisi ilə Avropa bazarlarına ötürüləcəyini bildirdi. Türkiyə naziri kəmərin tikintisi ilə bağlı hökumətlərarası anlaşma, «Botaş» və «Depa» şirkətləri arasında alqı-satqı razılaşmasının imzalanması, texniki göstəricilər, ilkin mərhələdə və sonrakı illərdə qaz nəqlinin nəzərdə tutulan həcmi barədə məlumat verdi. Hilmi Gülər «Şahdəniz» layihəsi ilə bağlı işlərin başa çatdırılmasında böyük əməyi olan prezident İlham Əliyevə, habelə Baş nazir Rəcəb Tayyib Ərdoğana təşəkkürünü bildirdi.*

*ABŞ-ın Energetika naziri Samuel Bodman bildirdi ki, bu layihə çox əhəmiyyətli, iqtisadi cəhətdən çox səmərəlidir. O, son illər həyata keçirilən bir sıra beynəlxalq layihələrə və təşəbbüskarlığına görə Azərbaycan prezidentinə təşəkkür edərək dedi ki, ABŞ bu layihələrə böyük önəm verir.*

*Bu kəmər Azərbaycan, Türkiyə və Yunanıstan üçün böyük müvəffəqiyyətdir və yeni işbirliyi yaradacaq, uzunmüddətli enerji təhlükəsizliyini təmin edəcəkdir. Bunu gerçəkləşdirmək çox vacib idi. Hazırda Avropa ən böyük enerji bazarıdır və gələcəkdə tələbat daha da artacaqdır. Azərbaycanın və Orta Asiyanın ən böyük enerji ixracatçısı olacağını vurğulayan nazir gələcəkdə Türkmənistan və Qazaxıstanın da bu layihəyə qoşulacağına əminliyini söylədi.*

*Yunanıstanın Baş naziri Konstantinos Karamanlis göstərilən qonaqpərvərliyə görə Türkiyə tərəfinə təşəkkürünü bildirdi, Azərbaycan prezidentini xüsusi olaraq «Xoş gəlmisiniz!» deyə salamladı. Bu layihənin çox önəmli xarakter daşıdığını vurğulayan Baş nazir bunu dəstəklədiklərinə görə Avropa İttifaqının rəhbərlərinə təşəkkür etdi. O dedi ki, gələcəkdə bu kəmər İtaliya sərhədinə qədər uzanacaq və bununla əlaqədar sənəd imzalanmışdır.*

*Konstantinos Karamanlis bu ilin avqustunda Azərbaycanla təbii qazın nəqli ilə əlaqədar sazişin imzalandığını da vurğuladı. O, Azərbaycan–Türkiyə–Yunanıstan–İtaliya dördtərəfli işbirliyini tarixi reallıq adlandırdı, bunun ölkələr üçün çox əhəmiyyətli olduğunu söylədi. Dünyada enerji problemlərinin yarandığı bir vaxtda kəmərin işə düşməsini yüksək qiymətləndirən Baş nazir bunu həm də beynəlxalq işbirliyinin nümunəsi kimi səciyyələndirdi. Konstantinos Karamanlis gələcəkdə Türkiyə ilə Yunanıstan arasında elektrik xətlərinin birləşdirilməsinin nəzərdə tutulduğunu, bu barədə avqust ayında sənəd imzalandığını xatırlatdı. O dedi ki, Türkiyə ilə əlaqələrin daha da sıxlaşdırılmasına, dərinləşdirilməsinə çalışırıq və Türkiyənin Avropa İttifaqına qəbuluna böyük dəstək veririk.*

*Sonra çıxış edən Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan dedi ki, iki qonşu ölkə arasında reallaşdırılan qaz kəmərinin açılış mərasimində Azərbaycan prezidenti İlham Əliyevin iştirakı bizim üçün qürur mənbəyidir. 2005-ci ildə təməli qoyulan Avropa İttifaqına üzvlüklə bağlı Türkiyə–Yunanıstan əlaqələri bütün sahələrdə daha da genişlənməkdədir. Türkiyənin geosiyasi əhəmiyyətindən, Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum neft-qaz layihələrindən danışan Baş nazir Xəzər hövzəsinin təbii ehtiyatlarının Türkiyə və Yunanıstan ərazisi ilə Avropa bazarlarına çıxarılmasının yeni çoxtərəfli əməkdaşlığın əsasını qoyduğunu bildirdi. O dedi ki, bütün işlərdə qarşılıqlı əməkdaşlığa önəm verən Türkiyə bölgədə böyük enerji dəhlizinə çevrilir. Avropaya qaz nəqli layihəsinin növbəti mərhələsində boru xəttinin Adriatik dənizindən keçməklə İtaliyaya çatdırılmasından sonra Xəzər hövzəsi və Orta Şərq mənbələrindən Yunanıstana ildə 3,6 milyard kubmetr və İtaliyaya isə 8 milyard kubmetr qazın nəqli planlaşdırılır.*

*Rəcəb Tayyib Ərdoğan Azərbaycan prezidenti İlham Əliyevin bu mərasimdə iştirakını bir daha yüksək qiymətləndirdi, Azərbaycan nefti və qazının dünya bazarlarına çıxarılmasının beynəlxalq aləmdə əməkdaşlığın əsl nümunəsi olduğunu dedi. Nabukko layihəsinin önəmindən də bəhs edən Türkiyənin Baş naziri bütün işlərin bölgədə sülhə, əmin-amanlığa və təhlükəsizliyə xidmət etdiyini vurğuladı, layihənin xeyirli və uğurlu olmasını arzuladı.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli Baş nazirlər!
Hörmətli nazirlər!
Hörmətli xanımlar və cənablar!

Mən sizin hamınızı salamlayıram və bu tarixi hadisə münasibətilə ürəkdən təbrik etmək istəyirəm.

Bu gün Türkiyə və Yunanıstan arasında qaz xətlərinin birləşməsi bölgəyə yenilik gətiribdir, yeni əməkdaşlıq imkanları gətiribdir. Enerji sahəsində mövcud olan əməkdaşlığın yeni formatı yaranıb və mən əminəm ki, bu başlanğıc çox uğurlu olacaqdır. Bu, birinci addımdır. Mən şübhə etmirəm ki, bundan sonra yeni addımlar atılacaq və bölgədə sabitliyin, əməkdaşlığın, təhlükəsizliyin, o cümlədən enerji təhlükəsizliyinin təmin olunması üçün bütün lazımi tədbirlər görüləcəkdir.

Mən çox şadam ki, bu gün Azərbaycan qazı ilk dəfə olaraq, Avropa İttifaqı bazarına çatdırılır. Azərbaycan qədim neft ölkəsidir. İlk dəfə dünyada sənaye üsulu ilə neft XIX əsrin ortalarında Azərbaycanda hasil edilibdir. Eyni zamanda, dənizin dibindən də ilk dəfə olaraq nefti məhz Azərbaycan neftçiləri XX əsrin ortalarında hasil etmişlər. Yəni, Azərbaycanın neft tarixi çox zəngindir. Ancaq qaz ölkəsi kimi, Azərbaycan təzə-təzə özünü dünyaya təqdim edir. Biz o ölkəyik ki, hələ keçən il xaricdən 4,5 milyard kubmetr qaz idxal edirdik. Amma Azərbaycanda aparılan böyük işlərin nəticəsində, neft strategiyasının icrası nəticəsində, Azərbaycanda böyük qaz yataqlarının kəşfi və işlənilməsi nəticəsində bu gün Azərbaycan artıq qaz idxal etmir, əksinə, öz qazını qonşu ölkələrin bazarlarına ixrac edir. İndi Azərbaycan üç ölkəyə – Gürcüstana, Türkiyəyə və bu gündən Yunanıstana qazın ixracı ilə məşğuldur. Azərbaycan qazı bundan sonra başqa ölkələrə ixrac ediləcəkdir və beləliklə, həm bizim maraqlarımız, həm tranzit ölkələrin maraqları təmin olunacaq və əlbəttə ki, həm də istehlakçıların maraqları təmin ediləcəkdir. Bu gün üç ölkənin əməkdaşlığı məhz bu formatda müşahidə olunur: istehsalçı, tranzit ölkə və qazı istehlak edən tərəf. Üç tərəf vahid formatda öz səylərini birləşdirir. Üç

tərəfin maraqları tam şəkildə təmin olunur və əminəm ki, bu, bütün başqa bölgələr üçün nümunə ola bilər. Bizim əməkdaşlığımızın başlanğıcı çox uğurludur və mən əminəm ki, gələcəyi də uğurlu olacaqdır.

1994-cü ildə Azərbaycan xarici neft şirkətlərini ölkəyə dəvət etməklə Xəzər dənizinin neft-qaz yataqlarını dünya bazarına açdı. Bugünkü hadisə də öz başlanğıcını məhz 1994-cü ildən götürür. Daha doğrusu, Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etdiyi və öz təbii sərvətlərinə sahib olduğu 1991-ci ildən.

Biz ardıcıl olaraq, artıq 13 ildir ki, neft-qaz siyasətimizi elə aparırıq ki, ölkənin bütün maraqları təmin edilsin və bizim üçün dost, qonşu ölkələrin maraqları da təmin olunsun. 1994-cü ildə əgər «Əsrin müqaviləsi» imzalanmasaydı, təbii ki, Bakı–Tbilisi–Ceyhan neft kəməri inşa olunmazdı. Əgər o olmasaydı, Bakı–Tbilisi–Ərzurum qaz kəməri inşa olunmazdı və bu gün biz «Şahdəniz» yatağından qaz hasilatına nail ola bilməzdik. Yəni bütün bu məsələlər bir-biri ilə bağlıdır. «Şahdəniz» qaz yatağından çıxarılan böyük həcmdə qaz uzun illər ərzində həm Azərbaycan xalqına, həm də qardaş, dost ölkələrin xalqlarına xidmət edəcəkdir.

Azərbaycanda neft-qaz ehtiyatları çox böyük həcmdədir. Təkcə «Şahdəniz» qaz yatağından biz 1 trilyon 200 milyard kubmetr qaz hasil etmək fikrindəyik, yəni son hesablamalar bunu göstərir. Azərbaycandakı digər qaz yataqlarında da kifayət qədər ehtiyatlar vardır və bu günə ancaq təsdiq edilmiş rəqəm təxminən 2 trilyon kubmetrdir. Ancaq biz keçmiş təcrübədən bilirik ki, işlər getdikcə, yeni quyular qazıldıqca, əlbəttə ki, bu həcmlər daha da artır. Yəni, bundan sonra uzun illər ərzində Azərbaycan həm öz enerji təhlükəsizliyini tam şəkildə təmin edəcək, həm də tərəfdaşlarımızın enerji təhlükəsizliyinə öz töhfəsini verəcəkdir.

Mən bugünkü hadisəni eyni zamanda, Azərbaycan–Avropa İttifaqı əməkdaşlığı çərçivəsində mühüm hadisə kimi qiymətləndirirəm. Bir il bundan əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzalanmışdır və artıq bir ildir biz bu memorandumun icrası ilə məşğuluq.

Türkiyə–Azərbaycan münasibətləri çoxşaxəlidir. Bizim münasibətlərimizi qardaşlıq münasibətləri kimi səciyyələndirmək mümkündür. Biz bütün sahələrdə, o cümlədən enerji sahəsində uğurla əməkdaşlıq edirik. 10 ildən artıqdır ki, bu sahədə çox böyük işlər görülübdür, «Azəri», «Çıraq», «Günəşli» yataqlarından çıxarılan neft Bakı–Tbilisi–Ceyhan kəməri ilə ixrac olunur. Ceyhan limanında böyük terminal tikilibdir və gələcəkdə böyük işlərin görülməsi nəzərdə tutulur. «Şahdəniz» yatağından çıxarılan qazı biz Türkiyə ərazisi ilə dünya bazarlarına çatdırırıq. Yəni, bu münasibətlərin artıq böyük tarixi var.

Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlıq yeni yaranır və bunda Yunanıstanın rolu çox önəmlidir. Yunanıstan Avropa İttifaqının ilk ölkəsidir ki, bu sahədə bizimlə əməkdaşlıq edir və biz bu əməkdaşlıqdan çox razıyıq, çox məmnunuq. Əminəm ki, Yunanıstanla Azərbaycan arasında mövcud olan dostluq münasibətləri, o cümlədən enerji sahəsində əməkdaşlıq daha da genişlənəcək və bütövlükdə bölgədə yeni bir əməkdaşlıq formatı yaradılacaqdır.

Biz neft-qaz yataqlarımızın işlənilməsinə başlayanda heç təsəvvür edə bilmirdik ki, nə vaxtsa Azərbaycan qazı Avropa bazarına çıxarılacaqdır. Biz o vaxt sadəcə olaraq, zəngin yataqlarımızdan çıxarılacaq nefti, qazı qonşu ölkələrin bazarına çatdırmaq fikrində idik. Hesab edirdik ki, Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum neft, qaz kəmərlərinin tikintisi ilə bu sahədə işlərimiz artıq tamamlanıbdır. Yəni, biz bütün istədiyimizə nail olmuşuq, qarşımızda duran bütün vəzifələri icra etmişik və bundan sonra Azərbaycan xalqı və Azərbaycan dövləti bu gözəl imkanlardan uzun illər ərzində istifadə edəcəkdir. Ancaq gördüyünüz kimi, 1994-cü ildə Azərbaycanda bağlanmış ilk neft müqaviləsi bu gün yeni məsələlərin ortaya çıxmasına xidmət göstərir. Mən əminəm ki, növbəti illərdə – bu bizim planlarımızda var – Avropa–Azərbaycan enerji dialoqu daha da güclənəcəkdir. Avropa İttifaqının üzvü olan ölkələrlə enerji sahəsində müttəfiqliyimiz davam etdiriləcəkdir. Yeni layihələr, yeni məsələlər ortaya çıxacaqdır. Neft, qaz hasil edən ölkə kimi, indi biz

bütün layihələrdə fəal iştirak edirik və bütün layihələri öz tərəfdaşlarımızla birlikdə icra etməyə qadirik.

Mən bugünkü hadisəyə bu geniş prizmadan yanaşıram. Əminəm ki, bu gün burada, Türkiyə–Yunanıstan sərhədində yaranan yeni əməkdaşlıq formatı daha da genişlənəcəkdir. Bu formata yeni ölkələr daxil olacaqdır. Əməkdaşlığın yeni formaları üzə çıxacaqdır. Beləliklə, həm Xəzər dənizi, Qafqaz, Türkiyə və Avropada – bu bölgədə əməkdaşlıq, təhlükəsizlik daha da güclənəcək və xalqlar bir-birinə daha da sıx bağlı olacaq və həm də bu layihələrdə iştirak edən bütün xalqlar bundan faydalanacaqlar.

Azərbaycan Respublikasının Prezidenti kimi, mən bu gün çox şadam ki, Azərbaycanın enerji siyasəti əməkdaşlığın dərinləşməsinə xidmət edir, ölkələrin dostluğuna və gələcək əməkdaşlıq perspektivlərinə xidmət edir.

Bu gözəl hadisə münasibətilə sizin hamınızı bir daha ürəkdən təbrik etmək istəyirəm. Məni bu gözəl mərasimə dəvət etdiyinə görə əziz qardaşım Rəcəb Tayyib Ərdoğana öz təşəkkürümü bildirmək istəyirəm. Biz dünən Bakıda idik, birlikdə Türk dövlət və cəmiyyətlərinin dostluq, qardaşlıq və əməkdaşlıq qurultayında iştirak edirdik. Dünən axşam İstanbula gəldik. Bu gün birlikdə buraya gəldik və dostumuz, Baş nazir Karamanlis ilə görüşdük. Yəni, bu bir daha onu göstərir ki, bizim aramızda olan münasibətlər çox böyük təsir gücünə malikdir, yeni ölkələri əhatə edir, yeni məsələlər üzə çıxır və əməkdaşlıq, dostluq, tərəfdaşlıq güclənəcəkdir.

Bir daha sizin hamınızı ürəkdən təbrik edirəm, xeyirli olsun!

* * *

*Sonra Azərbaycan prezidenti İlham Əliyev, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, Yunanıstanın Baş naziri Konstantinos Karamanlis və Türkiyənin Energetika və Təbii Ehtiyatlar naziri Hilmi Gülər Türkiyə–Yunanıstan təbii qaz kəmərinin rəmzi açılışını bildirən düyməni basdılar və qaz məşəlini alovlandırdılar, məşəl önündə xatirə şəkli çəkdirdilər.*

*Türkiyə ərazisində təntənəli mərasim başa çatdıqdan sonra prezident İlham Əliyev, baş nazirlər və digər qonaqlar Yuna-*

*nıstan sərhədini keçdilər. Burada mərasimin ikinci hissəsi davam etdirildi.*

*Azərbaycan prezidenti İlham Əliyev, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, Yunanıstanın Baş naziri Konstantinos Karamanlis, ABŞ və digər ölkələrdən gəlmiş qonaqlar Yunanıstanın ərazisində yerləşən qazpaylayıcı və ölçü stansiyası ilə yaxından tanış oldular.*

*Prezident İlham Əliyev, baş nazirlər Rəcəb Tayyib Ərdoğan və Konstantinos Karamanlis düyməni basdılar və bununla da qaz Yunanıstan tərəfə daxil oldu.*

*Bu münasibətlə keçirilən mərasimi Yunanıstanın İnkişaf naziri Xristos Folias açaraq, Azərbaycan prezidentini, Türkiyənin Baş nazirini və digər qonaqları salamladı. O, bu kəmərin açılışı ilə Türkiyə və Yunanıstan arasında münasibətlərdə yeni dövrün başlandığını, Xəzər bölgəsindən, Orta Şərqdən və digər mənbələrdən gələn qazın gələcəkdə Yunanıstan vasitəsilə İtaliyaya da ötürüləcəyini bildirdi.*

*Sonra Yunanıstanın Baş naziri Konstantinos Karamanlis çıxış edərək dedi ki, Azərbaycan prezidenti İlham Əliyevin burada olması bizi daha da şərəfləndirir. Biz gələcəkdə daha böyük əməkdaşlığın qurulması üçün birlikdə çalışacağıq. Elektrik enerjisi sahəsində də birgə əməkdaşlığın zəruriliyini vurğulayan K.Karamanlis bütün bunların Yunanıstan–Türkiyə münasibətlərində yeni fürsətlər yaradacağını və tərəflərin onlardan səmərəli istifadə etməsinin zəruriliyini bildirdi. O dedi ki, biz – Türkiyə, Azərbaycan və Yunanıstan sülhə, əməkdaşlığa gedən yolda mühüm əməkdaşlıq həyata keçiririk.*

*Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan çıxışında görülən işlərdən bütün tərəflərin məmnun qaldığını bildirdi və dedi ki, bu layihənin həyata keçirilməsi regional və beynəlxalq əməkdaşlığımızda yeni mərhələ açmışdır. Xəzər hövzəsi ölkələrinin təbii ehtiyatlarının Avropaya çıxarılmasını təmin etmək üçün bundan sonra da səylə çalışacağıq. Mərasimdə iştirak edən və bu işlərdə çox böyük rol oynayan Azərbaycan prezidenti İlham Əliyevə dərin təşəkkür etdi və ölkələrimiz arasındakı əlaqələrin bundan sonra daha da möhkəmlənəcəyini əminliklə qeyd etdi.*

*Bununla da Yunanıstan ərazisindəki mərasim başa çatdı.*

**UKRAYNA PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VİKTOR YUŞŞENKOYA**

Hörmətli Viktor Andreyeviç!

Donetsk şəhərində A.F.Zasyadko adına şaxtada partlayış nəticəsində çoxsaylı insan tələfatı haqqında xəbər məni qəlbən sarsıtmışdır.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə və həlak olmuş şaxtaçıların qohumlarına və yaxınlarına, bütün Ukrayna xalqına səmimi başsağlığı verirəm. Zərərçəkənlərin hamısının tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 noyabr 2007-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSAYA SƏFƏRİ

*İstanbul hava limanı*

*19 noyabr 2007-ci il*

*Türkiyə Respublikasına işgüzar səfərini başa çatdıran Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 19-da İstanbuldan Parisə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Atatürk Beynəlxalq Hava Limanında İstanbul şəhərinin valisi Müəmmər Gülər və digər rəsmi şəxslər yola saldılar.*

## ORLİ HAVA LİMANINDA QARŞILANMA MƏRASİMİ

*Paris*

*19 noyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 19-da Fransa Respublikasına səfərə gəlmişdir.*

*Parisin Orli Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı təyyarənin pilləkəni yanında Fransanın yüksək vəzifəli rəsmi şəxsləri qarşıladılar.*

*Azərbaycan prezidenti motosikletçilər dəstəsinin müşayiəti ilə onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN «TOTAL» ŞİRKƏTLƏR QRUPUNUN BAŞ DİREKTORU KRİSTOF DÜ MARCERİ İLƏ GÖRÜŞÜ

*Fransa*

*19 noyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 19-da Parisdə Fransanın «Total» Şirkətlər Qrupunun Baş direktoru Kristof dü Marceri ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycanla «Total» şirkəti arasında uzun illər uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı və bu əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FRANSA PREZİDENTİ NİKOLA SARKOZİNİN GÖRÜŞÜ

*Paris, Yelisey sarayı*

*20 noyabr 2007-ci il*

*Noyabrın 20-də Parisdə Yelisey sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fransa Respublikasının Prezidenti Nikola Sarkozinin görüşü olmuşdur.*

*Sarayın həyətində Azərbaycan prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü. Dövlətimizin başçısı hərbi marşın sədaları altında Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Fransa Respublikasının Prezidenti Nikola Sarkozi hörmət və ehtiram əlaməti olaraq, Azərbaycan prezidenti İlham Əliyevi sarayın pilləkənləri önündə böyük səmimiyyətlə və ehtiramla qarşıladı.*

*Sonra prezidentlərin görüşü keçirildi.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı.*

*Fransa prezidenti Nikola Sarkozi Azərbaycan prezidenti İlham Əliyevin Parisə bu səfərinin ikitərəfli əlaqələrin inkişafına öz töhfəsini verəcəyinə əmin olduğunu söylədi.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə də toxunuldu.*

*Azərbaycan prezidenti İlham Əliyev Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzündən danışdı və etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü bildirdi. Dövlətimizin başçısı bu münaqişənin yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü bərpa edilməklə həll olunmasının zəruriliyini vurğuladı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FRANSA SENATININ SƏDRİ KRİSTİAN PONSÖLENİN GÖRÜŞÜ

*Paris*

*20 noyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Fransa Senatının binasına gəlmişdir.*

*Binanın qarşısında dövlətimizin başçısının şərəfinə Fəxri qarovol dəstəsi düzülmüşdü. Fransa Senatının sədri Kristian Ponsöle Azərbaycan prezidenti İlham Əliyevi binanın önündə böyük hörmət və ehtiramla qarşıladı.*

*Prezident İlham Əliyev ilə Kristian Ponsöle arasında görüşdə ölkələrimizin əlaqələrinin müxtəlif səviyyələrdə, o cümlədən parlamentlərarası əlaqələr səviyyəsində uğurla inkişaf etdiyi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın genişləndiyi vurğulandı.*

*Senatın sədri Azərbaycan prezidentinin Fransaya növbəti səfərinin ölkələrimiz arasında münasibətlərin inkişafına təkan verəcəyini bildirdi.*

*Görüşdə Azərbaycan–Fransa parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərlər etməsi məmnunluqla vurğulandı, qanunvericilik orqanları arasında əlaqələrin bundan sonra daha da genişlənəcəyinə əminlik ifadə olundu.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSAYA SƏFƏRİ BAŞA ÇATMIŞDIR

*20 noyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransa Respublikasına səfəri noyabrın 20-də başa çatmışdır.*

*Dövlətimizin başçısını Parisin Orli Beynəlxalq Hava Limanında Fransanın yüksək vəzifəli rəsmi şəxsləri yola saldılar.*

## XIII BEYNƏLXALQ «TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI – 2007» SƏRGİSİNİN VƏ «REGİONAL İNNOVASİYA ZONASI: PROBLEMLƏR VƏ HƏLLƏR» BEYNƏLXALQ KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli sərgi və konfrans iştirakçıları!

Sizi beynəlxalq sərgi və konfransın açılışı münasibəti ilə səmimi-qəlbdən təbrik edir, informasiya cəmiyyətinin qurulması naminə göstərdiyiniz səyləri alqışlayır, hər birinizə cansağlığı, uzun ömür və xoşbəxtlik arzulayıram.

Azərbaycan Respublikasının dinamik inkişafı və əldə etdiyi yüksək iqtisadi göstəricilər, həmçinin «Elektron Azərbaycan» Dövlət Proqramının uğurla yerinə yetirilməsi yüksək texnologiyalara əsaslanan innovasiyayönümlü irimiqyaslı layihələrin həyata keçirilməsi üçün əlverişli şərait yaratmışdır. Ölkədə formalaşan informasiya-kommunikasiya infrastrukturu, müvafiq qanunvericilik aktlarının qəbul edilməsi, internet şəbəkəsinin davamlı genişləndirilməsi, kompyuter istehsal edən zavodun tikilməsi, təhsildə reallaşdırılan proqramlar və bu istiqamətdə gerçəkləşdirilən digər layihələr yüksək texnologiyaların inkişafı istiqamətində atılan mühüm addımlardır.

Cenevrə sammitində bəyan edilən prinsiplərə uyğun olaraq biz bu gün də enerji sektorunun geniş imkanlarını insan potensialının gücləndirilməsinə və qeyri-neft sektorunun inkişafına yönəldərək gələcək inkişaf strategiyamızın perspektivlərini müəyyənləşdiririk. Ümidvaram ki, genişmiqyaslı beynəlxalq enerji və nəqliyyat dəhlizlərinin yaradılmasında önəmli rol oynayan ölkəmiz informasiya dəhlizinin də reallaşmasında özünəməxsus mövqelər əldə edə biləcəkdir.

Sizin Bakıda keçirilən ənənəvi sərgi və konfransınız bir daha sübut edir ki, dövlət siyasətinin prioritet istiqaməti olmaqla, informasiya və telekommunikasiya texnologiya-

larının inkişafına xüsusi əhəmiyyət verilməsi dünyanın bir çox biznes dairələrinin diqqətini böyük potensiala malik ölkə kimi, Azərbaycana yönəltmişdir. Əminəm ki, bu istiqamətdə həm dövlət strukturlarının, həm də özəl sektorun beynəlxalq və regional səviyyədə əməkdaşlığı uğurlu olacaq, tezliklə öz səmərəli nəticələrini verəcək və informasiya cəmiyyətinin bərqərar olması yolunda yeni mərhələyə çevriləcəkdir.

Sizin hamınızı bir daha salamlayır, sərgi və konfransınızın işinə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı*, 21 noyabr 2007-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTANA SƏFƏRİ

*Tbilisi hava limanı*

*21 noyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Gürcüstana səfərə gəlmişdir.*

*Azərbaycanın, Türkiyənin və Gürcüstanın dövlət bayraqları ilə bəzədilmiş Tbilisi Beynəlxalq Hava Limanında dövlətimizin başçısını prezident Mixeil Saakaşvili böyük hörmət və ehtiramla qarşıladı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN GÖRÜŞÜ

*Tbilisi*

*21 noyabr 2007-ci il*

*Noyabrın 21-də Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi və digər istiqamətlərdə uğurla inkişaf etdiyi, Türkiyə prezidenti Abdullah Gülün Azərbaycana rəsmi səfərinin bu əlaqələrin daha da genişlənməsinə töhfə verdiyi vurğulandı.*

*Dövlət başçıları dost və qardaş Azərbaycan və Türkiyənin qlobal enerji layihələrində birgə iştirakının həm ikitərəfli, həm də regional əməkdaşlığın genişlənməsinə xidmət etdiyini bildirdilər.*

*Prezidentlər vurğuladılar ki, Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi də ikitərəfli və regional əməkdaşlığı daha da dərinləşdirəcək və möhkəmləndirəcəkdir.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXEİL SAAKAŞVİLİNİN GÖRÜŞÜ

*Tbilisi*

*21 noyabr 2007-ci il*

*Noyabrın 21-də Tbilisidə Azərbaycan prezidenti İlham Əliyevin və Gürcüstan prezidenti Mixeil Saakaşvilinin görüşü olmuşdur.*

*Söhbət zamanı ölkələrimiz arasında əlaqələrin genişləndiyi, qlobal enerji layihələrinin uğurla həyata keçirildiyi vurğulandı.*

*Prezidentlər Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin xalqlarımız, eləcə də dünya üçün əhəmiyyətindən söhbət açdılar və bildirdilər ki, yol Azərbaycan ilə Gürcüstanın, bütövlükdə regionun inkişafına xidmət edəcəkdir.*

*Görüşdə ikitərəfli əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik vurğulandı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKI–TBİLİSİ–QARS DƏMİR YOLUNUN GÜRCÜSTAN HİSSƏSİNİN TƏMƏLQOYMA MƏRASİMİNDƏ

*Gürcüstan, Tetri-Skaro rayonu –*
*Marabda stansiyası*

*21 noyabr 2007-ci il*

*Noyabrın 21-də Gürcüstanın Tetri-Skaro rayonunda – Marabda stansiyasında Bakı–Tbilisi–Qars dəmir yolunun Gürcüstan hissəsinin təməlinin qoyulmasına həsr olunmuş mərasim keçirilmişdir.*

*Mərasimdə Azərbaycan prezidenti İlham Əliyev, Türkiyə prezidenti Abdullah Gül və Gürcüstan prezidenti Mixeil Saakaşvili, habelə Avropa İttifaqından, Amerika Birləşmiş Ştatlarından və digər ölkələrdən qonaqlar iştirak edirdilər. «Dəmir İpək yolu» adlandırılan, Avropadan Çinə qədər birbaşa əlaqəni təmin etməyə imkan verəcək Bakı–Tbilisi–Qars dəmir yolunun işə düşməsi ilə həm də Ermənistanın Azərbaycana hərbi təcavüzü ilə bağlı 1993-cü ildə Türkiyə ilə Orta Asiya arasında kəsilmiş dəmir yolu əlaqəsi yenidən bərpa olunacaqdır.*

*Layihəyə əsasən, Qarsdan Axalkalakiyə qədər 105 kilometrlik dəmir yolunun çəkilməsinə 420 milyon dollar sərmayə qoyulacaqdır. Qarsdan Gürcüstan sərhədinədək 76 kilometrlik hissəni Türkiyə maliyyələşdirəcəkdir (220 milyon dollar). Gürcüstanın Azərbaycandan aldığı 200 milyon dollarlıq kreditlə isə Türkiyə sərhədindən Axalkalakiyə qədər olan təqribən 30 kilometrlik xətt inşa ediləcək və Azərbaycan sərhədinədək mövcud olan 160 kilometrlik xətt yenidən qurulacaqdır.*

*Layihənin 2009-cu ildə tamamlanması nəzərdə tutulur. İlkin hesablamalara görə, 2010-cu ildə 1,5 milyon sərnişin və ildə 3 milyon ton yük daşınacaqdır. 2034-cü ildə isə bu yolla*

*3,5 milyon sərnişin və ildə 16,5 milyon ton yük daşınacağı proqnozlaşdırılır. Qazaxıstanın da bu xəttə qoşulması üçün protokol imzalanmışdır.*

*Xatırladaq ki, Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi ilə əlaqədar anlaşmanı 2007-ci ilin fevralında Tbilisidə Azərbaycan prezidenti İlham Əliyev, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan və Gürcüstan prezidenti Mixeil Saakaşvili imzalamışlar.*

## BAKI–TBİLİSİ–QARS DƏMİR YOLUNUN GÜRCÜSTAN HİSSƏSİNİN TƏMƏLQOYMA MƏRASİMİNDƏ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

Hörmətli cənab prezidentlər!

Hörmətli dostlar, xanımlar və cənablar!

İlk növbədə, məni bu gözəl mərasimə dəvət etdiyinə görə əziz qardaşım, Gürcüstan prezidenti Mixeil Saakaşviliyə təşəkkürümü bildirmək istəyirəm. Mən böyük məmnuniyyətlə bu dəvəti qəbul etdim və bu gün biz birlikdə növbəti tarixi addımı atırıq. Bu gün üç ölkə – Gürcüstan, Türkiyə və Azərbaycan bölgə üçün, dünya üçün çox böyük əhəmiyyət kəsb edən yeni layihənin təməlini qoyur.

Bizim əməkdaşlığımızın çox böyük tarixi var. Xalqlarımız əsrlər boyu birlikdə yaşamışlar, yaratmışlar. Gürcüstan və Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra bizə ilk yardım edən, ilk kömək göstərən Türkiyə dövləti olmuşdur. Biz bunu unutmuruq və heç vaxt unutmayacağıq. Bu gün Gürcüstan və Azərbaycan gücləndikcə, öz müstəqilliyini möhkəmləndirdikcə və dünya iqtisadiyyatına inteqrasiya etdikcə, əlbəttə ki, bizimlə Türkiyə arasında olan münasibətlər yeni səviyyəyə qalxır. Biz artıq qarşılıqlı fəaliyyətlə bir-birimizi gücləndiririk, dəstəkləyirik və bizim tərəfimizdən, bizim təşəbbüsümüzlə bölgədə həyata keçirilən layihələr təkcə xalqlarımız üçün deyil, bütün dünya üçün çox böyük əhəmiyyət kəsb edir.

Şübhəsiz, Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi tarixi hadisədir. Bu layihə uzun illərdir ki, müzakirə olunurdu, yəni mövcud idi, ancaq layihənin gələcəyi qeyri-müəyyən idi. Uzun illər ərzində müxtəlif beynəlxalq maliyyə qurumları ilə, beynəlxalq təşkilatlarla apardığımız danışıqlar, əfsuslar olsun ki, heç bir nəticə verməmişdi. Ancaq bu gün ölkələrimiz iradəmizi ortaya qoyaraq, bu layihəni özümüz həll edirik. Bütün maliyyə məsələləri öz həllini tapıbdır, texniki məsələlər

öz həllini tapıbdır, texniki-iqtisadi əsaslandırma hazırdır və bu gün biz yolun tikintisinə başlayacağıq. Artıq burada deyildi ki, bu yolun tikintisi bütün bölgə üçün, dünya üçün çox böyük əhəmiyyət kəsb edir və mən əminəm ki, Bakı–Tbilisi–Qars dəmir yolunun işə düşməsi bölgəyə daha da çox təhlükəsizlik, daha da çox əməkdaşlıq gətirəcək və bu imkanlardan istifadə edən ölkələr, əlbəttə ki, regional əməkdaşlıq baxımından da bir-birinə yaxın olacaqlar.

Mən çox şadam ki, Gürcüstan, Türkiyə və Azərbaycan tərəfindən bölgədə başlanmış layihələrin hamısı uğurla icra olunur. Deyə bilərəm ki, bu layihənin Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisinin başlanmasında, əlbəttə, bizim aramızda, üç ölkə arasında mövcud olan əməkdaşlıq istiqamətləri, parametrləri də öz rolunu oynamışdır.

90-cı illərin ortalarında Azərbaycanda başlanmış böyük enerji layihələri yəqin ki, bu dəmir yolunun yaranmasında da az rol oynamamışdır. Bizim əməkdaşlığımızın artıq çox böyük tarixi var. Bakı–Tbilisi–Qars layihəsi Azərbaycanın böyük neft-qaz yataqlarının işlənilməsi nəticəsində həyata keçirilən neft-qaz kəmərləri layihələrinin – Azərbaycanı Gürcüstan və Türkiyə ilə birləşdirən Bakı–Supsa, ondan sonra Bakı–Tbilisi–Ceyhan, ondan sonra Bakı–Tbilisi–Ərzurum layihələrinin məntiqi nəticəsidir. Mən əminəm ki, əvvəlki layihələr nə qədər uğurlu idisə, Bakı–Tbilisi–Qars da bir o qədər uğurlu olacaqdır. Bu bir daha onu göstərir ki, əgər bizim ölkələrimiz öz siyasi iradəsini, öz dostluq əlaqələrini, əməkdaşlıq prinsiplərini ortaya qoyurlarsa, istənilən layihə öz həllini tapar. Ən böyük şübhələr doğuran layihələr də öz həllini tapıbdır. Hamı bilir ki, həm Bakı–Tbilisi–Ceyhan, həm Bakı–Tbilisi–Ərzurum layihələri bəzi dairələr tərəfindən real layihələr kimi qəbul edilmirdi. Bunlara çox böyük şübhələrlə yanaşırdılar. Hətta deyilirdi ki, Azərbaycanda Bakı–Tbilisi–Ceyhan neft kəmərini doldurmaq üçün kifayət qədər neft yoxdur. Gələn il Bakı–Tbilisi–Ceyhan tam gücü ilə işləyəcək, 50 milyon ton neft nəql edəcəkdir. Bu 50 milyon tonun hamısı da Azərbaycan nefti olacaqdır. Vaxtilə belə bir fikir də var idi ki, Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin tikintisinə ehtiyac yoxdur, çünki Azərbaycanda yetə-

rincə qaz ehtiyatı yoxdur. Amma bu gün Azərbaycan o ölkədir ki, keçən il xaricdən 4,5 milyard kubmetr həcmində qaz alırdı, indi isə idxal yoxdur, Azərbaycan artıq üç ölkəyə öz qazını nəql edir. Azərbaycan qazı Gürcüstan və Türkiyə, iki gün bundan əvvəl isə Türkiyə ərazisi ilə Yunanıstan bazarına da çıxmışdır. Yəni, bu o deməkdir ki, Azərbaycan qazı artıq Avropa İttifaqının bazarındadır.

Bakı–Tbilisi–Qars layihəsinə də şübhə ilə yanaşanlar, buna müqavimət göstərənlər var idi və biz bilirik, onları tanıyırıq. Amma buna rəğmən bizim ölkələrimizin iradəsi əsas rol oynamışdır. Bu, çox böyük məna daşıyan bir hadisədir. Bu, sadəcə olaraq, bir nəqliyyat layihəsi, yaxud da üç ölkəni birləşdirən layihə deyil, halbuki, bu baxımdan da çox böyük əhəmiyyəti var. Bu layihə onu göstərir ki, bizim ölkələrimiz bölgədə həm böyük əməkdaşlığa təkan verəcək layihələrin təşəbbüskarıdır, həm bunları maliyyələşdirir, həm də bunları icra edir. Ölkələrimizin müştərək, ortaq iradəsi bölgənin inkişafına öz müsbət təsirini göstərir. Mən bunu xüsusilə vurğulamaq istəyirəm – bizim başladığımız və uğurla icra etdiyimiz bütün layihələr əməkdaşlıq, dostluq amillərini möhkəmləndirən layihələrdir. Bu layihələr heç kimə qarşı yönəldilməyib, sadəcə olaraq, dostluğa, əməkdaşlığa yönəldilmişdir. Biz dostuq, qardaş ölkələrik, qardaş xalqlarıq və tam haqqımız var ki, xalqlarımızın milli maraqlarını təmin etmək üçün istənilən layihəni icra edək və biz bunu edirik. Ona görə mən bu layihəyə bu prizmadan yanaşıram. Mən çox şadam ki, biz bu gün bu böyük işləri birlikdə görürük. Gələcəkdə bu layihə, əlbəttə ki, xalqlarımızın rifah halının yaxşılaşmasına, bölgədə gedən əməkdaşlıq meyillərinin güclənməsinə gətirib çıxaracaqdır. Mən şübhə etmirəm ki, bu layihə başa çatandan sonra ona qoşulan tərəflər və ölkələr kifayət qədər çox olacaqdır. Necə ki, bizim bütün enerji layihələrimizə indi başqa ölkələr də qoşulmaq istəyir və biz də bunu alqışlayırıq. Biz bu yolu açırıq, biz Şərq–Qərb enerji dəhlizini açdıq. İlk dəfə olaraq Xəzər dənizinin zəngin neft-qaz yataqlarını dünya bazarlarına təqdim etdik. Biz enerji təhlükəsizliyi məsələləri ilə çox ciddi məşğuluq və indi hamı bilir ki, dünyada və xüsusilə Avropada enerji təhlükəsizliyi məsələləri ən birinci yer tutur. Demək olar ki, ölkələrin təhlükəsizliyi xeyli

dərəcədə enerji təhlükəsizliyindən asılıdır. Biz öz enerji təhlükəsizliyimizi təmin etmişik. Nəyin hesabına? Birgə işlər hesabına, dostluq hesabına, qardaşlıq hesabına, üç ölkənin birləşməsi hesabına. Bu gün bizim ölkələrimiz Avropanın enerji təhlükəsizliyində öz rolunu oynayır. Azərbaycanda çıxarılan qaz Gürcüstan, Türkiyə ərazisi ilə Avropa İttifaqına nəql edilir. Bizim ölkələrimiz şaxələndirmə məsələlərində çox önəmli rol oynayır və bu rol gələcəkdə artacaqdır. Əgər başqa ölkələr bizim mövcud olan enerji infrastrukturlarına qoşularsa, əlbəttə ki, regional əməkdaşlıq yeni formalarla zənginləşəcəkdir.

Mən hesab edirəm ki, bu layihə bölgədə nəqliyyat təhlükəsizliyinə də öz müsbət təsirini göstərəcəkdir. Bu gün enerji məsələlərinin ön plana çıxması nəticəsində daha çox enerji təhlükəsizliyi haqqında danışılır. Ancaq nəqliyyat təhlükəsizliyi ondan az əhəmiyyət daşımır. Biz bu yolun yaradılması ilə nəqliyyat təhlükəsizliyi məsələsinə öz töhfəmizi veririk. Əminəm ki, bu gün bu layihəyə o qədər də səmimi münasibət göstərməyən tərəflər, ölkələr, yaxud beynəlxalq maliyyə qurumları bir gün gələcək və bəlkə də yaxın zamanlarda bu layihəyə qoşulmaq üçün bizimlə əməkdaşlığa başlayacaqlar. Biz də bu əməkdaşlığa hazırıq. Biz gördüyümüz bütün işləri müsbət nəticələrə – əməkdaşlığa, bölgədə təhlükəsizliyin təmin olunmasına, asayişin qorunmasına, iqtisadi və siyasi maraqların birləşməsinə yönəldirik və bizim maraqlarımız üst-üstə düşür. Gürcüstan–Türkiyə–Azərbaycan çox böyük regional qüvvədir. Bizdə həm təbii sərvətlər, həm tranzit imkanları, həm böyük infrastruktur, həm böyük sənaye potensialı və həm də, ən önəmlisi, üç ölkə arasında dostluq, qardaşlıq münasibətləri var. Bu çox qiymətlidir və biz, əlbəttə ki, bütün səylərimizi bundan sonra da bu istiqamətə yönəldəcəyik. Mən əminəm ki, Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi nəticəsində bizim aramızdakı dostluq, əməkdaşlıq münasibətləri daha da dərinləşəcək və bu, bölgəyə xeyir gətirəcəkdir.

Əziz dostlar, sizin hamınızı bu gözəl tarixi hadisə münasibətilə bir daha ürəkdən təbrik edirəm, bütün xalqlarımıza – gürcü, türk, Azərbaycan xalqlarına rifah, çiçəklənmə və qələbə arzulayıram. Sağ olun.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MDB VƏ BALTİKYANI ÖLKƏLƏRİN DƏMİRYOL NƏQLİYYATI ŞURASININ 47-ci İCLASININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*22 noyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Prezident sarayında MDB və Baltikyanı Ölkələrin Dəmiryol Nəqliyyatı Şurasının 47-ci iclasının iştirakçılarını qəbul etmişdir.*

**İlham Əliyev:** Mən sizin hamınızı Bakıda ürəkdən salamlayıram, sizə yaxşı işləmək, burada ilk dəfə olanlara isə bizim şəhərlə tanış olmaq imkanı arzulayıram.

Mən MDB Ölkələrinin Dəmiryol Şurasının iclasının məhz Bakıda keçirilməsi faktını yüksək qiymətləndirirəm. Ümidvaram ki, sizin işləməyiniz üçün yaxşı şərait yaradılmışdır. Ümumiyyətlə, keçmiş SSRİ məkanında inteqrasiya prosesləri müsbət istiqamətdə gedir və Azərbaycan da iqtisadi inteqrasiya, humanitar və əlbəttə, nəqliyyat sahəsində əməkdaşlıq məsələlərinə öz töhfəsini verməyə çalışır.

İndi biz aviasiya, dəmir yolu, avtomobil və dəniz nəqliyyatını əhatə edən nəqliyyat infrastrukturunun yaradılması və möhkəmlənməsi məsələləri ilə ciddi məşğuluq. Son illərdə bu sahəyə çox böyük investisiya qoyulur. Ölkəmizin coğrafi mövqeyini və artıq mövcud olan yaxşı infrastruktur imkanlarını nəzərə alaraq ümid edirik ki, gələcəkdə Azərbaycan bizim tərəfdaşımız olan, tarixi münasibətlərimiz çox səmərəli inkişaf edən ölkələrlə tranzit əlaqələrinin təmin olunması məsələlərində daha ciddi rol oynayacaqdır. Ümidvaram ki, bizim münasibətlərimizin nəqliyyatla bağlı sahəsinin də bu məsələdə çox mühüm rolu olacaqdır.

Ümumiyyətlə, biz MDB çərçivəsində əməkdaşlığa böyük əhəmiyyət veririk. Yəqin təsadüfi deyil ki, MDB ölkələrinin

istisnasız olaraq hamısında bizim səfirliklərimiz, daimi diplomatik nümayəndəliklərimiz var. Biz çoxtərəfli planda və ikitərəfli formatda səmərəli əməkdaşlıq edirik və ümidvaram ki, bu əməkdaşlıq daha da möhkəmlənəcəkdir.

Biz bütün istiqamətlərdə əməkdaşlığı, qarşılıqlı anlaşmanı möhkəmlətmək, vaxtilə bir ölkədə yaşadığımız respublikalarla möhkəm tərəfdaşlıq münasibətləri qurmaq əzmindəyik. Qeyd etməliyəm ki, bizim müstəqil dövlətlər kimi yaşadığımız bu 16 ildə Azərbaycan MDB-dən olan tərəfdaşlarımızla çox səmərəli və proqnozlaşdırıla bilən münasibətlər yaratmışdır. Bu həm regional məsələlərin, həm qarşılıqlı iqtisadi fəaliyyət və nəqliyyat məsələlərinin, həm də, ümumiyyətlə, ölkələrimizin qarşısında duran məsələlərin bütün kompleksinin həllində bizə kömək edir.

Bu məsələlər, o cümlədən nəqliyyatın müasir infrastrukturunun yaradılması zərurəti MDB-nin üzvü olan dövlətlərin hamısında çox cəhətdən oxşardır. Bunlarsız heç bir dövlət normal inkişaf edə bilməz. Ona görə də biz, artıq qeyd etdiyim kimi, həm avtomobil nəqliyyatına, həm dəmiryol nəqliyyatına, həm də aviasiyaya külli məbləğdə sərmayə qoyuruq ki, iqtisadi inkişaf məsələlərini uğurla həll etmək olsun.

Mən bir daha sizi salamlayıram, sizə ən xoş arzularımı bildirirəm. Dövlət başçılarına mənim ən xoş arzularımı və salamlarımı yetirirəm.

**Vladimir Yakunin** («*Rossiyskiye jeleznıye doroqi» şirkətinin prezidenti*): Hörmətli cənab Prezident, icazə verin, qonaqpərvərliyinizə görə, diqqətinizə və vaxt ayırmağınıza görə MDB və Baltikyanı ölkələrin, Bolqarıstanın və Finlandiyanın Dəmiryol Nəqliyyatı Şurasının üzvləri adından Sizə təşəkkür edim. Sizin şəxsinizdə biz Azərbaycan xalqına öz salamlarımızı və ən xoş arzularımızı çatdırırıq. Mən burada həm Dəmiryol Nəqliyyatı Şurasının sədri, həm də «Rossiyskiye jeleznıye doroqi» şirkətinin prezidenti kimi iştirak edirəm. Bizim dəmiryolçular arasında belə bir məsəl var (xahiş edirəm, burada iştirak edənlər bu sözləri öz ünvanlarına qəbul etməsinlər): biz deyirik ki, siyasətçilər və diplomatlar istənilən düz xətti müəmmalı bir əyri xəttə çevirməyi bacarırlar. Dəmiryolçuların isə istənilən əyri xətti düzəltmək cəhdi qanlarında var.

Düzdür, bizdə də bəzən qızgın diskussiyalar olur, müəyyən məsələ barədə razılığa gələ bilmirik. Lakin mənim fikrimcə, məhz bu səbəbdən həmkarlarım məni bu məsələdə dəstəkləyirlər. Dəmiryol Nəqliyyatı Şurası MDB-nin bəlkə də ən səmərəli orqanıdır. Bunun səbəbi çox sadədir, bizi birbirimizə bağlayan təkcə məqsəd birliyi – ölkələrimizin nəqliyyat təminatı deyil, həm də dəmir yolunun vahid standartları, onun vahid inkişaf tarixi, bizim xidmətlərdən istifadə edən vətəndaşlar qarşısında vahid məsuliyyət hissidir.

Bu baxımdan, Sizin qəbulunuzda olmaq, Sizinlə söhbət etmək imkanı bizdən ötrü böyük şərəfdir və bu şərəfə görə biz Sizə minnətdarıq.

Sözümün sonunda demək istəyirəm ki, Sizinlə ünsiyyətdə olmaq imkanı mənim üçün xüsusilə şərəflidir. Mənə Sizin atanızla şaxsən tanış olmaq şərəfi nəsib olmuşdur. O bizim təsis etdiyimiz «Sədaqətə görə» mükafatının laureatıdır. Bu mükafatı ona Sankt-Peterburqda şəxsən mən təqdim etmişdim. Ondan əvvəl isə, mən hələ gənc baş leytenant olarkən, bu böyük insanla başqa şəraitdə ünsiyyət saxlamaq şərəfinə layiq görülmüşdüm. Mən də, mənim xanımım da bu ünsiyyəti həmişəlik yadda saxlamışıq. O vaxt oğlum balaca idi və səmimi deməliyəm ki, bu ünsiyyət onun yadında deyil, amma biz bunu çox yaxşı xatırlayırıq. İş elə gətirmişdi ki, indi biz sərhədlərlə ayrılmışıq. Lakin bu vəziyyət daha çox protokol xarakteri daşıyır, biz qəlbən ayrılmamışıq.

Bir daha çox sağ olun, son olaraq mənə icazə verin, bizim şirkətin prezidenti kimi, mən Sizə məruzə edim ki, bu yaxınlarda – oktyabrın 30-da Rusiya dəmir yollarının 170 illiyini bayram etmişik. İcazə verin, şirkətin İdarə Heyətinin tapşırığı və Sizin icazənizlə Sizə bir hədiyyə edim. Bu hədiyyə kiçik olsa da, çox əhəmiyyətlidir. İcazə verin, bu mükafatı – «Rusiya dəmir yollarının 170 illiyi» nişanını da Sizə təqdim edim.

**İ l h a m  Ə l i y e v:** İqtisadiyyatı intensiv inkişaf etməkdə olan Azərbaycanın dəmir yollarının inkişafı da dövlətin xüsusi diqqət mərkəzindədir.

Biz gələcəkdə dəmiryol infrastrukturuna külli məbləğdə sərmayə qoymağı, yeni vaqonlar almağı planlaşdırırıq. Hazırda lokomotivlər alırıq ki, bu sahə maksimum səmərə ilə işləsin.

Əlbəttə, mən ümid edirəm ki, gələcəkdə Şura üzvləri arasında qarşılıqlı əlaqələr nəinki biznes məsələlərinin həllinə, iqtisadi inkişafa kömək edəcək, həmçinin ünsiyyət üçün də yaxşı format yaradacaqdır. Bu da mühüm amildir. Bizim aramızda dil maneəsi yoxdur, bizim ortaq tariximiz və çox cəhətdən ortaq mentalitetimiz var. Ölkələrimizdə böyüməkdə olan, müstəqillik şəraitində formalaşan yeni nəslin yaşlı nəsildən dostluq və əməkdaşlıq təcrübəsini qəbul etməsi üçün bütün müsbət olan nə varsa, qoruyub saxlamaq lazımdır.

**Yaksibek Kulikilov** (*«Qazaxıstan dəmir yolları» Səhmdar Cəmiyyətinin prezidenti*): Şuranın üzvləri qarşıya çıxan məsələlərin ləyaqətlə həll edilməsi üçün öz səylərini birləşdirir, əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün əlavə tədbirlər görürlər. Son illərdə Azərbaycan və Qazaxıstanın iqtisadiyyatları yüksək sürətlə inkişaf edir və bu, ilk növbədə dəmiryol nəqliyyatına tələbatı artırır, qarşıya yeni vəzifələr qoyur.

*Prezident İlham Əliyev Azərbaycan ilə Qazaxıstan arasında əlaqələrin daha da inkişaf edəcəyinə ümidvar olduğunu bildirərək qeyd etdi ki, bir sıra istiqamətlər üzrə, o cümlədən yükdaşımalar sahəsində əməkdaşlıq çox dinamik şəkildə davam edir. Dövlətimizin başçısı Bakı–Tbilisi–Qars dəmir yolu layihəsindən danışaraq bildirdi ki, yeni dəmir yolu ilk növbədə bu layihədə iştirak edən ölkələr üçün böyük imkanlar açır.*

**İlham Əliyev:** Lakin bu imkanlar, təbii ki, bizim bütün qonşular üçün də açıqdır. Layihə uzun illər boyu müxtəlif beynəlxalq strukturlarda müzakirə edilmişdir. Sözdə hamı razılaşırdı, amma maliyyələşdirmə məsələsinə çatanda hamı kənara çəkilirdi. Bir neçə il bundan əvvəl bu layihəni canlandırmaq üçün bizim göstərdiyimiz cəhdlər məhz maliyyələşdirmənin olmamasına görə nəticəsiz qalırdı. O dövrdə maliyyə çətinliklərinin aradan qaldırılmasını öz üzərimizə götürməyə cəsarət etmirdik.

Lakin hər halda, sonradan qərar qəbul etdik. Biz beynəlxalq maliyyələşdirməyə nail olmağın çətinliyini başa düşəndə layihənin maliyyələşdirilməsini özümüz təmin etmək qərarına gəldik, bu məqsədlə Neft fondundan 200 milyon dollar ayırdıq və dünən biz ilk gilizi təmələ qoyduq.

Bütün bunlar Azərbaycanın təkcə Türkiyəyə deyil, həmçi-

nin Avropaya da tam çıxışa malik olmasını təmin edəcəkdir. Biz bu layihəni qitələrarası layihə hesab edirik, o, Asiya ilə Avropanı birləşdirəcəkdir. Biz layihə ilə əlaqədar müəyyən tədbirlər planlaşdırmışıq. Əvvəla, bizim dəmir yolları yenidən təşkil edilməlidir. İkincisi, Xəzər dənizində 50 və daha çox sistern daşıyacaq bərələr alınmalıdır. Daha sonra Bakının 70 kilometrliyində yeni dəniz limanı tikiləcək və o, həmin yüklərin buradan göndərilməsini təmin edəcəkdir.

Bu yol hər iki istiqamətdə – Qərbdən Şərqə və Şərqdən Qərbə işləyəcəkdir. Bütün bunlar nəqliyyat əlaqələrində tamamilə yeni perspektivlər açır, bu layihənin təşəbbüskarı olmuş ölkələr iqtisadi bazarın təsirli iştirakçılarına çevriləcəklər. Bu həm də əlavə maliyyə vəsaitləri, regionda qarşılıqlı anlaşmanın güclənməsinə şərait yaradan əməkdaşlıq elementidir.

**U q i s M a q u n i s** *(«Latviya dəmir yolları» Dövlət Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri)*: Siz bizim ölkədə, Latviyada qonaq olarkən Sizinlə görüşmüşük. Bu gün də burada, Sizin ölkədə həmkarlarımızın qonağı olmağımız bizim üçün böyük şərəfdir. Biz bir-birimizdən uzaqda yaşasaq da, çox yaxşı dostlarıq və bizim regionlar – Baltik və Xəzər dənizi regionları arasında yaxşı münasibətlər vardır.

Latviyalı dəmiryolçular Şimal–Cənub nəqliyyat dəhlizinin inkişafında, əsasən konteyner yüklərinin daşınmasında fəal iştirak edirlər. Ekoloji baxımdan böyük üstünlüklərə malik olan dəmir yollarının inkişaf etdirilməsi üçün böyük həcmdə investisiyalar qoyulması zəruridir.

**İ l h a m Ə l i y e v:** Sizin region bizdən ötrü maraq doğurur. İndi dünya iqtisadiyyatına inteqrasiya prosesi çox fəallaşmışdır. Siz Avropa İttifaqının bir hissəsisiniz. Biz də bu formatda, Avropa İttifaqı – Azərbaycan formatında əməkdaşlıq edirik. Bu əməkdaşlıq əsasən energetika sahəsindədir, nəqliyyat sahəsində əməkdaşlıq hələlik zəifdir. Lakin düşünürəm ki, Bakı–Tbilisi–Qars dəmir yolu istifadəyə veriləndən sonra bu əməkdaşlıq yeni səviyyəyə çatacaqdır, çünki biz yükləri dəmir yolu vasitəsilə Avropanın istənilən nöqtəsinə göndərmək imkanı əldə edəcəyik.

Hazırda Bosfor yaxınlığında Türkiyənin Avropa və Asiya hissələrini birləşdirəcək dəmiryol tuneli tikilir. Biz dəmir yolunun tikintisini başa çatdırana qədər bu tunel artıq hazır

olacaqdır. Bu, bütün ölkələr üçün yaxşı perspektivlər açır. Biz tikintiyə hələ yenicə başlayırıq, lakin coğrafi baxımdan bizə o qədər də yaxın olmayan ölkələr – Yaxın Şərq də, uzaq Asiya ölkələri, Koreya və əlbəttə, Çin də indidən bu layihəyə maraq göstərməyə başlamışdır. Bu da qarşılıqlı etimadın möhkəmlənməsinə və qarşılıqlı səmərəyə xidmət edəcəkdir. Bizim Azərbaycanda başladığımız bütün layihələr, regional layihələr bütün ölkələrin səylərini optimallaşdırmağa yönəlmişdir.

*«Rusiya dəmir yolları» şirkətinin prezidenti Vladimir Yakunin MDB və Baltikyanı ölkələrin Dəmiryol Nəqliyyatı Şurasının 47-ci iclasının iştirakçıları adından prezident İlham Əliyevə hədiyyələr təqdim etdi. O bildirdi ki, Rusiya dəmiryolçuları Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini əbədiləşdirmək üçün Rusiya dəmiryol stansiyalarının birinə onun adının verilməsi təklifi ilə müraciət etmişlər.*

**İlham Əliyev:** Mən bilirəm ki, Siz onunla şəxsən tanış idiniz. Ümumiyyətlə, mən Moskvada, Peterburqda olarkən Heydər Əliyevə xoş münasibət bəslənməsini hiss etmişəm. Peterburqda vaxtilə onun oxudugu hərbi məktəbin yerləşdiyi binaya xatirə lövhəsi vurulmuşdur. İki il bundan əvvəl mən həmin xatirə lövhəsinin açılışında olmuşam. Heydər Əliyev amili Rusiya ilə Azərbaycan arasında münasibətlərdə bu gün də mühüm rol oynayır, gələcəkdə də belə olacaqdır. Heydər Əliyev beş il Kremldə işləmişdir və həmin dövr haqqında xatirələri sonralar, o burada, Azərbaycanda prezident olduğu dövrdə ondan ötrü həmişə çox qiymətli idi. Biz də bu xətti davam etdiririk, öz səylərimizlə ikitərəfli münasibətlərin potensialını artırmağa çalışırıq. Bu münasibətlər hər hansı iqtisadi layihələrdən qat-qat dərindir və onlardan daha möhkəm təmələ malikdir.

Vladimir Vladimiroviç Putin Heydər Əliyevə çox səmimi münasibət bəsləyirdi və mən özüm dəfələrlə onların görüşlərinin şahidi olmuşam. O vaxt onların arasında heyrətamiz dərəcədə yaxın, səmimi münasibətlər yaranmışdı. Yeri gəlmişkən, deməliyəm ki, 2001-ci ilə qədər Rusiya prezidenti Azərbaycana gəlməmişdi. İlk dəfə gələn Vladimir Vladimiroviç oldu və bununla da biz münasibələrimizdə yeni səhifə açmış olduq. Bu səfər mahiyyət etibarilə bizim indi malik olduğumuz münasibətlərin təməlini qoymuşdur.

# YENİ AZƏRBAYCAN PARTİYASININ YARADILMASININ 15 İLLİYİ ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ ZİYAFƏTDƏ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

*Gülüstan sarayı*

*22 noyabr 2007-ci il*

Əziz Yeni Azərbaycan Partiyasının üzvləri!

Əziz dostlar!

Mən sizin hamınızı Yeni Azərbaycan Partiyasının 15-ci ildönümü münasibətilə ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, xoşbəxtlik arzulayıram.

On beş il bundan əvvəl ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirilmişdir. O gündən bu günə qədər partiyamız çox uğurlu və şərəfli yol keçmişdir.

Azərbaycan ən ağır şəraitdə yaşadığı bir dövrdə yaradılan Yeni Azərbaycan Partiyası öz üzərinə çox böyük və əhəmiyyətli missiya götürmüşdü. O günləri hamımız yaxşı xatırlayırıq, Azərbaycan dövlət müstəqilliyini təzəcə əldə etmişdi. Ölkədə gedən proseslər o qədər də ürəkaçan deyildi. Əksinə, Azərbaycanın dövlət müstəqilliyi təhlükə altında idi. Azərbaycan xalqı dövlət müstəqilliyinin bəhrəsini, hadisələrin müsbət istiqamətə doğru dəyişməsini görmürdü. Əksinə, Azərbaycanın o vaxtkı rəhbərliyi, AXC–Müsavat rəhbərliyi və onların liderləri Azərbaycanı faktiki olaraq uçurum kənarına qoymuşdular.

Heç bir siyasi biliyi, bacarığı olmayan, təcrübəsi olmayan insanlar Azərbaycanı xaosa, anarxiyaya sürükləmişdi. Belə bir şəraitdə, əlbəttə ki, Yeni Azərbaycan Partiyasının yaradılması tarixi zərurət idi. Partiyanı yaradan, onun inkişafında fəal iştirak edən insanların fəaliyyətini mən çox yüksək

qiymətləndirirəm. 91-lərin fəaliyyətini və onların ulu öndərə müraciətini çox yüksək qiymətləndirirəm.

O vaxt, 1992-ci ilin noyabrın 21-də Naxçıvanda yığışmış insanlar əsl vətənpərvər insanlar, cəsarətli insanlar idi. Çünki o vaxt Azərbaycanda azad söz boğulurdu, Azərbaycanda senzura tətbiq edilirdi. Başqa fikirdə olan insanlar təqib edilirdi. Onlara qarşı fiziki təzyiqlər göstərilirdi, həbs olunurdular. Sərbəst toplaşmaq azadlığı qadağan edilmişdi. O ağır şəraitdə Naxçıvana gəlmək, Heydər Əliyevlə görüşmək belə, böyük qəhrəmanlıq hesab olunurdu. Ancaq bu insanlar, bu cəsarətli və vətənpərvər insanlar öz hərəkətləri ilə, əlbəttə ki, Yeni Azərbaycan Partiyasının yaradılmasında öz rolunu oynamışlar və bütövlükdə, Azərbaycanın o bəlalardan qurtarmasında və ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsində fəal rol oynamışlar. Biz bunları unutmamalıyıq. O insanların fəaliyyətini yüksək qiymətləndirməliyik və bu gün bu belədir.

O vaxt Azərbaycanın taleyi müəmmalı idi. Ölkədə gedən xoşagəlməz proseslər total böhran yaratmışdı – həm siyasi, həm iqtisadi, həm də hərbi böhran. Xalqla iqtidar arasında böyük uçurum yaradılmışdı. Baxmayaraq ki, o vaxtkı iqtidar cəmi bir il hakimiyyətdə idi. Onlar cəmi bir il hakimiyyətdə qala bildilər. Baxmayaraq ki, onların əlində bütün imkanlar var idi. Ancaq antimilli siyasət, Azərbaycanın maraqlarına uyğun olmayan hərəkətlər, bacarıqsız rəhbərlik və əslində, Azərbaycanda müstəqilliyin əməldə yox, sözdə olması, əlbəttə ki, bu iqtidarın ömrünü uzun edə bilməzdi. Azərbaycan xalqı öz iradəsini göstərərək, öz siyasi müdrikliyini göstərərək, 1993-cü ildə ulu öndər Heydər Əliyevə müraciət etdi, onu hakimiyyətə dəvət etdi. O vaxt Yeni Azərbaycan Partiyası fəaliyyətə təzə başlamışdı. Amma buna baxmayaraq, qısa müddət ərzində partiya bütün ölkədə çox böyük rəğbət qazana bilmişdi.

Xalq Yeni Azərbaycan Partiyasına və onun rəhbəri olan Heydər Əliyevə böyük ümidlərlə baxırdı. Xalq inanırdı ki, Azərbaycanı o böhranlı vəziyyətdən yalnız Heydər Əliyevin müdrikliyi, siyasi təcrübəsi, baxışları, cəsarəti çıxara bilər və bu belə də oldu. 1993-cü ildən bu günə qədər Azərbaycan çox

böyük bir yol keçmişdir. Biz, sözün əsl mənasında, müstəqil ölkəyik, müstəqil siyasət aparırıq və öz işlərimizlə həm ölkədə müsbət istiqamətdə gedən proseslərə təsir göstəririk, həm də bölgədə bizim təsir gücümüz artır.

Bir məsələni də qeyd etmək istəyirəm ki, Yeni Azərbaycan Partiyası müxalifət partiyası kimi yaradılmışdı. Ancaq indiki müxalifətdən fərqli olaraq, biz dövlətə, dövlətçiliyə yox, o vaxtkı antimilli iqtidara müxalifətdə idik. Deyə bilərəm ki, Yeni Azərbaycan Partiyası Azərbaycanda siyasi davranış, siyasi mədəniyyət nümunəsini göstərmişdir. Biz müxalifətdə əlimizdə daş-kəsəklə yox, əlimizdə qələmlə çalışırdıq. İdeyalarımızı, fikirlərimizi öz çıxışlarımızda, məqalələrdə, ictimai tədbirlərdə irəli sürürdük. Bugünkü müxalifətdən fərqli olaraq, biz maksimum dərəcədə siyasi mədəniyyət göstərmişdik. Siyasi opponentləri təhqir etməmişdik, onlara fiziki xəsarət yetirməmişdik. Biz sadəcə, xalqın iradəsinə arxalanaraq, Azərbaycanın uğurlu gələcəyinə çalışırdıq.

Azərbaycan xalqı hər şeyi görürdü, o vaxt da belə idi, bu gün də belədir. Ulu öndərin hakimiyyətə gəlməsi, Azərbaycanın rəhbərliyinə gəlməsi, Yeni Azərbaycan Partiyasının ölkədə siyasi proseslərə başçılıq etməsi Azərbaycanın uğurunu təmin edən ən başlıca şərt olmuşdur.

1993–2003-cü illər Azərbaycan üçün dirçəliş illəri olmuşdur. Biz bütün çətin anları geridə qoyduq, inkişaf yoluna çıxdıq. İqtisadi sahədə yaşanan tənəzzül aradan qaldırıldı və ölkə iqtisadi cəhətdən sürətlə inkişaf etməyə başladı. Siyasi proseslər müsbət məcrada inkişaf etməyə başladı. Azərbaycanda siyasi plüralizm, demokratiya, söz azadlığı, fikir azadlığı bərqərar oldu. Azərbaycanda çoxpartiyalı sistem məhz o illərdə yaradılmışdır və bu sistemin yaradılmasında Yeni Azərbaycan Partiyasının çox böyük rolu olmuşdur. Yəni, bir sözlə, Yeni Azərbaycan Partiyası öz mövqeyini başqa partiyaları zəiflətməklə yox, öz fəaliyyəti ilə təmin etmişdir. Bu gün biz bunu görürük. Biz bütün vətənpərvər qüvvələrlə əməkdaşlıq etməyə hazırıq. Dəfələrlə müxtəlif tədbirlərdə ölkəmizin siyasi səhnəsində normal, sivil davranış normalarının təşkilində təşəbbüskar olmuşuq. Amma əfsuslar olsun ki, bizə radikal mövqedə dayanan qüvvələr bunu

hər zaman inkar etmişdir. Halbuki bu bizə o qədər də lazım deyil. Biz bu gün Azərbaycan cəmiyyətinin bütün təbəqələrini birləşdirən partiyayıq. Biz bu gün nəinki Azərbaycanın, bölgənin ən güclü siyasi qüvvəsiyik. Ancaq bununla yanaşı, biz istəyirik ki, Azərbaycanda siyasi münasibətlər sivil müstəvidə inkişaf etsin, ədavətə son qoyulsun, əsassız ittihamlara son qoyulsun və Azərbaycanın siyasi sistemi təkmilləşsin. Bu, təkcə bizdən asılı deyildir. İqtisadi islahatlar, siyasi islahatlar, demokratiyanın inkişafı – bütün bunlar bizim işimizdir və biz də bunu təmin edirik. Amma siyasi münasibətlərdə mütərəqqi təcrübənin Azərbaycanda tətbiq olunması təkcə bizdən asılı deyildir. Bu işlərdə bütün siyasi qüvvələr iştirak etməlidir. Mən ümid edirəm, vaxt gələcək və bu gün bu əməkdaşlıqdan, dialoqdan imtina edən qüvvələr başa düşəcəklər ki, başqa yol yoxdur.

Bir sözlə, biz müxalifətdə də sivil qaydada fəaliyyət göstərmişik. Azərbaycan xalqı Yeni Azərbaycan Partiyasına, onun rəhbərliyinə öz inamını göstərmişdir. 1993-cü ildən bu günə qədər, iqtidarda olduğumuz bu dövrdə Azərbaycanda siyasi proseslərin normal istiqamətdə inkişafında Yeni Azərbaycan Partiyasının fəaliyyəti danılmazdır.

Tarixdə şəxsiyyətlərin rolu danılmazdır. Ulu öndər Heydər Əliyevin fəaliyyəti buna bariz nümunədir. Bütün dövrlərdə – həm 70-ci illərdə və 80-ci illərin əvvəllərində Azərbaycan Kommunist Partiyasının rəhbəri olduğu dövrdə, həm də müstəqil Azərbaycanın prezidenti kimi, Heydər Əliyev öz fəaliyyəti ilə doğma xalqına xidmət etmişdir.

Heydər Əliyev 1969-cu ildə rəhbərliyə gələndə Azərbaycan həm iqtisadi baxımdan, həm də sosial məsələlərin həlli baxımından 15 müttəfiq respublika arasında ən geridə qalmış vəziyyətdə idi. 1982-ci ildə isə artıq Azərbaycan həm iqtisadi və sənaye artımı baxımından, həm infrastruktur layihələrinin mövcudluğu baxımından və bütövlükdə, inkişaf baxımından keçmiş SSRİ-də birinci ölkə idi.

Eyni zamanda, biz bunu müasir tarixdə də görürük. 1993-cü ildə Azərbaycan, demək olar ki, ən ağır vəziyyətdə olan yeni müstəqil dövlətlərdən biri idi. Bəlkə də, birincisi idi. İndi Azərbaycan bu ölkələr arasında ən qabaqcıl mövqelərdədir.

Bizim nailiyyətlərimiz başqa ölkələrlə müqayisə oluna bilməz. Bizim iqtisadi inkişafımız, həyata keçirdiyimiz nəhəng, transmilli layihələr onu göstərir ki, Azərbaycan çox uğurla inkişaf edən ölkədir.

Heydər Əliyev 1970–80-ci illərin əvvəllərində Azərbaycan xalqına necə sədaqətlə xidmət etmişdisə, müstəqil dövlətin başçısı kimi də bir o qədər sədaqətlə xidmət etmişdir. O, Kommunist Partiyasının üzvü idi və Azərbaycan kommunistlərinin rəhbəri idi. Ancaq 1990-cı ilin Qanlı yanvar faciəsindən sonra o, Kommunist Partiyasından çıxdı. Bu o vaxt idi ki, hələ Sovet İttifaqı kifayət qədər güclü idi, Sovet İttifaqında birpartiyalı sistem var idi. O vaxt belə hərəkətlərə görə insanları cəzalandırırdılar, onlar təqib olunurdular. O cümlədən Heydər Əliyev də təqib olunmuşdur. Onun Azərbaycanın daimi nümayəndəliyindəki qətiyyətli çıxışı sovet sistemi aparatının bütün imkanlarını ona qarşı yönəltmişdi. O, təqib olunurdu və Moskvadan Bakıya gəlməyə məcbur idi. Burada da ona antimilli hakimiyyət imkan vermədi və o, doğma yurduna, Naxçıvana getdi.

Ulu öndər bütün dövrlərdə öz xalqına xidmət edirdi və onun Azərbaycan xalqı qarşısında xidmətləri misilsizdir. Azərbaycanın müstəqil ölkə kimi yaşamasında, Azərbaycanın uğurlu siyasət aparmaq iqtidarında olmasında, sözün əsl mənasında, siyasətimizin milli maraqlar üzərində qurulmasında Heydər Əliyevin danılmaz rolu vardır. Bu gün biz bu siyasəti davam etdiririk. Baxmayaraq ki, Azərbaycan gənc müstəqil dövlətdir, ancaq çox dinamik, çox sürətlə inkişaf edir, bölgədə, dünyada öz yerini tutmuşdur və bu yer möhkəmdir və getdikcə möhkəmlənir. Biz ən böyük ölkələrlə tərəfdaşlıq münasibətlərindəyik. İmkanlarından, ölçülərindən asılı olmayaraq, bütün ölkələrlə bərabərhüquqlu münasibətlər qura bilmişik. Biz öz siyasətimizi qarşılıqlı hörmət, qarşılıqlı maraqlar əsasında qururuq.

Xarici siyasətdəki uğurlarımız Azərbaycanda gedən proseslərə də müsbət təsir göstərir. Biz xarici siyasətdə çox fəalıq, çox çevik siyasət aparırıq və Azərbaycanın istər bölgədə, istər Avropada, istərsə də dünyada maraqları maksimum dərəcədə təmin edilir.

Bölgə məsələlərinə gəldikdə, bu gün bölgədə Azərbaycanın iştirakı olmadan, razılığı olmadan heç bir layihə öz həllini tapa bilməz. Əksinə, biz bir çox hallarda böyük, həm bizim üçün, həm də bölgə ölkələri üçün əhəmiyyətli olan layihələrin təşəbbüskarıyıq. Biz öz təşəbbüsümüzlə o layihələri həyata keçiririk. Əlbəttə, bu gün Azərbaycanın həm beynəlxalq nüfuzu artır, həm də ölkə daxilində yaradılmış bu gözəl ictimai-siyasi vəziyyət, sabitlik imkan verir ki, ölkəmiz tam şəkildə inkişaf etsin.

Bir daha qeyd etmək istəyirəm ki, Yeni Azərbaycan Partiyası bu gün bölgənin aparıcı siyasi qüvvəsidir. Bizim həm beynəlxalq əlaqələrimiz möhkəmlənir, həm də ölkədaxili proseslərə Yeni Azərbaycan Partiyası çox böyük dərəcədə təsir edir. Bizim sıralarımızda 400 mindən artıq üzv var. Bu, böyük siyasi qüvvədir. Bizim nümayəndələrimiz bütün sahələrdə fəal iştirak edirlər. Bütün sahələrdə Azərbaycanın inkişafında fəal çalışırlar. Yeni Azərbaycan Partiyası 1995-ci, 2000-ci və 2005-ci illərdə parlament seçkilərində böyük uğurlar göstərərək qələbə qazanmışdır.

Yeni Azərbaycan Partiyasının nümayəndələri bütün orqanlarda fəal iştirak edirlər. Öz fəaliyyətləri ilə ölkəmizi gücləndirir, siyasi sistemin inkişafında fəal rol oynayırlar. 1993-cü, 1998-ci və 2003-cü illərdə Yeni Azərbaycan Partiyasının sədrləri prezident vəzifəsinə seçilmişlər. Biz iqtidar partiyasıyıq. Ona görə iqtidar partiyasıyıq ki, bizim siyasətimiz xalq siyasətidir. Deyə bilərəm ki, biz ümumxalq partiyasıyıq. Çünki Azərbaycanın qarşısında duran bütün məsələlərdə biz fəal iştirak edirik. Biz öz əməyimizlə bu siyasəti aparırıq.

Siyasət ilk növbədə, praktik işlərdir. Bizim əməlimiz, bizim işlərimiz, verilən sözlərə sadiqliyimiz – bütün bunlar, əlbəttə, Yeni Azərbaycan Partiyasının nüfuzunu da qaldırıb və deyə bilərəm ki, onu Azərbaycanın siyasi səhnəsində yeganə ciddi siyasi qüvvəyə çeviribdir. Bizimlə rəqabət aparmaq istəyənlərin sayı getdikcə azalır. Biz bunu görürük və artıq Azərbaycanın siyasi səhnəsində qeyri-ciddi, təxribatçı və qeyri-peşəkar qüvvələrə yer yoxdur. Azərbaycan xalqı o qüvvələrə çoxdan «Yox!» demişdir və sadəcə olaraq, onlar öz

fəaliyyətini davam etdirmək üçün hərdənbir müsahibələr verirlər, bir-biri ilə görüşürlər, bir-biri ilə savaşırlar. Ancaq Azərbaycanın siyasi səhnəsində artıq o ənənəvi müxalifətin yeri yoxdur.

Bir də ki, hər bir siyasi qüvvə üçün, fəaliyyət göstərmək üçün gərək siyasi meydan olsun. Müxalifətin siyasi meydanı daralıb. Nəyin hesabına? Bizim işlərimizin hesabına. Bizim apardığımız siyasətin hesabına. Haraya baxsan, Azərbaycanın inkişafında istənilən məsələyə baxsaq, bütün sahələrdə bizim uğurlarımız göz qabağındadır. Hər bir sahə üzrə konkret proqramlar var. Yerlərdə bizim fəallarımız yerli icra orqanları ilə çox sıx əməkdaşlıq edərək, öz töhfələrini verirlər. Bu, davam etdirilməlidir və bu əlaqələr daha da sıx olmalıdır. Bütün yerli icra hakimiyyəti başçılarını o vəzifəyə prezident təyin edir və prezident eyni zamanda, Yeni Azərbaycan Partiyasının sədridir. Təbiidir ki, Yeni Azərbaycan Partiyası və yerli icra orqanlarının nümayəndələri birlikdə olmalı, bir-birinə kömək etməli və birlikdə çalışmalıdırlar. Mən bilirəm, bəzi hallarda müəyyən qısqanclıq olur, müəyyən ziddiyyətlər yaranır. Mən buna imkan verə bilmərəm. Harada belə hadisə olarsa, hər ikisi cəzalandırılacaqdır. Biz imkan verə bilmərik ki, bizim iqtidar nümayəndələri hansısa bir xırda məsələdə problemlər yaratsınlar. Ona görə mən bu məsələyə xüsusilə toxunmaq istəyirəm. Yerlərdə Yeni Azərbaycan Partiyasının üzvləri, fəalları yerli icra orqanları ilə birlikdə qarşıda duran bütün vəzifələri icra etməlidirlər. Onsuz da prezident kimi və Yeni Azərbaycan Partiyasının sədri kimi, mən bu vəzifələri onların qarşısında qoyuram. Onların vəzifəsi bu göstərişləri yerinə yetirmək və eyni zamanda, öz təşəbbüsləri ilə bizim işimizə töhfələrini verməkdir.

Bizim gələcək planlarımız da çox açıqdır, çox aydındır. Azərbaycanın uğurlu gələcəyi artıq heç kimdə şübhə yaratmır. Biz bunu onsuz da bilirdik, amma artıq bütün dünya da bunu bilir. Bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı getdikcə artır və biz bu əməkdaşlığa hazırıq. Biz öz siyasətimizi əməkdaşlıq üzərində qururuq. Bütün addımlarımızı bu istiqamətə yönəldirik ki, bölgədə təhlükəsizlik tədbirləri

güclənsin, əməkdaşlıq dərinləşsin. Regional müstəvidə qarşılıqlı əməkdaşlıq bütün ölkələrin xeyrinə işləyir. Yenə də demək istəyirəm ki, biz nəinki bu proseslərin iştirakçısı, eyni zamanda, ən mühüm, ən vacib proseslərin, layihələrin təşəbbüskarıyıq.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 90-cı illərin ortalarında başlanmış və bu gün uğurla davam etdirilən neft strategiyamız, baxın, bu gün Azərbaycana nə qədər böyük – həm siyasi, həm iqtisadi, həm də ictimai xeyirlər gətiribdir. Bütün bunlar Azərbaycanı gücləndirir. Azərbaycan böyük layihələrin təşəbbüskarıdır. Vaxtilə əfsanə kimi qələmə verilən Bakı–Tbilisi–Ceyhan bu gün reallıqdır və Azərbaycan xalqının davamlı, dayanıqlı inkişafını təmin edəcəkdir.

Bakı–Tbilisi–Ərzurum qaz kəməri – bu bizim Avropa qaz bazarına çıxışımızdır. Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisinə başlanması tarixi hadisədir. Bunu izah etməyə dəyməz. Kifayətdir ki, biz baxaq, bu layihələrdən kim xeyir götürəcək, kimsə bu layihələrə qısqanclıqla yanaşaraq, öz məğlubiyyətini dərinləşdirəcəkdir. Bütün bu layihələr bizi sevindirir. Azərbaycan xalqını sevindirir və bizə dost olan ölkələri sevindirir.

Bu layihələr kimi narahat edir? Ermənistanı, təcavüzkar dövləti, hansını ki, biz indi tamamilə bütün layihələrdən – iqtisadi, enerji və nəqliyyat layihələrindən təcrid etmişik. Biz buna nəyin hesabına nail olmuşuq? Halbuki bilirsiniz ki, bu o qədər də asan məsələ deyildi. Nəzərə alsaq ki, dünyada erməni lobbisi və dünya erməniləri çox böyük mövqelərə, o cümlədən maliyyə imkanlarına malikdir, bu, asan məsələ deyildi. Biz böyük çətinliklərlə üzləşmişdik. Mən bunu yaxşı xatırlayıram. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisinin əleyhinə ən fəal çıxış edən dünya erməniləri idi. Bütün beynəlxalq maliyyə qurumlarına, aparıcı ölkələrin dövlət, hökumət başçılarına onların ünvanladığı məktubların hamısı bizdə var. Bakı–Tbilisi–Ceyhanı əngəlləmək, bunun qarşısını almaq, bunu qoymamaq. Bəzi hallarda o layihənin yubanmasında bu öz rolunu oynamışdı. Amma biz bunun qarşısına nəyi qoyduq? Öz iradəmizi, öz siyasətimizi, öz cəsarətimizi. Biz heç nəyə baxmadan bunu etdik.

Bakı–Tbilisi–Qars dəmir yolu – artıq uzun illərdir dünya ermənilәri əlindən gələni edir ki, bu layihəni əngəlləsin. Deyə bilərəm ki, beynəlxalq maliyyə qurumlarına və hətta bəzi beynəlxalq təşkilatlara da bu, təsir etmişdir. Məhz ona görə uzun illər biz bu layihəni başlaya bilmirdik. Biz bunu necə etdik!? Biz gücləndik, maliyyə imkanlarını əldə etdik. Biz bölgədə artıq üçtərəfli əməkdaşlığı möhkəmləndirdik.

Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, Bakı–Supsa – bütün bu layihələr imkan verdi ki, biz Bakı–Tbilisi–Qars layihəsinə də başlayaq. Və bu, artıq reallıqdır. Kim bundan xeyir götürəcək!? Azərbaycan, Türkiyə, Gürcüstan və bu yoldan istifadə edən başqa tərəfdaşlar – həm Asiyada, həm də Avropada. Kim bu layihədən narahatdır və bunun əleyhinədir!? Ermənistan. Yəni, biz bütün bu addımlarımızla həm öz iqtisadi maraqlarımızı, həm siyasi maraqlarımızı əhəmiyyətli dərəcədə təmin edirik, Azərbaycanı əvəzolunmaz ölkəyə çeviririk, eyni zamanda, təcavüzkar dövlətə öz zərbəmizi vururuq. Getdikcə bu zərbələrin sayı çoxalacaqdır. Çünki indi bölgədə Azərbaycanla rəqabət aparmaq iqtidarında olan az ölkə tapılar. O ki ola Ermənistan, kasıb və bütün imkanlardan təcrid edilmiş vəziyyətdə yaşayan, yarımmüstəqil bir dövlət. Biz bu siyasəti bundan sonra da davam etdirəcəyik və Azərbaycan iqtidarı bu işlərdə qətiyyətlidir. Biz ölkəmizin ərazi bütövlüyünün bərpasında öz istəyimizə nail olmalıyıq və olacağıq. Bunu etmək üçün müxtəlif yollar var və biz bütün yollardan keçməyə hazırıq.

Əziz dostlar, bir sözlə, bu gün Yeni Azərbaycan Partiyasının 15-ci ildönümündə qürur hissi ilə deyə bilərik ki, bizim partiyamız çox çətin sınaqlardan keçdi, öz ləyaqətini saxladı. Həm müxalifətdə olduğu dövrdə, həm iqtidarda olduğu dövrdə bizim partiyamız bütün əməkdaşlıq imkanlarını ortaya qoydu. Biz öz fəaliyyətimizlə, öz səylərimizlə ölkəmizi gücləndiririk.

Bir də demək istəyirəm ki, bizim ideologiyamız var – azərbaycançılıq ideologiyası, Heydər Əliyev siyasi xətti, alternativsiz siyasi xətt və bizim siyasi baxışlarımız çox açıqdır və aydındır. Eyni zamanda, bununla yanaşı, hər bir siyasi qurumun fəaliyyətini qiymətləndirmək üçün o qurumun real

praktik işlərinə baxmaq lazımdır. Biz qürur hissi ilə deyə bilərik ki, son 14 il ərzində Azərbaycanın bu sahədə keçdiyi yol uğurlar yoludur. Biz iqtisadi, siyasi cəhətdən özümüzü möhkəmləndirdik. Azərbaycanda sabitlik tam bərqərar olunubdur. Bütün bugünkü və gələcək uğurlarımızın başlıca şərti də budur. Sabitlik pozulan ölkələrdə gedən proseslərə baxanda, biz bunu bir daha görürük. Biz imkan vermədik ki, Azərbaycanda vəziyyəti qarışdırsınlar, halbuki buna cəhdlər göstərilirdi. Həm 2003-cü ilin prezident seçkilərini və bəzi destruktiv qüvvələrin seçkilərin pozulmasına yönəlmiş cəhdlərini, həm də 2005-ci ilin parlament seçkilərində Azərbaycana, Azərbaycan iqtidarına qarşı əsassız təzyiqləri, daha doğrusu, təzyiq cəhdlərini biz hamımız yaxşı xatırlayırıq. Biz bütün bu sınaqlardan şərəflə çıxdıq. Nəyin hesabına? Biz xalqa arxalanırıq. Bizim işimiz haqq işidir, bizim siyasətimiz xalq tərəfindən dəstəklənir. Ona görə biz güclüyük. Biz güclüyük ona görə yox ki, kiməsə problem yaradırıq, hansısa siyasi qüvvəni sıradan çıxarırıq. Yox. Həyat bunu edir. Yəni bizə müxalif olan, yaxud olmaq istəyən qüvvələrin siyasi meydanı daralır. Bizə nə edə bilərlər, nə deyə bilərlər, nə irad tuta bilərlər!? Sadəcə, deyə bilərlər ki, biz pisik, onlar yaxşıdırlar. Amma onların necə yaxşı olduğunu Azərbaycan xalqı yaxşı xatırlayır.

Ölkəmiz ən ağır vəziyyətdə, ən çətin şəraitdə olanda, ölkəmizin dövlətçiliyi əldən gedən zaman onlar hamısı çıxıb getdilər, hakimiyyəti qoyub bəziləri qaçdılar, gizləndilər, bəziləri öz fəaliyyətlərini dondurdular. Nəticədə ölkə idarə olunmaz vəziyyətə düşmüşdü. Yəni bunu heç kim unutmur. Ona görə bir şeyi əldə etmək üçün, hansısa siyasi məqsədə çatmaq üçün insanlar gərək işləsinlər, insanlar gərək öz fəaliyyəti ilə o rəğbəti qazansınlar. Artıq dörd ildir ki, öz iş otaqlarından – artıq iş otaqları da yoxdur, evlərdə fəaliyyət göstərirlər – çıxmayan siyasi qüvvələrin nümayəndələri hansı dəstəyə ümid edə bilər? Yəni bu bir illüziyadır, yaxud da görüntü yaratmaq cəhdi və bəzi beynəlxalq qurumların onlara verdiyi dəstək onların mövcudluğunu davam etdirir. Amma belə mövcudluqdansa, məncə, siyasi fəaliyyət göstərməmək daha da şərəfli olardı.

Bir sözlə, bu gün Azərbaycanın siyasi mənzərəsi çox müsbətdir. Azərbaycanda bütün azadlıqlar var. Demokratiya baxımından biz fəal inkişaf edirik. Söz azadlığı var, plüralizm var. Biz qanunun aliliyini təmin edir, hüquqi dövlət yaradırıq. Heç kim bizi məcbur etmirdi, biz özümüz 2001-ci ildə Avropa Şurası kimi beynəlxalq təşkilata üzv olduq. Bilirsiniz ki, o təşkilatın əsas fəaliyyət çərçivələri insan haqlarını qorumaq, demokratiyanı, azad sözü qorumaqdır. Biz özümüz şüurlu, könüllü şəkildə o təşkilata üzv olduq ki, Azərbaycanda gedən siyasi proseslər Avropada gedən proseslərə uyğun olsun. Bizi heç kim məcbur etmədi. Biz 2001-ci ilə qədər Avropa Şurasının üzvü deyildik, amma yaşayırdıq, öz siyasətimizi aparırdıq. Biz bunu könüllü şəkildə etdik ki, Azərbaycanda həm qanunvericilikdə, həm siyasi prosesin təkmilləşməsində – bütün sahələrdə islahatlar daha da sürətlə getsin.

Bu gün artıq bir ildir ki, Avropa İttifaqının «Yeni qonşuluq siyasəti»nin üzvüyük. Bu təşəbbüsə də biz könüllü qoşulduq. Heç kim bizi məcbur etmirdi. Bizim ölkəmiz heç kimdən asılı deyil. Biz özümüzü təmin edirik və nəinki təmin edirik, başqa ölkələrin inkişafında da az rol oynamırıq. Biz bunu könüllü etdik. Nə üçün? Çünki Avropa İttifaqının təcrübəsi müsbət təcrübədir. Bütün cəhətlərdən – həm iqtisadi inkişaf baxımından, həm sosial məsələlərin həlli baxımından, həm də siyasi proseslərin davam etdirilməsi baxımından. Yəni biz istəyirik ki, müsbət təcrübə toplayaq. Amma, əlbəttə ki, bu qonşuluq siyasəti bizim üzərimizə əlavə məsuliyyət qoyur. Biz müəyyən dərəcədə öhdəliklər götürürük. Biz bunu edirik. Halbuki, bir daha demək istəyirəm ki, Azərbaycanın həm indiki imkanları, həm gələcək perspektivləri, həm coğrafi vəziyyətimiz, həm də böyük dövlətlərlə, qonşu dövlətlərlə müsbət, yaxşı münasibətlərimiz bizi, ümumiyyətlə, hansısa bir təşkilata meyil göstərməyə vadar etmir. Biz bunsuz da yaşayarıq və yaxşı da yaşayarıq. Ancaq biz bunu edirik ki, ölkəmiz müasirləşsin. İstəyirik ki, ölkəmiz ən müsbət təcrübəyə malik olsun. Ona görə biz bundan sonra da Azərbaycanda demokratiyanın inkişafında fəal olacağıq. Bu sahədə islahatlar – siyasi islahatlar, iqtisadi islahatlar davam etdiriləcəkdir. Məqsədimiz odur ki,

Azərbaycan xalqı xoşbəxt yaşasın. Azərbaycanda bütün sosial problemlər öz həllini tapsın. Yoxsulluq, işsizlik, digər problemlər, ədalətsizlik aradan qaldırılsın. Qanunun aliliyi tam şəkildə bərqərar olsun. Azərbaycanda iqtisadi islahatlar imkan versin ki, insanlar yaxşı maaş alsınlar. Kim dövlət işində işləyir, maaşlar qaldırılmalıdır və qaldırılacaqdır.

Özəl sahədə işləyənlər üçün gözəl biznes səraiti yaradılmalıdır. Biz bunu edirik. Biznesin asanlaşdırılması üçün böyük tədbirlər görürük, kreditlər verilir. Özəl sektorun inkişafında biz müxtəlif proqramlar həyata keçiririk. Beləliklə, Azərbaycan möhkəmlənir, Azərbaycanda yaşayan insanlar, vətəndaşlarımız öz həyat səviyyəsini yaxşılaşdırırlar. Yeni Azərbaycan Partiyasının əsas məqsədi, məramı Azərbaycanın xoşbəxt gələcəyi, Azərbaycanın müstəqilliyidir. Sözdə deyil, işdə. Bizimlə bərabər, keçmiş Sovet İttifaqı respublikaları da müstəqilliyə qovuşmuşlar. Amma məsələn, Ermənistanı götürək. Onun haqqında demək olarmı ki, o, müstəqil ölkədir. Əlbəttə ki, yox. Müstəqil siyasət apara bilmir. Həm enerji təhlükəsizliyi baxımından, həm nəqliyyat baxımından, həm iqtisadi inkişaf baxımından tamamilə başqa ölkələrin köməyindən asılıdır. Belə olan halda, bu müstəqillik şərtidir. Biz isə tam şəkildə müstəqilik. Bizə qarşı heç kim öz iradəsini yeridə bilməz. Heç kim bizi nəyisə etməyə məcbur edə bilməz. Heç kim öz iradəsini bizə diktə edə bilməz. Artıq bunu hamı bilir. Artıq bu cəhdlər də əhəmiyyətli dərəcədə azalır.

Bizim hakimiyyətin yeganə mənbəyi xalqdır. Azərbaycan xalqından bizə verilən dəstək bizi gücləndirir və bizim məsuliyyətimizi də artırır. Biz bu məsuliyyətə hazırıq. Bu məsuliyyəti öz üzərimizə götürmüşük. Azərbaycan xalqı əsrlər boyu müstəqillik həsrətində idi. Nəsillər gəlirdi, gedirdi, ölkəmiz müstəqil deyildi. Başqa ölkələrin tərkibində yaşayırdı. Böyük sərvətdir, böyük xoşbəxtlikdir ki, biz, indiki nəsil bu müstəqilliyi görürük. Azərbaycan xalqı azaddır. Azərbaycan bayrağı bütün beynəlxalq tədbirlərdə, beynəlxalq təşkilatlarda dalğalanır. Biz azadıq, biz müstəqilik, biz güclü Azərbaycan yaradırıq, güclü dövlət qururuq. Mən bu dövlət quruculuğunda Yeni Azərbaycan Partiyasının rolunu çox

yüksək qiymətləndirirəm. Əlbəttə ki, Yeni Azərbaycan Partiyası Azərbaycan xalqının bir parçasıdır. Bütün Azərbaycan xalqının xoşbəxt gələcəyi üçün bizim partiyamız əlindən gələni əsirgəmir və biz bundan sonra da bunu edəcəyik.

İndi biz inkişaf yolundayıq. Bizim qarşımızda bütün yollar açıqdır, səma aydındır, üfüqlər açıqdır və biz irəli gedirik. Bu yolda sizə, Yeni Azərbaycan Partiyasının fəallarına, bütün üzvlərinə uğurlar arzu edirəm.

Sizi bu bayram münasibətilə bir daha təbrik edirəm, cansağlığı, uğurlar arzulayıram.

Sağ olun.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BAKIDA KEÇİRİLƏN XIII BEYNƏLXALQ «TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI–2007» SƏRGİSİNİN İŞTİRAKÇILARI İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*22 noyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Bakıda keçirilən XIII beynəlxalq «Telekommunikasiya və informasiya texnologiyaları–2007» sərgisinin iştirakçılarını qəbul etmişdir.*

*Prezident İlham Əliyev qonaqlara müraciətlə dedi:* Xoş gəlmisiniz, sizi görməyimə çox şadam. Təəssüf edirəm ki, konfrans və sərginin açılış mərasimində iştirak etmək imkanım olmadı. Adətən, mən bu tədbirlərə qatılıram. Çünki biz dünən ölkədə deyildik, böyük bir nəqliyyat layihəsinin açılış mərasimində iştirak etdik və bu, Avropa ilə Asiyanı dəmir yolu xətti ilə birləşdirən bir layihədir.

Bu konfrans və sərgi də bizim üçün vacibdir. Çünki biz bu sahəyə böyük diqqət yetiririk. Əminəm ki, informasiya texnologiyaları get-gedə ölkəmizdə daha mühüm rol oynayır və ümid edirik ki, biz bu sahədə regional mərkəzə çevriləcəyik. Zənnimcə, bizim yaxşı inkişaf perspektivlərimiz, yaxşı mütəxəssislərimiz var və dövlət bu sahəyə dəstək verir. Azərbaycan bu sahədə artıq aparıcı xarici şirkətlərlə müsbət əməkdaşlıq həyata keçirmişdir. Müəyyən layihələrimiz var, lakin biz əməkdaşlığımızı, təbii ki, genişləndirməliyik. İnformasiya texnologiyaları layihəsinin həyata keçirilməsi ilə bağlı hərtərəfli proqramımız var və biz gözəçarpan maliyyə resurslarının ayrılmasını planlaşdırırıq. Biz bunu etməyə qadirik. Bizim üçün informasiya texnologiyaları əsas prioritetlərdən biridir.

Bu sektor özündə biznes və təhsil sahələrini cəmləşdirir. Biznes üçün yaxşı imkanlar mövcuddur. Biz birbaşa xarici sərmayə kimi, öz layihələrimizə on milyardlarla dollar cəlb edə bildik. Təhsil isə bizim gələcəyimizdir, bu sahəyə çoxlu vəsait ayırırıq. Gələn il bu, büdcəmizdə ikinci yeri tutacaq və bir milyard manatdan çox vəsait məhz təhsil üçün ayrılacaqdır. Bu bizim ümumi xərclərimizin 10 faizindən bir qədər az hissəsini təşkil edir.

Zənnimcə, biz enerji sektorunda əldə etdiyimiz nailiyyətləri informasiya texnologiyaları sahəsində də əldə edə bilərik. Çünki 10 ildən çoxdur ki, biz əsas enerji şirkətləri ilə uğurlu əməkdaşlıq qurmuşuq. Biz bunu informasiya texnologiyaları sahəsində də etmək istəyirik. Bu sahəyə xarici sərmayələri cəlb etmək fikrindəyik və eyni zamanda, dövlət büdcəsindən də vəsait ayırmağı planlaşdırırıq. Biz bunu etsək və əsas şirkətlər gəlsə və Dövlət Proqramı həyata keçirilsə, böyük sərmayələr qoyulsa, bu sektor daha sürətlə inkişaf edəcəkdir. Bu hər bir ölkənin gələcəyidir.

Xoşbəxtlikdən Azərbaycan təbii sərvətlərə malikdir. İndi isə biz bu təbii sərvətləri insan kapitalına çevirməliyik. Bunu etməyə bizim imkanlarımız var.

Biz bu sərgiyə böyük diqqət yetiririk və bütün bunlar bu sahədəki müsbət inkişafdan xəbər verir. Biz texnoparklar yaratmağı planlaşdırırıq. Bu bizim dövlət informasiya texnologiyaları proqramında nəzərdə tutulubdur. Burada bir çox faydalı elementlər öz əksini tapıb və bunlar hamısı həyata keçiriləcəkdir. Biz bu proqramı məhz öz iradəmizi nümayiş etdirmək üçün yox, sözün əsl mənasında, həyata keçirmək üçün qəbul etmişik. Azərbaycanın hazırkı inkişaf mərhələsində biz maliyyə vəsaitlərində çətinlik çəkmirik. Artıq bizim imkanlarımız var və bu sahəyə çoxlu vəsait ayıracağıq. Ümid edirəm ki, biz bunu tərəfdaşlıq ruhunda edəcəyik və informasiya texnologiyaları sahəsində güclü beynəlxalq tərəfdaşlıq quracağıq və bundan hamı faydalanacaqdır.

*Prezident İlham Əliyev Azərbaycanda bütün orta məktəblərin internetə qoşulduğunu, bununla da şagirdlərin müasir texnologiyalardan istifadə imkanlarının genişləndiyini diqqətə*

*çatdırdı. Dövlətimizin başçısı dedi ki, dünyada mövcud olan bütün müasir texnologiyalar Azərbaycana gətirilir və bu, ölkəmizin həyatının vacib hissəsidir.*

*Beynəlxalq Telekommunikasiya İttifaqının Baş katibi Hamadun Ture beynəlxalq təşkilatların və özəl sektor nümayəndələrinin də daxil olduğu heyəti qəbul etdiyinə görə prezident İlham Əliyevə təşəkkürünü bildirdi. Qonaq bu görüşü Azərbaycan prezidentinin ölkədə informasiya texnologiyalarının inkişafına verdiyi dəyərin təzahürü kimi qiymətləndirdi. Hamadun Ture informasiya cəmiyyəti mövzusunda dünya sammitində Əliyevin çıxışını və onunla görüşünü xatırladaraq dedi ki, Azərbaycanın təbii sərvətlərini insan kapitalına çevirməsi 4 ildən sonra artıq real olmuşdur. Beynəlxalq kommunikasiya təşkilatı bunu Azərbaycanda hökumətin bu sahəyə göstərdiyi diqqət kimi qiymətləndirir. Sizin rəhbərliyinizlə Azərbaycanda orta məktəblərin və digər ictimai obyektlərin genişzolaqlı internet şəbəkəsinə qoşulması təmin edilmişdir.*

*Hamadun Ture bu sahədə kadr potensialının artırılmasının zəruriliyini vurğuladı və bildirdi ki, innovasiyaların ölkəyə gətirilməsi və informasiya texnologiyalarının tətbiqi ilə bağlı Azərbaycanda görülən işlər beynəlxalq aləmdə diqqəti çəkir.*

*BMT-nin İnformasiya-kommunikasiya texnologiyaları və inkişaf üzrə Qlobal alyansının icraçı əlaqələndiricisi Sarbuland Xan Azərbaycana növbəti səfərindən məmnun olduğunu söylədi və BMT-nin Baş katibi Pan Gi Munun salamlarını prezident İlham Əliyevə çatdırdı.*

*Qonaq dedi ki, Azərbaycan Qlobal alyansın informasiya texnologiyaları sahəsində keçirdiyi regional iclaslarda fəal iştirak edir. Bu tədbirlər hökumətlər, özəl sektor və beynəlxalq təşkilatların təmsilçiləri arasında faydalı əməkdaşlığın və yeni təkliflərin yaranması üçün əla platformadır.*

*Sarbuland Xan BMT-nin dünyada informasiya texnologiyalarının inkişafına diqqət yetirdiyini, bu sahənin indi Afrika qitəsində inkişafının diqqət mərkəzində olduğunu dedi. Bildirdi ki, BMT bu sahədə Azərbaycanla əməkdaşlığın davam etdirilməsinə sadiqdir və prezident İlham Əliyevin informasiya texnologiyalarının inkişafı ilə bağlı həyata keçirilən tədbirlərə*

*rəhbərlik etməsi təqdirəlayiqdir. Qonaq Azərbaycanda internetin genişzolaqlı sistemə keçilməsini də yüksək qiymətləndirdi və ölkəmizdə portativ kompyuterlərin istehsalından məmnun olduğunu söylədi.*

*Prezident İlham Əliyev BMT-nin Baş katibi Pan Gi Munun salamlarına görə təşəkkürünü bildirdi və özünün də salamlarını ona çatdırmağı xahiş etdi. Dövlətimizin başçısı bir daha vurğuladı ki, informasiya və kommunikasiya texnologiyalarının inkişafı sahəsində ölkəmizdə xeyli tədbirlər görülüb və bu işlər bundan sonra da davam etdiriləcəkdir. Biz Azərbaycana ən müasir informasiya texnologiyalarını gətirəcək, bu sahədə yenilikləri öyrənib ölkəmizdə tətbiq edəcəyik. Müstəqil ölkə kimi, Azərbaycan bu sahənin inkişafını diqqətdə saxlayır və ona öz töhfələrini verəcəkdir.*

## TÜRKİYƏ RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİNİN SƏDRİ OSMAN ARSLANLA GÖRÜŞ

*Prezident sarayı*

*22 noyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Prezident sarayında Türkiyə Ali Məhkəməsinin sədri Osman Arslanı qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında münasibətlərin bütün istiqamətlər üzrə yüksək səviyyədə olduğu vurğulandı, hüquq-mühafizə və ədalət mühakiməsi orqanlarının əməkdaşlığının da qarşılıqlı münasibətlərin inkişafına öz töhfəsini verdiyi bildirildi. Türkiyə Ali Məhkəməsi sədrinin Azərbaycana səfərinin ölkələrimizin müvafiq strukturları arasında əlaqələrin daha da möhkəmlənməsinə kömək edəcəyinə əminlik ifadə olundu.*

## MACARISTANIN İQTİSADİYYAT VƏ NƏQLİYYAT NAZİRİ YANOŞ KOKANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 noyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Prezident sarayında Macarıstanın İqtisadiyyat və Nəqliyyat naziri Yanoş Kokanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Yanoş Koka ölkəsinin Azərbaycan ilə iqtisadi əlaqələrin genişlənməsində, o cümlədən enerji sektorunda əməkdaşlıqda maraqlı olduğunu vurğuladı. O, Macarıstan ilə Azərbaycanın iqtisadi əlaqələrinin ikitərəfli səviyyədə və beynəlxalq təşkilatlar çərçivəsində daha da möhkəmləndiriləcəyinə ümidvar olduğunu bildirdi.*

*Dövlətimizin başçısı Azərbaycanın Macarıstan ilə müxtəlif sahələrdə əməkdaşlığı inkişaf etdirmək və güclü iqtisadi əlaqələr qurmaq istədiyini qeyd etdi. O, iki ölkə arasında müxtəlif iqtisadi layihələrin, o cümlədən enerji layihələrinin nəzərdən keçirilməsinin mümkün olduğunu söylədi. Prezident İlham Əliyev bildirdi ki, hazırda enerji sektoru Avropada mühüm əhəmiyyət kəsb edir və Azərbaycan özünün böyük neft və qaz ehtiyatları ilə bu sahədə vacib rol oynayır!*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAİD ƏL-NƏHƏYYANA

Əlahəzrət!

Ölkənizin milli bayramı – Birləşmiş Ərəb Əmirlikləri dövlətinin yaranması günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Bu gün Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında möhkəm dostluq münasibətləri mövcuddur. Əminəm ki, belə bir təmələ əsaslanan çoxşaxəli əlaqələrimiz, qarşılıqlı maraq doğuran əməkdaşlığımız daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bu xoş məqamda Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 noyabr 2007-ci il*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ, BAŞ NAZİRİ, DUBAY ƏMİRLİYİNİN HÖKMDARI ƏLAHƏZRƏT ŞEYX MƏHƏMMƏD BİN RƏŞİD ƏL-MƏKTUMA

Əlahəzrət!

Milli bayramınız – Birləşmiş Ərəb Əmirlikləri dövlətinin yaranması günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 noyabr 2007-ci il*

**RUMINİYANIN PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB TRAYAN BESESKUYA**

Hörmətli cənab Prezident!

Rumıniyanın milli bayramı – Birlik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Rumıniya arasındakı dostluq münasibətləri bu gün müvəffəqiyyətlə inkişaf etməkdədir. Əminəm ki, əlaqələrimizin əhatə dairəsinin daha da genişləndirilməsi, həm ikitərəfli qaydada, həm də regional layihələr çərçivəsində əməkdaşlığımızın dərinləşməsi yolunda səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Rumıniya xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 noyabr 2007-ci il*

## İRAN İSLAM RESPUBLİKASININ İSLAM ŞURASI MƏCLİSİNİN SƏDRİ QULAMƏLİ HƏDDAD ADİLİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 noyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Prezident sarayında İran İslam Respublikası parlamentinin – İslam Şurası Məclisinin sədri Qulaməli Həddad Adilin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə İran arasında münasibətlərin daim inkişaf etdiyini bildirdi. İmzalanmış ikitərəfli sazişlərin bütün sahələrdə münasibətlərimizə güclü təkan verdiyini deyən prezident İlham Əliyev ölkələrimiz arasında müxtəlif birgə layihələrin uğurla həyata keçirildiyini və bunların xalqlarımızı bir-birinə daha da yaxınlaşdırdığını vurğuladı. Dövlətimizin başçısı bu səfərin Azərbaycan–İran parlamentlərarası əlaqələrinin güclənməsinə öz töhfəsini verəcəyinə əminliyini söylədi.*

*Qulaməli Həddad Adil Azərbaycana yenidən səfər etməkdən məmnunluğunu bildirdi. Qonaq səfər zamanı ona göstərilən qonaqpərvərliyə görə Azərbaycan rəhbərliyinə təşəkkür etdi və bu səfərin iki ölkənin parlamentləri arasında mövcud olan səmərəli əməkdaşlığın daha da genişlənməsinə xidmət edəcəyinə ümidvar olduğunu dedi.*

## BEYNƏLXALQ CÜDO FEDERASİYASININ PREZİDENTİ MARİUS VİZER İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 noyabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Prezident sarayında Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizeri qəbul etmişdir.*

*Dövlətimizin başçısı Marius Vizeri Beynəlxalq Cüdo Federasiyasının prezidenti vəzifəsinə seçilməsi münasibətilə təbrik etdi. Prezident İlham Əliyev Azərbaycanda idmanın inkişafına dövlət tərəfindən böyük diqqət yetirildiyini və ölkəmizdə müasir, mühüm beynəlxalq tədbirlərin keçirilməsinə tam imkan verən idman komplekslərinin inşa edildiyini vurğuladı. Marius Vizer təbriklərə görə prezident İlham Əliyevə təşəkkürünü bildirdi.*

*Görüşdə Azərbaycan ilə Beynəlxalq Cüdo Federasiyası arasında gələcək əməkdaşlıq məsələləri də müzakirə edildi.*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ**

Hörmətli cənab Prezident!

Pakistan İslam Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz dost və qardaş xalqlarımızın iradəsini ifadə edən dövlətlərarası münasibətlərimizin inkişafına böyük əhəmiyyət veririk. Əminəm ki, ölkələrimiz arasında əməkdaşlığın əhatə dairəsinin genişləndirilməsi, bütün sahələrdə əlaqələrimizin möhkəmləndirilməsi istiqamətində səylərimizi bundan sonra da məqsədyönlü şəkildə davam etdirəcəyik.

Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Pakistan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 noyabr 2007-ci il*

**TAİLANDIN KRALI ƏLAHƏZRƏT BHUMİBOL ADULYADEJƏ**

Əlahəzrət!

Tailandın milli bayramı – Təvəllüd gününüz münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Ümidvaram ki, Azərbaycan–Tailand münasibətlərinin hərtərəfli inkişafı üçün mövcud imkanlardan səmərəli istifadə edərək dost ölkələrimiz arasında əməkdaşlıq sahəsində daha böyük irəliləyişlərə nail olacağıq.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Tailand xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 noyabr 2007-ci il*

**TAİLAND KRALLIĞININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB SURAYUD ÇULANONTA**

Hörmətli cənab Baş nazir!

Ölkənizin milli bayramı – Kralın Təvəllüd günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Tailand münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 noyabr 2007-ci il*

**FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM TARYA HALONENƏ**

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Azərbaycan–Finlandiya əlaqələrinin hərtərəfli inkişafı yolunda atdığımız addımlar dost ölkələrimiz arasındakı münasibətlərin perspektivinə nikbin baxmağa imkan verir. Ümidvaram ki, qarşılıqlı maraq doğuran əməkdaşlığımızı daha geniş məcrada davam etdirmək üçün bundan sonra da ardıcıl səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Finlandiya xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 noyabr 2007-ci il*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ABDULLAH GÜLƏ**

Hörmətli cənab Prezident!

İsparta şəhəri yaxınlığında baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbərini dərin kədər hissi ilə qarşıladım.

Baş vermiş bu faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 noyabr 2007-ci il*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasına seçkilərdə siyahısına Sizin başçılıq etdiyiniz «Yedinaya Rossiya» Partiyasının inamlı qələbəsi münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Bu qələbə Sizin yeritdiyiniz dövlətçiliyin və ölkənin suverenliyinin möhkəmlənməsinə, cəmiyyətin həyatının bütün sahələrində demokratik dəyişikliklərə, beynəlxalq aləmdə Rusiyanın mövqelərinin və nüfuzunun möhkəmlənməsinə yönəlmiş xəttə rusiyalılar tərəfindən etimad göstərilməsinin və bu xəttin fəal dəstəklənməsinin daha bir parlaq sübutudur.

İnanıram ki, Rusiya xalqının seçkilərdə nümayiş etdirdiyi birlik, ölkənin aparıcı siyasi qüvvəsi olan «Yedinaya Rossiya» Partiyası ətrafında sıx birləşməsi Sizin nəzərdə tutduğunuz proqramların uğurla həyata keçirilməsi üçün etibarlı zəmin olacaqdır.

Əminəm ki, Azərbaycan və Rusiyanın dövlətlərarası münasibətlərinin, mehriban qonşuluğun və strateji tərəfdaşlığın daha da inkişaf etdirilməsi üçün birgə səylərimiz bundan sonra da xalqlarımızın və ölkələrimizin tərəqqisinə, regionda sülhün, təhlükəsizliyin və sabitliyin təmin olunmasına kömək edəcəkdir.

Hörmətli Vladimir Vladimiroviç, fürsətdən istifadə edərək Sizə dövləti fəaliyyətinizdə yeni uğurlar, dost Rusiya xalqına tərəqqi və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 dekabr 2007-ci il*

## «YEDİNAYA ROSSİYA» PARTİYASININ SƏDRİ CƏNAB BORİS QRIZLOVA

Hörmətli Boris Vyaçeslavoviç!

Sizi və «Yedinaya Rossiya» Partiyasının bütün üzvlərini Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasına seçkilərdə qələbə münasibətilə ürəkdən təbrik edirəm.

İnanıram ki, həqiqətən bütün Rusiya cəmiyyətinin birləşdirici qüvvəsi olan sizin partiyanın fəaliyyəti bundan sonra da strateji proqramın həyata keçirilməsinə – Rusiyanın tərəqqisi naminə siyasi sabitliyin və genişmiqyaslı sosial-iqtisadi dəyişikliklərin təmin edilməsinə yönəldiləcəkdir.

Əminəm ki, Yeni Azərbaycan Partiyası ilə «Yedinaya Rossiya» Partiyası arasında hərtərəfli əlaqələr və əməkdaşlıq xalqlarımızın və ölkələrimizin mənafeləri naminə dinamik inkişaf edəcək və dərinləşəcəkdir.

Sizə və «Yedinaya Rossiya» Partiyasının bütün üzvlərinə böyük uğurlar və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Yeni Azərbaycan Partiyasının sədri**

Bakı, *3 dekabr 2007-ci il*

**KENİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MVAİ KİBAKİYƏ**

Hörmətli cənab Prezident!

Keniya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və xalqınıza təbriklərimizi yetirirəm. Ümidvaram ki, Azərbaycan–Keniya münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 dekabr 2007-ci il*

**BURKİNA-FASONUN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BLAYZ KOMPAOREYƏ**

Hörmətli cənab Prezident!

Burkina-Fasonun milli bayramı – Respublika günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Burkina-Faso arasında yaranan münasibətlər dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, xalqınıza sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 dekabr 2007-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İTALİYANIN İQTİSADİ İNKİŞAF NAZİRİ PYERLUİCİ BERSANİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*12 dekabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-də Prezident sarayında İtaliyanın İqtisadi İnkişaf naziri Pyerluici Bersaninin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə İtaliya arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğuladı. Siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu deyən prezident İlham Əliyev iqtisadi əməkdaşlığın da inkişaf etdirilərək, siyasi əlaqələrin səviyyəsinə çatdırılacağına ümidvar olduğunu bildirdi. Dövlətimizin başçısı İtaliya şirkətlərinin Azərbaycanda bundan sonra da müvəffəqiyyətlə fəaliyyət göstərməsi üçün əlverişli şəraitin olduğunu vurğuladı.*

*Pyerluici Bersani bütün Azərbaycan xalqı üçün hüznlü gündə İtaliya nümayəndə heyətini qəbul etdiyi üçün prezident İlham Əliyevə təşəkkürünü bildirdi. O, Azərbaycan prezidentinin 2005-ci ildə İtaliyaya rəsmi səfərini məmnuniyyətlə xatırladı və İtaliya Nazirlər Şurasının sədri Romano Prodinin yenidən bu ölkəyə səfər etməklə bağlı dəvətini dövlətimizin başçısına çatdırdı. Bakıya səfərinin məqsədinin iki ölkə arasında əlaqələrin daha da möhkəmləndirilməsinə kömək etmək olduğunu deyən Pyerluici Bersani İtaliyanın Azərbaycanın Avropaya inteqrasiyasına öz töhfəsini verə biləcəyini vurğuladı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI DAĞISTAN RESPUBLİKASININ PREZİDENTİNİN MÜŞAVİRİ SƏİD QURBANOVU QƏBUL ETMİŞDİR

*Prezident sarayı*

*12 dekabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-də Prezident sarayında Rusiya Federasiyası Dağıstan Respublikasının Prezidentinin müşaviri Səid Qurbanovu qəbul etmişdir.*

*Ulu öndər Heydər Əliyevlə uzun illər şəxsi dostluq münasibətlərini xatırlayan Səid Qurbanov xalqımızın ümummilli liderinin vəfatının ildönümü ilə əlaqədar dövlətimizin başçısına dərin hüznlə başsağlığı verdi. Onunla keçirdiyi görüşlərinin heç bir zaman unudulmayacağını deyən qonaq Azərbaycanın tərəqqisində və inkişafında ulu öndərin əvəzsiz xidmətlər göstərdiyini vurğuladı. Səid Qurbanov müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu Heydər Əliyevin ideyalarının prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini söylədi.*

*Dövlətimizin başçısı başsağlığına görə Səid Qurbanova minnətdarlığını bildirdi. Prezident İlham Əliyev onun ümummilli lider Heydər Əliyevlə uzun illər davam etmiş dostluq münasibətlərini yaxşı xatırladığını dedi və ulu öndərin xatirəsini daim uca tutmasını yüksək qiymətləndirdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT ETMİŞDİR

*12 dekabr 2007-ci il*

*Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, türk dünyasının böyük oğlu, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından dörd il keçir. Ulu öndərimizin, əbədiyaşar prezidentimizin Fəxri xiyabandakı məzarı ötən illər ərzində xalqımızın müqəddəs ziyarətgahına, gənclərin and yerinə çevrilmişdir.*

*Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və onun ailə üzvləri Fəxri xiyabana gələrək, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etmişlər.*

*Milli Məclisin deputatları, nazirlər, komitə, şirkət, konsern və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri, xarici dövlətlərdən gəlmiş qonaqlar, Bakıdakı diplomatik nümayəndəliklərin rəhbərləri, müxtəlif ölkələrin təmsilçiləri də Fəxri xiyabana gəlmişdilər.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoydu.*

*Azərbaycanın Dövlət himni səsləndi.*

*Prezidentin ailə üzvləri, mərhumun yaxınları məzarın önünə gül dəstələri düzdülər.*

*Dövlətimizin başçısı və ailə üzvləri görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın, dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin məzarları önünə də gül dəstələri qoydular.*

*Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə ümummilli liderimizin ruhuna dua oxudu.*

*Ulu öndərin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.*

* * *

*Xalqımızın ümummilli liderinin, tarix yaradan şəxsiyyətin vəfatının dördüncü ildönümü günü paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri, eləcə də xarici ölkələrdən gəlmiş çoxsaylı qonaqlar sübh tezdən dəstə-dəstə Fəxri xiyabanı ziyarət edərək, görkəmli şəxsiyyətə Allah-taaladan rəhmət dilədilər. Onlar Azərbaycanın dahi oğlunun əziz xatirəsini dərin ehtiramla yad edib, burada ucaldılmış əzəmətli abidə kompleksinin önünə əklillər, gül dəstələri qoydular.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV HEYDƏR ƏLİYEVİN XATİRƏSİNƏ HƏSR EDİLMİŞ KONSERTDƏ İŞTİRAK ETMİŞDİR

*12 dekabr 2007-ci il*

*Dekabrın 12-də Birinci Beynəlxalq Rostropoviç musiqi festivalı çərçivəsində Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr edilmiş konsert olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva konsertdə olmuşlar.*

*Dünya şöhrətli musiqiçi Mstislav Rostropoviçin həyat yoldaşı Qalina Vişnevskaya da salonda idi. Amerikalı dirijor Kristian Badeanın rəhbərliyi ilə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət simfonik orkestrinin ifasında P.Çaykovskinin əsərləri səslənmişdir. Solist görkəmli rusiyalı violonçelçi Nataliya Qutman idi.*

**ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin paytaxtında törədilmiş partlayışlar nəticəsində çoxsaylı insan tələfatı xəbərini dərin kədər hissi ilə qarşıladıq.

Biz bu hadisədən son dərəcə hiddətlənir, terrorizmin bütün təzahürlərini qətiyyətlə pisləyir, beynəlxalq birliyin bu dəhşətli bəlaya qarşı mübarizəsini hər cür dəstəkləyirik.

Baş vermiş faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 dekabr 2007-ci il*

**İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PASKAL KUŞPENƏ**

Hörmətli cənab Prezident!

İsveçrə Konfederasiyasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə İsveçrə arasındakı dostluq münasibətləri, siyasi, iqtisadi əlaqələrimiz və əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və qarşıdakı məsul işinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 dekabr 2007-ci il*

## QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN XƏLİFƏ ƏL-TANİYƏ

Əlahəzrət!

Milli bayramınız – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–Qətər münasibətləri bu gün müvəffəqiyyətlə inkişaf etməkdədir.

Əminəm ki, gündən-günə genişlənən əlaqələrimiz, bir çox sahələri əhatə edən əməkdaşlığımız xalqlarımızın daha da yaxınlaşmasına, dostluq münasibətlərimizin daim möhkəmlənməsinə xidmət edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Qətər xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 dekabr 2007-ci il*

## BƏHREYN KRALI ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN İSA ƏL-XƏLİFƏYƏ

Əlahəzrət!

Bəhreyn Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Bəhreyn arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Bəhreyn xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 dekabr 2007-ci il*

**NİGER RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MAMADU TANCAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Respublika elan edilməsi günü münasibətilə Sizi və bütün xalqınızı təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Niger arasında münasibətlər dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, xalqınıza sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 dekabr 2007-ci il*

**QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB NURSULTAN NAZARBAYEVƏ**

Hörmətli Nursultan Abişeviç!

Qazaxıstanın milli bayramı – Müstəqillik günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Azərbaycan və Qazaxıstanı çoxəsrlik dostluq, mehriban qonşuluq və qarşılıqlı dəstək ənənələri birləşdirir. Əminəm ki, bizim qarşılıqlı səylərimiz bundan sonra da bu nəcib ənənələrin artırılmasına, xalqlarımızın və ölkələrimizin tərəqqisi, regionda sülh, təhlükəsizlik və sabitlik naminə dövlətlərarası münasibətlərin daha da inkişaf etdirilməsinə yönəldiləcəkdir.

Hörmətli Nursultan Abişeviç, Sizə möhkəm cansağlığı, səadət və uğurlar, dost Qazaxıstan xalqına firavanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 dekabr 2007-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FUNİKULYORUN YAXINLIĞINDA APARILAN YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

*14 dekabr 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 14-də funikulyorun yaxınlığında aparılan yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov məlumat verərək dedi ki, dövlətimizin başçısının tapşırığı əsasında qısa müddətdə bu ərazi tamamilə yenidən qurulmuş, təxminən iki dəfə genişləndirilmişdir. Bəhram Gur abidəsi, buradakı dairəvi hovuz da yeni görkəm almışdır. Bu işi yapon mütəxəssisləri ən müasir standartlar səviyyəsində yerinə yetiriblər. İşıqlandırma sistemi İtaliya texnologiyası əsasında yenidən qurulmuş, ərazidə yaşıllaşdırma işləri aparılmışdır. Yenidənqurma işləri görülərkən insanların istirahəti üçün maksimum şərait yaradılmasına, buranın ətrafla ümumi ansambl təşkil etməsinə xüsusi diqqət yetirilmişdir.*

*Prezident İlham Əliyev bütün park və bağlarda bu cür abadlıq aparılmasını, xaricdən bəzək ağacları və kolların gətirilib əkilməsini tövsiyə etdi. Dövlət başçısı gecələr Bakıya xüsusi yaraşıq verən binaların işıqlandırma sisteminin müasirləşdirilməsi barədə də tapşırıqlarını verdi.*

*Sonra prezident İlham Əliyev funikulyorda aparılan yenidənqurma işləri ilə tanış oldu. Ölkə başçısına bildirildi ki, vaqonlar təzələnib, funikulyor fəaliyyət göstərməyə tam hazırdır.*

*Prezident İlham Əliyev paytaxtda yenidənqurma və abadlıq işləri görülərkən milli memarlıq ənənələrinə həssaslıqla yanaşılmasının vacibliyini vurğuladı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKININ NƏRİMANOV RAYONU ƏRAZİSİNDƏ YENİ SALINAN YOL İLƏ TANIŞ OLMUŞDUR

*14 dekabr 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev dekabrın 14-də Bakının Nərimanov rayonu ərazisində, Nəsib bəy Yusifbəyli küçəsinin davamı olaraq yeni salınan 1,4 kilometr uzunluğunda olan yolla tanış olmuşdur.*

**Ziya Məmmədov** (*Nəqliyyat naziri*): Cənab Prezident, Sizin şəxsi təşəbbüsünüz və tapşırığınızla bu ərazidə yeni yol salınmışdır. Əslində, əvvəllər burada yol olmamışdır. Sizin Bakı şəhərində nəqliyyat vasitələrinin hərəkətinin tənzimlənməsi məqsədilə verdiyiniz göstərişə əsasən, «Gənclik» meydanından Ceyhun Hacıbəyli (keçmiş Fabritus) küçəsinədək 650 metrlik dördzolaqlı yol salınmışdır. Biz bu yolu prospektə çevirmək məqsədilə onu Nəsimi rayonu ərazisinə, Səməd Vurğun küçəsinə qədər uzadacağıq. Bütövlükdə yolun uzunluğu 1400 metr olacaqdır. Dördzolaqlı yeni prospekt nəqliyyat vasitələrinin hərəkətinin tənzimlənməsində və tıxacların aradan qaldırılmasında mühüm rol oynayan əhəmiyyətli yola çevriləcəkdir. Bu yolun bir üstünlüyü də ondan ibarətdir ki, «Gənclik» meydanı istiqamətinə gedən əsas küçələr prospektlərlə birləşəcəkdir. Buradan hərəkət etməklə Ceyhun Hacıbəyli küçəsinə, Həsən Əliyev prospektinə, Mirəli Qaşqay küçəsinə, Azadlıq prospektinə, Xan Şuşinski, Səməd Vurğun küçələrinə çıxmaq mümkün olacaqdır.

Cənab Prezident, Ceyhun Hacıbəyli küçəsinə qədər olan hissə Nəsib bəy Yusifbəyli küçəsi adlandığı üçün biz də yolun davamını şərti olaraq elə həmin küçənin adı ilə adlandırmışıq.

**İlham Əliyev:** Yeni yol açılır, əvvəllər burada yol yox idi. Gərək bura üçün ad da fikirləşək. Biz bu yolu keçmiş «Anten» adlandırılan ərazi hesabına açdıq. Faktiki olaraq, bu yol «Anten» ərazisinin bir hissəsidir.

**Z i y a M ə m m ə d o v:** Cənab Prezident, tamamilə doğru deyirsiniz, Sizin tapşırığınızla bu ərazidən 25 metr enində zolaq ayrıldı. Bu, nəqliyyat vasitələri üçün həqiqətən də çox geniş imkanlar açır. Yolun hərəkət hissəsinin eni 16 metrdir. Piyadaların gediş-gəlişi üçün də şərait yaradılmışdır. Yeni açılan yol bütün istiqamətlərə gediş-gelişi təmin etdiyinə görə Vaqif küçəsindən «Gənclik» meydanına doğru hərəkət birtərəfli olacaqdır. Bu, Vaqif küçəsində hərəkət intensiv olduğuna görə və təhlükəsizliyi təmin etmək baxımından zəruridir.

**İ l h a m Ə l i y e v:** O küçəni də maksimum dərəcədə genişləndirmək lazımdır.

**Z i y a M ə m m ə d o v:** Bəli, genişləndirəcəyik və hərəkəti birtərəfli edəndə çox rahat olacaqdır.

**İ l h a m Ə l i y e v:** Hansı tərəfdən?

**Z i y a M ə m m ə d o v**: Dədə Qorqud parkının yanından «Gənclik» meydanına qədər hərəkətin birtərəfli olması daha məqsədəuyğundur. «Gənclik» meydanından Təbriz küçəsi istiqamətində yeni yolun çəkilməsini də nəzərdə tutmuşuq, bunun üçün imkan vardır. Həmin ərazidə gələcəkdə Diplomatik Akademiyanın tikiləcəyini də nəzərə alsaq, bu yola ehtiyac duyulacaqdır.

*Dövlətimizin başçısına məlumat verildi ki, Bakı şəhərində beşinci körpünün tikintisi də başa çatmaqdadır və bir neçə digər layihələr üzərində də iş davam etdirilir.*

*Prezident İlham Əliyev «Gənclik» meydanının müasirləşdirilməsinin, Vaqif küçəsinin genişləndirilməsinin, paytaxtın digər yerlərində maksimum dərəcədə yeni yolların açılmasının vacibliyini vurğuladı.*

*Dövlətimizin başçısı avtomobilə əyləşərək yeni yolun hazır hissəsi ilə hərəkət etdi, bu ayın sonunadək tamamlanacaq sahədə işlərin gedişi ilə tanış oldu, yolun çəkilişinə mane olan tikililərin sahiblərinə kompensasiya ödənilməklə sökülməsi, tıxacların aradan qaldırılması üçün digər yeni yolların salınması ilə bağlı müvafiq tövsiyə və tapşırıqlarını verdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FÖVQƏLADƏ HALLAR NAZİRLİYİNİN ALDIĞI YENİ TEXNİKA, AVADANLIQ VƏ QURĞULARIN TƏQDİMAT MƏRASİMİNDƏ

*Baki, Azadlıq meydanı*

*17 dekabr 2007-ci il*

*Dekabrın 17-də Bakıda Azadlıq meydanında Fövqəladə Hallar Nazirliyinin aldığı və fövqəladə hallar zamanı istifadə edilən yeni texnika, avadanlıq və qurğuların təqdimatı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev təqdimatda iştirak etmişdir.*

*Fövqəladə Hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov dövlətimizin başçısına raport verdi:* «Cənab Ali Baş Komandan, Fövqəladə Hallar Nazirliyinin şəxsi heyəti zatialinizin göstəriş, sərəncamları əsasında alınmış və təqdim olunmuş texnika sıra baxışına hazırdır».

*Prezident İlham Əliyev şəxsi heyəti salamladı.*

*Nazir Kəmaləddin Heydərov prezidentə məlumat verərək dedi ki, burada göstərilən texnika yanğınsöndürmə, quruda və suda xilasetmə işlərində istifadə olunur. Texnikalar xarici ölkələrdən alınmışdır və hazırda dünyada mövcud olan ən müasir standartlara cavab verir. Azərbaycanın bölgələrinə verilmiş və hazırda növbə çəkən texnikanı çıxmaq şərtilə, Bakı və Abşeron qarnizonuna aid əksər texnika bu gün burada toplanmışdır. İndiyədək 232 ədəd yanğınsöndürmə maşınları alınmışdır. Digər texnikaların alınması ilə bağlı işlər davam etdirilir. Bu işdə Sizin tərəfinizdən qarşıya qoyulmuş bütün vəzifələr proqram xarakteri daşıyır. Azərbaycan vətəndaşlarının təhlükəsiz yaşaması, işləməsi və istirahət etməsi prinsipi əsas götürülür və fəaliyyətimiz bu istiqamətdə qurulur.*

*Prezident İlham Əliyev bütün texnikanın, avadanlığın, cihazların, qurğuların taktiki-texniki xüsusiyyətləri ilə tanış oldu.*

*Məlumat verildi ki, nərdivanı 68 və 54 metr hündürlüyə çatan, dönmə bucağı 360 dərəcə olan, 9 ton su, 1 ton köpük tutan və səbətinə 5 nəfər, yaxud 540 kiloqram yük yerləşən Almaniya istehsallı dirsəkli qaldırıcı avtomobil hündürmərtəbəli binalarda baş vermiş yanğının söndürülməsi, insanların xilas olunması, neft və neft məhsulları saxlanılan çənlərdə yanğının söndürülməsi üçün nəzərdə tutulmuşdur.*

*Yanğın nasos-şlanq avtomobili hadisə yerinə yanğın şlanqlarının, yanğın motopompasının gətirilməsi və susuz ərazilərdə iri və mürəkkəb yanğınların söndürülməsi üçün uzaq məsafələrdən suyun yanğın yerinə verilməsi üçün istifadə edilir. Əməliyyat-qərargah maşını ilə fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması üçün əməliyyat qrupları hadisə yerinə çatdırılır və idarəetmə işi təşkil olunur.*

*Vurğulandı ki, qəza-xilasetmə maşını təbii və texnogen xarakterli hadisə baş vermiş yerdə qəza-xilasetmə işlərinin və digər təxirəsalınmaz işlərin aparılması, dağıntı altında, 10 metrədək dərinlikdə qalmış insanların axtarılması və onlara ilk tibbi yardım göstərmək üçündür. Bu maşınla pnevmodomkrat vasitəsilə çəkisi 10 tonadək olan dəmir-beton kütləsini qaldırmaq, diametri 32 millimetrədək olan metal boruları, 10 millimetrədək qalınlığı olan polad lövhələri kəsmək, ensiz aralıqları genişləndirmək mümkündür.*

*Prezident İlham Əliyev açılan üçdirsəkli nərdivan, xilasedicilərin geyimləri, alpinist avadanlığı, motoalətlər, avtomobil elektrodartıcı və əl dartıcısı, işıqlandırma sistemləri, yanğından mühafizə vasitələri, kimyəvi və radiasiya kəşfiyyatı və qaz nəzarət cihazları ilə maraqlandı, əməliyyat-qərargah, qəza-xilasetmə maşınlarına, motosikletlərə baxdı.*

*Bildirildi ki, bu texnikalar qəza-xilasetmə dəstəsinin, pirotexnik heyətin partlayış təhlükəli əşyaların aşkar olunduğu əraziyə çatdırılması, habelə partlayıcı təhlükəli əşyaların torpaqda və suda axtarışı, çıxarılması, təhlükəsiz yerə daşınması və məhv edilməsi, şəhərlərdə tikinti işləri zamanı təhlükəsiz partla-*

*yışların yerinə yetirilməsi, partladıcı qurğuların və partladıcı maddələrin təhlükəsiz daşınmasında çox yararlıdır.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Amerika istehsalı olan mobil səhra kimya avadanlığı qoşqusu kimyəvi, radioloji və bioloji təhlükələr baş verən ərazilərdə ilkin tədbirlərin görülməsini, zərərçəkənlərin zədələnmə zonasından çıxarılmasını, onların dezaktivasiya olunmasını təmin etmək, kimyaçı xilasedicilərin hazırlanması, təlim məşqlərinin keçirilməsi üçün nəzərdə tutulmuşdur.*

*Qəza vəziyyətinə düşmüş və nasaz avtomobillərin aparılması, evakuasiyası üçün servis evakuatoru, fövqəladə hallar zamanı səyyar fəaliyyətin təşkili üçün avtomobillər, sərnişin avtobusları da nümayiş etdirildi. «Hummer-H2» avtomobilinin bazasında yerləşdirilmiş texniki avadanlıq fövqəladə hallar zamanı heç bir yerli rabitə infrastrukturundan, iqlimdən və coğrafi mövqedən asılı olmayaraq, hadisə yerindən birbaşa radiorabitə, məlumat, audio və video görüntü əlaqəsi yaratmaqla vəziyyətin idarə olunmasına imkan yaradır. Avtomobildə teleskopik qurğu, 1,2 metr diametrində peyk antenna, 360 dərəcə fırladıcı qurğu, videokamera vardır.*

*Prezident İlham Əliyev «Nissan-Patrol» markalı avtomobildə və motosikletlərdə yerləşdirilmiş alət və avadanlığın texniki göstəriciləri, benzinlə işləyən generatorlar, kəsici alətlər və qoruyucu vasitələrlə və digər texnika və avadanlıqla da tanış oldu. Bildirildi ki, bu ilin avqustundan bəri avtomobillərdə baş vermiş yanğınları motosikletlərin köməyi ilə söndürmək üçün 92 uğurlu əməliyyat keçirilmişdir.*

*Ərazilərdə avtomatlaşdırılmış qamma çəkilişi, radioaktiv mənbələrin axtarışı, identifikasiyası, dozimetrik-radiometrik və spektrometrik ölçmələr, havada, torpaqda və suda radonun həcmi aktivliyinin təyini, radioloji monitorinqlərin aparılması işləri ilə məşğul olan mobil radiometriya laboratoriyası, radioaktiv tullantıların daşınması üçün xüsusi avtomobil, şəxsi heyətin, tikintidə və sənayedə müxtəlif növ yüklərin daşınması üçün nəzərdə tutulan «Mercedes Benz–33K», «KamAZ» markalı yükünü özüboşaldan, bütün fəsillərdə asfalt və beton yolların təmizlənməsi üçün avtomobillər, dağıntı, yanğın yerlə-*

*rindən, tikililərin hündür mərtəbələrindən insanların, əmlakın xilas edilməsi, xilasetmə avadanlığının hündürlüyə qaldırılması üçün nəzərdə tutulan hidravlik avtoqaldırıcılar, xəndəklərin və çuxurların qazılması, yüklərin doldurulub boşaldılması, hamar yolların çəkilməsi və digər torpaq işlərində istifadə olunan hidravlik ekskavator, buldozer, «Honda» markalı generatorlar da nümayiş etdirildi.*

*Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin istehsalı olan 4–6 metrlik nəzarət və xilasetmə qayıqlarına, Türkiyədə istehsal edilmiş rezin qayıqları və katerləri hərəkətə gətirmək üçün istifadə olunan xüsusi cihazlara da baxdı.*

*Sonra dövlətimizin başçısı Hökumət evinin 9-cu və 6-cı mərtəbələrində baş vermiş yanğının söndürülməsi, sakinlərin, xəsarət alanların xüsusi texnologiya əsasında yerə endirilməsi prosesini izlədi, Milli Parkda quraşdırılmış səyyar müalicə hospitalı ilə tanış oldu. Bildirildi ki, bu cür hospitallar fövqəladə hadisə baş vermiş ərazidə, yol şəraiti çətin olan yerlərdə qısa müddət ərzində zərərçəkənlərə və xəstələrə tamhəcmli tibbi yardım göstərmək üçün nəzərdə tutulur. Qəbul-bölüşdürmə, laboratoriya, cərrahiyyə və intensiv terapiya bölmələrindən ibarət hospitala daxil olan yaralılara müasir reanimasiya avadanlığı, ultrasəs müayinə aparatları, yanıq üçün ləvazimatlar, dərman preparatları və sarğı materiallarının köməyi ilə lazımi yardım göstərilir. Burada lazımi analizlər, cərrahiyyə əməliyyatı aparmaq mümkündür.*

*Mülki müdafiə qoşunları, yanğınsöndürənlər, xilasedicilər neft çənlərində və enerji sektorunda, yol-nəqliyyat hadisəsi zamanı baş verən yanğınların qarşısının alınması, hündürmərtəbəli binalardan sakinlərin xüsusi texnologiya əsasında çıxarılması, 10 mərtəbəli binada alovun söndürülməsi bacarıqlarını göstərdilər.*

*Prezident İlham Əliyev bu prosesi izlədi, hadisə rayonuna rəhbər heyətin vaxtında çatdırılması, kəşfiyyatın aparılması və xilasetmə işlərinin yerinə yetirilməsi üçün istifadə olunan vertolyota, qərargah maşınına mindi, onların iş xüsusiyyətləri ilə maraqlandı.*

*Dövlətimizin başçısı sahildə sərnişin və yük gəmilərində, neft platformalarında, sahilyanı obyektlərdə baş verən yanğınların xüsusi gəmi və vertolyotlar vasitəsilə söndürülməsi, sərnişinlərin xilas olunması əməliyyatlarını da izlədi.*

*Sonra prezident İlham Əliyev FHN-in Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyinin və Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin fəaliyyətini əks etdirən bölmələrdə radioaktiv, partlayıcı maddələrin gətirilməsinə, istifadəsinə, bütün təhlükə potensiallı obyektlərdə görülən işlərə nəzarət edən ultrasəs cihazlarına, tikinti zamanı və sonra binaların keyfiyyətini yoxlamaq üçün istifadə edilən ən müasir diaqnostik avadanlığa baxdı. Bildirildi ki, bu işlər S.Ə.Dadaşov adına Elmi- Tədqiqat Tikinti Materialları İnstitutu tərəfindən görülür və lazım olan məlumatlar rəhbərliyə çatdırılır. Bu il ərzində 264 binada yoxlama işləri görülmüşdür.*

*Prezident İlham Əliyev böhran vəziyyətlərində səyyar idarəetmə mərkəzi ilə də tanış oldu. Məlumat verildi ki, mərkəzin xüsusi rabitə vasitələri vardır. «Hummer» tipli xüsusi təyinatlı avtomobil var ki, hadisə yerindən görüntüləri peyk rabitəsi vasitəsilə birbaşa verir. Burada istifadə olunan elektron xəritədə Fövqəladə Hallar Nazirliyinin bütün qurumlarının yerləri və texnikaları göstərilir. Bu da hadisə rayonunda mövcud texnikaları qiymətləndirməyə və onların tətbiqini asanlaşdırmağa imkan verir. GPS sistemi isə hərəkət edən texnikanın yerini göstərir və beləliklə, ona nəzarət olunur. Hazırda bu sistem üç yanğınsöndürmə maşınına quraşdırılmışdır. Gələcəkdə bu sistem qəza-xilasetmə avtomobillərində, sularda xilasetmə xidmətinin gəmilərində də quraşdırılacaqdır.*

*Prezident İlham Əliyev nazirliyin şəxsi heyətini bir daha təbrik etdi, görülən işləri yüksək qiymətləndirdi, regionlarda yerləşən qarnizonların texnika ilə tam təmin olunması, müasir texnika və avadanlığın alınması, operativliyin təmin edilməsi barədə müvafiq tövsiyə və tapşırıqlarını verdi.*

## QEYDLƏR

**1. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublikanın sahəsi 5,5 min km$^2$, əhalisi 435,3 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi var. – 5–30,219,233.

**2. Yozef Blatter** (d.1936) – 1998-2015-ci illərdə Beynəlxalq Futbol Assosiasiyaları Federasiyasının prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 6–7.

**3. Mişel Platini** (d.1955) – məşhur fransız futbolçusu, məşqçi və futbol məmuru. 1984-cü il Avropa çempionatının qalibi. XX əsrin ən yaxşı futbolçularından biri. 1983,1984, 1985-ci illərdə «Qızıl top»un sahibi. 1988–92-ci illərdə Fransa milli komandasının Baş məşqçisi, 2007-ci ildə Avropa Futbol Assosiasiyalar İttifaqının prezidenti seçilmişdir. O, eyni zamanda, FİFA-nın vitse-prezidentidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 6–7.

**4. Elçin Quliyev,** Elçin İsağa oğlu (d.1967) – hüquqşünas, general-leytenant. Bakı Dövlət Universitetini və Bakı Ali Hərbi Birləşmiş Komandirlər Məktəbini bitirmişdir. 2001-ci ildən Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisidir. «Azərbaycan bayrağı» ordeni ilə təltif edilmişdir. – 8.

**5. İran,** İran İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1648 min km$^2$, əhalisi 66,8 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il

müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 8–9,26,27,129,215,216,297.

**6. Mahmud Əhmədinejad** (d.1956) – 2005–2013-cü illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. – 8.

**7. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 0,013 min $km^2$, əhalisi 89,5 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal ediblər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtı oldu. – 9–30,54,219,233.

**8. Zərifə xanım Əliyeva,** Z ə r i f ə Ə z i z q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin,

Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 12,309.

**9. Naxçıvan Dövlət Universiteti,** Yusif Məmmədəliyev adına (NDU) – ali təhsil məktəbi. Naxçıvan MR-nin mühüm təhsil, elm və mədəniyyət mərkəzi. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 dekabr 1990-cı il qərarı ilə Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutu əsasında yaradılmışdır. 32 ixtisas üzrə mütəxəssislər hazırlayan 9 fakültəsi (tarix, filologiya, iqtisad-hüquq, təbiətşünaslıq, tibb, fizika-riyaziyyat, pedaqoji, incəsənət, xarici tələbələr), hazırlıq şöbəsi fəaliyyət göstərir. NDU-da 3600-dən çox tələbə təhsil alır. – 13–22,25,27.

**10. Vasif Talıbov,** Vasif Yusif oğlu (d.1960) – Azərbaycanın dövlət xadimi, 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir. –16,23–30.

**11. Heydər Əliyev,** Heydər Əlirza oğlu (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər)

idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının prezidenti seçildi.

H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanları Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 19,22,24,25,26,28,29,38,42,66-67,71,78,79, 80,83,85,86,94,122,124, 125,126,148,159,165,169,178,203,233, 274,275,276,279,282,283,309,311,312.

**12. Avropa İttifaqı** – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına bir çox Avropa dövlətləri də daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildən vahid valyuta–avro işlənir, vahid pul-kredit siyasəti aparılır. – 19,20,34,45,155,205,206,241,248, 263,268,285.

**13. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərq kənarında dövlət. Sahəsi 780,6 min km$^2$, əhalisi 76,5 milyon nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 20, 23,27,29,49,54,60,61,89,91,142–181,183,205,206,207,215,219,230, 232–239,240–250,261–268,283,303.

**14. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1219 milyon nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansiz), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszın) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının sədridir. Paytaxtı Pekindir. – 20,89,166,263.

**15. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 20,54,83,93,122,126,127,152,162, 164,178,205,235,245,247,248,266,282.

**16. Bakı–Tbilisi –Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan keçir, 280 km isə Gürcüstan–Türkiyə sərhədindən Ərzuruma qədərdir). Kə-

mərə qaz «Şahdəniz»dən ötürülür. – 20,152,162,166,178,205, 235,245,247,248,266,282,283.

**17. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. Yolun tikintisinə 2007-ci ildə başlanmışdır. Yolun uzunluğu 826 km-dir. Gürcüstanın Axalkalaki stansiyasından Qars şəhərinə qədər olacaqdır. – 20,152,166,178,261,262,263,264,265–266, 272,282,283.

**18. Şərur** – Naxçıvan MR-də şəhər. Naxçıvan şəhərindən 66 km şimal-qərbdə, Şərur düzündədir. Əhalisi 6315 nəfərdir. Şərurun salındığı tarix hələlik dəqiq müəyyənləşdirilməsə də, buranın hələ bizim eradan əvvəl məskunlaşdırıldığı məlumdur. – 23–30.

**19. Sədərək** – Naxçıvan MR-də inzibati rayon. Sərhəd bölgəsinin sosial-iqtisadi inkişafını daha da sürətləndirmək və gücləndirmək, həmçinin ərazinin geostrateji mövqeyi nəzərə alınaraq 1990-cı il avqustun 28-də Azərbaycan SSR Ali Sovetinin fərmanı əsasında yaradılmışdır. Sahəsi 0,15 min $km^2$, əhalisi 15,3 min nəfərdir. – 29.

**20. Hacıbala Abutalıbov,** H a c ı b a l a İ b r a h i m o ğ l u (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktorudur. – 30,117,138–139,217,218, 240,319.

**21. Ramiz Mehdiyev,** R a m i z Ə n v ə r o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin 1-ci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası

Prezidentinin Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. –30,240.

**22. Çexiya,** Ç e x i y a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 78,9 min km$^2$, əhalisi 10,3 milyon nəfərdir. İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar Palatası) parlamentdir. Paytaxtı Praqadır. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. –

**23. Vatslav Klaus** (d.1941) – 2003–2013-cü illərdə Çexiyanın prezidenti olmuşdur. – 31.

**24. Türkmənistan,** T ü r k m ə n i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 488,1 min km$^2$, əhalisi 5,8 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabaddır. – 32,229,235,244.

**25. Qurbanqulu Berdimühəmmədov** (d.1957) – Türkmənistan dövlət xadimi. 2007-ci ildən Türkmənistan Respublikasının prezidentidir. – 32,229.

**26. Peter Semnebi** (d.1959) – İsveç səfiri. 2006–2011-ci illərdə Semnebi Avropa İttifaqının Cənubi Qafqaz üzrə nümayəndəsi olmuşdur. – 34.

**27. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq

müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 35,193.

**28. Pakistan,** Pakistan İslam Respublikası– Cənubi Asiyada dövlət. Sahəsi 796 min km², əhalisi 133,5 milyon nəfərdir. Paytaxtı İslamabad şəhəridir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. – 36,299.

**29. Pərviz Müşərrəf** (d.1943) – 2001–2007-ci illərdə Pakistan Respublikasının prezidenti, ordu generalı. 1988–90 və 1993–96-cı illərdə Pakistanın Baş naziri, 1998-ci ildə Baş qərargah rəisi olmuş, 1999-cu ildə hərbi çevriliş nəticəsində hakimiyyətə gəlmişdir. – 36,299.

**30. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 38,40,44,269–274.

**31. Abşeron yarımadası** – Azərbaycan Respublikasında, Xəzər dənizinin qərb sahilində ən böyük yarımada. Böyük Qafqazın cənub-şərq qurtaracağındadır. Qərbdə Qobustanla həmsərhəddir. Uzunluğu təqribən 60 km, ən geniş yerdə eni 30 km-dir. Abşeron yarımadasının səthi geniş düzənlikdən, bir-birindən dərə və çökəkliklərlə ayrılan tirə, yayla və təpəliklərdən ibarətdir. Abşeron yarımadasının qərb hissəsi nisbətən yüksəkdir. – 41,182,213.

**32. Sumqayıt** – Azərbaycanda şəhər. Bakıdan 35 km şimal-qərbdə, Xəzər dənizinin qərb sahilində yerləşir. Sahəsi 143 km$^2$, əhalisi 329,3 min nəfərdir. Əvvəllər kiçik yaşayış məntəqəsi olan Sumqayıt 1938-ci ildə Bakı neft sənayesini elektrik enerjisi ilə təmin edəcək İstilik Elektrik Stansiyasının tikintisi ilə şəhər tipli qəsəbəyə çevrildi və get-gedə Bakıdan sonra ölkəmizin ikinci sənaye şəhəri oldu. Sənayesində kimya və metallurgiya sahələri əsas yet tutur. – 53,75,182.

**33. Əlcəzair,** Əlcəzair Xalq Demokratik Respublikası – Şimali Afrikada dövlət. Sahəsi 2382 min km$^2$, əhalisi 28,8 milyon nəfərdir. İnzibati ərazisi 48 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Xalq Məclisidir. Paytaxtı Əlcəzair şəhəridir. – 62,313.

**34. Əbdüləziz Buteflikay** (d.1937) – Əlcəzair dövlət xadimi, 1999-cu ildən Əlcəzair prezidenti. – 62,313.

**35. Şamaxı** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1610 km$^2$, əhalisi 98,3 min nəfərdir.

Şamaxı Azərbaycanın qədim şəhərlərindəndir. Şamaxı haqqında antik dövr, ərəb, fars, türk, həmçinin rus və orta əsr Avropa müəllifləri məlumat vermişlər. Şamaxının adı ilk dəfə yunan coğrafiyaşünası Ptolemeyin (II əsr) «Coğrafi təlimnamə» əsərində «Şamaxeya» və ya «Kemaxeya» kimi çəkilir. Şamaxının salındığı tarix dəqiq məlum deyil. – 65,141.

**36. İsmayıllı** – Azərbaycan Respublikasında inzibati rayon. 1931-ci ildə təşkil edilmişdir. Sahəsi 2074 $km^2$, əhalisi 83,1 min nəfərdir. – 65,75.

**37. Qəbələ** (1930–91-ci illərdə Qutqaşen) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 1550 $km^2$, əhalisi 100 min nəfərdir. – 65,75,76.

**38. Ömər Eldarov,** Ö m ə r  H ə s ə n  o ğ l u (d.1927) – görkəmli Azərbaycan heykəltəraşı. Azərbaycan MEA-nın həqiqi üzvü. Rəssamlıq Akademiyasının rektoru. Heykəltəraşlığın müxtəlif janrlarında (monumental abidə, portret, büst, qorelyef və s.) əsərlər yaradır. I çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 67.

**39. Gürcüstan,** G ü r c ü s t a n  R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min $km^2$, əhalisi 5,5 milyon nəfərdir. Dövlətin başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 49,54,65,104,175,180,205,206,222,215,246, 260–268,283.

**40. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ) – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 49,209, 210,211,212,213.

**41. Mingəçevir** – Azərbaycanda şəhər. «Mingəçevir» sözünün etimologiyası barədə müxtəlif mülahizələr var. Aka-

demik Z.Bünyadov Mingəçevirin adını 839-cu ildə Azərbaycanda Xilafətə qarşı çıxmış Minkiçəvr əl-Fərqaninin adı ilə əlaqələndirir. XVII əsr türk səyyahı Evliya Çələbi «Səyahətnamə» əsərində Kür çayının sağ sahilində ipək parça emalatxanaları, məscidi və hamamı olan Mingəçevir adlı yaşayış məntəqəsi barədə məlumat verir. Mingəçevir II dünya müharibəsindən sonrakı illərdə yaradılmış iri sənaye mərkəzlərindəndir. İndiki Mingəçevir hidrotexniki kompleksin tikintisi ilə əlaqədar salınmışdır. Əhalisi 123,5 min nəfərdir. – 53,97–99.

**42. Abdullah Gül** (d.1950) – Türkiyə dövlət və siyasi xadimi, iqtisad elmləri doktoru, professor. 1991-ci ildə TBMM-in üzvü seçilmişdir. Abdullah Gül Rəcəb Tayyib Ərdoğanla Ədalət və İnkişaf Partiyasının yaradıcılarından biridir. 2007–2014-cü illərdə Türkiyə Cümhuriyyətinin prezidenti olmuşdur. – 60,142–181,261–268,303.

**43. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyə siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Respublikasının prezidenti seçildi. – 61,230,243–250,264.

**44. «Yeni qonşuluq siyasəti»** (YQS) – Avropa İttifaqının qonşu ölkələrlə əməkdaşlığının möhkəmləndirilməsinə, Avropa İttifaqı və qonşu ölkələr arasında təhlükəsiz və firavan zonalar, Avropa İttifaqı sərhədlərində «dost ölkələr dairəsi» yaratmaga, həmçinin Aİ ilə qonşu ölkələr arasında siyasi, təhlükəsiz, iqtisadi və mədəni sahələrdə daha sıx əməkdaşlıq etməyə şərait yaradır. YQS-nin əsas məqsədi Avropa İttifaqının qonşu ölkələrində stabilliyin, təhlükəsizliyin qorunması, maraqlı ölkələrdə rifah halının yaxşılaşdırılmasıdır. – 63,285

**45. Litva,** L i t v a  R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 65,2 min km$^2$, əhalisi 3,5 milyon nəfərdir. İnzibati ərazisi 44 rayona bölünür və respublika tabeçiliyinə 11 şəhər daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Seymdir. Paytaxtı Vilnüsdür. – 63, 105,116,.

**46. Litva Seymi** – Litvanın ali qanunverici orqanı. Seym birpalatalıdır. – 63.

**47. Qobustan rayonu** (*ilk adı Duvannı*) – Azərbaycan Respublikasında inzibati rayon. 1990-cı ildə təşkil edilmişdir. Qobustanın ərazisi qədim insanların məskunlaşdığı yerlər olub. Hal-hazırda Qobustan Dövlət Qoruğunda qorunan qaya təsvirləri buna əyani sübutdur. Arxeoloji tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, qaya təsvirləri bizim eradan əvvəl II minilliyə – Daş dövrünə təsadüf edir. Sahəsi 13694 km$^2$, əhalisi 43,2 min nəfərdir. – 65–74.

**48. Mehriban Əliyeva,** M e h r i b a n  A r i f  q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–93-cü illərdə Krassnov adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni

məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliginə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci idə Bakıda keçirilən ilk Avropa oyunlarının təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 65,67,78,86,89, 91,93,169,253.

**49. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5 minə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 73 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci ilin mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 67,94,275–287.

**50. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO-nun və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni numayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası, fondun strukturunda bir sıra qurumlar fəaliyyət göstərir. – 69,86,91,169.

**51. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. –

**52. «Azərsu» Səhmdar Cəmiyyəti** – 2004-cü ildə Abşeron Regional Su Cəmiyyəti «Azərsu» Səhmdar Cəmiyyətinə çevrildi. Bakı Şəhər İcra Hakimiyyətinin «Bakıkanalizasiya» İstehsalat Birliyinin və Dövlət Tikinti və Arxitektura Komitəsinin ləğv edilmiş «Azərsukanaltəmir» və «Azərkəndsutəchizat» İstehsalat Birliklərinin respublikanın şəhər və rayonlarındakı müəssisə və təşkilatları onun tabeliyinə verilmişdir. Cəmiyyətin bütün səhmləri dövlətə məxsusdur. – 75–76,183.

**53. Ağsu** – Azərbaycan Respublikasında inzibati rayon. 1943-cü ildə təşkil edilmişdir. 1963-cü ildə ərazisi ləğv edilib Kürdəmir rayonuna birləşdirilmişdi. 1965-ci ildə ayrılaraq yenidən müstəqil rayon olmuşdur. Ərazisi 1020,1 km$^2$, əhalisi 75,1 min nəfərdir. – 75.

**54. Oğuz** – Azərbaycan Respublikasında inzibati rayon. Şimalda Dağıstanla həmsərhəddir. Sahəsi 1077 km$^2$, əhalisi 42,1 min nəfərdir. – 75–76.

**55. Yevlax** – Azərbaycan Respublikasında inzibati rayon. 1935-ci ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi

Ağdaş, Bərdə, Goranboy rayonlarına verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1555 $km^2$, əhalisi 123,5 min nəfərdir. – 77–101.

**56. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 372 min $km^2$, əhalisi 126 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 78,89,91.

**57. Ukrayna,** Ukrayna Respublikası – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,7 min $km^2$, əhalisi 46,5 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı – Rada – 89,106,251.

**58. İtaliya,** İtaliya Respublikası – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Radan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301 min $km^2$, əhalisi 57,5 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 89,206,207,308.

**59. Almaniya,** Almaniya Federativ Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min $km^2$, əhalisi 81,9 milyon nəfərdir. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 20,89,166,263.

**60. Göyçay** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 739 $km^2$, əhalisi 114,5 min nəfərdir. – 97–99.

**61. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988–92-ci illərdə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə

yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 97–99,115,133,149, 151,163,167,192,193,241,255.

**62. Tərtər –** Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1949–91-ci illərdə adı Mirbəşir olmuşdur. Sahəsi 957 $km^2$, əhalisi 101 min nəfərdir. – 97–99.

**63. Zərdab –** Azərbaycan Respublikasında inzibati rayon. 1935-ci ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Ucar rayonuna verilmiş, 1965-ci ildən yenidən müstəqil rayon olmuşdur. Ərazisi 856 $km^2$, əhalisi 55,8 min nəfərdir. – 97–99.

**64. Bərdə** – Azərbaycan Respublikasında inzibati rayon.1930-cu ildə təşkil edilmişdir. Sahəsi 957 $km^2$, əhalisi 149,5 min nəfərdir. – 97–99.

**65. Ağcabədi** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilib. Ərazisi Ağdam rayonuna verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1756 $km^2$, əhalisi 128,7 min nəfərdir. – 97–99.

**66. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1094 $km^2$, əhalisi 188,4 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni qəsbkarları tərəfindən işğal edilmişdir. – 97-99.

**67. Goranboy** (1991-ci ilə qədər Qasım İsmayılov) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1231 $km^2$, əhalisi 99,17 min nəfərdir. – 97–99.

**68. Şəmkir** (1930–91-ci illərdə Şamxor rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil

olunmuşdur. Sahəsi 1656,8 $km^2$, əhalisi 203,9 min nəfərdir. – 97–99.

**69. Rusiya,** R u s i y a  F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17.075,4 min $km^2$, əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 103,189,215,216,270,274,304,305.

**70. Pekin** – Çinin paytaxtı (1949-cu ildən). Ölkənin siyasi, iqtisadi, elm və mədəniyyət mərkəzi. Əhalisinin sayına görə ölkənin ikinci (Şanxaydan sonra) şəhəri, Böyük Çin düzənliyində, Yundinxe çayı hövzəsindədir. Sahəsi 16,8 min $km^2$, əhalisi 21,5 milyon nəfərdir.

Pekin haqqında ilk məlumat e.ə.ikinci minilliyə aid edilir. Pekin Çinin ən iri sənaye mərkəzlərindəndir. – 106,114.

**71. Belarus,** B e l a r u s  R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 207,6 min $km^2$, əhalisi 10 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minskdir. – 106.

**72. Aleksandr Lukaşenko** (d.1954) – Belarus dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının prezidentidir. – 106.

**73. Sergey Bubka** (d.1963) – hündürlüyə tullanmaq üzrə SSRİ və Ukrayna yüngül atletika üzrə olimpiya və altı qat dünya çempionu. Dünyada ilk dəfə 6 metrdən çox tullanan idmançıdır. Hal-hazırda Ukrayna Milli Olimpiya Komitəsinin sədridir. – 106.

**74. Quba** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 2575 $km^2$, əhalisi 161,4 min nəfərdir. – 108,189.

**75. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 115.

**76. Merzlyakov Yuri** (d.1949) – Rusiya Federasiyasının Fövqəladə və Səlahiyyətli səfiri. 2003–2010-cu illərdə ATƏT-in Minsk qrupunda Dağlıq Qarabağ məsələsinin nizamlanması üzrə həmsədrlərindən biri olmuşdur. – 115.

**77. Mətyu Brayzə** – Amerika diplomatı. 2001–2005-ci illərdə ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi olmuşdur. Sonra isə Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiya konfliktlərinin sülh yolu ilə həll olunması işi ilə məşğul olmuşdur. 2011–12-ci illərdə ABŞ-ın Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. –115.

**78. Şəhidlər xiyabanı –** Azərbaycanın azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş mərd oğul və qızların uyuduğu müqəddəs ziyarətgah. 1990-cı il yanvarın 20-də sovet ordusunun hücumu zamanı həlak olmuş onlarla adam «Dağüstü park»ın qərb hissəsində dəfn edilmişdir. Bura o vaxtdan «Şəhidlər xiyabanı» adlanır. Xiyabanda eyni zamanda, Ermənistan işğalçılarına qarşı Azərbaycan torpaqlarının müdafiəsi uğrunda qəhrəmancasına həlak olanlar da dəfn edilmişdir. 1998-ci ildə burada hündürlüyü 22 metr olan əbədi məşəl – abidə qoyulmuşdur. – 117–118,138–139.

**79.** ***bp*****,** «B r i t i ş  P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 120.

**80. Endryu İnqlis** (d.1960) – britaniyalı mühəndis. 2004–2007-ci illərdə *bp*-nin əvəzedici direktoru və *bp*-nin kəşfiyyat və istehsalat biznesi üzrə Baş direktoru olmuşdur. – 120.

**81. Vaqif Axundov,** V a q i f Ə l i b a l a o ğ l u (d.1950) – general-polkovnik. 1993-cü ildən Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin rəisidir. – 121,124.

**82. Bakı–Supsa neft kəməri** – 1994-cü ilin sentyabrında Azərbaycan hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir vəsiləsi Bakı–Supsa neft kəməridir. Kəmərin uzunluğu 830 km, gündəlik maksimum ötürmə gücü 115 min barreldir. Supsada hər birinin tutumu 250 min barrel olan dörd terminal tikilmişdir.

1999-cu il aprelin 17-də Supsada ilkin Xəzər neftinin qərb istiqamətində nəqli üçün Bakı–Supsa ixrac boru kəmərinin və Supsa yerüstü terminalının təntənəli rəsmi açılış mərasimi olmuşdur. – 122.

**83. Bakı–Novorossiysk neft kəməri –** 1994-cü ilin sentyabrında Azərbaycan Respublikası Hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir hissəsi Bakı–Novorossiysk neft kəməridir. Bu kəmər 1997-ci ilin noyabrında istifadəyə verilmişdir. – 122.

**84. «Əsrin müqaviləsi»** – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 126,247.

**85. İslam Konfransı Təşkilatı (İKT)** – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. – 130, 133,158.

**86. Portuqaliya,** Portuqaliya Respublikası– Cənub-Qərbi Avropanın Pireney yarımadasında dövlət. Sahəsi 92 min km$^2$, əhalisi 9,9 milyon nəfərdir. İnzibati ərazisi 19 mahala və iki muxtar vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Respublika Məclisidir. Paytaxtı Lissabondur. – 131.

**87. Jorji Sampayyo** (d.1939) – Portuqaliya siyasi xadimi. 1996–2006-cı illərdə Portuqaliya Respublikasının prezidenti olmuşdur. –131.

**88. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT-nin Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 131,134,149,158, 163,174,290,291.

**89. İSESKO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveyjridir. Azərbaycan dövləti İSESKO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 132, 134,169.

**90. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çox-

partiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 134,158,159,160, 185,192.

**91. Anqola,** A n q o l a  R e s p u b l i k a s ı – Cənub-Qərbi Afrikada dövlət. Sahəsi 1246,7 min km$^2$, əhalisi 11,9 milyon nəfərdir. Paytaxtı Luanda şəhəridir. Dövlətin və hökumətin başçısı prezidentdir. Qanunverici orqanı Milli Məclisdir. – 135.

**92. Duş Santuş,** J o z e  E d u a r d u (d.1942) – Anqolanın prezidenti və MPLA-nın sədri – 1975-ci ildən nazir vəzifələrində olmuşdur. Ordu generalıdır. Azərbaycan Neft və Kimya İnstitutunda (Azərbaycan Neft Akademiyası) təhsil almışdır. – 135.

**93. Lixtenşteyn,** L i x t e n ş t e y n  K n y a z l ı ğ ı – Mərkəzi Avropada, Avstriya və İsveçrənin arasında yerləşən inkişaf etmiş ölkə (knyazlıq). Sahəsi 157 km$^2$, əhalisi 28 min nəfərdir. Dövlətin başçısı knyazdır. – 136.

**94. İsveçrə,** İ s v e ç r ə  K o n f e d e r a s i y a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 7,1 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 137,314.

**95. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,14 milyon km$^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal dairəsindən ibarətdir. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və

Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir.–140,141,157,158,189–196,242,243–250, 263.

**96. «Sülh korpusu»** – ABŞ hökumətinin qeyri-siyasi, qeyri-dini agentliyi. 1961-ci ildə prezident Con Kennedi tərəfindən yaradılmışdır. «Sülh korpusu»nün əsas məqsədi maraq göstərən ölkələrə amerikalı könüllüləri göndərməklə dünyada sülh və dostluğun yayılmasına kömək etməkdir. 1961-ci ildən 200000 «Sülh korpusu» könüllüsü dünyanın 139 ölkəsində xidmət göstərmişdir. «Sülh korpusu» Azərbaycanda 2003-cü ildən fəaliyyət göstərir. Könüllülərin Azərbaycanda ilk proqramı ingilis dilinin tədrisi olmuşdur. – 141.

**97. Hicran Hüseynova,** H i c r a n K a m r a n q ı z ı (d.1955) – 2006-cı ildən Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədridir. Siyasi elmlər doktoru, professor. – 146.

**98. Elmar Məmmədyarov,** E l m a r M ə h ə r r ə m oğlu (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 146.

**99. Abid Şərifov,** A b i d Q o c a o ğ l u (d.1940) – inşaatçı. 1995-ci ildən Azərbaycan Respublikası Baş nazirinin müavini. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 146.

**100. Mustafa Kamal Atatürk,** Q a z i M u s t a f a K a m a l (1881–1938) –Türkiyənin dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk prezidenti (1923–1938). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «Kamalçılar hərəkatı»na – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM)

yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» Fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soyadı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 148,178,233.

**101. Şimali Kipr Türk Cümhuriyyəti** – 1974-cü ildə Yunanıstanda hakimiyyətə gəlmiş hərbi xunta Kiprin yunan irticaçıları ilə birlikdə Kipri Yunanıstana birləşdirmək məqsədilə ölkədə hərbi çevriliş etdilər və prezident Makariosu hakimiyyətdən uzaqlaşdırdılar. Bundan narahat olan Türkiyə Respublikası Kiprin türk icmasını müdafiə etmək məqsədilə oraya hərbi qüvvələr yeritdi və türk icması yaşayan ərazini yunan irticaçılarından təmizlədi. 1975-ci ildə Türkiyə–Kipr administrasiyası bu ərazidə federativ türk dövləti – Kipr Respublikasını elan etdilər. 1983-cü ildə bu dövlətin qanunverici orqanı Şimali Kipr Türk Respublikası (ŞKTR) – Kıbrısı elan etdi. – 149,150,151,177,231.

**102. PKK** – Türkiyədə fəaliyyət göstərən separatist, terrorçu Kürd Fəhlə Partiyası. – 149,163.

**103. ABŞ Konqresi,** Amerika Birləşmiş Ştatları Konqresi – ali qanunverici hakimiyyət orqanı. İki palatadan – Senatdan və Nümayəndələr Palatasından ibarətdir.

Senatın 100 üzvü var. Ölkənin hər ştatından Senata iki senator seçilir. Nümayəndələr Palatasının 435 üzvü var. Bu palatanın üzvləri hər seçki dairəsində yaşayan əhalinin sayına görə seçilir. Qanun layihələri hər iki palatada müzakirə olunur. Konqres tərəfindən qəbul olunan qanunları ABŞ prezidenti təsdiq edir. – 149,163,194,195,196,238.

**104. Ümumdünya Ticarət Təşkilatı** – 1947-ci ildə qəbul edilmiş müqavilə. 23 ölkənin beynəlxalq ticarətdə gömrük rüsumlarının aşağı salınmasına və başqa çətinliklərin aradan götürülməsində hökumətlərarası qəbul etdiyi çoxtərəfli müqavilədir. Bu müqavilə 1995-ci ildə beynəlxalq ticarətdə rüsumlar haqqında qəbul edilmiş müqavilənin hüquqi varisidir.

Təşkilatın əsas prinsipi bütün iştirakçılar üçün münasib mühit yaratmaqdır. Təşkilata 130 ölkə daxildir. – 151.

**105. Ceyhan –** Aralıq dənizi sahilində liman. 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 153, 166,212.

**106. Gəncə –** Azərbaycan Respublikasında şəhər. Sahəsi 107 $km^2$, əhalisi 324,7 min nəfərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir, salındığı tarix dəqiq məlum deyil. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–323) salındığını qeyd etmişlər. – 154.

**107. Corc Buş** (d.1946) – ABŞ-ın 43-cü prezidenti (2000–2008-ci illər). ABŞ-ın 41-ci prezidenti Corc Herbert Buşun oğludur. 1968-ci ildə Yel Universitetini (incəsənət, tarix bakalavrı), 1975-ci ildə isə Harvard Universitetini (incəsənət magistri) bitirmişdir. «Speaktrum-7 Enerci Korporeyşn» firmasının yaradıcısıdır. 1994-cü ildən Texas ştatının qubernatoru olmuşdur. – 157.

**108. Avropa Şurasının Parlament Assambleyası** (AŞ PA) – 2004-cü ildə təşkil olunmuşdur. AŞ PA-da 25 Avropa ölkəsinin 732 deputatı fəaliyyət göstərir. – 158,159.

**109. İqtisadi Əməkdaşlıq Təşkilatı,** İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) – 1961-ci ildə yaradılmış dövlətlərarası iqtisadi təşkilat. İƏİT-in məqsədi inkişaf etmiş ölkələrdə iqtisadi siyasətin koordinasiyası və qəbul edilmiş proqramların inkişafına kömək etməkdir. 1974-cü ildən İƏİT-in tərkibində Beynəlxalq Enerji Agentliyi fəaliyyət göstərir. Mənzil-qərargahı Parisdədir. – 158.

**110. İpək Yolu**, Böyük İpək Yolu – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından

eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Böyük İpək Yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək Yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək Yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 163,222.

**111. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2724,9 min $km^2$, əhalisi 16,7 milyon nəfərdir. Paytaxtı Astana şəhəridir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. – 166,178,235,244,264,272,318.

**112. Bəxtiyar Vahabzadə,** B ə x t i y a r M a h m u d o ğ l u (1925–2009) – Azərbaycanın Xalq şairi, dramaturq, ədəbiyyatşünas. Azərbaycan Dövlət mükafatı laureatı, 1991–2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Milli EA-nın akademiki olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 168.

**113. Nursultan Nazarbayev,** N u r s u l t a n A b i ş o ğ l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi. 1990-cı ildə həm də Ali Sovetin sədri, 1991-ci ildə Qazaxıstan SSR-nin

prezidenti və 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının prezidentidir. – 168,179,318.

**114. YUNESKO –** BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 169.

**115. Dəvəçi** (*hal-hazırda Şabran*)– Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Abşeron rayonuna verilmişdir. 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1739 $km^2$, əhalisi 55,5 min nəfərdir. – 182–184.

**116. Əhməd Əhmədzadə,** Əhməd Cuma oğlu (d.1945) – mühəndis-hidrotexnik. 1993-cü ildən Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədridir. – 182–184.

**117. Polşa,** Polşa Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min $km^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 185.

**118. Lex Kaçinski** (1949–2010) – 2002–2005-ci illərdə Varşavanın meri, 2005–2010-cu illərdə Polşanın prezidenti olmuşdur. 2010-cu il aprelin 10-da Smolensk yaxınlığında təyyarə qəzasında həlak olmuşdur. Haqq və Ədalət Partiyasının liderlərindən biri idi. – 185.

**119. Livan,** Livan Respublikası – Qərbi Asiyada, Aralıq dənizinin şərq sahilində dövlət. Sahəsi 10,4 min $km^2$, əhalisi 3,8 milyon nəfərdir. Paytaxtı Beyrut şəhəridir. İnzibati cəhətdən 5 mühafazaya bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. – 186.

**120. Emil Ləhhud** (d.1936) – 1998–2007-ci illərdə Livanın prezidenti olmuşdur. – 186.

**121. Latviya,** L a t v i y a  R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 64,5 min $km^2$, əhalisi 2,2 milyon nəfərdir. İnzibati ərazisi 26 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 187,273.

**122. Valdis Zatlers** (d.1955) – 2007–2011-ci illərdə Latviya Respublikasının prezidenti olmuşdur. Peşəsi həkim travmotoloq-ortopeddir. 2011-ci ildən Reforma Partiyasının lideridir. – 187.

**123. Oman,** O m a n  S u l t a n l ı ğ ı – Şərqi Ərəbistan yarımadasında dövlət. Sahəsi 212,4 min $km^2$, əhalisi 2,2 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə bölünür. Dövlət başçısı sultandır. Paytaxtı Məskət şəhəridir. – 188.

**124. Qabus bin Səid** (d.1940) – 1970-ci ildən Oman sultanı. Sultan həm də ölkənin Baş naziri, Müdafiə naziri və Xarici İşlər naziri vəzifələrini icra edir. Sultan bin Səid ərəb aləmində yenilikçi və reformator kimi tanınır. Qabus öz administrasiyasını müdhiş korrupsionerlərdən təmizləmiş, əhalinin həyat səviyyəsini xeyli qaldırmışdır. – 188.

**125. İsrail –** Yaxın Şərqdə dövlət. Sahəsi 20,8 min $km^2$, əhalisi 5,5 milyon nəfərdir (1948–49-cu illərdə işğal edilmiş ərazi daxil olmaqla). İsrail dövləti BMT-nin Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı prezidentdir, onu birpalatalı parlament (Knesset) seçir. Hökumətə geniş səlahiyyəti olan Baş nazir başçılıq edir. – 189–196.

**126. Sovetlər İttifaqı,** S o v e t  S o s i a l i s t  R e s p u b l i k a l a r ı  İ t t i f a q ı (SSRİ) – 1922–1991-ci illərdə keçmiş Rusiya imperiyasının böyük hissəsində mövcud olmuş dövlət. SSRİ-nin yaradılmasına dair Müqaviləyə (dek.1922) əsasən onun tərkibinə Belorusiya (BSSR), Rusiya (RSFSR), Cənubi Qafqaz respublikaları (ZSFSR; 1936-cı ildən müttəfiq respublikalar – Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR) və Ukrayna SSR, 1925-ci ildə Özbəkistan SSR, Türkmənistan SSR, 1929-cu ildə Tacikistan SSR, 1936-cı ildə Qa-

zaxıstan SSR, Qırğızıstan SSR, 1940-cı ildə Moldaviya SSR, Latviya SSR, Litva SSR, Estoniya SSR daxil olmuşdular.

1991-ci ilin dekabrında Belorusiya, Rusiya və Ukrayna SSRİ-nin mövcudluğunun dayandırıldığını elan edərək Müstəqil Dövlətlər Birliyinin (MDB) yaradılması haqqında saziş imzaladılar (8 dekabr, Minsk). 1991-ci il dekabrın 21-də Latviya, Litva və Estoniya istisna olmaqla, keçmiş SSRİ-nin digər müttəfiq respublikalarının başçıları Alma-Atada bəyannamə imzalayaraq MDB-nin yaradılması haqqında məqsəd və prinsiplərə qoşulduqlarını bəyan etdilər. – 189,233,279.

**127. ÜDM** – Ümumi Daxili Məhsul

**128. NATO** (*Şimali Atlantika Müqaviləsi Təşkilatı*) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 191.

**129. Əfqanıstan,** Ə f q a n ı s t a n   İ s l a m   D ö v l ə t i – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,2 min km$^2$, əhalisi 25,5 milyon nəfərdir. İnzibati ərazisi 29 vilayətə və mərkəzə tabeli 2 mahala bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 191.

**130. İraq,** İ r a q   R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada – Dəclə və Fərat çayları hövzəsində neft ixrac edən ölkə. Sahəsi 438,3 min km$^2$, əhalisi 22,4 milyon nəfərdir. İnzibati ərazisi 18 mühafazaya və 102 qəzaya bölünür. Dövlət başçısı prezident, hökumət başçısı isə Baş nazirdir. Ölkə ABŞ və

NATO ölkələri ilə müharibə vəziyyətində olduğu üçün ali qanunverici orqanı yoxdur. Paytaxtı Bağdaddır. – 191.

**131. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 192.

**132. «Daewoo» –** 1967-ci ildə Cənubi Koreyada yaradılan avtomobil şirkəti. 1999-cu ildə iflasa uğrayıb. Cənubi Koreya hökuməti şirkətin 76 milyard dollarlıq borcunu ödəməli olur. Bundan sonra şirkət yenidən «Daewoo Motors» adı ilə fəaliyyətə başlayır və dünyanın ən böyük avtomobil istehsalçısına çevrilir. – 197.

**133. Avrasiya Fondu** (BAMF) – 1992-ci ildə dövlət qeydiyyatına alınmış beynəlxalq qeyri-hökumət təşkilatı. Fond BMT-nin İnkişaf Proqramı, MT-nin Qaçqınlar üzrə Ali Komissarlığı, ABŞ Dövlət Departamenti, Avropa Komissiyası, NATO, Beynəlxalq Mətbuat İnstitutu, Beynəlxalq Jurnalistlər Federasiyası, Sərhədsiz Reportyorlar, bir sıra ölkələrin Azərbaycandakı səfirlikləri, Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik, habelə regiondakı yerli və beynəlxalq qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq çərçivəsində fəaliyyət göstərir. – 199.

**134. Bolqarıstan,** Bolqarıstan Respublikası – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 8,4 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 200,207, 227–228,270.

**135. Sergey Stanişev** (d.1966) – bolqar dövlət və siyasi xadimi. 2005–2009-cu illərdə Bolqarıstanda Baş nazir olmuşdur. Bolqarıstan Sosial Partiyasının sədridir. – 200.

**136. Argentina,** A r g e n t i n a R e s p u b l i k a s ı – Cənubi Amerikanın cənub-şərqində dövlət. Sahəsi 2780 min km$^2$, əhalisi 34,9 milyon nəfərdir. Argentina federasiyası tərkibinə 22 əyalət, 1 milli ərazi (Odlu Torpaq) və 1 Federal (paytaxt) mahal daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. Paytaxtı Buenos-Ayresdir. – 202.

**137. Kristina de Kirşner** (d.1950) – 2003–2008-ci illərdə Argentina Respublikasının prezidenti olmuşdur. – 202.

**138. Yunanıstan,** Y u n a n ı s t a n R e s p u b l i k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 132 min km$^2$, əhalisi 10,5 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı prezident, Ali qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afinadır. – 205,206,207,241,243–250,267.

**139. Nabukko** – Türkmənistan və Azərbaycan qazının Avropa Birliyi ölkələrinə, əsasən Avstriya və Almaniyaya ötürülməsi üçün 3300 km uzunluğunda magistral qaz kəmərinin reallaşmayan layihəsi. Layihənin qiyməti *bp* şirkətinin hesablamasına görə 14 milyard avro olmalıdır. – 206,245.

**140. Rumıniya,** R u m ı n i y a R e s p u b l i k a s ı – Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 237,5 min km$^2$, əhalisi 22,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunvericilik orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 207,212,296.

**141. Macarıstan,** M a c a r ı s t a n R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 93 min km$^2$, əhalisi 10,2 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Dövlət Şurasıdır. Paytaxtı Budapeştdir. – 207,293.

**142. «Petkim»** – Türkiyə neft kimyası kompaniyası. Kompaniya polimerlər, yuyucy maddələr, plastik qablaşdırıcılar və s. avadanlıq istehsal edir. İstehsal olunan avadanlığın dörddə biri xarici ölkələrə ixrac edilir. – 211,212.

**143. «Azəriqaz» İstehsalat Birliyi** – ARDNŞ-in hasil etdiyi təbii qazın Rusiya, İran və Gürcüstana ixrac edilən nəqli

ilə məşğuldur. «Azəriqaz» İstehsalat Birliyinin əsas vəzifəsi respublikanın istehlakçılarını fasiləsiz, keyfiyyətli və təhlükəsiz təbii qazla təmin etmək, abonentlərə yüksək səviyyəli xidmət göstərmək və s.-dir. – 210,218.

**144. Odessa–Brodi–Plotsk** – Odessa, Brodi və Qdansk-Plotsk şəhərləri arasında çəkilən və «Drujba» kəməri ilə birləşdirilən neft kəməri. Kəmərin uzunluğu 667 km-dir. 2001-ci ildə axıdılan neftin miqdarı 14,5 milyon ton olmuşdur. – 212.

**145. «Azəri», «Çıraq», «Günəşli» –** Xəzərin Azərbaycan sektorunda ən iri neft yataqları. Bakıdan təxminən 120 km şərqdə yerləşən bu yataqlar Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) adından *bp* şirkəti tərəfindən işlənir. «Azəri», «Çıraq» neft yataqları iki əsas lay dəstindən ibarətdir: Fasilə və Balaxanı. Konsorsium əvvəlcə hasilata Fasilə layından başlayıb. «Azəri» və «Çıraq»da hasilat 1997-ci ilin noyabr ayında başlanmışdır. – 212,248.

**146. «Azərenerji»** – dövlət şirkəti. Elektrik sistemləri avadanlıqlarının texniki istismarı, elektrik enerjisi ötürülməsi, bölüşdürülməsi, generasiya güclərinin və şəbəkələrinin planlaşdırılması və inkişaf məsələlərini həll edir. – 213,216,217,218.

**147. Əli Bayramlı** – Azərbaycanda şəhər. Şəhərin adı 1938-ci alədək Zubovka, 2010-cu ildən isə şəhər vilayətin tarixi adı ilə Şirvan adlandırıldı. Şəhərin sahəsi 30 km$^2$, əhalisi 81,8 min nəfərdir. – 214.

**148. Etibar Pirverdiyev** (d.1964) – 2001-ci ildən «Azərenerji» ASC-nin prezidenti vəzifəsində çalışır. – 216.

**149. Sankt-Peterburq** – Əsası 1703-cü ildə I Pyotr tərəfindən qoyulmuşdur. 1918-ci ilə kimi Rusiyanın paytaxtı idi. Rusiya Federasiyasının ən böyük sənaye, mədəniyyət və elm mərkəzlərindən biridir. – 217,271,274.

**150. Beyləqan** (1989-cu ilə qədər Jdanov) – Azərbaycan Respublikasında inzibati rayon. 1939-cu ildə təşkil edilmişdir.

Sahəsi 1131,1 km$^2$, əhalisi 92,4 min nəfərdir. – 218.

**151. Tolerantlıq** – dini dözümlülük. Yəni digər inanc və əqidələrə dözümlü yanaşma. Tolerantlıq insan hüquqları və vicdanı ilə bağlıdır. Tolerantlıq insan azadlıqları və hüquqlarının təsdiqi, plüralizm demokratiya əsasında formalaşır. Tolerantlığa irqçilik, ksenofobiya, dini dözümsüzlük, terror və ekstremizm yaddır. – 222–223.

**152. Mavritaniya,** M a v r i t a n i y a İ s l a m R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 1031 min km$^2$, əhalisi 3,89 milyon nəfərdir. İnzibati ərazisi 12 vilayətə, 1 mərkəzi muxtar əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir (Senat və Milli Məclis). Paytaxtı Nuakşotdur. – 224.

**153. Sidi Məhəmməd Uld Şeyx Abdullahi** (d.1938) – Mavritaniya dövlət xadimi. 2007–2008-ci illərdə Mavritaniyanın prezidenti olmuşdur. – 224.

**154. Albaniya,** A l b a n i y a R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 28,7 min km$^2$, əhalisi 3,2 milyon nəfərdir. İnzibati cəhətdən 26 reti və 12 dairəyə bölünür. Dövlətin başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Tirana şəhəridir. – 225.

**155. Bamir Topi** (d.1957) – Albaniya siyasətçisi. 2007–2012-ci illərdə Albaniya Respublikasının prezidenti olmuşdur. – 225.

**156. Bosniya və Herseqovina –** 1945–92-ci illərdə Yuqoslaviya Sosialist Federativ Respublikasının tərkibində olmuşdur. Yuqoslaviyanın tərkibindən çıxdıqdan sonra əhali arasında (müsəlman, serb və xorvat) milli-dini zəmində qarşıdurma yarandı və qanlı hərbi konfrantasiyaya səbəb oldu. 1993-cü ildə Deytonda (ABŞ) ümumi sülh haqqında şaziş imzalandı. 1995-ci ildə qüvvəyə minən Konstitusiyaya görə ölkədə Birləşmiş Bosniya-Herseqovinadan ibarət federativ respublika yarandı. – 226.

**157. Zeljko Komşiç** (d.1964) – Bosniya və Xorvatiya siyasi xadimi. 2006–2014-cü illərdə Bosniya və Herseqovina Rəyasət Heyətinin başçısı olmuşdur. – 226.

**158. İctimai Televiziya və Radio Yayımları Şirkəti** (İTV) – mülkiyyətin xüsusi formasında təşkil edilən tele və radio yayımı. 2004-cü ildə yaradılmışdır. Bu tip teleyayım şirkətinin mülkiyyəti nə dövlətə, nə şəxsi sektora aid olmayıb, «ictimai mülkiyyət» sayılır. Mülkiyyəti və şirkəti cəmiyyətin nüfuzlu insanlarından xüsusi qayda ilə seçilən Şura idarə edir. – 227.

**159. Mehmet Əli Tələt** (d.1952) – Şimali Kipr siyasi və dövlət xadimi. 2005–2010-cu illərdə Şimali Kipr Türk Respublikasının prezidenti olmuşdur. – 231.

**160. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndində yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar; 1000 nəfərdən artıq azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 238.

**161. İstanbul (**1453-cü ilədək Konstantinopol) – Türkiyədə ən böyük şəhər. İstanbul ilinin inzibati mərkəzi. Sahəsi 285,4 km$^2$, əhalisi 14 milyon nəfərdir. Mərmərə dənizi yaxınlığında Bosfor boğazının hər iki sahilindədir. Şəhərin çox hissəsi Avropada, az hissəsi Asiyadadır. Əsası e.ə. 660-cı ildə Bizans kimi qoyulmuşdur. Eramızım 330-cu ilində Roma imperatoru Konstantinin şərəfinə Konstantinopol adlandırılmışdır. 395-ci ilə qədər Roma imperiyasının, 395–1453-cü illərdə fasilələrlə Bizansın paytaxtı olmuşdur. 1453-cü ildə Osmanlı imperiyası Konstantinopolu tutmuş və İstanbul adlandırılmışdır. 1453–1918-ci illərdə Osmanlı imperiyasının, 1923-cü ilə kimi Türkiyə Respublikasının paytaxtı olmuşdur. – 240.

**162. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə

Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr – 1920, 28 aprel ) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 233.

**163. Artur Rasizadə,** A r t u r  T a h i r  o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 240.

**164. Müəmmər Gülər** (d.1949) – türk siyasətçisi. 2003–2010-cu illərdə İstanbul valisi olmuşdur. – 240,252.

**165. Konstantinos Karamanlis** (1907–1998) – XX əsrin 2-ci yarısında yunan siyasətçilərinin ən məşhuru. 1955–63, 1974–80-ci illərdə Yunanıstanın Baş naziri, 1980–85, 1990–95-ci illərdə Yunanıstanın prezidenti olmuşdur. – 241,243–250.

**166. Hilmi Gülər** (d.1949) – türk siyasətçisi, texnika elmləri doktoru. Bir neçə dəfə Türkiyə hökumətlərində Enerji və Əlvan Metallurgiya naziri olmuşdur. TBMM-in 22 və 23-cü çağırışlarında Ədalət və İnkişaf Partiyasından millət vəkilidir. – 241,243–250.

**167. «Botaş»** –Türkiyədə xam neft və mavi qaz kəmərlərinin tikilməsi və istismarı üçün yaradılan dövlət kompaniyası. «Botaş» 1974-cü ildə Kərkuk–Ceyhan kəmərinin tikilməsi və istismarı üçün yaradılmışdı. 1987-ci ildən «Botaş», həmçinin mavi qazın ötürülməsində və satılmasında iştirak edir. «Botaş» Nabukko kəmərinin layihəsində də iştirak etmişdir. – 243,244.

**168. Viktor Yuşşenko** (d.1954) – Ukrayna dövlət və siyasi xadimi. 2005–2010-cu illərdə Ukraynanın prezidenti olmuşdur. – 251.

**169. Fransa,** F r a n s a  R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 551 min km$^2$, əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 252–257.

**170. Paris –** Fransanın paytaxtı. Ölkənin iqtisadi, siyasi və mədəniyyət mərkəzi, dünyanın ən böyük və gözəl şəhərlərindən biri.

Paris dünyanın ən orijinal və təkrarsız şəhərlərindəndir. Burada Renessans və klassisizm üslublarında çoxlu dəbdəbəli ansambllar, binalar, eləcə də orta əsrlərə aid parklar və heykəllər, təmtəraqlı meydanlar, bulvar və prospektlər var. Bir sıra beynəlxalq təşkilatların (YUNESKO və s.) iqamətgahı Parisdədir. – 252–257.

**171. «Total»** – məşhur fransız neft şirkəti. 1954-cü ildə təşkil olunmuşdur. Bir çox ölkələrdə neftin kəşfiyyatı, emalı və satışı ilə məşğul olur. – 254.

**172. Nikola Sarkozi** (d.1955) –Fransa dövlət və siyasi xadimi. 2007–2012-ci illərdə Fransa Respublikasının prezidenti olmuşdur. 1993–95, 2002–2004 və 2005–2007-ci illərdə Fransa hökumətində nazir vəzifəsində çalışmışdır. – 255.

**173. Yelisey sarayı** – Parisdə Fransa prezidentlərinin iqamətgahı. – 255.

**174. Fransa Senatı** – Fransada qanunverici orqan. – 256.

**175. Kristian Ponsöle** (d.1928) – fransız siyasətçisi. 1998–2008-ci illərdə Fransa Senatının prezidenti olmuşdur. – 256.

**176. Mixeil Nikolozoviç Saakaşvili** (d.1967) – hüquqşünas. 2003–2013-cü illər Gürcüstan Respublikasının prezidenti olmuşdur. – 260–268.

**177. Finlandiya,** Finlandiya Respublikası – Şimali Avropada dövlət. Sahəsi 397 min km$^2$, əhalisi 5,13 milyon nəfərdir. İnzibati ərazisi 11 lyaniyə (əyalətə) bölünür. Aland adaları isə muxtar ərazidir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Helsinki şəhəridir. – 270,302.

**178. Putin Vladimir** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının prezidenti. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2012-ci ilin mart ayında yenidən Rusiya Federasiyasının prezidenti seçilmişdir. – 274,304.

**179. Azərbaycan Xalq Cəbhəsi** (AXC) – ictimai-siyasi təşkilat. 1989-cu ildə təsis konfransı keçirilmiş, Proqram və Nizamnaməsi qəbul olunmuşdur. 1999-cu il iyulun 25-də keçirilmiş qurultayının qərarı ilə Azərbaycan Xalq Cəbhəsi Partiyası adlandırılmışdır. – 275.

**180. Müsavat Partiyası** – 1911-ci ildə Bakıda yaradılmışdır. 1920-ci ildə Bakıda fəaliyyəti qadağan edilib. 1992-ci ildən yenidən fəaliyyətə başlayıb. – 275.

**181. Pan Gi Mun** (d.1944) – Birləşmiş Millətlər Təşkilatının (2007-ci ildən) sayca səkkizinci Baş katibi. Əslən Cənubi koreyalıdır. – 290,291.

**182. Osman Arslan** (d.1942) – Türkiyə hüquqşünası. 2008-ci ildən Türkiyə Ali Məhkəməsinin sədridir. – 292.

**183. Birləşmiş Ərəb Əmirlikləri** – Cənubi Asiyada dövlət. Sahəsi 83,6 min km², əhalisi 2,5 milyon nəfərdir. BƏƏ-nin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı Federal Milli Şuradır ki, prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 294,295,325.

**184. Zaid bin Sultan əl-Nəhəyyan** (1949–2004) – Əbu-Dabi Əmirliyində 250 il hökmranlıq etmiş əl-Nəhəyyan sülaləsinin 14-cü hakimi olmuşdur. – 294.

**185. Şeyx Məktum bin Rəşid əl-Məktum** (d.1949) – Birləşmiş Ərəb Əmirlikləri Baş naziri və vitse-prezidenti, Dubay əmiri. 1971-ci ildən Ərəb Əmirliklərinin Müdafiə naziridir. – 295.

**186. Trayan Besesku** (d.1951) – Rumıniya siyasi və dövlət xadimi. 2004–2014-cü illərdə Rumıniya Respublikasının prezidenti olmuşdur. – 296.

**187. İran İslam Şurası Məclisi,** İ s l a m Ş u r ə v i M ə c l i s i – İran qanunverici orqanı (palata). Yuxarı Palata 1979-cu il inqilabından sonra yaradılmışdır. Məclisin ümumxalq seçki ilə seçilən 290 üzvü var. Məclis qanunları işləyib hazırlayır, beynəlxalq müqavilələrin ratifikasiya və büdcəsini hazırlayıb təsdiq edir. Məclisə deputatlığa namizədlərin hamısı Ağsaqqallar Şurası tərəfindən təsdiq olunur. – 297.

**188. Tailand,** T a i l a n d K r a l l ı ğ ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 514 min km², əhalisi 60 milyon nəfərdir. Dövlət başçısı kraldır. Qanunverici orqanı ikipalatalı Milli Assambleyadır. İnzibati cəhətdən 73 çanqvata (əyalətə) bölünür. Paytaxtı Banqkok şəhəridir. – 300,301.

**189. Bhumibol Adulyadej** (d.1927) – 1950-ci ildən (faktiki 1946-cı ildən) Tailand prezidenti. – 300.

**190. Tarya Halonen** (d.1943) – Finlandiyanın ictimai və siyasi xadimi. Müxtəlif illərdə Ədliyyə, Sosial Müdafiə və Xarici İşlər nazirliklərinə başçılıq etmişdir. 2000-ci ildən Finlandiya Respublikasının prezidentidir. – 302.

**191. Dövlət Duması** – 1906-cı ildə Rusiyada yaradılan nümayəndəli qanunvericilik müəssisəsi. 17 oktyabr Manifesti əsasında yaradılmışdır. Burada qanunlar müzakirə edilərək Dövlət Şurasına təqdim edilir və çar tərəfindən təsdiq edilirdi. Duma 1917-ci il 6 oktyabra qədər fasilələrlə fəaliyyət göstərib. 1993-cü il Rusiya Federasiyasının Konstitusiyasına əsasən Duma təzədən bərpa olundu. – 304.

**192. Boris Qrızlov** (d.1950) – Rusiya dövlət və siyasi xadimi. 2001–2003-cü illərdə Rusiya Daxili İşlər naziri, 2003-2011-ci illərdə Rusiya Federasiyası Dövlət Dumasının sədri olmuşdur. 2002-ci ildən Vahid Rusiya Partiyası Ali Şurasının sədridir. – 305.

**193. Keniya,** K e n i y a  R e s p u b l i k a s ı – Şərqi Afrikada dövlət. Sahəsi 582,6 min km$^2$, əhalisi 29,5 milyon nəfərdir. İnzibati ərazisi 7 əyalətə və paytaxt mahalına bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Nayrobidir. – 306.

**194. Kibaki Mvai** (d.1931) – Keniya dövlət və siyasi xadimi. 2002-ci ildən Keniya prezidenti. – 306.

**195. Burkina-Faso –** (1984-cü ilə qədər Yuxarı Volta Respublikası) Qərbi Afrikada dövlət. Sahəsi 274,4 min km$^2$, əhalisi 10,6 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Xalq Deputatları Assambleyasıdır. Paytaxtı Uaqaduqu şəhəridir. – 307.

**196. Blayz Kompaore** (d.1951) – Burkina-Fasonun dövlət və siyasi xadimi. 1987–94-cü illərdən Burkina-Fasonun prezidenti olmuşdur. – 307.

**197. Romano Prodi** (d.1939) –İtaliyanın siyasi və dövlət xadimi, hüquqşünas. 70-ci illərin axırlarında Sənaye naziri, 80-ci illərin sonunda isə Sənaye Yenidənqurma İnstitutunun prezidenti seçilmişdir. 1995-ci ildən sol mərkəzçilər koalisiyasına başçılıq edir. Romano Prodi müxtəlif yüksək dövlət vəzifələrində işləmiş və Baş nazir olmuşdur. – 308.

**198. Oqtay Əsədov,** O q t a y  S a b i r  o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur.

Azərbaycan Respublikası Milli Məclisinin üzvü, 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin sədridir. Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür. – 309.

**199. Dağıstan,** D a ğ ı s t a n  R e s p u b l i k a s ı – Rusiya Federasiyasında respublika. Sahəsi 50,3 min km$^2$, əhalisi 2,120 min nəfərdir. Paytaxtı Mahaçqala şəhəridir. Dağıstan ərazisi bizim eradan əvvəl 1-ci minilliyin axırlarına qədər Qafqaz Albaniyası tərkibində olmuşdur. 1813-cü ildə Gülüstan müqaviləsinə əsasən çar Rusiyasına birləşdirilmişdir. – 311.

**200. Əziz Əliyev,** Ə z i z  M ə m m ə d k ə r i m  o ğ l u (1897–1962) – görkəmli dövlət və siyasi xadim, səhiyyə təşkilatçısı. Tibb elmləri doktoru, professor. Əziz Əliyev müxtəlif illərdə Azərbaycan Klinik İnstitutunun direktoru, Bakı Səhiyyə Şöbəsinin müdiri, Azərbaycan Xalq Səhiyyə Komissarının müavini və Xalq Səhiyyə Komissarı, Azərbaycan Dövlət Tibb İnstitutunun və Azərbaycan Dövlət Universitetinin rektoru, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan KP MK-nın katibi, Dağıstan MSSR Vilayət Komitəsinin Birinci katibi, Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini, Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahiyyə İnstitutunun direktoru, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifəsində çalışmışdır. SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. – 309.

**201. Tamerlan Əliyev,** T a m e r l a n  Ə z i z  o ğ l u (1921–1997) – Azərbaycan tibb elminin görkəmli nümayəndəsi, Əməkdar elm xadimi. Dövlət mükafatı laureatı, tibb elmləri doktoru, professor.

Professor Tamerlan Əliyev 250-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin, metodiki tövsiyələrin, səmərələşdirici təklif və ixtiraların,

həmçinin çoxsaylı elmi-kütləvi məqalələrin müəllifi olmuşdur. – 309.

**202. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** Allahşükür Hümmət oğlu (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Müsəlmanları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 309.

**203. Rostropoviç** Mstislav Leopoldoviç (1927–2007) – Bakıda doğulmuş görkəmli musiqiçi, violonçelist, dirijor. Lenin mükafatı laureatı, SSRİ Xalq artisti. Bakı Musiqi Akademiyasının Fəxri professoru. Azərbaycan Respublikasının «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif edilmişdir. – 312.

**204. Qalina Vişnevskaya** (1926–2012) – görkəmli rus müğənnisi, SSRİ Xalq artisti. M.Rostropoviçin həyat yoldaşı. 1952–74-cü illərdə Böyük Teatrın aparıcı solistlərindən biri olmuşdur. – 312.

**205. Çaykovski,** Pyotr İliç (1840–1893) – böyük rus bəstəkarı. Çaykovski musiqili dramaturgiyada zərif psixoloq, ustad simfoniyaçıdır. O, musiqidə insanın daxili aləmini açmış, operada, baletdə, simfoniyada məşhur obrazlar yaratmışdır. Çaykovskinin «Füsunkar qadın», «Yevgeni Onegin», «Mazepa» «İolanta» operaları, «Yatmış gözəl», «Qu gölü», «Şelkunçik» baletləri və bir sıra simfoniyaları onu dünyada məşhurlaşdırmışdır. – 312.

**206. Natalya Qutman** (d.1942) – rusiyalı violonçelist, klassik və müasir musiqinin violonçel ilə ifaçısı. Bir sıra beynəlxalq müsabiqələrin qalibi. – 312.

**207. Paskal Kuşpen** (d.1942) – İsveçrə dövlət xadimi. 2003–2008-ci illərdə İsveçrə prezidenti olmuşdur. – 314.

**208. Qətər,** Qətər dövləti – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 11,5 min km$^2$, əhalisi 2 milyon nəfərdir. Dövlət başçısı əmir, paytaxtı Doha şəhəridir. – 315.

**209. Həməd bin Xəlifə əl-Tani** (d.1952) – 1995–2013-cü illərdə Qətər əmiri, 1997-ci ildə regionda – ilk dəfə Qətərdə qadınlara seçkilərdə iştirak etmək hüququ verdi. 1997-ci ildən həm də Müdafiə naziridir. – 315.

**210. Bəhreyn,** B ə h r e y n d ö v l ə t i – Cənub-Qərbi Asiyada dövlət (əmirlik). Sahəsi 710 min km$^2$, əhalisi 1,5 milyon nəfərdir. Bəhreyn konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Paytaxtı Manamadır. – 316.

**211. Şeyx Həməd bin İsa əl-Xəlifə** (d.1950) – 1999-cu ildən Bəhreynin əmiri, 2001-ci ildən isə özünü kral elan etmişdir. Kral Bəhreyndə bir sıra siyasi islahatlar aparmış, eyni zamanda, siyasi amnistiya və qadınlara seçkilərdə iştirak etmək hüququ vermişdir. – 316.

**212. Niger,** N i g e r R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 924 min km$^2$, əhalisi 15 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. İnzibati ərazisi 30 ştata və bir mahala bölünür. Dövlət və hökumət başçısı prezidentdir. Paytaxtı Niameydir. – 317.

**213. Mamadu Tanca** (d.1938) – 1999–2010-cu illərdə Nigerin prezidenti olmuşdur. – 317.

**214. Ziya Məmmədov,** Z i y a A r z u m a n o ğ l u (d.1952) – dəmiryolçu mühəndis. 1996–2005-ci illərdə Azərbaycan Dövlət Dəmir Yolunun rəisi, 2005-ci ildən isə Azərbaycan Respublikasının Nəqliyyat naziridir. – 320,321.

**215. Kəmaləddin Heydərov,** K ə m a l ə d d i n F ə t t a h o ğ l u (d.1961) – general-polkovnik, 1995–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, 2006-cı ildən Azərbaycan Respublikası Fövqəladə Hallar naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 322.

## Şəxsi adlar göstəricisi

**Abdullahi Sidi** – 224
**Abutalıbov Hacıbala** – 30,117,138–139,217,218,319
**Adamkus Valdas** – 63
**Adulyadej Bhumibol** – 300
**Axundov Vaqif** – 121
**Anderson Denis** – 64
**Arslan Osman** – 292
**Aripinar Ərdoğan** – 102–108
**Asrorov Mirzoşoxrux** – 33
**Atatürk Mustafa Kamal** – 148,178,233
**Babayev Heydər** – 170
**Badea Kristian** – 312
**Bağırov Hüseynqulu** – 56
**Barness Ron** – 189–196
**Belova Yelena** – 106
**Berdimühəmmədov Qurbanqulu** – 32,229
**Bersani Pyerluici** – 308
**Besesku Trayan** – 296
**Bibi-Senter Horton** – 199
**Bin Səid Qabus** – 188
**Blatter Yozef** – 6–7
**Blinkyaviçyuite Viliya** – 116
**Bodman Samuel** – 242,243–250
**Brayzə Mətyu** – 115
**Bubka Sergey** – 106
**Buş Corc** – 157
**Buteflikay Əbdüləziz** – 62,313
**Çaykovski Pyotr** – 312

**Çulanont Suravud** – 301
**Çubukçu Nimet** – 146
**Davudi Pərviz** – 8–9
**De Sampayo Jorji** – 131
**De Brişambon** – 35
**Duş Santuş Joze** – 135
**Dü Marceri Kristof** – 254
**Egerszegi - Obrist Kristin** – 137
**Eldarov Ömər** – 67
**Endryu İnqlis** – 120
**Əhmədinejad Mahmud** – 8
**Əhmədzadə Əhməd** – 8,182–184
**Əkbəri Əli** – 129
**Əl - Xəlifə Şeyx Həməd** – 316
**Əl - Məktum Şeyx Məhəmməd** – 295
**Əl - Nəhəyyan Şeyx Xəlifə** – 294
**Əl - Tani Həməd** – 315
**Əl - Tüveycri Əbdüləziz** – 132
**Əli Tələt Mehmet** – 231
**Əliyev Heydər** – 19,22,24,25,26,28,29,38,42,66-67,71,78,79,80,83,85,86,94, 122,124,125,126,148,159,165, 169,178,203,233,274,275,276, 279,282,283,309,311,312
**Əliyev Əziz** – 309
**Əliyev Tamerlan** – 309
**Əliyeva Mehriban** – 65,67,78,86,89,91,93,169,253
**Əliyeva Zərifə xanım** – 12,309
**Ərdoğan Rəcəb Tayyib** – 61,230,243–250,264
**Əsədov Oqtay** – 12,309
**Folias Xristos** – 250
**Frid Daniel** – 140

**Gəncəvi Nizami** – 87
**Gül Abdullah** – 60,142–181,261–268,303
**Gülər Hilmi** – 243–250
**Gülər Müəmmər** – 240–252
**Hacıyev Niyazi** – 123
**Halonen Tarya** – 302
**Heydərov Kəmaləddin** – 322
**Həddad Adil Qulaməli** – 297
**Hüseynova Hicran** – 146
**Xan Sarbuland** – 290
**Kaçinski Lex** – 185
**Karamanlis Konstantinos** – 241,243–250
**Karosas Yustinas** – 63
**Kasprşik Anji** – 115
**Kibaki Mvai** – 306
**Kilikilov Yaksibek** – 269–274
**Kuşpen Paskal** – 314
**Kirşner Kristina** – 202
**Klaus Vatslav** – 31
**Koka Yanoş** – 293
**Komsiç Zeljko** – 226
**Kompaore Blayz** – 307
**Kudzmanas Kestutis** – 102–108
**Kvaderer Hüqo** – 136
**Qrızlov Boris** – 305
**Quliyev Elçin** – 8
**Qurbanov Səid** – 311
**Qutman Nataliya** – 312
**Qutsayt Vadim** – 102–108
**Ləhhud Emil** – 186
**Lukaşenko Aleksandr** – 106
**Maqunis Uqis** – 269–274

**Mehdiyev Ramiz** – 30,240,309
**Merzlyakov Yuri** – 115
**Məlikov Əlixan** – 219
**Malunay Vyaçeslav** – 102–108
**Məmmədov Ziya** – 320,321
**Məmmədyarov Elmar** – 146
**Müşərrəf Pərviz** – 36,299
**Nazarbayev Nursultan** – 166,168,179,318
**Nurovski Pyotr** – 102–108
**Pan Gi Mun** – 290,291
**Paşazadə Hacı Allahşükür** – 309
**Paet Urmas** – 119
**Pirverdiyev Etibar** – 216
**Platini Mişel** – 6–7
**Ponsöle Kristian** – 256
**Prodi Romano** – 308
**Putin Vladimir** – 274,304
**Rasizadə Artur** – 30,240
**Rostropoviç Mstislav** – 312
**Rzayev Nizaməddin** – 75
**Saakaşvili Mixeil** – 260–268
**Saparliyev Xıdır** – 229
**Sarıqaya Əli** – 130
**Sarkozi Nikola** – 255
**Semnebi Peter** – 34
**Stanişev Serqey** – 200
**Şərifov Abid** – 146
**Talıbov Vasif** – 16,23–30
**Tanca Mamadu** – 317
**Topadze Qoqi** – 102–108
**Topi Bamir** – 225
**Tşetter Ronald** – 141

**Ture Hamadan** – 290
**Tüzmən Kürşat** – 146
**Tyaqaçov Leonid** – 104
**Vahabzadə Bəxtiyar** – 168
**Vasin Vladimir** – 102–108
**Vəliyev Elmar** – 81
**Vişnevskaya Qalina** – 312
**Vizer Marius** – 298
**Voznyak Pyotr** – 185
**Vriblevskis Aldonis** – 102–108
**Yakunin Vladimir** – 269–274
**Yuşşenko Viktor** – 251
**Zatlers Valdis** – 187

## Coğrafi adlar göstəricisi


**Abşeron** (*yarımada*) – 41,182,213
**Adriatik dənizi** – 245
**Ağcabədi** – 97–99,218
**Ağdam** – 97–99
**Ağsu** – 75
**Axalkalaki** – 263
**Albaniya** – 225
**Almaniya** – 90,91
**Amerika** (*qitə*) – 156,178
**Amerika Birləşmiş Ştatları** – 140,141,157,158,189–196,242, 243–250,263
**Anqola** – 135
**Antalya** – 167,232
**Aralıq dənizi** – 153,166,178,179
**Araz çayı** – 8,9
**Argentina** – 202
**Asiya** – 166,283
**Astara** – 26
**Avrasiya** – 140,199
**Avropa** – 8,19,56,63,113,140,156,159,162, 163,166,167,176,178,191,203,206, 244,245,249,263,268,283
**Avstriya** – 138,207
**Bakı** – 8,23,27,31,32,36,53,55,60,61,62, 63,64,65,75–76,102,103,104,131, 134,135,138,139,152,154,160, 164,182,186,187,188,197,202, 217,218,223,224,225,226,228, 229,232,233,237,251,258,259, 294,295,296,299,300,301,302,303, 304,305,306,307,313,314,315, 316,317,318,319,320,322

**Baltikyanı ölkələr** – 167,274
**Bayıl** – 201
**Belarus** – 106
**Beyləqan** – 218
**Bəhreyn** – 316
**Bərdə** – 97–99
**Bibiheybət** – 213
**Birləşmiş Ərəb Əmirlikləri** – 294,295,325
**Bolqarıstan** – 200,207,227–228,270
**Bosniya və Herseqovina** – 226
**Brüssel** – 156
**Burkina - Faso** – 307
**Ceyhan** – 153,166,212,215,248
**Cenevrə** – 258
**Cənubi Koreya** – 197–198
**Cənubi Qafqaz** – 34,105,150,151,175
**Çexiya** – 31
**Çin** – 20,88,166,263
**Dağıstan** – 311
**Dağlıq Qarabağ** – 97–99,115,133,149, 151,163, 167,192, 193,241,255
**Dəvəçi** – 182–184
**Donetsk** – 251
**Estoniya** – 119
**Ədirnə** – 242
**Əfqanıstan** – 191
**Əli Bayramlı** – 214
**Əlcəzair** – 62,313
**Fars körfəzi** – 8
**Finlandiya** – 270,302
**Fransa** – 252–257
**Gəncə** – 154
**Gəraybəyli** – 75
**Goranboy** – 97–99
**Göyçay** – 97–99

**Gürcüstan** – 49,54,65,104,175,180,205,206, 212,215,246,260–268,283
**Hacıqabul** – 75
**Hollandiya** – 138
**Xaçmaz** – 141
**Xəzər dənizi** – 152,191,207,235,245,249,250,267,271
**Xocalı** – 238
**İraq** – 191
**İran** – 8–9,26,27,129,215,216,297
**İsmayıllı** – 65,75
**İspaniya** – 89
**İsparta** – 303
**İsrail** – 189–196
**İstanbul** – 240
**İtaliya** – 89,206,207,308
**İsveçrə** – 137,314
**Keniya** –306
**Kleri** – 212
**Qafqaz** – 105,166,180,249
**Qahirə** – 156
**Qara dəniz** – 179
**Qazaxıstan** – 16,178,235,244,264,272,318
**Qars** – 263
**Qəbələ** – 65,75,76
**Qərbi Azərbaycan** – 9
**Qətər** – 315
**Qobustan** – 65–74
**Quba** – 108,189
**Latviya** – 187,273
**Lixtenşteyn** – 136
**Litva** – 63,105,116
**Livan** – 186
**Macarıstan** – 207,293
**Mavritaniya** – 224
**Mərəzə** – 65

**Mərkəzi Avropa** – 212
**Mingəçevir** – 53,97–99
**Moldova** – 107
**Moskva** – 274
**Naxçıvan** – 5–30,54,219,226
**Naxçıvan MR** – 5–30,219,233
**Niger** – 317
**Oğuz** – 75–76
**Oman** – 188
**Orta Asiya** – 20,163,166,179,244,263
**Orta Şərq** – 167,245,250
**Pakistan** – 36,299
**Paris** – 252–257
**Pekin** – 106,114
**Poldəşt** – 8–9
**Polşa** – 185
**Portuqaliya** – 131
**Rumıniya** – 207,212,296
**Rusiya** – 103,189,215,216,270,274,304,305
**Sankt - Peterburq** – 217,271,274
**Sədərək** – 29
**Səngəçal** – 53,213
**Strasburq** – 156
**Sumqayıt** – 53,75,182
**Siyəzən** – 141
**Şahtaxtı** – 8–9,12,25
**Şamaxı** – 65,141
**Şəmkir** – 97–99
**Şərur** – 23–30
**Şərqi Avropa** – 49
**Şimali Kipr** – 149,150,151,177,231
**Tacikistan** – 33
**Tailand** – 300,301
**Tbilisi** – 260,261,262
**Tehran** – 8

**Tərtər** – 97–99
**Türkiyə** – 20,23,27,29,49,54,60,61,89,91,105, 142–181,183,205,206,207,215,219, 230,232–239,240–250,261–268,283, 303
**Türkmənistan** – 32,229,235,244
**Ukrayna** – 89,106,251
**Vaşinqton** – 156,196
**Yaponiya** – 78,89,91
**Yevlax** (*şəhər*) – 77–101
**Yunanıstan** – 205,206,207,241,243–250,267
**Zərdab** – 97–99

# MÜNDƏRİCAT

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏRİ

*17 oktyabr 2007-ci il* ........................................................................ 5

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BEYNƏLXALQ FUTBOL ASSOSİASİYALARI FEDERASİYASININ PREZİDENTİ YOZEF BLATTER VƏ AVROPA FUTBOL ASSOSİASİYALARI İTTİFAQININ PREZİDENTİ MİŞEL PLATİNİ İLƏ GÖRÜŞÜ

*17 oktyabr 2007-ci il* ........................................................................ 6

ŞAHTAXTI–POLDƏŞT SƏRHƏD-KEÇİD MƏNTƏQƏSİNİN AÇILIŞ MƏRASİMİ

*17 oktyabr 2007-ci il* ........................................................................ 8

OLİMPİYA İDMAN KOMPLEKSİ İLƏ TANIŞLIQ

*17 oktyabr 2007-ci il* ........................................................................ 10

NAXÇIVAN ŞƏHƏRİNDƏKİ 14 NÖMRƏLİ ORTA MƏKTƏBİN ƏSASLI TƏMİRDƏN SONRA AÇILIŞ MƏRASİMİ

*17 oktyabr 2007-ci il* ........................................................................ 11

AKADEMİK ZƏRİFƏ ƏLİYEVA ADINA ŞAHTAXTI KƏND ORTA MƏKTƏBİ İLƏ TANIŞLIQ

*17 oktyabr 2007-ci il* ........................................................................ 12

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ KONSERVATORİYASI BİNASININ AÇILIŞ MƏRASİMİ

*17 oktyabr 2007-ci il* ........................................................................ 13

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ KONSERVATORİYA BİNASININ AÇILIŞ MƏRASİMİNDƏ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

*17 oktyabr 2007-ci il*........................................................................*14*

ŞƏRUR RAYON MƏRKƏZİ XƏSTƏXANASININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ

*17 oktyabr 2007-ci il* .......................................................................*23*

ŞƏRUR RAYON MƏRKƏZİ XƏSTƏXANASININ AÇILIŞ MƏRASİMİNDƏ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

*17 oktyabr 2007-ci il* .......................................................................*24*

ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VATSLAV KLAUSA

*18 oktyabr 2007-ci il*........................................................................*31*

TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QURBANQULU BERDİMÜHƏMMƏDOVA

*18 oktyabr 2007-ci il* .......................................................................*32*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TACİKİSTANIN MƏDƏNİYYƏT NAZİRİ MİRZOŞOXRUX ASROROVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*18 oktyabr 2007-ci il*........................................................................*33*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*18 oktyabr 2007-ci il*........................................................................*34*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ATƏT-in BAŞ KATİBİ MARK PERRİN DE BRİŞAMBON İLƏ GÖRÜŞÜ

*19 oktyabr 2007-ci il*......................................................................*35*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ

*19 oktyabr 2007-ci il*......................................................................*36*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ NAZİRLƏR KABİNETİNİN 2007-ci İLİN DOQQUZ AYINDA SOSİAL-İQTİSADİ İNKİŞAFIN YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASI

*22 oktyabr 2007-ci il*......................................................................*37*

YEKUN NİTQİ

*22 oktyabr 2007-ci il*......................................................................*45*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ

*22 oktyabr 2007-ci il*......................................................................*60*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*22 oktyabr 2007-ci il* ......................................................................*61*

ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA

*23 oktyabr 2007-ci il*......................................................................*62*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN LİTVA SEYMİNİN XARİCİ

MƏSƏLƏLƏR DAİMİ KOMİTƏSİNİN SƏDRİ YUSTİNAS KAROSASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*23 oktyabr 2007-ci il ........................................................................ 63*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN «SAFARİ» BEYNƏLXALQ OVÇULUQ KLUBUNUN PREZİDENTİ DENİS ANDERSON İLƏ GÖRÜŞÜ

*23 oktyabr 2007-ci il ........................................................................ 64*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QOBUSTAN RAYONUNA SƏFƏRİ

*23 oktyabr 2007-ci il ........................................................................ 65*

QOBUSTAN RAYONU İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

*23 oktyabr 2007-ci il ........................................................................ 68*

OĞUZ–QƏBƏLƏ–BAKI SU KƏMƏRİ TİKİNTİSİ İLƏ TANIŞLIQ

*23 oktyabr 2007-ci il ........................................................................ 75*

PREZİDENT İLHAM ƏLİYEV YEVLAX ŞƏHƏRİNDƏ

*23 oktyabr 2007-ci il ........................................................................ 77*

HEYDƏR ƏLİYEV ADINA SARAYIN AÇILIŞ MƏRASİMİ

*24 oktyabr 2007-ci il ........................................................................ 78*

YEVLAX ŞƏHƏRİ İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

*24 oktyabr 2007-ci il ........................................................................ 79*

HEYDƏR ƏLİYEV MUZEYİNİN AÇILIŞI

*24 oktyabr 2007-ci il*......................................................................*86*

PREZİDENT İLHAM ƏLİYEV «YEVLAX TV»nin TƏMƏLQOYMA MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*24 oktyabr 2007-ci il*......................................................................*88*

«GİLAN DƏRİ» MMC-nin DƏRİ EMALI FABRİKİNİN AÇILIŞ MƏRASİMİ

*24 oktyabr 2007-ci il*......................................................................*89*

ARFA MEBEL FABRİKİ İLƏ TANIŞLIQ

*24 oktyabr 2007-ci il*......................................................................*90*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUXARI QARXUN KƏND ORTA MƏKTƏBİNİN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*24 oktyabr 2007-ci il*......................................................................*91*

«LALƏ TEKSTİL» MÜASİR TİPLİ MÜƏSSİSƏ İLƏ TANIŞLIQ

*24 oktyabr 2007-ci il*......................................................................*92*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TARİX-DİYARŞÜNASLIQ MUZEYİNİN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*24 oktyabr 2007-ci il* ....................................................................*93*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YENİ AZƏRBAYCAN PARTİYASI YEVLAX RAYON TƏŞKİLATININ İNZİBATİ BİNASININ AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*24 oktyabr 2007-ci il* ....................................................................*94*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV «KARVAN» İDMAN KOMPLEKSİNİN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*24 oktyabr 2007-ci il* .......................................................... *95*

«KARVAN» FUTBOL KLUBU STADİONUNUN AÇILIŞI

*24 oktyabr 2007-ci il* .......................................................... *96*

PREZİDENT İLHAM ƏLİYEV QARABAĞ MÜHARİBƏSİ ƏLİLLƏRİNİN VƏ ŞƏHİD AİLƏLƏRİ ÜZVLƏRİNİN BİR QRUPUNA MİNİK AVTOMOBİLLƏRİNİN AÇARLARINI TƏQDİM ETMİŞDİR

*24 oktyabr 2007-ci il* .......................................................... *97*

YEVLAX RAYON MƏRKƏZİ XƏSTƏXANASININ TƏMƏLQOYMA MƏRASİMİ

*24 oktyabr 2007-ci il* .......................................................... *100*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RESPUBLİKA MOK-un 15 İLLİK YUBİLEYİNDƏ İŞTİRAK EDƏN BİR SIRA ÖLKƏLƏRİN MİLLİ OLİMPİYA KOMİTƏLƏRİNİN VƏ İDMAN FEDERASİYALARININ RƏHBƏRLƏRİ VƏ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞÜ

*26 oktyabr 2007-ci il* .......................................................... *102*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MİLLİ OLİMPİYA KOMİTƏSİNİN (MOK) YARADILMASININ 15-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ GECƏDƏ NİTQİ

*26 oktyabr 2007-ci il* .......................................................... *109*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞÜ

*26 oktyabr 2007-ci il* .......................................................... *115*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN LİTVANIN SOSİAL MÜDAFİƏ VƏ ƏMƏK NAZİRİ VİLİYA BLİNKYAVİÇYUTENİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*26 oktyabr 2007-ci il........................................................................116*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ŞƏHİDLƏR XİYABANINDA APARILAN YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLMUŞDUR

*26 oktyabr 2007-ci il........................................................................117*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ESTONİYANIN XARİCİ İŞLƏR NAZİRİ URMAS PAETİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*29 oktyabr 2007-ci il........................................................................119*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN *bp* ŞİRKƏTİNİN KƏŞFİYYAT VƏ HASİLAT İŞLƏRİ ÜZRƏ BAŞ İCRAÇI DİREKTORU ENDRYÜ İNQLİS İLƏ GÖRÜŞÜ

*29 oktyabr 2007-ci il........................................................................120*

AZƏRBAYCAN PREZİDENTİ, SİLAHLI QÜVVƏLƏRİN, ALİ BAŞ KOMANDANI İLHAM ƏLİYEV XÜSUSİ DÖVLƏT MÜHAFİZƏ XİDMƏTİNİN TƏLİM-TƏDRİS MƏRKƏZİNİN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*30 oktyabr 2007-ci il........................................................................121*

XÜSUSİ DÖVLƏT MÜHAFİZƏ XİDMƏTİNİN TƏLİM-TƏDRİS MƏRKƏZİNİN AÇILIŞ MƏRASİMİNDƏ AZƏRBAYCAN PREZİDENTİ, SİLAHLI QÜVVƏLƏRİN ALİ BAŞ KOMANDANI İLHAM ƏLİYEVİN ÇIXIŞI

*30 oktyabr 2007-ci il........................................................................124*

AZƏRBAYCAN RESPUBLİKASININ REZİDENTİ
İLHAM ƏLİYEVİN İRANIN VİTSE-PREZİDENTİ,
MİLLİ GƏNCLƏR TƏŞKİLATININ SƏDRİ
HÖCCƏTÜLİSLAM ƏLİ ƏKBƏRİNİN RƏHBƏRLİK
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*30 oktyabr 2007-ci il ........................................................................ 129*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
İSLAM KONFRANSI GƏNCLƏR FORUMUNUN
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*1 noyabr 2007-ci il ........................................................................... 130*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
PORTUQALİYANIN SABİQ PREZİDENTİ,
BMT BAŞ KATİBİNİN SİVİLİZASİYALARIN
İTTİFAQINDA YÜKSƏK NÜMAYƏNDƏSİ
JORJ DE SAMPAYO İLƏ GÖRÜŞÜ

*1 noyabr 2007-ci il ........................................................................... 131*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN İSESKO-nun BAŞ DİREKTORU
ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TÜVEYCRİ İLƏ GÖRÜŞÜ

*1 noyabr 2007-ci il ........................................................................... 132*

«GƏNCLƏR SİVİLİZASİYALARIN ALYANSI
NAMİNƏ» BEYNƏLXALQ KONFRANSIN
İŞTİRAKÇILARINA

*1 noyabr 2007-ci il ........................................................................ 133*

ANQOLA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB JOZE EDUARDU DUŞ
SANTUŞA

*2 noyabr 2007-ci il ........................................................................... 135*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN LİXTENŞTEYNİN ƏTRAF

MÜHİT, KƏND VƏ MEŞƏ TƏSƏRRÜFATI NAZİRİ
HÜQO KVADERER İLƏ GÖRÜŞÜ

*2 noyabr 2007-ci il* .......... *136*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN İSVEÇRƏ KONFEDERASİYASI
MİLLİ ŞURASININ SƏDRİ KRİSTİN EGERSZEGİ-
OBRİST İLƏ GÖRÜŞÜ

*2 noyabr 2007-ci il* .......... *137*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV
ŞƏHİDLƏR XİYABANININ YENİDƏNQURMA
İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ
TANIŞ OLMUŞDUR

*2 noyabr 2007-ci il* .......... *138*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN ABŞ DÖVLƏT KATİBİNİN
AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ
MÜAVİNİ DANİEL FRİD İLƏ GÖRÜŞÜ

*3 noyabr 2007-ci il* .......... *140*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN ABŞ-ın «SÜLH KORPUSU»
TƏŞKİLATININ DİREKTORU RONALD TŞETTERİN
RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞÜ

*5 noyabr 2007-ci il* .......... *141*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ABDULLAH GÜLÜN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*6 noyabr 2007-ci il* .......... *142*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜL
İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

*6 noyabr 2007-ci il* .......... *143*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜLÜN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*6 noyabr 2007-ci il ........................................................................ 144*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜLÜN BİRGƏ MƏTBUAT KONFRANSI VƏ BƏYANATLARLA ÇIXIŞLARI

*6 noyabr 2007-ci il ........................................................................ 147*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV TƏRƏFİNDƏN TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜLÜN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ NİTQ

*6 noyabr 2007-ci il ........................................................................ 161*

TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜL HEYDƏR ƏLİYEV FONDUNDA

*6 noyabr 2007-ci il ........................................................................ 169*

AZƏRBAYCAN–TÜRKİYƏ BİZNES-FORUMU

*7 noyabr 2007-ci il ........................................................................ 170*

DƏVƏÇİ RAYONUNDA «TAXTAKÖRPÜ» SU ANBARININ VƏ SU ELEKTRİK STANSİYASININ TƏMƏLQOYMA MƏRASİMİ

*8 noyabr 2007-ci il ........................................................................ 182*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞANIN İQTİSADİYYAT NAZİRİ, POLŞA–AZƏRBAYCAN HÖKUMƏTLƏRARASI İQTİSADİ KOMİSSİYASININ HƏMSƏDRİ PYOTR QJEQOJ VOZNYAKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*8 noyabr 2007-ci il ........................................................................ 185*

LİVAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB EMİL LƏHHUDƏ

*9 noyabr 2007-ci il* ........................................................................ *186*

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB VALDİS ZATLERSƏ

*9 noyabr 2007-ci il* ........................................................................ *187*

OMANIN SULTANI ƏLAHƏZRƏT QABUS BİN SƏİDƏ

*9 noyabr 2007-ci il* ........................................................................ *188*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN AMERİKA–İSRAİL İCTİMAİ
MƏSƏLƏLƏR KOMİTƏSİNİN NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞÜ

*9 noyabr 2007-ci il* ........................................................................ *189*

CƏNUBİ KOREYADAN GƏTİRİLMİŞ
ŞƏHƏRDAXİLİ SƏRNİŞİN AVTOBUSLARININ
TƏQDİMAT MƏRASİMİNDƏ

*12 noyabr 2007-ci il* ...................................................................... *197*

AZƏRBAYCAN PESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN AVRASİYA FONDUNUN
PREZİDENTİ HORTON BİBİ-SENTERİN RƏHBƏR-
LİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*12 noyabr 2007-ci il* ...................................................................... *199*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN BOLQARISTANIN BAŞ NAZİRİ
SERGEY STANİŞEVİN BAŞÇILIQ ETDİYİ NÜMA-
YƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*12 noyabr 2007-ci il* ...................................................................... *200*

«DÖVLƏT BAYRAĞI» MEYDANININ YERLƏŞƏ-
CƏYİ ƏRAZİ İLƏ TANIŞLIQ

*13 noyabr 2007-ci il* ...................................................................... *201*

ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM KRİSTİNA FERNANDES DE KIRŞNERƏ

*14 noyabr 2007-ci il* ........................................................................ 202

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ ÖLKƏNİN ENERGETİKA SEKTORUNDA VƏZİYYƏTƏ VƏ QIŞA HAZIRLIQ MƏSƏLƏLƏRİNƏ DAİR MÜŞAVİRƏDƏ GİRİŞ NİTQİ

*14 noyabr 2007-ci il* ........................................................................ 203

YEKUN NİTQİ

*14 noyabr 2007-ci il* ........................................................................ 208

BEYNƏLXALQ TOLERANTLIQ GÜNÜ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN KONFRANSIN IŞTİRAKÇILARINA

*15 noyabr 2007-ci il* ........................................................................ 222

MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SİDİ MƏHƏMMƏD ULD ŞEYX ABDULLAHİYƏ

*16 noyabr 2007-ci il* ........................................................................ 224

ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BAMİR TOPİYƏ

*16 noyabr 2007-ci il* ........................................................................ 225

BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB ZELJKO KOMŞİÇƏ

*16 noyabr 2007-ci il* ........................................................................ 226

«AZƏRBAYCANDA SÖZ VƏ MƏTBUAT AZADLIĞI YERLİ VƏ BEYNƏLXALQ QANUNLAR KONTEKSTİNDƏ» MÖVZUSUNDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

*16 noyabr 2007-ci il* ........................................................................ 227

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN TÜRKMƏNİSTANIN NAZİRLƏR
KABİNETİ SƏDRİNİN MÜAVİNİ XIDIR
SAPARLIYEV İLƏ GÖRÜŞÜ

*16 noyabr 2007-ci il* ........................................................ *229*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN TÜRKİYƏNİN BAŞ NAZİRİ
RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞÜ

*17 noyabr 2007-ci il* ........................................................ *230*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN ŞİMALİ KİPR TÜRKLƏRİNİN
LİDERİ, CÜMHUR BAŞQANI MEHMET ƏLİ TƏLƏT
İLƏ GÖRÜŞÜ

*17 noyabr 2007-ci il* ........................................................ *231*

TÜRK DÖVLƏT VƏ CƏMİYYƏTLƏRİNİN
XI DOSTLUQ, QARDAŞLIQ VƏ ƏMƏKDAŞLIQ
QURULTAYINDA AZƏRBAYCAN PREZİDENTİ
İLHAM ƏLİYEVİN NİTQİ

*17 noyabr 2007-ci il* ........................................................ *232*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ İŞGÜZAR
SƏFƏRİ

*17 noyabr 2007-ci il* ........................................................ *240*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN VƏ YUNANISTANIN BAŞ NAZİRİ
KONSTANTİNOS KARAMANLİSİN GÖRÜŞÜ

*18 noyabr 2007-ci il* ........................................................ *241*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN ABŞ-ın ENERGETİKA NAZİRİ
SAMUEL BODMAN İLƏ GÖRÜŞÜ

*18 noyabr 2007-ci il* ........................................................ *242*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ–YUNANISTAN QAZ KƏMƏRİNİN AÇILIŞ MƏRASİMİNDƏ

*18 noyabr 2007-ci il* ........................................................................ *243*

UKRAYNA PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VİKTOR YUŞŞENKOYA

*19 noyabr 2007-ci il* ........................................................................ *251*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSAYA SƏFƏRİ

*19 noyabr 2007-ci il* ........................................................................ *252*

ORLİ HAVA LİMANINDA QARŞILANMA MƏRASİMİ

*19 noyabr 2007-ci il* ........................................................................ *253*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN «TOTAL» ŞİRKƏTLƏR QRUPUNUN BAŞ DİREKTORU KRİSTOF DÜ MARCERİ İLƏ GÖRÜŞÜ

*19 noyabr 2007-ci il* ........................................................................ *254*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FRANSA PREZİDENTİ NİKOLA SARKOZİNİN GÖRÜŞÜ

*20 noyabr 2007-ci il* ........................................................................ *255*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FRANSA SENATININ SƏDRİ KRİSTİAN PONSÖLENİN GÖRÜŞÜ

*20 noyabr 2007-ci il* ........................................................................ *256*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSAYA SƏFƏRİ BAŞA ÇATMIŞDIR

*20 noyabr 2007-ci il* ........................................................................ *257*

XIII BEYNƏLXALQ «TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI – 2007» SƏRGİSİNİN VƏ «REGİONAL İNNOVASİYA ZONASI: PROBLEMLƏR VƏ HƏLLƏR» BEYNƏLXALQ KONFRANSININ İŞTİRAKÇILARINA

*21 noyabr 2007-ci il* ........................................................................ *258*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTANA SƏFƏRİ

*21 noyabr 2007-ci il* ........................................................................ *260*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN GÖRÜŞÜ

*21 noyabr 2007-ci il* ........................................................................ *261*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXEİL SAAKAŞVİLİNİN GÖRÜŞÜ

*21 noyabr 2007-ci il* ........................................................................ *262*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKI–TBİLİSİ–QARS DƏMİR YOLUNUN GÜRCÜSTAN HİSSƏSİNİN TƏMƏLQOYMA MƏRASİMİNDƏ

*21 noyabr 2007-ci il* ........................................................................ *263*

BAKI–TBİLİSİ–QARS DƏMİR YOLUNUN GÜRCÜSTAN HİSSƏSİNİN TƏMƏLQOYMA MƏRASİMİNDƏ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

*21 noyabr 2007-ci il* ........................................................................ *265*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MDB VƏ BALTİKYANI ÖLKƏLƏRİN DƏMİRYOL NƏQLİYYATI ŞURASININ 47-ci İCLASININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞÜ

*22 noyabr 2007-ci il* ........................................................................ *269*

YENİ AZƏRBAYCAN PARTİYASININ YARADILMASININ 15 İLLİYİ ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ ZİYAFƏTDƏ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

*22 noyabr 2007-ci il* ........................................................................ *275*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BAKIDA KEÇİRİLƏN XIII BEYNƏLXALQ «TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI–2007» SƏRGİSİNİN İŞTİRAKÇILARI İLƏ GÖRÜŞÜ

*22 noyabr 2007-ci il* ........................................................................ *288*

TÜRKİYƏ RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİNİN SƏDRİ OSMAN ARSLANLA GÖRÜŞ

*22 noyabr 2007-ci il* ........................................................................ *292*

MACARISTANIN İQTİSADİYYAT VƏ NƏQLİYYAT NAZİRİ YANOŞ KOKANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*22 noyabr 2007-ci il* ........................................................................ *293*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAİD ƏL-NƏHƏYYANA

*22 noyabr 2007-ci il* ........................................................................ *294*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ, BAŞ NAZİRİ, DUBAY ƏMİRLİYİNİN HÖKMDARI ƏLAHƏZRƏT ŞEYX MƏHƏMMƏD BİN RƏŞİD ƏL-MƏKTUMA

*22 noyabr 2007-ci il* ........................................................................ *295*

RUMINİYANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TRAYAN BESESKUYA

*22 noyabr 2007-ci il* ........................................................................ *296*

İRAN İSLAM RESPUBLİKASININ İSLAM ŞURASI MƏCLİSİNİN SƏDRİ QULAMƏLİ HƏDDAD ADİLİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 noyabr 2007-ci il* ........................................................................ *297*

BEYNƏLXALQ CÜDO FEDERASİYASININ PREZİDENTİ MARİUS VİZER İLƏ GÖRÜŞ

*23 noyabr 2007-ci il* ........................................................................ *298*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ

*29 noyabr 2007-ci il* ........................................................................ *299*

TAİLANDIN KRALI ƏLAHƏZRƏT BHUMİBOL ADULYADEJƏ

*29 noyabr 2007-ci il* ........................................................................ *300*

TAİLAND KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB SURAYUD ÇULANONTA

*29 noyabr 2007-ci il* ........................................................................ *301*

FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM TARYA HALONENƏ

*29 noyabr 2007-ci il* ........................................................................ *302*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ

*30 noyabr 2007-ci il* ........................................................................ *303*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*3 dekabr 2007-ci il* ........................................................................ *304*

«YEDİNAYA ROSSİYA» PARTİYASININ
SƏDRİ CƏNAB BORİS QRIZLOVA

*3 dekabr 2007-ci il* .......................................................................... *305*

KENİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MVAİ KİBAKİYƏ

*3 dekabr 2007-ci il* .......................................................................... *306*

BURKİNA-FASONUN PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB BLAYZ KOMPAOREYƏ

*3 dekabr 2007-ci il* .......................................................................... *307*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
İTALİYANIN İQTİSADİ İNKİŞAF NAZİRİ
PYERLUİCİ BERSANİNİN RƏHBƏRLİK ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*12 dekabr 2007-ci il* ........................................................................ *308*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV
ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN
MƏZARINI ZİYARƏT ETMİŞDİR

*12 dekabr 2007-ci il* ........................................................................ *309*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI
DAĞISTAN RESPUBLİKASININ PREZİDENTİNİN
MÜŞAVİRİ SƏİD QURBANOVU QƏBUL ETMİŞDİR

*12 dekabr 2007-ci il* ........................................................................ *311*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV
HEYDƏR ƏLİYEVİN XATİRƏSİNƏ HƏSR EDİLMİŞ
KONSERTDƏ İŞTİRAK ETMİŞDİR

*12 dekabr 2007-ci il* ........................................................................ *312*

ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİ-
KASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB
ƏBDÜLƏZİZ BUTEFLİKAYA

*13 dekabr 2007-ci il* ........................................................................ *313*

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB PASKAL KUŞPENƏ

*13 dekabr 2007-ci il ........................................................................ 314*

QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT
ŞEYX HƏMƏD BİN XƏLİFƏ ƏL-TANİYƏ

*13 dekabr 2007-ci il ........................................................................ 315*

BƏHREYN KRALI ƏLAHƏZRƏT ŞEYX
HƏMƏD BİN İSA ƏL- XƏLİFƏYƏ

*13 dekabr 2007-ci il ........................................................................ 316*

NİGER RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MAMADU TANCAYA

*13 dekabr 2007-ci il ........................................................................ 317*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN
NAZARBAYEVƏ

*13 dekabr 2007-ci il ........................................................................ 318*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV
FUNİKULYORUN YAXINLIĞINDA APARILAN
YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

*14 dekabr 2007-ci il ........................................................................ 319*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKININ
NƏRİMANOV RAYONU ƏRAZİSİNDƏ YENİ SALINAN
YOL İLƏ TANIŞ OLMUŞDUR

*14 dekabr 2007-ci il ........................................................................ 320*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV
FÖVQƏLADƏ HALLAR NAZİRLİYİNİN ALDIĞI YENİ
TEXNİKA, AVADANLIQ VƏ QURĞULARIN TƏQDİMAT
MƏRASİMİNDƏ

*17 dekabr 2007-ci il ........................................................................ 322*

*Q E Y D L Ə R* ........................................................................327

*Şəxsi adlar göstəricisi* ..................................................................369

*Coğrafi adlar göstəricisi*................................................................374

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompyuter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı 1. Şərti çap vərəqi 25,5.
Uçot vərəqi 26,0. Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.